

*Mən o vaxt demişdim ki, nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm. İkinci Qarabağ müharibəsi dayananda da Azərbaycan xalqı bilirdi ki, mən bunu bilirəm. O gündən üç il keçməmiş biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir.*
*İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq.*
*Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:

## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2023**
**4 (84)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2023**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Namiq Əliyev, Ziyafət Həbibova, Hikmət Məmmədov, Elçin Əhmədov, İsaxan Vəliyev, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Elvin Əzizbəyov, Sevil Məmmədova, Firdovsiyyə Əhmədova, Yusif Ağayev***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2023, №4(84).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2023, 336s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2023*

ISSN 2309-1347

**The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan**

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

**2023**
**4 (84)**

**ACADEMY OF PUBLIC ADMINISTRATION**

**BAKU – 2023**

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Namiq Aliyev, Ziyafet Habibova, Hikmat Mammadov, Elchin Ahmadov, Isakhan Valiyev, Khatira Huseynova, Gulnara Gurbanova, Elvin Azizbayov, Sevil Mammadova, Firdovsiyya Ahmadova, Yusif Agayev***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2023, №4(84)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2023, 336p.*

*© Academy of Public Administration, 2023*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

***Oktyabr - noyabr - dekabr 2023-cü il***

## *Oktyabr*

**2 oktyabr**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşmüşdür.
- Anqlikan Kilsəsinin dini rəhbəri, Kenterberi Arxiyepiskopu Castin Velbini qəbul etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev ilə birlikdə Bakı Konqres Mərkəzində keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində iştirak və çıxış etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev ilə birlikdə Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində təşkil olunan sərginin açılışında iştirak etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Türk Kosmik Agentliyinin, Səudiyyə Ərəbistanının Kosmik Agentliyinin, ABŞ-ın Milli Aeronavtika və Kosmos Administrasiyasının (NASA), Hindistanın Kosmik Tədqiqatlar Təşkilatının, “Israel Aerospace Industries” şirkətinin, İtaliyanın Aeronavtika və Astronavtika Assosiasiyasının, Çinin Astronavtika Cəmiyyətinin və digər şirkətlərin stendlərinə baxmışdır.
- Ökəsinin milli bayramı münasibətilə İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidi təbrik etmişdir

**4 oktyabr**
- Ukrayna Prezidenti Volodimir Zelenski ona zəng edərək, Azərbaycanın Ukraynaya göstərdiyi əhəmiyyətli humanitar yardıma, xüsusilə qış şəraitində enerji sektoruna verilən dəstəyə görə təşəkkürünü bildirmişdir.
- Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ona zəng edərək, regional məsələlərlə bağlı fikir mübadiləsi aparmışdır.
- Maldiv Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Maldiv Respublikasının yeni seçilmiş Prezidenti Məhəmməd Muizzunu təbrik etmişdir.

**5 oktyabr**
- İordaniya Haşimilər Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ömər Bərəkət əl-Naharın etimadnaməsini qəbul etmişdir.
- Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteylinin etimadnaməsini qəbul etmişdir.

**6 oktyabr**
- Serbiya Respublikası Milli Assambleyasının sədri Vladimir Orliçi qəbul etmişdir.
- Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul etmişdir.

**7 oktyabr**
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona dövlətçilik fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ona zəng edərək, regional məsələlər ətrafında fikir mübadiləsi aparmışdır.
- Türkiyə Respublikasının aparıcı siyasi qüvvəsi olan Ədalət və İnkişaf Partiyasının Böyük Qurultayının keçirilməsi və yekdilliklə partiyanın Sədri vəzifəsinə yenidən seçilməsi münasibətilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı təbrik etmişdir.

**8 oktyabr**
- Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin dəvəti ilə Gürcüstana işgüzar səfərə gəlmişdir.
- Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü olmuşdur.
- Tbilisidə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birlikdə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş “The Architect of Prosperity” – “Firavanlığın memarı” adlı fotosərgi ilə tanış olmuşdur.
- Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Tbilisidə Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin adından onun şərəfinə verilmiş naharda iştirak etmişdir.
- Gürcüstana işgüzar səfəri başa çatmışdır.

**9 oktyabr**
- Şuşa şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclasının iştirakçılarını təbrik etmişdir.

• Ölkəsinin milli bayramı münasibətilə İspaniyanın Kralı Əlahəzrət VI Felipeni təbrik etmişdir.

**10 oktyabr**

• Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevi qəbul etmişdir.

**11 oktyabr**

• MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 53-cü iclasının iştirakçılarını qəbul etmişdir.

**12 oktyabr**

• MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Qırğız Respublikasına səfərə gəlmişdir.
• Bişkekdə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olmuşdur.

**13 oktyabr**

• Bişkekdə Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında iştirak və çıxış etmişdir.
• Sonra MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə keçirilən iclasında iştirak etmişdir.
• Bişkekdə, digər dövlət başçıları ilə birlikdə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin MDB-nin Fəxri nişanı ilə təltif olunması mərasimində iştirak etmişdir.
• Bişkekdə MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən dövlət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.
• Qırğız Respublikasına səfəri başa çatmışdır.

**14 oktyabr**

• Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının – TÜRKSOY-un yaradılmasının 30-cu ildönümü münasibətilə Bakıda keçirilən təntənəli tədbirin iştirakçılarını təbrik etmişdir.

**15 oktyabr**

• Tərtər rayonuna səfər etmişdir.
• Tərtər rayonunun Suqovuşan qəsəbəsində istirahət parkının açılışında iştirak etmişdir.
• Tərtər rayonunda Suqovuşan su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir.
• Suqovuşan su anbarını işə salmışdır.
• Sərsəng su anbarının ərazisində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmışdır.
• Sonra su anbarının ərazisinə baxmışdır.
• Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmışdır. Sonra əraziyə baxmışdır.
• Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmış və burada çıxış etmişdir.
• Sonra şəhərin ərazisinə baxış keçirmişdir.
• Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində olmuşdur.
• Qəsəbənin ərazisinə baxış keçirmişdir.
• Şuşa rayonunun Malıbəyli kəndində olmuşdur.
• Kəndin ərazisinə baxış keçirmişdir.
• Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmışdır. Sonra şəhər ərazisinə baxış keçirmişdir.
• Xocalı rayonunun Əsgəran qəsəbəsində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmışdır.
• Sonra qəsəbə ərazisinə baxış keçirmişdir.
• Əsgəran qalasında olmuşdur.
• Əsgəran qalasına və əraziyə baxış keçirmişdir.
• Xocavənd şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmışdır.
• Sonra şəhər ərazisinə baxış keçirmişdir.
• Ağdam-Füzuli avtomobil yolunun tikintisi işlərinin gedişi ilə tanış olmuşdur.

**16 oktyabr**

• Füzuli rayonuna səfər etmişdir.
• Füzuli rayonunun Cuvarlı kəndinin təməlinin qoyulması mərasimində iştirak etmişdir.
• Cuvarlı kəndinin təməlini qoymuşdur.
• Füzuli rayonunun Qoçəhmədli kəndinin təməlini qoymuşdur.
• Füzuli şəhərində idman kompleksinin təməlini qoymuşdur.
• Füzuli şəhərində ikinci yaşayış kompleksinin təməlini qoymuşdur.
• Füzuli şəhərində 240 yerlik uşaq bağçasının təməlini qoymuşdur.
• Füzuli şəhərində üçüncü yaşayış kompleksinin təməlini qoymuşdur.
• Füzuli şəhərində inzibati binanın təməlini qoymuşdur.

**17 oktyabr**

• "Füzuli Şəhəri Günü"ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüş və görüşdə çıxış etmişdir.
• Sonra tədbir iştirakçıları ilə xatirə şəkilləri çəkdirmiş və onlarla söhbət etmişdir.

**18 oktyabr**

• Azərbaycan qadınlarının VI qurultayının iştirakçılarını təbrik etmişdir.

**19 oktyabr**

• 3-cü Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" – "Rebuild Karabakh" Sərgisinin iştirakçılarını təbrik etmişdir.
• "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.

**20 oktyabr**

• ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə Bürosunda dövlət katibi köməkçisinin müavini Coşua Hakı qəbul etmişdir.
• Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli yeni avtomobil yolunun açılışında iştirak etmişdir.

- Ölkəsinin milli bayramı münasibətilə Macarıstanın Baş naziri Viktor Orbanı təbrik etmişdir.

**23 oktyabr**

- Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma mərasimlərində iştirak etmişdir.
- Əvvəlcə parkda "Çinar-Servis" İstehsal-kommersiya firmasının Texniki qazların istehsalı müəssisəsinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Sumqayıt Kimya Sənaye Parkının rezidentlərindən biri olan "Novus Plastica" Məhdud Məsuliyyətli Cəmiyyətinin Polimer qatqıları istehsalı müəssisəsinin açılışını etmişdir.
- "Universal Qablaşdırma Sənaye" Qapalı Səhmdar Cəmiyyətinin Qablaşdırma məhsulları istehsalı müəssisəsinin açılışında iştirak etmişdir.
- Sonra "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin açılışını etmiş və müəssisədə yaradılan şəraitlə tanış olmuşdur.
- Daha sonra "Kartaş Kimya" MMC-nin Tikinti kimyəvilərinin istehsalı müəssisəsinin təməlini qoymuşdur.
- Ulu Öndər Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək, abidənin önünə gül dəstəsi qoymuşdur.
- Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur.
- 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yeni binasının açılışında iştirak etmişdir.
- 25 Oktyabr – Respublika Günü münasibətilə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi təbrik etmişdir.

**24 oktyabr**

- Latviya Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Edqars Skuyanın etimadnaməsini qəbul etmişdir.
- İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Tomas Ştəlinin etimadnaməsini qəbul etmişdir.
- Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul etmişdir.

**26 oktyabr**

- 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində iştirak və çıxış etmişdir.
- Sonra "Masdar" şirkəti tərəfindən hazırlanmış, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş xatirə medalı ona təqdim olunmuşdur.
- Onun iştirakı ilə Azərbaycan Hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında sənədlərin imzalanması mərasimi olmuşdur.
- Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Əlamətdar tarix – Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı təbrik etmişdir.

**27 oktyabr**

- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana zəng edərək, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli əlaqələri müzakirə etmiş, xalqlarımızın mənafeyi naminə iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivlərinə dair ətraflı fikir mübadiləsi aparmışdır.

**28 oktyabr**

- Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə rəsmi sosial şəbəkə hesablarında paylaşım etmişdir.

**30 oktyabr**

- 1 Noyabr – İnqilab Günü münasibətilə Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunu təbrik etmişdir.

## *Noyabr*

**1 noyabr**

- Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı Asim Muniri qəbul etmişdir.

**2 noyabr**

- Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında keçiriləcək 10-cu yubiley Zirvə görüşündə iştirak etmək üçün Qazaxıstan Respublikasına səfərə gəlmişdir.

**3 noyabr**

- Astanada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.
- Astanada keçirilən Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşündə iştirak və çıxış etmişdir.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından Astanada Türk Dövlətləri

Təşkilatının "Türk Əsri" çağırışı altında keçirilən 10-cu yubiley Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.
- Qazaxıstan Respublikasına səfəri başa çatmışdır.

**4 noyabr**
- Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berboku qəbul etmişdir.

**6 noyabr**
- Koreya Respublikasının Ticarət və Sənaye Palatasının və "SK Group" şirkətlər qrupunun sədri Çey Tae-vonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə təkbətək görüşü olmuşdur.
- Sonra Xorvatiyanın Baş naziri Andrey Plenkoviç ilə nahar əsnasında nümayəndə heyətlərinin də iştirak etdiyi geniş tərkibdə görüşü keçirilmişdir.

**7 noyabr**
- Birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev ilə birlikdə Kəlbəcər rayonunun Vəngli kəndində olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Şuşaya gəlmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Şuşa şəhərində "Qızlar gimnaziyası" tarixi abidə binasında həyata keçiriləcək işlərlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Şuşa şəhərində Qala divarına və ətraf əraziyə baxış keçirmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Heydər Əliyev Fondu tərəfindən Şuşada Pənahəli xan küçəsində yerləşən bir sıra binalarda həyata keçiriləcək bərpa və yenidənqurma layihələri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Şuşada "Yasəmən" otelinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Şuşa şəhərində peşə məktəbinin və kollecin binalarına baxış keçirmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Şuşada Heydər Əliyev Fondu tərəfindən Mamayı məscidində aparılan bərpa işləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Şuşada İsa bulağında olmuşdur.
- 8 Noyabr – Zəfər Günü münasibətilə rəsmi sosial şəbəkə hesablarında foto paylaşmışdır.

**8 noyabr**
- Birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev ilə birlikdə Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradda iştirak və çıxış etmişdir.
- Füzuli rayonunda Qarğabazar kəndinin təməlini qoymuşdur.
- İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısında iştirak etmək üçün Özbəkistana səfərə gəlmişdir.

**9 noyabr**
- 9 Noyabr – Dövlət Bayrağı Günü ilə əlaqədar rəsmi sosial şəbəkə hesablarında foto paylaşmışdır.
- Daşkənddə Pakistan İslam Respublikasının Keçid Hökumətinin Baş naziri Ənvər-ul-Xak Kakar ilə görüşü olmuşdur.
- Daşkənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olmuşdur.
- Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 16-cı Zirvə toplantısında iştirak və çıxış etmişdir.
- Daşkənddə İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olmuşdur.
- Daşkənddə İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısı iştirakçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak və çıxış etmişdir.
- Özbəkistana səfəri başa çatmışdır.

**13 noyabr**
- ATƏT Parlament Assambleyasının prezidenti Pia Kaumanı qəbul etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Fələstin Dövlətinin Prezidenti Mahmud Abbası təbrik etmişdir.

**14 noyabr**
- Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri Laziz Kudratovu qəbul etmişdir.

**15 noyabr**
- Birinci xanım Mehriban Əliyeva ilə İsmayıllıda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialının açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə "DOST EVİ"ndəki emalatxanalarla tanış olmuşdur.
- Ölkəsinin milli bayramı münasibətilə Omanın Sultanı Əlahəzrət Heytəm bin Tariq Al Səidi təbrik etmişdir.

**18 noyabr**
- Qoşulmama Hərəkatının "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda Konfransının iştirakçılarını təbrik etmişdir.

**20 noyabr**
- Rəsmi qarşılanma mərasimindən sonra İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə təkbətək görüşü keçirilmişdir.

- İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə geniş tərkibdə görüşü olmuşdur.
- İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə sənədlərin imzalanması mərasimində iştirak etmişdir.
- İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Onun adından İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin şərəfinə verilən rəsmi naharda iştirak etmişdir.
- "Dekolonizasiya: Qadınların gücləndirilməsi və inkişaf" mövzusunda beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.

**22 noyabr**

- Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının xarici işlər, Birlik Ölkələri və İnkişaf Ofisində Parlamentlə əlaqələr üzrə dövlət katibinin müavini, Avropa və Şimali Amerika üzrə dövlət naziri Leo Dokertini qəbul etmişdir.
- Bakı Ekspo Mərkəzində Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı - SPECA həftəsi çərçivəsində Azərbaycanın xüsusi təşəbbüsü ilə keçirilən "SPECA Ölkələrinin Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq" adlı sərginin açılışında iştirak etmişdir.
- "Azərxalça" ASC tərəfindən hazırlanan "Bizi birləşdirən dəyər" instalyasiyasının üzərindəki ağ örtüyü götürməklə sərginin rəsmi açılışını etmişdir.
- Sonra Azərbaycan Milli Stendi ilə tanış olmuşdur.
- Daha sonra SPECA-nın digər üzv dövlətlərinin – Qazaxıstanın, Qırğızıstanın, Tacikistanın, Türkmənistanın və Özbəkistanın stendləri ilə tanış olmuşdur.
- İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hissein Brahim Tahanı qəbul etmişdir.
- İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin əmək nazirlərinin V konfransının iştirakçılarını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelko Komşiçi təbrik etmişdir.

**23 noyabr**

- BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molçanı qəbul etmişdir.
- BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) icraçı katibi xanım Armida Salsiya Alişahbananı qəbul etmişdir.
- Macarıstanın Baş naziri Viktor Orban ilə görüşmüşdür.
- "Euronews" televiziyasına müsahibə vermişdir.

**24 noyabr**

- Körfəz Əməkdaşlıq Şurasının Baş katibi Casim Məhəmməd əl-Budeyvini qəbul etmişdir.
- Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə görüşmüşdür.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə görüşmüşdür.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşmüşdür.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevlə görüşmüşdür.
- Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşmüşdür.
- Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak və çıxış etmişdir.
- Onun adından BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə verilən rəsmi naharda iştirak etmişdir.

**25 noyabr**

- Ölkəsinin milli bayramı münasibətilə Albaniya Respublikasının Prezidenti Bayram Beqanı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd uld Şeyx əl-Qazuanini təbrik etmişdir.

**27 noyabr**

- Bakıda cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.

**28 noyabr**

- Ölkəsinin milli bayramı münasibətilə Rumıniyanın Prezidenti Klaus Verner İohannisi təbrik etmişdir.

**29 noyabr**

- Dövlət Təhlükəsizliyi Xidmətinin yeni inzibati binalarının açılışında iştirak etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Respublika Günü münasibətilə Laos Xalq Demokratik Respublikasının Prezidenti Thonqlun Sisuliti təbrik etmişdir

**30 noyabr**

- BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası – COP28 çərçivəsində təşkil olunacaq Dünya İqlim Fəaliyyəti Sammitində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərinə səfərə gəlmişdir.
- Dubay şəhərində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşmüşdür.

## Dekabr

**1 dekabr**
- Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası – COP28 çərçivəsində təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitinin açılış mərasimində iştirak etmişdir.

**2 dekabr**
- Dubay şəhərində Birləşmiş Ərəb Əmirliklərinin Milli Günü münasibətilə keçirilən tədbirdə iştirak etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Tailandın Kralı Əlahəzrət Maha Vajiralongkorn Phra Vajiraklaochaoyuhuanı təbrik etmişdir.

**4 dekabr**
- Malayziyanın Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ahmad Kamrizamil Bin Mohd Rzanın etimadnaməsini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Finlandiya Respublikasının Prezidenti Sauli Niinistönü təbrik etmişdir.

**6 dekabr**
- Qırğız Respublikasının Prezidenti Sadır Japarova zəng edərək ad günü münasibətilə səmimi təbriklərini və xoş arzularını çatdırmış, ona möhkəm cansağlığı və ali dövləti fəaliyyətində uğurlar arzulamışdır.
- ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynı qəbul etmişdir.
- ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə ADA Universitetində keçirilən “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” Forumunda iştirak etmişdir.
- Sonra keçirilən müzakirələrdə tədbir iştirakçılarının suallarını cavablandırmışdır.

**8 dekabr**
- Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriçi qəbul etmişdir.

**9 dekabr**
- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ona zəng edərək, ölkələrimiz arasında münasibətləri və gələcək əməkdaşlıq perspektivlərini nəzərdən keçirmiş, qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparmışdır.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Keniya Respublikasının Prezidenti Uillyam Samoei Rutonu təbrik etmişdir.

**10 dekabr**
- Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin dəvəti ilə Serbiyaya işgüzar səfərə gəlmişdir.
- Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə birlikdə Serbiyanın Niş şəhərində keçirilən Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində iştirak etmişdir.
- Sonra Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev və Aİ-nin daimi nümayəndəliyinin rəhbəri Emmanuel Jofre ilə birlikdə Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunu işə salmışdır.
- Serbiyanın Niş şəhərində Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə təkbətək görüşü olmuşdur.
- Serbiyanın Niş şəhərində Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşü olmuşdur.
- Sonra Prezident Aleksandar Vuçiç ilə birgə nahar əsnasında geniş tərkibdə görüşü keçirilmişdir.
- Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə birlikdə hərbi texnika və avadanlıqlara baxmışdır.
- Serbiya Respublikasına işgüzar səfəri başa çatmışdır.
- Niş şəhərinin “Konstantin Veliki” hava limanında onu Serbiya Prezidenti Aleksandar Vuçiç yola salmışdır.

**11 dekabr**
- Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ulu Öndər Heydər Əliyevlə bağlı rəsmi sosial şəbəkə hesablarında foto paylaşmışdır.

**12 dekabr**
- Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət etmiş, Ulu Öndərin məzarı önünə əklil qoymuşdur.
- Sonra Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anmış, məzarı üzərinə gül dəstələri qoymuşdur.
- Daha sonra tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin xatirələrini yad edərək məzarları üstünə gül dəstələri düzmüşdür.
- BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar rəsmi sosial şəbəkə hesablarında paylaşım etmişdir.

**13 dekabr**
- Azərbaycan könüllülərinin VI həmrəylik forumunun iştirakçılarını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Bəhreynin Kralı Əlahəzrət Şeyx Həməd bin İsa Al Xəlifəni təbrik etmişdir.

**14 dekabr**
- Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul etmişdir.
- İsa peyğəmbərin mübarək mövludu – Milad bayramı münasibətilə Roma Papası Fransisk Həzrətlərini təbrik etmişdir.

**15 dekabr**
- BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar keçirilən müşavirəyə sədrlik etmişdir.
- Müşavirədə çıxış etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Məhəmməd Həssən Əl Suveydini qəbul etmişdir.
- Sonra sənədlərin imzalanması mərasimində iştirak etmişdir.
- Azərbaycan müəllimlərinin XVI qurultayının iştirakçılarını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Tanini təbrik etmişdir.

**18 dekabr**
- Serbiya Respublikasında növbədənkənar parlament seçkilərinin uğurla keçirilməsi və lideri olduğu “Aleksandar Vuçiç – Serbiya dayanmamalıdır” koalisiyasının inamlı qələbəsi münasibətilə Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçi təbrik etmişdir.

**20 dekabr**
- Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz ilə görüşmüşdür.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Xocavənd rayonuna səfər etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Xocavənd rayonunun Şıx Dursun kəndində olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə kənddəki “Çinar müqəddəs yer” abidə kompleksinə baxış keçirmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Xocalı rayonunda olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Xocalı rayonunun qədim Şuşakənd kəndinin ərazisinə baxış keçirmişdir.

**21 dekabr**
- Şuşa şəhərində 23 binadan ibarət ilk yeni yaşayış kompleksində aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- Şuşa şəhərinin Qarabağ küçəsində aparılan tikinti işləri ilə tanış olmuşdur.
- Şuşa şəhərində Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri ilə tanış olmuşdur.
- Şuşa rayonunun Daşaltı kənd məscidində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- Xocalı rayonunun Dağdağan kəndində olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın “Qarabağ” və Bakının MOİK komandaları arasında keçirilən oyuna baxmaq üçün stadiona gəlmişdir.
- Oyundan əvvəl stadionda çıxış etmişdir.
- Sonra stadiona daxil olaraq futbolçularla və oyunu idarə edən hakimlərlə görüşmüş, onlarla xatirə şəkli çəkdirmişdir.
- “Qarabağ”–MOİK görüşünün başlamasından ötrü topa rəmzi olaraq toxunmuşdur.
- Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın “Qarabağ” və Bakının MOİK komandaları arasında keçirilən oyunun fasiləsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü ilin idman yekunları ilə bağlı təşkil olunmuş mərasimdə idman ictimaiyyətinin təltif edilmiş nümayəndələri ilə görüşmüşdür.

**22 dekabr**
- Şuşa rayonundakı “Saxsı” bulağında olmuşdur.
- Şuşa rayonundakı “Turşsu” bulağında olmuşdur.
- Sonra bulaq ərazisinə baxış keçirmişdir.
- Şuşa rayonunun Turşsu qəsəbəsində olmuşdur.
- Sonra qəsəbənin ərazisinə baxış keçirmişdir.
- Xocalı rayonunun Naxçıvanlı kəndində olmuşdur.
- Sonra kəndin ərazisinə baxış keçirmişdir.
- Xocalı rayonunun Pircamal kəndində olmuşdur.
- Sonra kəndin ərazisinə baxış keçirmişdir.
- Xocalı rayonunun Xanabad kəndində olmuşdur.
- Sonra kəndin ərazisinə baxış keçirmişdir.
- Xocalı rayonunun Pirlər kəndində olmuşdur.
- Sonra kəndin ərazisinə baxış keçirmişdir.

**24 dekabr**
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev zəng edərək ona ad günü münasibətilə təbriklərini çatdırmış, prezidentlik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulamışdır.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ona zəng edərək ad günü münasibətilə təbrik etmiş, dövlətçilik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulamışdır.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin zəng edərək onu ad günü münasibətilə təbrik etmiş, prezidentlik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulamışdır.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev zəng edərək onu ad günü münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan zəng edərək onu ad günü münasibətilə təbrik etmiş, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulamışdır.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağdam rayonuna səfər etmişdir.
- “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq “Ağdam” qovşaq yarımstansiyasının açılışında iştirak etmişdir.
- Sonra “Ağdam” qovşaq yarımstansiyasını işə salmışdır.

- Birinci xanım Mehriban Əliyeva ilə Ağdam şəhərində salınacaq beşinci yaşayış kompleksinin təməlinin qoyulması mərasimində iştirak etmişdir.
- Sonra Ağdam şəhərində beşinci yaşayış kompleksinin təməlini qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Ağdam şəhərində salınacaq dördüncü yaşayış kompleksinin təməlinin qoyulması mərasimində də iştirak etmişdir.
- Sonra Ağdam şəhərində dördüncü yaşayış kompleksinin təməlini qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Ağdam şəhərində "İmarət" Kompleksində aparılan təmir-bərpa işləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Ağdam şəhər Mərkəzi parkının təməlinin qoyulması mərasimində iştirak etmişdir.
- Sonra Ağdam şəhər Mərkəzi parkının təməlini qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Mərkəzi parkın ərazisində ağac əkmişdir.
- Ağdam şəhərinin daxili yollarında aparılan işlərlə tanış olmuşdur.
- Ağdam rayonunun Qiyaslı kəndinin təməlini qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Ağdam rayonunda Xaçınçay su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir.
- Sonra Xaçınçay su anbarını işə salmışdır.
- Ağdam rayonunun Salahlı Kəngərli kəndinin təməlini qoymuşdur.
- Bərdə-Ağdam avtomobil yolunun açılışında iştirak etmişdir.
- Ağdam rayonunun Baş Qərvənd kəndinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Sonra Baş Qərvənd kəndinin təməlini qoymuşdur.

**25 dekabr**

- "2024 – Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım etmişdir.
- Misir Ərəb Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Prezident Əbdülfəttah əs-Sisini təbrik etmişdir.
- İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə yeni seçilmiş Prezident xanım Viola Amherdi təbrik etmişdir.
- Küveyt Dövlətinin Əmiri kimi taxta çıxması münasibətilə Əmir Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-Sabahı təbrik etmişdir.

**26 dekabr**

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün Sankt-Peterburq şəhərinə işgüzar səfərə gəlmişdir.
- Rusiyanın Sankt-Peterburq şəhərində Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşü olmuşdur.
- MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edən digər ölkələrin rəhbərləri ilə birlikdə Sankt-Peterburqda "Yekaterina sarayı" ("Екатерининский дворец") ilə tanış olmuşdur.
- Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri başa çatmışdır.

**29 dekabr**

- Ölkəsinin milli bayramı – Azadlıq Günü münasibətilə Kuba Respublikasının Prezidenti Migel Dias-Kanel Bermudesi təbrik etmişdir.

**31 dekabr**

- 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım etmişdir.
- Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciət etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

### *Anqlikan Kilsəsinin dini rəhbəri, Kenterberi Arxiyepiskopu Castin Velbinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Anqlikan Kilsəsinin dini rəhbəri, Kenterberi Arxiyepiskopu Castin Velbini qəbul edib.

Qonağı salamlayan dövlətimizin başçısı onun səfərinin əhəmiyyətinə toxundu.

Anqlikan Kilsəsinin dini rəhbəri, Kenterberi Arxiyepiskopu Castin Velbi Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Qonaq Azərbaycanın multikulturalizm və konfessiyalararası dialoqda rolunu qeyd etdi, Vatikanla Azərbaycan arasındakı əlaqələrə toxundu, Vatikanda katakombaların bərpası işinə ölkəmizin töhfəsini yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı müstəqilliyimizin ilk illərində ölkəmizin üzləşdiyi çətinliklərə toxunaraq, həmin dövrdə ərazimizin 20 faizinin işğal edilməsi, 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkünə çevrilməsi, iqtisadi-siyasi böhranın hökm sürməsi, iqtisadi sahədə tənəzzülün və daxili qeyri-sabitliyin yaşanmasından danışdı.

Azərbaycanın sülh müqaviləsi ilə bağlı təşəbbüslə çıxış etdiyini bir daha vurğulayan Prezident İlham Əliyev sülh gündəliyinin irəli aparılması üçün regionda tarixi imkanların və fürsətlərin yarandığını bildirdi, hazırda ölkəmizin bu istiqamətdə göstərdiyi səylərə toxundu.

Azərbaycan Prezidenti antiterror tədbirləri dayandırıldıqdan sonra mərkəzi hökumət tərəfindən Qarabağ bölgəsində yaşayan erməni əhalisinə genişmiqyaslı humanitar yardımlar edildiyini vurğuladı, miqrasiya, sosial müdafiə və səhiyyə sahələri ilə bağlı əhaliyə yerində xidmətlər göstərildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qarabağın erməni sakinlərinin hüquqlarının və təhlükəsizliyinin təmin olunması ilə bağlı geniş ictimaiyyətə, həmçinin ermənilərə ünvanlanmış bəyanat verdiyini vurğuladı.

Prezident İlham Əliyev Qranadada keçiriləcək qarşıdan gələn görüşün regionda sülh gündəliyinin inkişafına təkan verəcəyinə ümidvarlığını ifadə etdi.

Qonaq bu cür postmünaqişə şəraitində etimad quruculuğu və etnik barışığın vacib olduğunu deyərək, bununla bağlı öz təcrübəsini bölüşməyə hazır olduğunu bildirdi.

Söhbət zamanı etnik barışığın və vətəndaş cəmiyyəti təşkilatlarının rolu qeyd edildi.

### *İordaniya Haşimilər Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ömər Bərəkət əl-Naharın etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ömər Bərəkət əl-Naharın etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir, ilk növbədə, İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Al Hüseynin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniya Kralına çatdırmağı xahiş etdi.

Azərbaycan ilə İordaniyanın dost və qardaş, zəngin tarixə malik ölkələr olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğunu dedi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində hər zaman bir-birini dəstəklədiyini məmnunluqla qeyd etdi.

Siyasi əlaqələrimizin yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev gələcəkdə iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğuladı.

Azərbaycana səfir təyin olunmasından məmnunluğunu bildirən Ömər Bərəkət əl-Nahar paytaxtımızda gedən böyük inkişaf proseslərinin və insanların firavanlığının onda dərin təəssürat hissi yaratdığını dedi.

Prezident İlham Əliyev Azərbaycan haqqında söylədiyi xoş sözlərə görə səfirə minnətdarlığını bildirdi və ona fəaliyyətində uğurlar arzuladı.

Görüşdə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, turizm, təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

***Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteylinin etimadnaməsinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteylinin etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan arasında qardaşlıq əlaqələrinin və ölkə rəhbərləri ilə arasında dostluq münasibətlərinin olduğunu qeyd edən Prezident İlham Əliyev Səudiyyə Ərəbistanına səfərlərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı bütün dövrlərdə – həm işğal zamanı, həm də torpaqlarımızın işğaldan azad olunmasından sonrakı dövrdə Azərbaycanın ərazi bütövlüyünün qorunması və bərpası məsələlərində Səudiyyə Ərəbistanı Krallığının birmənalı şəkildə göstərdiyi mənəvi və siyasi dəstəyi bir daha yüksək qiymətləndirdi. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinə qarşılıqlı dəstəyinin ənənəvi xarakter aldığını məmnunluqla qeyd etdi.

İqtisadi əməkdaşlığa toxunan dövlətimizin başçısı enerji sahəsində yaxşı nümunələrin olduğunu bildirərək, Səudiyyə Ərəbistanı şirkətinin Azərbaycanda bu sahəyə böyük sərmayə qoymasının önəmini vurğuladı. Dövlətimizin başçısı bütün digər sahələrdə də əlaqələrimizin yüksək səviyyədə olduğunu dedi.

Səfir İssam bin Saleh əl-Cuteyli, ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Kral Salman bin Əbdüləziz Al Səudun və Vəliəhd, Baş nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İki Müqəddəs Ocağın Xadiminə və Vəliəhdə çatdırmağı xahiş etdi.

Ölkəmizə səfir təyin olunmasından böyük şərəf hissi duyduğunu deyən İssam bin Saleh əl-Cuteyli Azərbaycanın Səudiyyə Ərəbistanı üçün dost və qardaş ölkə olduğunu vurğulayaraq, müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı konkret təlimatlar aldığını bildirdi.

***Serbiya Respublikası Milli Assambleyasının sədri Vladimir Orliçin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Serbiya Respublikası Milli Assambleyasının sədri Vladimir Orliçi qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq əlaqələrinin zəngin tarixə malik olduğunu deyərək bunun qarşılıqlı dəstəyə əsaslanan münasibətlərimizin inkişafı üçün yaxşı zəmin yaratdığını bildirdi, Serbiyaya səfərini məmnunluqla xatırladı.

İqtisadi sahədə əlaqələrə toxunan Prezident İlham Əliyev investisiya, enerji, sənaye sahələri ilə bağlı fəal əməkdaşlığın həyata keçirildiyini dedi. Dövlətimizin başçısı münasibətlərimizin inkişafında parlamentlərarası əlaqələrin də önəmini qeyd etdi.

Azərbaycan Prezidenti Vladimir Orliçin səfərinin dinamik şəkildə inkişaf edən əməkdaşlığımızın genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.

Qonaq, ilk növbədə, Serbiya Prezidenti Aleksandar Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Serbiya Milli Assambleyasının sədri ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq əlaqələrinin mövcud olduğunu dedi.

Görüşdə Azərbaycan ilə Serbiyanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində haqlı mövqelərini dəstəklədikləri qeyd edildi, münasibətlərimizin strateji tərəfdaşlıq prinsiplərinə, qarşılıqlı anlaşma və qarşılıqlı hörmətə əsaslandığı vurğulandı, parlamentlərarası əlaqələrin və parlamentlərarası beynəlxalq təşkilatlarda əməkdaşlığımızın vacibliyi vurğulandı.

***Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru Hans Henri Klugenin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul edib.

Hans Henri Kluge Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Tedros Adhanom Qebreyesusa çatdırmağı xahiş etdi.

Qonaq qlobal səhiyyə liderliyi sahəsində Azərbaycanın, şəxsən Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi həyata keçirdiyi fəaliyyətin çox yüksək qiymətləndirildiyini qeyd etdi. O, Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun 2020-ci ilin mayında koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda onlayn Zirvə görüşünün keçirilməsinə, Azərbaycanın vaksinlərin ədalətli, bərabər bölgüsünə dair qətnamənin təşəbbüskarı olmasına və həyata keçirdiyi fəaliyyətə görə minnətdarlığını bildirdi. Hans Henri Klugen Azərbaycanın pandemiya dövründə 80-dən artıq ölkəyə dəstək göstərdiyini qeyd etdi, ölkəmizin Qoşulmama Hərəkatı çərçivəsində yaratdığı COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sisteminin çox səmərəli olduğunu və Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə böyük töhfə verdiyini dedi.

Söhbət zamanı Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı.

Hans Henri Kluge BMT-nin rezident əlaqələndirici ofisinin və ÜST-ün Bakı ofisinin nümayəndələrinin də daxil olduğu missiyanın Azərbaycanın Qarabağ bölgəsinə həyata keçirdiyi səfərinin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev COVID-19-a qarşı mübarizədə ÜST-ün ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi, Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi 80-dən artıq ölkəyə yardım etməsindən, Qoşulmama Hərəkatı çərçivəsində COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sistemi yaradılmasından və vaksin həmrəyliyi ilə bağlı səylərimizdən danışdı.

Dövlətimizin başçısı Azərbaycanın milli, regional və beynəlxalq səviyyədə yardım proqramlarını həyata keçirdiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı bildirdi ki, Qarabağda yerli əhali arasında təşviş yaradan və onları Ermənistana köçməyə məcbur edən məhz qondarma rejim olub.

Dövlətimizin başçısı vurğuladı ki, "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsinin yaradılmasından etibarən Azərbaycan tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə tibbi təxliyələrin təşkili prosesinə dəstək göstərilib.

Prezident İlham Əliyev Xankəndidə yanacaq stansiyasında baş vermiş partlayışdan sonra Azərbaycan yanğınsöndürənlərinin bu yanğının qarşısını aldığını, zərərçəkmiş insanlara dəstək göstərildiyini, hazırda Azərbaycanın tibbi heyətinin Xankəndidə yerli əhaliyə xidmətlər göstərdiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin nümayəndələrinin yerlərdə xidmət göstərdiklərini, əhalinin qeydiyyata alınması prosesinin başlandığını, bunun üçün ayrıca portalın fəaliyyət göstərdiyini bildirdi, gündəlik ehtiyacların ödənilməsi və qida təchizatı üçün aidiyyəti qurumların yerində xidmət apardıqlarını dedi.

Dövlətimizin başçısı ərazidə mühüm infrastruktur obyektlərinin, eləcə də tarixi, dini və mədəni abidələrin polis tərəfindən mühafizə olunduğunu, elektrik təchizatının həyata keçirildiyini bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar Qarabağın erməni sakinlərinin reinteqrasiyası proqramının hazır olmasının və həyata keçirilməsinin göstəricisidir.

Görüşdə yaxın vaxtlarda BMT-nin Azərbaycanda rezident əlaqələndirici ofisinin təşkilatın aidiyyəti ixtisaslaşmış qurumlarının nümayəndələri ilə birlikdə ərazilərə yenidən səfər edəcəkləri diqqətə çatdırıldı, ölkəmizin bu prosesi dəstəklədiyi qeyd olundu.

### *İran İslam Respublikasının yol və şəhərsalma naziri Mehrdad Bəzrpaşın qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının İran tərəfdən həmsədri Mehrdad Bəzrpaşı qəbul edib.

Dövlətimizin başçısı bu gün Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında keçirilmiş avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasiminin önəmini qeyd edərək, bunun dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın həm ikitərəfli, həm də çoxtərəfli formatlarda nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı fəaliyyətini davam etdirdiyini bildirərək, bu gün Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sərhəd-gömrük in-

frastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlinin qoyulmasının bu yolların şaxələndirilməsi baxımından da önəmini qeyd etdi.

Prezident İlham Əliyev vurğuladı ki, ölkələrimizi birləşdirən və region üçün böyük əhəmiyyətə malik olan avtomobil və dəmir yollarının çəkilişi bütün bölgə üçün sabitliyə və əməkdaşlığa xidmət edəcək.

Dövlətimizin başçısı, həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı və ötürücülük qabiliyyətinin daha da genişləndirilməsi istiqamətində aparılan işlərin önəmini qeyd etdi.

İkitərəfli münasibətlərimizin gündəliyinin yalnız nəqliyyat sektorunu deyil, eyni zamanda, daha geniş sahələri əhatə etdiyini deyən Azərbaycan Prezidenti Hökumətlərarası Komissiyanın fəaliyyətini yüksək qiymətləndirdi, bütün sahələr üzrə yaxşı nəticələrin əldə edildiyini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan-İran dostluğunun və əməkdaşlığının bütün bölgə üçün önəmli amil olduğunu vurğuladı.

Prezident İlham Əliyev regional məsələlərin region ölkələrinin iştirakı ilə həll edilməsinin vacibliyini bildirərək, bu xüsusda 3+3 əməkdaşlıq formatının da təşəbbüskarının məhz Azərbaycan olduğunu qeyd etdi, tezliklə bu formatda görüşlərin keçiriləcəyini müsbət bir addım kimi qiymətləndirdi.

Mehrdad Bəzrpaş ilk növbədə İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

Qonaq Azərbaycanın Qarabağ bölgəsinin reinteqrasiyası ilə bağlı təbriklərini çatdırdı və bunu çox mühüm hadisə kimi dəyərləndirdi. O qeyd etdi ki, Azərbaycanın pozulmuş haqlı və ədalətli mövqeyi 30 ildən sonra xoşbəxtlikdən öz yerini tutdu və ölkə suverenliyini bərpa etdi.

Eyni zamanda, mən artıq bərpaolunan enerji sahəsinə toxundum. Bu gün Bakıda olduqca küləkli gündür və bu, normal hava şəraitidir və biz xüsusilə də Xəzər dənizində nəhəng potensiala malikik. Artıq 10 qiqavat həcmində külək və günəş enerjisi layihələrinə dair müqavilə və anlaşma memorandumları imzalanıb. Bu, Azərbaycana yanacaq enerjisindən bərpaolunan enerjiyə rahat keçid imkanı verəcəkdir. Bununla yanaşı, Avropa istehlakçıları da yaşıl enerji ilə təmin ediləcək.

**Müxbir:** Ölkənizin iqtisadi inkişafı ilə bağlı risklərə dair narahatlığınız nədən ibarətdir?

**Prezident İlham Əliyev:** Səmimi desəm, mən hər hansı bir risk görmürəm. Çünki bu günədək bizim iqtisadi inkişafımız müsbət olub, hətta daha mürəkkəb geosiyasi vəziyyətdə belə. Hətta işğal dövründə bizim iqtisadiyyatımız inkişaf edib. İndi isə ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etmişik. Biz genişmiqyaslı iqtisadi islahatlar aparırıq ki, büdcədə daha çox vəsait toplansın. Biz gömrük və vergi inzibatçılığı sahəsində olduqca uğurlu islahatlar həyata keçirmişik. Biz bütün dövlət şirkətlərimizdə korporativ idarəçilik sistemi yaratmışıq və bunun bəhrəsini görürük.

Əlbəttə, bağlantı layihələrindən böyük həcmdə mənfəət əldə olunacaq. Artıq qeyd etdiyim kimi, biz Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərindən Azərbaycan ərazisindən keçən, müxtəlif istiqamətlərə daşınan 10 milyonlarla ton əlavə yük gözləyirik. Bu, məşğulluq, əlavə vəsait, Azərbaycanın geosiyasi əhəmiyyəti deməkdir. Regionumuzun, Avrasiyanın xəritəsinə baxsanız görərsiniz ki, bütün əsas nəqliyyat marşrutları bizim ərazidən keçir. Biz ən müasir nəqliyyat infrastrukturunu yaratmışıq. Bu da əlavə imkanlar yaradacaq. Üstəgəl yüz minlərlə keçmiş məcburi köçkünü məskunlaşdırmağı planlaşdırdığımız Qarabağ və Şərqi Zəngəzurun azad edilmiş əraziləri - bu da əlavə aparıcı qüvvə olacaqdır. Beləliklə, səmimi desəm nə iqtisadi sahədə, nə də digər sahədə ölkəmiz üçün hər hansı bir potensial riskləri görmürəm.

**Müxbir:** Yəni, heç bir risk yoxdur?

**Prezident İlham Əliyev:** Bu günə olan vəziyyətə mən risk görmürəm. Ola bilsin, potensial risklər sərhədlərimizin xaricindən qaynaqlana bilər. Azərbaycanın daxilində risklər yoxdur. Bizim çox sabit siyasi sistemimiz var, xalqımızın çox güclü birliyi var, xüsusilə işğal olunmuş ərazilərimizin azad edildiyi tarixi Qələbədən sonra. Bizim iqtisadi fəaliyyətimiz uğurludur. Bizim iqtisadiyyatımız özümüzü təmin edir, biz xarici kreditlərdən asılı deyilik. Qeyd etdiyim kimi, növbəti il xarici borc ÜDM-in sadəcə 7 faizini təşkil edəcək. Bizim konvertasiya olunan valyuta ehtiyatlarımıza və xarici borcumuza baxsanız görərsiniz ki, konvertasiya olunan valyuta ehtiyatlarımız borcdan on dəfə çoxdur. Beləliklə, başqa sözlə desək, biz bir ay içində xarici borcumuzu ödəyə bilərik. Dünyada bunu edə biləcək çox ölkə yoxdur. Əsas beynəlxalq aktorlarla yaxşı siyasi əlaqələri olan, özünü təmin edən iqtisadiyyat və ölkədəki siyasi sabitlik və birlik - bütün bu amillər onu göstərir ki, bizdə daxili risklər yoxdur. Xarici risklər, bəli var, lakin bu sərhədlərimizin xaricindəki vəziyyətdən asılı olacaq. Sərhədlərimizin xaricində Şimala doğru müharibə gedir, Yaxın Şərqdə qeyri-sabit vəziyyət mövcuddur, regionumuzda potensial gərginliklər var. Beləliklə, bu, Azərbaycan üçün potensial risk ola bilər. Bu məqsədlə biz sərhədlərimizin müdafiəsinə daha çox diqqət yetirməliyik ki, sərhədlərimiz dostlarımız üçün açıq olsun və bizə zərər vermək istəyənlər üçün isə bağlı qalsın.

**Müxbir:** SPECA Proqramı iştirakçı ölkələrin iqtisadiyyatları üçün nə dərəcədə əhəmiyyətlidir?

**Prezident İlham Əliyev:** Bu gün SPECA Proqramı öz 25 illik yubileyini qeyd edir və mən Mərkəzi Asiyadan olan həmkarlarımıza bizim Zirvə görüşünün keçirilməsi təşəbbüsünü dəstəklədiklərinə görə, – hansı ki, SPECA Proqramının tarixində ilk Zirvə görüşüdür, - minnətdaram. Əslində, bu Proqram Mərkəzi Asiya və Azərbaycan arasında qarşılıqlı iqtisadi əlaqəyə əsaslanır və bu gün biz bu qarşılıqlı əlaqənin yeni dinamikasının şahidi oluruq. İqtisadi göstəricilərə, ikitərəfli səfərlərin dinamikasına nəzər salsanız görərsiniz ki, son iki ildə Azərbaycan və bütün Mərkəzi Asiya ölkələri arasında və Mərkəzi Asiya ölkələrinin özləri arasında fəal qarşılıqlı əlaqə görünməmiş dərəcədə yüksəkdir. Beləliklə, bu, yeni reallıqdır və biz bundan faydalanmalıyıq.

Bizim SPECA Proqramına üzv olan bütün ölkələrlə mükəmməl əlaqələrimiz var. Bizim indi çoxlu investisiya layihələrimiz var, – Azərbaycanın Mərkəzi Asiyada

investisiyalarını, Mərkəzi Asiyanın Azərbaycanda investisiyalarını nəzərdə tuturam. Bizim Şərq-Qərb Trans-Xəzər nəqliyyat marşrutunun bağlılıq layihələri vardır. Bu, Mərkəzi Asiya ölkələri üçün Qara dəniz, Aralıq dənizi və inteqrasiya olunmuş bağlılıq layihələri vasitəsilə Avropa ilə ən cəlbedici nəqliyyat bağlantısıdır. Biz siyasi müstəvidə çox müsbət dinamikanı müşahidə edirik, çünki indiki çətin geosiyasi vəziyyətdə SPECA Proqramına üzv olan ölkələr bu gün sabitlik nümayiş etdirir. Bu, ən vacib amillərdən biridir. Çünki sabitlik olmasa, investisiya, iqtisadi inkişaf və təhlükəsizlik olmaz. Bu gün SPECA Proqramına üzv olan ölkələrə baxsanız görərsiniz ki, Mərkəzi Asiya və Azərbaycan geosiyasi sabitlik ərazisidir, baxmayaraq ki, yaxınlıqda risklər də mövcuddur. Mərkəzi Asiya ölkələri üçün bu risklər Azərbaycanla müqayisədə hətta daha da yüksəkdir. Odur ki, bu, qeyd etdiyim ölkələrin uğurunun mühüm amili kimi nəzərə alınmalıdır.

İyirmi beş il bundan əvvəl hamımız tamamilə başqa bir vəziyyətdə idik. Söhbət iqtisadi inkişafdan, iri-miqyaslı sosial problemlərdən gedir və biz həm də müstəqillik yolunun birinci mərhələsini yaşayırdıq. İndi biz artıq uğur haqqında məlumat verə bilərik. Biz Bakı Expo Mərkəzində sərgi təşkil etdik. Hesab edirəm ki, bu, bizim ölkələrin nailiyyətlərini çox yaxşı əks etdirir. Bunlar bizim nailiyyətlərin kiçik bir hissəsidir, amma buna baxmayaraq, gördüyümüz işlərin çox yaxşı təcəssümüdür. Azərbaycanın xarici siyasət prioritetlərindən biri Mərkəzi Asiya ölkələri ilə daha fəal əməkdaşlıqdan ibarətdir və biz Bakıda keçirilən SPECA Zirvə görüşünü bu siyasətin bir hissəsi olan amillərdən biri hesab edirik.

**Müxbir:** Azərbaycan Şərq və Qərb arasında çox strateji-coğrafi mövqedə yerləşir. Beynəlxalq arenada ölkənin strategiyası nədən ibarətdir?

**Prezident İlham Əliyev:** Beynəlxalq arenada biz müstəqil siyasət yürütməyə davam edəcəyik. Biz dördüncü ildir ki, BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına sədrlik edirik. Bir çox üzv ölkənin - 120 üzv ölkənin ümumi rəyinə əsasən Azərbaycan Qoşulmama Hərəkatına yeni ölçü və dinamika verməkdə önəmli rol oynamışdır. Biz Qoşulmama Hərəkatının institusional inkişafı ilə bağlı çoxlu addımlar atdıq, parlament və gənclər platformalarını yaratdıq, qadınlar üçün platformanın yaradılması üzərində işlədik. Biz COVID pandemiyası məsələsi ilə bağlı çox fəal olmaqla 80-dən çox ölkəyə yardım etdik. Beləliklə, bizim Qoşulmama Hərəkatında sədrliyimiz bizə siyasətimizi, imkanlarımızı nümayiş etdirməyə şərait yaratdı və yeri gəlmişkən, bizim sədrliyimiz yekdil qərarla əlavə bir il uzadılmışdır. 120 ölkə, onların heç də hamısı bir-biri ilə yaxşı münasibətdə deyil, lakin Azərbaycana gəldikdə onların hamısı yekdilliklə bizi dəstəklədi. Beləliklə, bu, beynəlxalq dəstəyi ən yaxşı şəkildə nümayiş etdirir. Bəzən bəzi siyasətçilər beynəlxalq birlik haqqında danışdıqda onlar ola bilsin ki, onlarla ölkəni nəzərdə tuturlar. Lakin beynəlxalq birlik 200-dən artıq ölkədən ibarətdir və bu ölkələrin əksəriyyəti Azərbaycanı dəstəkləyir. Bu, yalnız bir istiqamətdir.

Bizim qonşularımızla münasibətlərimiz yaxşı balanslaşdırılıb, dostluğa və qarşılıqlı marağa əsaslanır. Bizim Avropa təsisatları ilə münasibətlərimizin öz müsbət dinamikası var. Mən artıq enerji layihələrini qeyd etdim, Avropa bizdən dəstək istədikdə bizim Avropanı necə dəstəklədiyimizi nəzərdə tuturam. Biz bunu ona görə etdik ki, həmişə bizdən kömək istəyənlərə kömək etməyə çalışırıq. Bizim müsəlman ölkələri ilə münasibətlərimiz həmrəylik və tərəfdaşlıq nümunəsidir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının ən fəal üzvlərindən biri hesab olunur. Beləliklə, bu, əslində, beynəlxalq birliyin demək olar ki, bütün üzvlərini əhatə edir və bizim siyasətimiz həmişə kiməsə dəstək lazım olduqda ona dəstəyin göstərilməsinə və bütün ölkələrə dost münasibətin nümayiş etdirilməsinə hədəflənib. İndi isə - ərazi bütövlüyümüz və suverenliyimizin bərpasından sonra Azərbaycanın beynəlxalq arenada imkanları, əlbəttə ki, qat-qat böyük olacaq. Döyüş meydanında öz ərazisini, öz ləyaqətini qorumuş ölkənin beynəlxalq nüfuzu və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirmiş Azərbaycanın nüfuzu, əlbəttə ki, indi kəskin şəkildə yüksəlib.

**Müxbir:** Bu ilin yayında “Euronews”a müsahibə zamanı demişdiniz, ümid edirsiniz ki, ilin sonunadək Ermənistan və Azərbaycan arasında sülhə nail olunacaq. Xüsusilə on minlərlə insanın evlərini tərk etməli olduqlarından sonra hələ də sülhə nail olunacağını düşünürsünüz? Bu regionun dinamikası üçün növbəti mərhələdə onu nə gözləyir?

**Prezident İlham Əliyev:** Bəli, vaxt qrafiki ilə bağlı mən nikbin fikirdə idim, çünki biz Azərbaycanın özünün hazırladığı sülh sazişinin ilkin layihəsi ilə bağlı şərhləri bir neçə dəfə Ermənistanla mübadilə etmişdik. Bundan sonra isə iki ölkə arasında altı dəfə şərhlər mübadilə edilmişdir və keçən dəfə “Euronews”a bunun haqqında danışdıqda mən ümid edirdim ki, Ermənistan bizim təkliflərin nəzərdən keçirilməsi vaxtını uzatmayacaq. Biz sentyabrın 11-də onlara sonuncu şərhlərimizi təqdim etmişdik və onlardan cavabı yalnız iki gün əvvəl almışıq. Beləliklə, təqribən iki ay yarımdır ki, onlar bir neçə səhifədən ibarət mətn layihəsini nəzərdən keçiriblər. Bu, nə deməkdir? O deməkdir ki, onlar süni olaraq prosesi ləngitmək istəyirlər. İndi noyabrın sonudur və ilin axırına qədər sülh sazişinin imzalanması ilə bağlı ümidlər o qədər də nikbin deyil. Lakin hesab edirəm ki, zaman qrafiki o qədər də vacib deyil. Vacib olan hər iki ölkənin gündəliyidir. Məhz Azərbaycan işğaldan və etnik təmizləmədən əziyyət çəkib. Bir milyon azərbaycanlı Ermənistan hökuməti tərəfindən deportasiya edilib. Təxminən sahəsi 15 min kvadratkilometr olan ərazi dağıdılıb.

Bununla belə, sülh sazişini imzalamaq və delimitasiya işlərini başlamaq üçün təklif verən ölkə biz olduq. Bir sözlə, hazırda Qarabağ məsələsi bitdikdən sonra düşünürəm ki, Ermənistan bizimlə razılığa gəlməkdə daha həvəsli olacaq. Çünki suverenliyimizin bərpası və Qarabağda qeyri-qanuni separatçı rejimin ləğv edilməsi ilə, fikrimcə, Ermənistana daha cəsarətli davranmağa və ya danışıqlara getməyə mane olan əsas amil artıq mövcud deyil.

Bir sözlə, biz qeyd etdiyim kimi, iki gün əvvəl aldığımız ən son təklifləri dəyərləndirəcəyik və öz şərhlərimizi verəcəyik. Bununla yanaşı, biz müxtəlif rəsmilər arasında və fərqli kanallar vasitəsilə işçi səviyyədə təmasları saxlayırıq. Düşünürəm ki, sülh üçün alternativ yoxdur. Əgər sülh sazişi imzalanmasa, bu, bütöv bölgə üçün çox pis olacaq. Biz istəyirik ki, Cənubi Qafqaz bölgəsində hər hansı risk olmasın. Əlbəttə, biz istəyirik ki, Ermənistan nə bu gün, nə də gələcəkdə ərazi bütövlüyümüzü sual altına qoymasın və Azərbaycana qarşı hər hansı ərazi iddialarından tam əl çəksin.

**Müxbir:** Beləliklə, nəhayət ki, sülhə nail olmaq üçün şərtlər nədən ibarətdir?

**Prezident İlham Əliyev:** Bilirsiniz, biz sülh sazişi üçün əsas götürüləcək beş təməl prinsipi hazırladıq: bir-birinin ərazi bütövlüyünün qarşılıqlı surətdə tanınması; gücdən istifadə etməmə; bir-birinə ərazi iddialarının olmaması; iki ölkə arasında kommunikasiyaların açılması və münasibətlərin normallaşması; və bir sıra digər mühüm amillər var. Bütün bunlar beynəlxalq hüquqa əsaslanır. Danışıqlar prosesinin təxminən üç ili ərzində, Ermənistan hər zaman sülh sazişinə Qarabağın erməni azlığına dair müddəanı salmaq istəyirdi. Bizim mövqeyimiz ondan ibarət idi ki, bu, bizim daxili işimizdir. Əgər onlar Azərbaycanda erməni azlığı məsələsini əks etdirmək istəyirlərsə, onda biz də otuz il əvvəl Ermənistandan qovulmuş azərbaycanlı azlığı məsələsini daxil etmək istərdik. Özü də Ermənistanda azərbaycanlıların sayı ermənilərin Azərbaycandakı sayından daha çoxdur və təxminən 300 min insan təşkil edir. Bir sözlə, mövqeyimiz belədir ki, həmin məsələ qarşılıqlı olmalıdır. Biz iki milli azlığın məsələsini, onların hüquqları və təhlükəsizliyini, o cümlədən qayıtmaq hüququnu qeyd edək. Yəni, təkcə ermənilərin Azərbaycana qayıtması deyil, o cümlədən azərbaycanlıların Ermənistana qayıtması məsələsini qoyuruq. Azərbaycanlıların 30 il əvvəl qovulması və ermənilərin iki ay əvvəl ölkəmizi tərk etmək qərarı arasında fərqin əhəmiyyəti yoxdur. Fakt, sadəcə, ondan ibarətdir ki, bunlar qarşılıqlı olmalıdır. Yaxud da ki, biz sülh sazişində bu məsələni qeyd etmirik. Bir sözlə, bu vaxta qədər, biz həmin məsələ ilə bağlı Ermənistandan hər hansı aydın anlaşma görmədik. Əgər Ermənistan hər iki milli azlığa eyni yanaşmanın tətbiq edilməsinə razılaşarsa və ya onu tam əks etdirməsə, onda sülh əldə oluna bilər, çünki həmin məsələ bizimlə danışıqlar aparan Ermənistan üçün əsas maneə idi. Bir sözlə, görəcəyik, bundan sonra necə olacaq. Səmimi desək, mən hazırda məntiq nöqteyi-nəzərindən sülh sazişinin imzalanmasına hər hansı ciddi maneə görmürəm.

Biz bəyan edirik ki, bunu imzalamalıyıq və onlar da deyirlər ki, bu saziş imzalanmalıdır. Lakin biz buna nail olmalıyıq. Bizim təklifimiz ictimaiyyətə açıqlandı. Bəhs etdiyim həmin beş məşhur prinsipi biz ictimaiyyətə açıqladıq. Bunlar bəllidir. İstənilən mühüm beynəlxalq tərəfin də etirazı yoxdur, çünki bütün həmin prinsiplər beynəlxalq hüququn fundamental prinsipləridir. Ermənistan, sadəcə, onlara əməl etməlidir. Onlar ərazi bütövlüyümüzü sual altına qoymaq və ərazimizdə separatçılığa rəvac vermək kimi bütün cəhdlərinə son qoymalıdırlar, çünki Qarabağ Azərbaycanın hissəsidir və bu, hamı, o cümlədən Ermənistanın özü tərəfindən etiraf edilir. Məhz Ermənistanın baş naziri 2019-cu ildə Xankəndidə böyük nümayiş zamanı demişdir: “Qarabağ Ermənistandır”. Bu, danışıqlar prosesinin sonu demək idi, çünki bundan sonra danışıqlar üçün heç bir şey qalmadı. Beləliklə, İkinci Qarabağ müharibəsi üçün səbəb məhz Ermənistan hökuməti idi. İndi isə həmin şəxs artıq “Qarabağ Azərbaycandır” deyir. Bu, yaxşı haldır, irəliləyişdir. Biz irəliləyişi hər zaman dəstəkləyirik, lakin hazırda “Qarabağ Azərbaycandır” dedikdə, onlar gərək bunun altında öz imzasını qoysunlar və biz bunu gözləyirik.

**Müxbir:** Bəs, öz evlərini tərk etmiş insanlar necə?

**Prezident İlham Əliyev:** Öz evlərini tərk etmiş insanlara gəldikdə, əvvəlcə, bu, onların öz qərarı idi. Qarabağ erməniləri ilə bağlı ictimaiyyətə verdiyimiz bəyanat və sonradan atdığımız addımlar göstərdi ki, biz istəyirdik onlar qalsınlar. Biz açıq şəkildə elan etdik və mən antiterror əməliyyatı başa çatdıqdan sonra Azərbaycan xalqına müraciətimdə bildirdim ki, onlar qala bilər. Biz elektron qeydiyyat portalını açdıq. Qayıtmaq istəyən hər kəsin belə bir hüququ var. Onların mülkiyyəti lazımi dərəcədə qorunur. Bütün tarixi və dini yerlər lazımınca qorunur.

Geri qayıtmaq üçün onlar müəyyən qaydalara əməl etməlidirlər və mən antiterror əməliyyatının keçirilməsindən bir neçə ay əvvəl demişdim ki, qalmaq istəyənlər Azərbaycan vətəndaşlığı üçün müraciət etməlidirlər. Çünki insanlar başqa ölkənin vətəndaşı olmaqla Azərbaycanda necə yaşaya bilərlər? Ya vətəndaşlıq, ya iş icazəsi, ya da yaşayış icazəsi olmalıdır. Onlar dırnaqarası “dağlıq qarabağ respublikasında” yaşadıqlarını deyərək Azərbaycanda yaşaya bilməzlər. Çünki dırnaqarası “dağlıq qarabağ respublikası” mövcud deyil. Onlar bunu öz xəyallarında, mifologiyasında uydurublar. Onlar Azərbaycan vətəndaşları olaraq Azərbaycanda yaşamaq istəyirlərsə, əlbəttə ki, bunu edə bilərlər. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı bir ölkədir. Azərbaycanda bir çox etnik qruplar var. Bu etnik qrupların bəziləri, bir neçəsi, onlara mənsub olan insanlar Qarabağda erməni əhalisindən qat-qat çoxdur.

Onların hamısı sülh içində yaşayır, onlar bütün hüquq və təminatlardan faydalanırlar. Bizim Qarabağ ermənilərinə etdiyimiz təklifdə hansı ki, yeri gəlmişkən ictimai şəkildə açıqlanmışdır, biz, həmçinin onların hüquqlarını da nəzərə almışdıq. Onların dil, tədris, din, bələdiyyə hüquqlarını nəzərə almışdıq. Onlar bələdiyyə seçkiləri vasitəsilə öz nümayəndələrini seçə bilərlər və orada yaşamağa davam edə bilərlər. Tərk etmək qərarı onların öz qərarı idi və bizim indi əldə etdiyimiz məlumata əsasən bu dırnaqarası "dağlıq qarabağ respublikası"nın dırnaqarası "sabiq rəhbərləri"nin qəsdən etdiyi hərəkət idi. Onlara oranı tərk etməyə ehtiyac yox idi, lakin onlar tərk etmək qərarını verdikdə biz onları dayandıra bilməzdik. Biz onlar oranı sülh şəraitində tərk etsinlər deyə, onlara maksimum dərəcədə rahat şərait yaratdıq. Azərbaycanlılara qarşı tam əksi edilmişdir. Onlar otuz il bundan əvvəl ya qətlə yetirilmiş, ya da deportasiya olunmuş, işgəncələrə məruz qalmış, həbs edilmişdir və onların bəziləri yüksək dağlıq əraziləri aşmaq məcburiyyətində qalaraq həmin ərazilərdə donub ölmüşdür. Bu sənədlərlə təsdiq edilib. Qarabağ bölgəsinin ermənilərinin Ermənistana daxil olmaları da sənədləşdirilmişdir və hər şey humanitar standartlara əsasən edilmişdir. Lakin yenə də sizin suala gəldikdə deyə bilərəm ki, onlar qayıda bilərlər.

Əlbəttə, onlar bizim açdığımız mövcud elektron portalda qeydiyyatdan keçərək geri qayıtmaq, Azərbaycan vətəndaşlığını qəbul etmək istədiklərini bildirməlidirlər. Onların bir neçəsi artıq vətəndaşlıq üçün müraciət edib və hazırda onların müraciətlərinə baxılır. Bəzi ermənilər Qarabağda qalmağa qərar verdilər və indi bizim Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Miqrasiya Xidməti onların qeydinə qalır, onları qeydiyyata salır. Ermənilərin hamısı oranı tərk etməyib. Lakin Azərbaycanda yaşamaq üçün, məsələn əgər siz Azərbaycanda yaşamaq istəyirsinizsə siz nə etməlisiniz? Siz iş icazəsi, uzun müddət burada yaşamaq istəyirsinizsə yaşayış icazəsi və ya vətəndaşlıq almalısınız. Başqa halda digər ölkənin vətəndaşı olaraq Azərbaycanda necə yaşaya bilərsiniz? Bu, mümkün deyil. Bu da eyni məsələdir.

Əgər Ermənistandan qovulmuş azərbaycanlı məcburi köçkün ora geri qayıtmaq istəyərsə o, necə qayıda bilər? O geri qayıdıb və Qərbi Azərbaycan Respublikasının sakini olduğunu deməyəcək. Xeyr. O, gəlib vətəndaşlıq və ya iş icazəsi üçün müraciət edəcək. Nəyə görə bu proses burada fərqli olmalıdır? Bu, yalnız belə olacaqdır. Bələdiyyə seçkiləri vasitəsilə onlar öz nümayəndələrini seçə bilərlər və bu nümayəndələr bələdiyyələrə görə məsul şəxslər olacaq. Bütün bu məlumatlar Qarabağ ermənilərinin nümayəndələrinə antiterror əməliyyatından sonra çatdırılmışdır və biz bu məlumatın onlar tərəfindən Qarabağ əhalisinə açıqlanmadığından agah olduqdan sonra biz onu açıqladıq, dərc etdik.

Beləliklə, bu, beynəlxalq norma və standartlara əsasən hüquqi bir prosesdir. Bir daha qeyd etmək istəyirəm, Azərbaycan çoxmillətli ölkədir və Azərbaycandakı heç bir etnik qrupun dini və etnik zəmində heç vaxt heç bir problemi və ya narahatlığı olmamışdır. Azərbaycanı tanıyan istənilən kəs bunu təsdiqləyə bilər. Yeri gəlmişkən, bu gün Azərbaycanın müxtəlif yerlərində erməni əhalisi heç bir problem olmadan yaşayır. Ermənilər və azərbaycanlılar Rusiyada bir yerdə yaşayırlar, Ukraynada bir yerdə yaşayırlar və Gürcüstanda hətta eyni kəndlərdə yaşayırlar. Nəyə görə onlar Azərbaycanda və yaxud Ermənistanda bir yerdə yaşaya bilməsinlər? Hesab edirəm ki, onlar bir yerdə yaşaya bilərlər.

**Müxbir:** Çox təşəkkür edirəm, cənab Prezident.

**Prezident İlham Əliyev:** Təşəkkürlər.

## *COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar İlham Əliyevin nitqi*

- Bir neçə gün bundan əvvəl ölkəmiz növbəti böyük uğura imza atmışdır, COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçiriləcək. Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı.

Bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi.

Düzdür, antiterror əməliyyatından sonra bəzi Qərb ölkələri Azərbaycana əsassız ittihamlar irəli sürmüşdür. Bizə qarşı irəli sürülmüş bu ittihamların heç bir əsası yoxdur. Çünki Azərbaycan öz suveren ərazisində separatçılığa qarşı, işğalçılara qarşı antiterror əməliyyatı keçirərək beynəlxalq hüququn aliliyini özü bir daha

təmin etmişdir və eyni zamanda, bütün humanitar normalara riayət edərək öz suverenliyini bərpa etmişdir. Bəzi Qərb ölkələri, onların arasında təbii ki, ənənəvi olaraq Fransa bununla barışmaq fikrində deyil. Halbuki artıq beynəlxalq birlik də görür ki, hətta Ermənistan bu vəziyyətlə barışıb və COP29 konfransının keçirilməsi bunu bir daha göstərir. Ancaq Fransada bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaqlar.

Bir də bəzi hallarda beynəlxalq aləm, beynəlxalq birlik anlayışı Qərbdə təhrif edilir. Beynəlxalq birlik 30-40 ölkə deyil. Beynəlxalq birlik dünyanın bütün ölkələridir və bu ölkələr yekdilliklə Azərbaycana öz böyük dəstəyini göstərmişdir. Bu, birinci dəfə deyil. Biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır. Bu, artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir.

İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz bu günə qədər bir çox beynəlxalq tədbirlər keçirmişik. Hətta bu il Beynəlxalq Astronavtika Konqresini böyük müvəffəqiyyətlə keçirmişik. Onu da hər kəs bilir ki, bu mötəbər beynəlxalq tədbir ikinci dəfə Bakı şəhərində keçirilib. 50 il bundan əvvəl sovet Azərbaycanının paytaxtı olan Bakıda, bu il isə müstəqil Azərbaycanın paytaxtı olan Bakıda bu tədbir keçirilmişdir. Ancaq təbii ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70–80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq.

Hesab edirəm ki, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Ona görə biz dərhal bütün hazırlıq işlərinə start verməliyik. Bizim vaxtımız o qədər də çox deyil, 11 aydan az vaxtımız var. Ona görə mən hesab etdim ki, birinci müşavirəni öz sədrliyimlə keçirim, bütün lazımi tapşırıqları verim. Bu tapşırıqların yerinə yetirilməsi barədə müntəzəm olaraq mənə məlumat veriləcək.

Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək.

DOI 10.30546/2309-1347.84.2023.91

**T A R İ X**
**H I S T O R Y**

UOT 94 (479.24)

**HADİ RƏCƏBLİ**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının professoru, siyasi elmlər doktoru**

*e-mail: hadi.recebli@gmail.com*

# AZƏRBAYCANDA REPATRİASİYA PROSESİNİN EFFEKTİV REALLAŞMASININ ƏSASLARI

**Giriş**

Azərbaycan xalqı, hər bir azərbaycanlı bu gün yalnız müasir deyil, son bir neçə əsrlik dövlətçilik tariximizin ən şərəfli və qürurlu günlərinə şahidlik edir. Çünki son bir əsrdə ilk dəfə olaraq ölkəmizin ərazi bütövlüyünü təmin etmişik. Son bir neçə əsrdə birinci dəfə olaraq işğal altındakı torpaqlarımızın azad edilməsinə nail olmuşuq. Buna qədər isə həm XIX əsrdə, həm XX əsrdə yalnız itirmişik, əzilmişik, əsarət altında yaşamışıq, öz torpaqlarımızda məcburi köçkünə, qaçqına çevrilmişik.

Məcburi köçkünlərin ilk olaraq Zəngilan rayonunun Ağalı kəndində məskunlaşması ilə başlanan geri dönüşləri göstərir ki, bu proses ən mütərəqqi şəkildə həyata keçirilir. Bununla Azərbaycan repatriasiya sahəsində də yeni nümunələr ortaya qoyur.

Repatriasiya bir şəxsin doğma ölkəsinə qaytarılmasına deyilir. Dünyada repatriasiya ilə bağlı nümunələr çoxdur. Xatırladım ki, BMT təsis edildiyi gündən repatriasiya problemi, öz ərazilərindən və ya öz ölkələrindən köçkün və qaçqın düşmüş insanların geri qayıdış prosesi istər beynəlxalq hüquqda, istər dövlətlərarası münasibətlərdə hər zaman diqqət mərkəzində olmuşdur.

Lakin istənilən halda söhbət insanın doğulduğu, böyüdüyü, yaşadığı, lakin müharibə nəticəsində qaçqın və köçkün düşdüyü bir coğrafi məkana qayıdışından gedir. Bu qayıdış xaricdən də ola bilər, ölkə daxilindən də. Azərbaycana gəldikdə, Ermənistanın Qarabağ bölgəsini və ətraf rayonlarımızı işğal etməsi nəticəsində 30 ilə yaxın doğma evlərindən köçkün düşmüş vətəndaşlarımız torpaqlarımızın azad edilməsindən sonra həyatlarının ən böyük arzusuna çatıblar və mərhələli şəkildə Qarabağ və Şərqi Zəngəzura qayıdırlar.

Məlum olduğu kimi, Azərbaycan dövləti hələ Vətən müharibəsinə qədər məcburi köçkünlərin, habelə tarixi Azərbaycan torpaqları olan indiki Ermənistandan didərgin salınmış soydaşlarımızın mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün bütün imkanlarını səfərbər edib. Respublikamızın müxtəlif yerlərində bu məqsədlə 100-dən artıq qəsəbə və şəhərcik salınıb. Ulu Öndər Heydər Əliyevin bu sahədə müəyyən etdiyi kursu davam etdirən Prezident İlham Əliyev 2003-cü ildən sonra qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məşğulluğunun təmin edilməsi ilə bağlı 70-dən çox fərman və sərəncam imzalayıb.

### Müdrik rəhbərliyin qətiyyətli siyasəti

Azərbaycanın parlaq qələbəsi ilə yekunlaşan 44 günlük Vətən Müharibəsindən sonra repatriasiya, yəni vətənə qayıtmaq prosesi uğurla həyata keçirilir. Repatriasiya termini adətən hərbi əsirlərin, məcburi köçkünlərin, qaçqınların, mühacirlərin vətəndaşlıq hüquqlarının bərpası ilə qaytarılması, ölkəyə qayıtması ilə bağlı istifadə olunur. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərin bərpası və abadlaşdırılması işlərinə xüsusi diqqət yetirir. Hazırda erməni vandalizminin izləri olan torpaqlarda aktiv bərpa işləri aparılır. Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə mütəmadi səfərləri dövlətimizin başçısının işğaldan azad edilmiş ərazilərin bərpası və abadlaşdırılması istiqamətində həyata keçirilən irimiqyaslı layihələrə prioritet diqqətini əyani şəkildə nümayiş etdirir. Dövlətimizin başçısının iştirakı ilə sənaye müəssisələrinin və digər sosial obyektlərin təməlinin qoyulması, tikinti-quruculuq işlərinin geniş vüsət alması, ən müasir texnologiyaların tətbiqinə önəm verilməsi bunu göstərir. Sosial infrastrukturun bərpası və əhalinin məşğulluğunun təmin edilməsi üçün yerli investisiyalarla yanaşı, xarici investisiyalar da cəlb edilir.

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan prezidenti İlham Əliyev bəyan etdi ki, hakimiyyət qaçqın və məcburi köçkünləri mərhələli şəkildə Qarabağa qaytaracaq. Azərbaycan Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev bildirmişdir ki, “750 min məcburi köçkünün 60-70%-dən çoxu öz doğma yurdlarına qayıdacaq” [9].

Azərbaycan hökuməti beynəlxalq ictimaiyyətin köməyi ilə Dağlıq Qarabağ münaqişəsi həll edildikdən sonra məcburi köçkünlərin işğal olunmuş rayonlara qayıtması üçün Çərçivə Planı (Böyük Qayıdış Proqramı) hazırlamağa başlayıb.

2021-ci ilin 14 fevralında Azərbaycanın Füzuli rayonu ərazisində Horadiz-Ağbənd dəmir yolunun tikintisinə başlanılıb. Zəngəzur dəhlizinin yaradılması Azərbaycanın Naxçıvan Muxtar Respublikasına maneəsiz giriş imkanı verəcək. Nəqliyyat əlaqələrinin bərpası 2020-ci il Dağlıq Qarabağ müharibəsinin sonunda - 2020-ci il noyabrın 9-da imzalanmış atəşkəs sazişinin 9-cu maddəsində nəzərdə tutulub. Zəngəzur dəhlizi vasitəsilə bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri blokdan çıxarılmalıdır.

Prezident İlham Əliyevin Füzuli rayonuna səfəri zamanı tə məli qoyulan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi Qarabağda həyata keçirilən yol infrastrukturu layihələrindən biridir. 101,5 km uzunluğundakı Əhmədbəyli-Füzuli-Şuşa yolu (Zəfər yolu) Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının işğaldan azad edilmiş ərazilərindən keçir. Bu yol boyu 7 tunel, o cümlə-dən Əhmədbəyli-Füzuli-Şuşa yolunun Daşaltı kəndi ərazisindən keçən hissəsində tunel tikilir. Tunellər T1A (3340,0 m), T1 (314,9 m), T2 (556,9 m), T3 (680,3 m), T4 (540,6 m), T5 (454,8 m) və T6 (446,3 m) kod adlarını alıb. Tunellərin ümumi layihə uzunluğu, İsa Bulaqı istiqamətində tikilmiş tunel də daxil olmaqla, təxminən 7668 metrdir [8, s.299]. Hər tuneldə havalandırma sistemi quraşdırılacaq.

Azərbaycanda işğaldan azad edilmiş ərazilərin minalanması, mövcud yaşayış binalarının və infrastrukturun çox hissəsini dağıdıması səbəbindən əhalinin bölgəyə qayıdışı zamanı xüsusi problem yaranır. Yerli əhalinin öz torpaqlarına qayıtması üçün zəmanətlər, xidmətlər və infrastrukturla təmin edilməsi asan məsələ deyil. Lakin sevindirici haldır ki, Azərbaycan hökuməti bu problemləri həll etməyi öz öhdəsinə götürmüşdür. Zəngilanın Ağəli kəndində inşa edilən “Ağıllı kənd” bu sahədə aparılan ilk layihədir və bu qəbildən olan oxşar layihələr də təbiq olunmaqdadır. Məcburi köçkünlərin hazırda mərhələli şəkildə Laçına da qaydışı davam edir. İnsanlar yenidən qurulan və abadlaşan Laçın şəhərinə – doğma yurdlarına sevinclə qayıdır. “2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evinə qayıdacaq” [7, s.10].

Otuz il əvvəl bu yerləri tərk etmiş ailələri öz vətənlərinə qaytarmaq müasir dövrdə həm

qürurverici, həm sevindirici, həm də aktual bir məsələdir. Bu məsələ insanların həyatı üçün maksimum məsuliyyətlə həll edilməli olan sosial problemdir. Kənddə e-sağlamlığı, elektron təhsili dəstəkləyən və ağıllı idarəetmə məqsədlərini dəstəkləyən yüksəksürətli internet bağlantısı var. Ailələr əmin ola bilərlər ki, övladları saytda təqdim olunan ən yaxşı təhsil resurslarına, eləcə də zərurət yarandıqda uzaqdan istifadə edə biləcəklər. Bu, tibbi xidmətlərin göstərilməsinə də aiddir. Hökumət məşğulluq imkanları yaratmaq üçün özəl sektora müraciət edib. Ağıllı və davamlı düşüncə bu kəndin hər tərəfinə nüfuz edir.

İşğaldan azad edilmiş yaşayış məntəqələrinin bərpası üçün məqsədli maliyyə dəstəyinin yaradılması və müvafiq maliyyələşdirmə mexanizminin tətbiqi və vətəndaşlarımızın öz doğma yurdlarına qayıtması ilə bağlı proqram və layihələrin həyata keçirilməsi, həmin ərazilərdə iqtisadi fəallığın artırılması üçün stimullaşdırıcı tədbirlər (vergilər və digər güzəştlər, dövlət-özəl tərəfdaşlıq və s.) həyata keçirilməsi, habelə şəhid ailələrinin və müharibə əlillərinin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş güzəşt və imtiyazların verilməsi olduqca mühüm məsələdir. Bütün bunlar 2021-ci ilin büdcə və fiskal siyasətinin əsas istiqamətlərindən biridir.

**BMT və repatriasiya prosesi**

1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının yaradılması beynəlxalq ictimaiyyətin müharibələrin və müxtəlif növ təhlükələrin qarşısının alınması üçün ümumi mexanizm hazırlamaq istəyinin birbaşa nəticəsi idi. İkinci Dünya Müharibəsi başa çatdıqdan sonra yaranan problemlərin təbiəti, həcmi və sayının dəyişməsi ilə əlaqədar olaraq, sülhməramlı təcrübələrin inkişafı demək olar ki, daim BMT-nin gündəliyinə salınırdı.

Repatriasiya hüququ bir sıra müasir müqavilə və konvensiyalarda, xüsusilə 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsində [13], 1966-cı il Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda [11] və 1948-ci il Dördüncü Cenevrə Konvensiyasında [10] təsbit edilmişdir. Hüquqşünaslar iddia edirlər ki, bu beynəlxalq insan hüquqları sənədlərindən biri və ya bir neçəsi ənənəvi beynəlxalq hüquq status əldə edib və buna görə də geri qayıtma hüququ bu konvensiyaları imzalamayanlar üçün məcburidir.

Beynəlxalq ictimaiyyət Birləşmiş Millətlər Təşkilatının Yardım və Yenidənqurma İdarəsi (UNRRA) və Beynəlxalq Qaçqınlar Təşkilatını (IRO) yaratmağa qərar verdi. UNRRA 7 milyondan çox insanın könüllü repatriasiyasına, IRD isə vətənlərinə qayıtmaqdan imtina edən 1,7 milyon Avropalı qaçqının köçürülməsinə köməklik göstərib [15]. UNRRA və IRO-nu əvəz edən Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının İdarəsi 1950-ci ilin dekabrında yaradılmışdır.

Əvvəlcə təcili problemlərin həlli üçün üç illik müddətə yaradılan BMT QAK-a 1954-cü il Nobel Sülh Mükafatına layiq görülməzdən əvvəl öz mandatını daha dörd il uzatmaq mandatı verildi. Nobel Komitəsi vurğulamışdır ki, bu mükafat təkcə keçmiş nailiyyətlərə görə minnətdarlıq əlaməti deyil, həm də dünya ictimaiyyətinə bu işin davam etdirilməli olduğunun nümayişidir. BMT QAK-ın mükafata namizədliyini irəli sürərkən öz bəyanatında Nobel Komitəsi vurğulayır:

“Müharibənin yaratdığı yaraları sağaltmaq sülh üçün işdirsə, insanlar arasında qardaşlığı təşviq etmək sülh üçün işdirsə, bu, sülh üçün işdir. Çünki bu bizə göstərir ki, həyatda bəxti gətirməyən əcnəbi bizdəndir. Bizdən milli sərhədlərlə ayrılsalar belə, başqa insanlara şəfqət göstərməyin davamlı sülhün üzərində qurulmalı olan təməl olduğunu öyrədir” [14].

Bəzən “dünyanın vicdanı” adlandırılan BMT QAK-nın digər ölkədə sığınacaq istəməsindən və ya öz ölkəsinə təhlükəsiz qayıtmaq hüququndan asılı olmayaraq, qaçqınları qorumaq və onların bütün dünyada narahatlıqlarını həll etmək üçün beynəlxalq fəaliyyətə rəhbərlik etmək və əlaqələndirmək mandatı var.

Qaçqınların müdafiəsi üçün beynəlxalq qanunlar, konvensiyalar və qaydalar sisteminin işlənib hazırlanması prosesi XX əsrin əvvəllə-

rində Millətlər Liqasının rəhbərliyi ilə başlamış və Qaçqınların Statusuna dair Konvensiyanın təsdiqi ilə yekunlaşmışdır [12]. 28 iyul 1951-ci ildə BMT-nin xüsusi konfransı Konvensiya həm qaçqınların beynəlxalq statusuna toxunan 1933-cü il Qaçqınlar Konvensiyasını, həm də 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsində əks olunan prinsipləri özündə birləşdirən qlobal sənədə çevrilmişdir. 1951-ci il Konvensiyası qaçqınlar anlayışını və onların hüquqlarını, habelə dövlətlərin qaçqınlarla bağlı hüquqi öhdəliklərini müəyyən edən əsas hüquqi sənəddir. 1967-ci ildə qəbul edilmiş Protokol Konvensiyada nəzərdə tutulmuş coğrafi və vaxt məhdudiyyətlərini aradan qaldırdı. Bu iki sənəd qaçqınların əsas hüquqlarını, o cümlədən dini etiqad və hərəkət azadlığını, işləmək, təhsil və səyahət sənədlərinə çıxışı əhatə edən yeganə hüquqi sənəddir. Onlar həmçinin qaçqınların qəbul etdikləri hökumətlər qarşısında öhdəliklərini ortaya qoyur və bildirirlər ki, qaçqınlar təqib olunmaqdan qorxduqları ölkəyə məcburi şəkildə qaytarıla bilməzlər.

BMT QAK-ın fəaliyyəti BMT-yə üzv dövlətlər tərəfindən maliyyələşdirilir və ən əsası, bu dövlətlər qaçqınlar üçün Konvensiyada müəyyən edilmiş minimum standartlara riayət olunmasını təmin edir. Dövlətlər arasında və daxilində mübarizə və humanitar fövqəladə hallar şəraitində qaçqınlar və məcburi köçkünlər qlobal gündəmdə əsas yer tutmalıdır.

**Böyük Qayıdışın başlanğıcı və Milli Prioritetin icrası**

2022-ci il noyabrın 16-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nı təsdiq etmişdir. Bu proqram Qarabağ və Şərqi Zəngəzura qayıdışla bağlı hədəflərin, qarşıya qoyulan vəzifələrin sistemli, uzlaşdırılmış və nəticə etbarilə effektiv şəkildə həyata keçirilməsi üçün yol xəritəsi olan mühüm sənəddir və görülən işlərin daha da sürətləndirilməsinə xidmət edir [2].

Böyük qayıdış hələ Aprel zəfərindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası və sakinlərin doğma evlərinə qayıdışı ilə başlayıb. Prezident İlham Əliyevin sərəncamı ilə 2017-ci ildə cəmi bir neçə aya bərpa olunan Cocuq Mərcanlı kəndində 24 illik fasilədən sonra həyat əvvəlkitək öz axarına qayıtdı. 24 illik yurd həsrətindən sonra Cocuq Mərcanlı sakinləri doğma el-obalarına qayıtdılar. Beləliklə, Böyük qayıdış Cocuq Mərcanlıdan başlanıldı.

Prezident İlham Əliyevin tapşırığına əsasən Böyük qayıdışın rəmzinə çevrilən Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri olan məscid də tikildi. Bu müqəddəs ocağın inşası işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesaj idi və bəyan edirdi ki, gün gələcək Şuşadakı məscid də bərpa ediləcək. Cocuq Mərcanlının bərpasından cəmi 3 il sonra həmin tarix də yetişdi və həm Şuşanın, həm də onun tarixi-mədəni və dini abidələrinin bərpasına başlanıldı.

Bu baxımdan artıq Vətən müharibəsindən sonra Cocuq Mərcanlının timsalında artıq Azərbaycan dövlətinin Böyük qayıdışın həyata keçirilməsi, məcburi köçkünlərin repatriasiyası ilə bağlı təcrübəsi formalaşmışdı.

2021-ci il fevralın 2-də dövlətimizin başçısı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncam imzalamışdır. Sərəncama əsasən, 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair reallaşdırılmalı olan 5 milli prioritetdən biri işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışdır. Sənəddə bununla bağlı deyilir: "Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu Böyük qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır" [1].

Sərəncama əsasən, milli prioritetlərə uyğun olaraq "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" hazırlanmış və 2022-ci il iyulun 22-də təsdiq edilmişdir. "Azərbaycan Respublika-

sının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” isə “İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış” Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə hazırlanmış və 16 noyabr 2022-ci il tarixdə dövlət başçısı tərəfindən təsdiq edilmişdir.

İşğaldan azad olunmuş ərazilərin dayanıqlı məskunlaşması çərçivəsində Böyük Qayıdışa dair I Dövlət Proqramında qarşıya qoyulan məqsədlərə uyğun olaraq bu gün işğaldan azad edilmiş ərazilərdə yüksək standartlara cavab verən yaşayış məntəqələri, o cümlədən “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyaları əsasında müasir şəhərlər və kəndlər salınır, etibarlı su, elektrik, qaz, istilik təminatı, habelə, bərpaolunan enerji mənbələrindən istifadəyə əsaslanan “yaşıl” texnologiyaların tətbiqi ilə “yaşıl enerji” zonası yaradılır, qabaqcıl standartlara uyğun təhsil, səhiyyə, sosial xidmət, yol-nəqliyyat infrastrukturu qurulur. O cümlədən geri dönən vətəndaşlarımızın məşğulluq imkanları, insan kapitalının inkişaf etdirilməsi, sosial dəstək mexanizmlərinin geniş tətbiqi kimi məsələlər də diqqət mərkəzindədir və hər bir məqsəd birinci növbədə əhalinin layiqli həyat şəraitinin təmin olunmasına xidmət edir.

Bütün bu məsələlər əsas götürülməklə dövlətimizin ərazilərin bərpası və əhalinin qayıdışına dair baxışı və qarşıya qoyduğu hədəflər dövlət proqramının prioritet istiqamətlərini təşkil edir. Belə ki, dövlət proqramının tərtibi zamanı mütərəqqi beynəlxalq təcrübə, strateji inkişaf tendensiyaları nəzərə alınmaqla 6 prioritet məqsəd müəyyən edilib. Bu prioritetlər “Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili”, “Ərazilərdə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və infrastrukturla təmini”, “Əhalinin geri qayıdışı və ərazilərdə dayanıqlı icmaların yaradılması”, “Ərazilərin inkişafına və reinteqrasiyasına dəstək göstərən strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması”, “Dayanıqlı məskunlaşma üçün ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası”, “Ərazilərdə ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi”dir [1].

Bu prioritet məqsədlər təsdiq edir ki, məcburi köçkünlərin repatriasiyası kompleks məzmun daşımaqla, çoxsaylı tədbirlər sistemindən ibarətdir.

Dekabrın 6-da ADA Universitetində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə keçirilən “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” forumu Azərbaycanın bu istiqamətdə gördüyü işləri dünyaya çatdırmaq baxımından böyük əhəmiyyət kəsb etdi.

“Biz əlimizdən gələni edirik ki, keçmiş məcburi köçkünlər üçün ən yaxşı şərait yaradılsın. Onlar buna layiqdirlər, çünki onlar 30 il ərzində çətin şəraitdə yaşayıblar. Burada söhbət təkcə fiziki durumdan getmir. Söhbət 30 il ərzində doğma evlərindən məhrum edilmiş insanların psixoloji vəziyyətindən gedir. Onlar geri qayıtmaq vaxtını gözləyirdilər və bu gün biz əraziləri azad etdiyimiz üçün əlimizdən gələn hər şeyi edirik ki, prosesi sürətləndirək”, – deyə Prezident İlham Əliyev forumda bildirmişdir [5].

## Müasir infrastrukturların yaradılması

Qarabağın və Şərqi Zəngəzurun kənd və şəhərlərinin yenidən qurulması, insanların doğma yurdlarına qayıdışı, burada məşğulluğun təmin edilməsi və yeni istehsal sahələrinin yaradılması üçün ilk növbədə tələblərə cavab verən infrastruktur mövcud olmalıdır. Təsadüfi deyil ki, azad edilmiş ərazilərdə ilk yenidənqurma işləri də məhz infrastrukturların bərpasından, yolların salınmasından, elektrik xətlərinin çəkilməsindən başlayıb.

Füzuli və Zəngilan beynəlxalq hava limanlarının, “Zəfər”, “Tərtər-Çaylı-Suqovuşan-Talış”, “Füzuli-Hadrut” yollarının, 16 su-elektrik stansiyasının, 12 elektrik yarımstansiyanın, yüzlərlə kilometrə çatan yüksəkgərginlikli elektrik verilişi xətlərinin inşası, Şuşa şəhərində 1 nömrəli tam orta məktəbin, Xarıbülbül, Qarabağ və Yasəmən hotellərinin, Şuşa Otel-Konqres Mərkəzinin, Laçın şəhərində 2 nömrəli tam orta məktəbin istifadəyə verilməsi

göstərir ki, infrastrukturların yaradılması istiqamətində işlər olduqca sürətli və dinamik gedir. Bir məsələni də qeyd etməliyik ki, istifadəyə verilən hər bir infrastruktur obyektində innovativ yeniliklərə, müasir texnologiyaların tətbiqinə xüsusi diqqət ayrılır.

Hazırda Horadiz–Cəbrayıl–Zəngilan– Ağbənd, Əhmədbəyli–Füzuli–Şuşa, Talış–Tap Qaraqoyunlu–Qaşaltı sanatoriyası, Bərdə–Ağdam, Qubadlı–Eyvazlı, Qubadlı–Mahmudlu–Yazdüzü–Ermənistan sərhədi, Hadrut–Tuğ–Azıx mağarası, Xudafərin–Qubadlı– Laçın, Ağdam–Füzuli, Ağdam–Hindarx–Ağcabədi yollarının, Bərdə–Ağdam və Horadiz–Ağbənd dəmir yolu xətlərinin, Laçın Beynəlxalq Hava Limanının tikintisi davam edir.

Tezliklə işğaldan azad edilən ərazilərdə tikilən su-elektrik stansiyalarının ümumi sayı 25-ə çatdırılacaq və onlardan 200 meqavata yaxın ekoloji cəhətdən təmiz, hidro "yaşıl enerji" istehsal etmək mümkün olacaq.

Dövlət proqramına əsasən, qarşıdakı illərdə azad edilmiş ərazilərdə yeni, o cümlədən rəqəmsal yarımstansiyaların şəbəkəsi genişləndiriləcək və bundan irəli gələrək elektrik verilişi xəttlərinin çəkilişi davam etdiriləcək.

Bütün bunlarla yanaşı, hazırda demək olar ki, bərpaolunan bütün şəhərlərdə məktəblər, xəstəxanalar, uşaq bağçaları və digər sosial və vətəndaşlara xidmət infrastrukturları yaradılır.

Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialının hərəkətə gətirilməsi və geri dönən vətəndaşların məşğulluğunun təmin edilməsi üçün azad edilmiş ərazilərdə iqtisadi subyektlərin yaradılması da dövlət tərəfindən təşviq olunur və İqtisadiyyat Nazirliyinin sahibkarlara dəstəyi ilə iri iqtisadi layihələr həyata keçirilir.

İndiyə kimi bu məqsədlə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının, Ağdam Sənaye Parkının, Laçın Aqro və Sənaye Parkının və Zəngilanda "Dost Aqropark"ın təməli qoyulub.

İnfrastrukturla bağlı işlərin miqyası olduqca əhatəli və məzmunludur. Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, 2026-cı ilin sonuna qədər azad edilmiş ərazilərdə bu istiqamətdə xeyli layihələr yerinə yetiriləcək ki, bütün bunlar da öz evlərinə qayıdan vətəndaşlarımızın rahatlığına və rifahına uğurla xidmət edəcək.

### Qayıdış prosesinin başlanması

2022-ci ilin iyul ayından Zəngilanın Ağalı kəndinə doğma sakinlərinin qayıdışı prosesi başlayıb. Artıq Ağalıda oturuşmuş və öz axarına düşmüş həyat var, kənd sakinlərinin yaşayış üçün bütün infrastruktur yaradılıb. Hazırda 175 ailənin və ya 871 nəfərin yaşadığı Ağalıda "ağıllı dövlət idarəçiliyi", "ağıllı infrastruktur" və xidmətlər, eyni zamanda "ağıllı təsərrüfat və biznes mühiti" yaradılıb. Kəndin enerjiyə olan tələbatı alternativ enerji mənbələrindən əldə edilir. Ağalıda 360 şagird yerlik məktəb və 60 yerlik uşaq bağçası da tikilib. Burada poçt, "ASAN xidmət" və DOST, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzləri təsis olunub. Kənddə tikiş fabriki, tibb məntəqəsi, aptek, mağaza, kafe, mobil operator xidməti də fəaliyyət göstərir.

Talış Ağalıdan sonra məcburi köçkünlərin qayıtdıqları ikinci kənddir. 2023-cü ilin mart ayında Tərtərin Talış kəndinin sakinlərinin doğma yurda qayıdışı təmin olunub. İlkin mərhələdə kəndə 20 ailə qayıdıb. Hazırda kənddə 20 ailə və ya 90 nəfər sakin yaşayır. Kənddə sakinlərin yaşaması üçün əlverişli şərait yaradılıb.

2023-cü ilin may ayında isə Laçın şəhərinin sakinləri 31 ildən sonra doğma evlərinə qayıdıblar. Azərbaycan Ordusunun nəzarətinə keçməsindən cəmi 9 ay sonra, 2023-cü ilin may ayında Prezident İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim edib. Cəmi 7–8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub. Bu gün Laçın şəhərində 363 ailə və ya 1389 nəfər sakin yaşayır. Bununla yanaşı, Laçın şəhərində bərpa və quruculuq işləri davam edir. Birinci mərhələdə şəhərdə 4 min nəfərə yaxın sakinin yaşaması nəzərdə tutulur.

Laçının Zabux kəndi də doğma sakinlərini qarşılayan yaşayış məntəqələri sırasındadır. Hazırda Zabuxda 121 ailə və ya 475 nəfər

sakin yaşayır. İlkin mərhələdə kənddə 223 ailə məskunlaşacaq.

İşğal dövründə ermənilərin tamamilə dağıtdığı və çoxsaylı minalar basdırdıqları Füzuli şəhəri də indi sürətlə yenidən qurulur. Füzuli şəhərinə 333 ailənin və ya 1186 nəfər sakinin qayıdışı təmin edilib. İlin sonuna qədər burada təqribən 2 minə yaxın insan yaşayacaq. Prezident İlham Əliyevin bu il oktyabrın 17-də Füzuli şəhər sakinləri ilə görüşdə qeyd etdiyi kimi, Böyük qayıdış proqramının birinci mərhələsinin sonunda – 2026-cı ilin sonunda Füzuli rayonunda 22 min nəfər yaşayacaq.

Böyük qayıdış proqramına uyğun olaraq ümumilikdə 1012 ailənin (4012 nəfər) işğaldan azad olunmuş ərazilərə köçürülməsi təmin olunub. Cari ilin sonunadək əlavə olaraq 200-ə yaxın ailənin köçürülməsi gözlənilir.

Hazırda Şuşa, Ağdam, Füzuli, Laçın, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər şəhərlərində, Şuşa rayounun Daşaltı kəndində, Xocavəndin Hadrut qəsəbəsində və Tuğ kəndində, Laçının Zabux kəndində bərpa və quruculuq işləri davam edir. Ermənilərin tamamilə dağıtdığı Ağdam, Füzuli, Laçın, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər şəhərləri yenidən qurulur.

Sözügedən şəhər və kəndlərlə yanaşı, Füzuli rayonunun Dövlətyarlı, Pirəhmədli, Dədəli kəndləri, Qarğabazar, Cuvarlı və Qoçəhmədli kəndlərinin, Cəbrayıl rayonunun Xudafərin qəsəbəsinin, Şükürbəyli və Horovlu kəndlərinin, Laçın rayonunun Güləbird, Şəlvə kəndlərinin və Qorçu qəsəbəsinin, Ağdam rayonunun Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin, Qubadlı rayonunun Xanlıq və Mahrızlı kəndlərinin, Kəlbəcər rayonunun Yanşaq, Zallar və Zar kəndlərinin, Zəngilanın Cahangirbəyli kəndinin də təməlləri qoyulub. O cümlədən işğaldan ilk azad edilən Suqovuşanda bərpa və quruculuq işləri aparılmaqdadır. “Ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyaları əsasında bərpa edilən şəhər və kəndlərimiz ən müasir və əlçatan infrastrukturlara malik olacaq.

Keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışlarını təmin etmək üçün hər bir rayon üzrə kənd və qəsəbələrin bərpası həyata keçirilir. Əlbəttə, ki, azad edilmiş ərazilərin bərpası yalnız evlərin tikintisi ilə məhdudlaşa bilməz. Ona görə bu gün Qarabağ və Şərqi Zəngəzurda həm də infrastrukturlar yenidən qurulur, iqtisadi fəaliyyət sahələri yaradılır, ermənilərin məhv etdiyi təbiətimiz bərpa edilir.

Bütövlükdə, Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərinin miqyası kifayət qədər əhatəli və böyükmiqyaslıdır. 2023-cü ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzurun bərpasına son 3 ildə ayrılmış vəsaitlərin həcmi 12 milyard manata çatacaq.

Prezident İlham Əliyev müxtəlif tədbirlər çərçivəsində və işğaldan azad edilmiş rayonlara səfərlər zamanı həmin ərazilərin bərpası və görüləcək işlər barədə ictimaiyyətə müfəssəl məlumatlar verir. Noyabrın 24-də Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə bu mövzuya toxunan Prezident İlham Əliyev deyib: “Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Biz sıfırdan yeni şəhərlər və kəndlər inşa edirik. İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpa edilməsi nəzərdə tutulur. Keçmiş məcburi köçkünlər Böyük qayıdış proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq” [4].

## Qərbi Azərbaycana Qayıdış Konsepsiyası

Структура, функции, формы и технологии национальной культуры совершенствуются в соответствии с новым пониманием ее сущности и миссии. Политики и управленцы стремятся к обеспечению востребованности в общественном сознании растущего понимания ценности науки, образования и просвещения, как непременного условия успешного человеческого и национального развития. Необходимое внимание в этом процессе уделяется как формированию общечеловеческих ценностей, так и культурной идентичности азербайджанских граждан, основанной на патриотизме, высоких интеллектуальных и нравственных ценностях знания и созидания, добра, гуманизма, этики и справедливости, поставленных на службу сохранения и устойчивого развития всего человечества [9].

### О культуре международных отношений и переходе к человеку типа «Homo culturalis»

Жизнь диктует необходимость усиления внимания к вопросам сохранения и развития духовной культуры и развития культурологического образования и просвещения во всем мире. Понимание ценности духовной культуры и формирования высококультурных людей, необходимости спасения мира за счет позитивной трансформации сознания и культуры людей, являющейся источником их поведения, очень важно для развития культуры международных отношений.

Напряженные отношения и несправедливые решения в международной политике нередко обусловлены тем, что, к сожалению, многие проблемы рассматриваются сквозь призму не духовной культуры личности и культурной идентичности, а религиозной принадлежности и идентичности людей. В интересах сохранения человечества необходимо сделать высокую духовную культуру базовым критерием для оценки человека. Это позволит избежать психологической антитезы «свой-чужой», ведущей к несправедливым решениям и противостояниям народов и государств. В отношениях между народами и государствами духовная культура должна служить миротворческим фактором, регулирующим человеческие и международные отношения. Способствуя гармонизации интересов на основе духовного родства, приоритета высокой нравственной культуры, гуманизма, человечности и ценности самой жизни, она помогает предотвращать конфликты.

Принимая во внимание незаменимое значение культурологии для устойчивого человеческого развития, представляется целесообразным введение обязательного преподава-ния науки о культуре на всех уровнях системы образования современных государств, а также организация культурологического просвещения народов при помощи специальных программ телевидения, радио и специальных культурологических лекториев, организации «телевизионных мостов сближения и взаимообогащения культур».

В условиях постоянных изменений и вызовов времени, нередко обусловленных диалектическим противоречиями жизни и ошибочными решениями в управлении, национально-культурное развитие цивилизованных стран во многом зависит от

успехов в преодолении человеческого сверхэгоизма, с одной стороны, и невежества – с другой. Эффективность этого процесса, строящегося на основе общественных и государственных интересов, во многом зависит от способности объединения усилий и сотрудничества различных государств в целях разумной трансформации современной техногенной цивилизации в гуманистическую, основанную на гармоничном развитии интеллектуальной и нравственной культуры, взаимопонимании, международной культурной идентичности и сотрудничестве.

Актуальной международной задачей является переход современной цивилизации от человека «Homo sapiens» к человеку «Homo culturalis», воплощающему в себе гармонич-ное развитие двух крыльев духовной культуры – интеллектуальной и нравственной [23]. Для успешного решения этой задачи, как условия устойчивого развития человечества, необходима перманентная аккультурация и инкультурация населения, повсеместное распространение в разных странах универсальных культурологических знаний. Продуктив-ности этого процесса может способствовать целенаправленное создание государствами этих стран культурологических центров, детских садов, школ, гимназий, университетов и академий.

### Об универсальных культурологических постулатах управления развитием культуры

Одной из стратегически важных национальных и международных задач сегодня является разработка универсальных культурологических постулатов управления развитием духовной культуры, отвечающих интересам устойчивого развития и гуманитарной безопасности. В настоящем концептуальном подходе, в качестве постулатов устойчивого развития организации, общества, государства и всего человечества, предлагается рассмотреть целесообразность перехода: от соперничества и манипулирования – к солидарности и сотрудничеству; от противоречий – к гармонии и согласованию интересов; от власти должности – к власти знаний и этики; от некомпетентного управления – к профессионализму и ответственности [21].

По-видимому, для успешного решения перечисленных государственных задач необходимо поднять роль и качество культурологического образования и просвещения в формировании нового мышления и системного подхода к культуре управления [4], шире использовать культурологическую методологию в процессах анализа практических проблем и создания новых организационных структур, основанных на правильном понимании и эффективном использовании преобразовательных возможностей духовной культуры.

Правильное понимание феномена культуры, как социальной системы, творческое использование преобразовательных возможностей науки о культуре для перманентного осуществления прогрессивных культурологических реформ, развитие культурологического образования и просвещения людей, научно обоснованный выбор стратегий, целей и технологий управления – надежный путь к устойчивому развитию общества, государства и всего человечества.

**Литература:**


1. Гейдар Алиев. Избранные идеи и высказывания. http://open.az/2008/05/10/aforizmy-gejjdara-alieva.html
2. İlham Əliyev. İnkişaf – məqsədimizdir. 1-3 cildlər. Bakı, 2008-2009.
3. Алакбаров Урхан. Основы человеческого развития. Баку: Aspoliqraf, 2017.
4. Атаманчук Г.В. Теория государственного управления. Москва, 2004.
5. Ильин И.В., Лось В.А., Урсул А.Д. Устойчивое развитие и глобальные процессы. Москва: Издательство Московского университета, 2015.
6. Мамедов Фуад. Высококультурный азербайджанец, как возобновляемый стратегиче-ский ресурс национального развития. Dövlət idarəçiliyi. 2021. №4, с.159-170.
7. Мамедов Фуад. К вопросу о задачах, технологиях и методологии формирования новой гуманистической цивилизации // «Партнерство цивилизаций», №1-2, 2020, с. 85-94.
8. Мамедов Фуад. Концепция культурологических реформ в Азербайджане // Dövlət idarəçiliyi. 2021. №2, с.121-134.
9. Мамедов Фуад. Концепция развития духовной культуры Азербайджана // Dövlət idarəçiliyi. 2022. №4, с.135-154.
10. Мамедов Фуад. Культура как условие и основа устойчивого развития. – В сб.: «Межкультурное взаимодействие России и Китая: глобальное и локальное измерение: коллективная монография / отв. ред. А. Н. Чумаков, Ли Хэй» – Москва: Проспект, 2019. - 224 с., с.56-65.
11. Мамедов Фуад. Культурология, культура, цивилизация. Баку, 2015.
12. Мамедов Фуад. Культурология, образование и национальное развитие // «Ali təhsil və cəmiyyət», № 2, 2012, с. 54-62.
13. Мамедов Фуад. Культурология: ответы на вызовы XXI века. Казань, 2019.
14. Мамедов Фуад. О смыслах и преобразовательных возможностях науки о культуре // Dövlət idarəçiliyi. 2023. №3, с.109-122.
15. Мамедов Фуад. О ценности духовной культуры для устойчивого развития человечества. - «Теория и стратегия диалога и партнерства цивилизаций в социокультурной сфере при ведущей роли ЮНЕСКО». Монография (Научн. ред. Ю.В. Яковец, С.Н. Фарах, Ю.Н. Саямов). Москва: МИСК, 2020. – 338 с., с. 165-180.
16. Мамедов Фуад. Образование и устойчивое развитие // Dövlət idarəçiliyi. 2021. №1, с.121.
17. Мамедов Фуад. Системный культурологический подход к государственному управлению // Dövlət idarəçiliyi. 2011. №1(33), с.158-167.
18. Оствальд Вильгельм. Философия природы. СПб., 1903.
19. Работы Лесли Уайта по культурологии: (Сб. переводов). Москва, 1996.
20. Риккерт Г. Науки о природе и науки о культуре. СПб., 1911.
21. Служение развитию духовной культуры. Коллективная монография Ассоциации культуры Азербайджана «Симург». Баку, «OL» MMC, 2023.
22. Сорокин П.А. Человек. Цивилизация. Общество. Москва, 1992.
23. Сухейль Фарах, Фуад Мамедов. Диалоги с мудрецами. Монография. Москва: ИД Академии Жуковского, 2023.
24. Тагиров Э.Р. Феномен культуры на фоне разлома истории. Казань, Логос-Пресс, 2023.
25. Тагиров Энгель. Планетарная цивилизация в зеркале глобалистики. Казань:

«Татарское книжное издательство», 2014.
26. Тойнби Арнольд. Постижение истории. Москва, 1991.
27. Шпенглер Оствальд. Закат Европы. В 2-х томах. т.1, Москва, 2003, т.2, Москва, 2004.
28. Яковец Ю.В. История цивилизаций. Москва, Издательство «Владос», 1997.

***Ключевые слова:*** *наука о культуре, системный культурологический подход, культурологическое образование, культурологическое просвещение, высококультурный человек, культура международных отношений, культурологические постулаты*

**Fuad Məmmədov**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçılık Akademiyasının*
*Tarix kafedrasının professoru, tarix elmləri doktoru,*
*“Simurq” Azərbaycan mədəniyyət Assosiasiyasının prezidenti*

## KULTUROLOJİ TƏHSİL VƏ İNSANIN, CƏMİYYƏTİN VƏ DÖVLƏTİN DAVAMLI İNKİŞAFI

### XÜLASƏ

Məqalədə, cəmiyyətin və dövlətin davamlı inkişafına yönəlmiş mütərəqqi sosial transformasiyalarda, mədəniyyət haqqında elmin, kulturoloji təhsilin və kulturoloji maarifin rolu açıqlanır. Mədəniyyət fenomeninin, sosial sistem kimi, düzgün dərk edilməsinin rolu açıqlanır, bərpa olunan strateji resurs və cəmiyyətin davamlı və təhlükəsiz inkişafının əsas hərəkətverici qüvvəsi olan, yüksək mədəniyyətli insanların formalaşması və inkişafının zəruriliyi vurğulanır, mədəniyyətlərin yaxınlaşması və beynəlxalq əməkdaşlığın mühüm şərti kimi göstərilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəsiyyətlərinə əsaslanan və mədəniyyət haqqında elmin nailiyyətlərini nəzərə alan Azərbaycan Respublikasının yeni sosial-mədəni inkişafı strategiyasına qiymət verilir. Davamlı inkişafın universal mədəni postulatları təklif olunur.

***Açar sözlər:*** *mədəniyyət haqqında elm, sistemli kulturoloji yanaşma, kulturoloji təhsil, kulturoloji maarif, yüksəkmədəniyyətli insan, beynəlxalq münasibətlər mədəniyyəti, kulturoloji postulatlar.*

**Fuad Mammadov**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Doctor of History, Professor, President of Simurg Association of Azerbaijan Culture*

# CULTURAL EDUCATION AND SUSTAINABLE DEVELOPMENT OF THE PERSON, SOCIETY, AND STATE

## ABSTRACT

The article reveals the role of the science of culture, cultural education, and enlightenment in progressive social transformations aimed at the sustainable development of society and the state. The role of a correct understanding of the phenomenon of culture as a social phenomenon is emphasized, as is the need for the formation and development of highly cultural people, who are a renewable strategic resource and the main driving force for the sustainable and safe development of society, an important condition for the rapprochement of cultures and the international cooperation system. An assessment is given of the new strategy for the socio-cultural development of the Azerbaijan Republic, formed under the leadership of the President of the Azerbaijan Republic, Ilham Aliyev, based on the behests of the National Leader of the Azerbaijani people, Heydar Aliyev, and the achievements of cultural science. Universal cultural postulates of sustainable development are proposed.

***Keywords:*** *science of culture, systemic culturological approach, culturological education, cultural education, highly cultured person, culture of international relations, culturological postulates*

DOI 10.30546/2309-1347.84.2023.133

## SİYASİ NƏZƏRİYYƏ
## POLITICAL THEORY

UOT 328; 342.5; 351/354

**SEVDA ƏLİYEVA (ƏHƏDOVA)**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının professoru, siyasi elmlər doktoru**

*e-mail: ahadova-sevda@mail.ru*

# AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL-HUMANİTAR SAHƏLƏRİN İNKİŞAFININ GENDER ASPEKTLƏRİ

**Giriş**

Müasir dünyada real cinslərarası bərabərliyə nail olunması dövlətlərin siyasi strategiyasının başlıca istiqamətlərindən biri kimi nəzərdən keçirilir. Gender bərabərsizliyinin aradan qaldırılması sahəsində son illərdə həyata keçirilmiş tədbirlər sayəsində Azərbaycan Respublikası bir çox göstəricilərə görə lider ölkələrin səviyyəsinə yaxınlaşmışdır. Bununla yanaşı ölkəmizdə gender bərabərliyinin təmin olunması sahəsində hələ də öz həllini göstərən problemlər mövcuddur. Bu isə ilk növbədə ölkədə gender münasibətləri sahəsində vəziyyətin hərtərəfli təhlilini, bu sahədə ölkənin göstəricilərinin dünyada və başqa ölkələrdəki vəziyyətlə müqayisəli şəkildə öyrənilməsini tələb edir.

Təqribən otuz il ərzində Azərbaycan Respublikasının torpaqlarının işğal altında olması, keçid dövrünün obyektiv və subyektiv amilləri ölkədə bütün sahələrin inkişafına öz təsirini göstərmişdir. Lakin mövcud çətinliklərə baxmayaraq Azərbaycan öz inkişafında mühüm uğurlar əldə etmiş, son iyirmi ildə ölkə iqtisadiyyatı 3 dəfə artmışdır. Təbii ki, iqtisadi inkişafın yaratdığı imkanlar da kimi, sosial-humanitar sahələrin də dirçəldilməsinə şərait yaratmışdır. Düzdür, 2020-ci ildə başlamış və fəsadları bu gün də hiss olunan COVID-19 pandemiyasının yaratdığı sosial-iqtisadi böhran bütün ölkələrdə olduğu kimi Azərbaycanda qadınların ən çox cəlb olunduğu sosial-humanitar, mədəni sahələrin vəziyyətinə mənfi təsir göstərsə də, Azərbaycan hökumətinin həyata keçirdiyi genişmiqyaslı tədbirlər mənfi proseslərdən təsirini yumşaltmağa imkan vermişdir. Xüsusən, Qarabağın işğalına son qoyulması, torpaqlarımızın bütövlüyünün təmin edilməsi ölkədə gender bərabərliyi ilə bağlı problemlərin uğurlu həllinə inam yaradır.

Məqalədə Azərbaycan Respublikasında sosial və humanitar sahələrin gender amilləri ümumiləşdirilir və təhlil edilir, müsbət və mənfi tendensiyalar işıqlandırılır. Mədəniyyət, təhsil, elm, səhiyyə sahələrində gender bərabərsizliyinə gətirib çıxaran əsas problemlər nəzərdən keçirilir, gender bərabərsizliyinin azaldılması üçün tövsiyə və təkliflər irəli sürülür.

Bu gün Azərbaycan qadını ictimai həyatın bütün sferalarında – siyasi, sosial-iqtisadi, elmi, səhiyyə, mədəniyyət, incəsənət, təhsil və s. sahələrdə çalışır, ölkəmizi dünyada layiqincə təmsil edir. Dövlət Statistika komitəsinin məlumatına görə, hazırda ölkəmizdə əhalinin 51%-ni qadınlar təşkil edir. Orta yaş həddi

75.1 ildir ki, bu da kişilərin orta yaş həddindən 5.4 il artıqdır. Bu gün qadınlarımızın 49.5%-i əmək fəaliyyəti ilə məşğuldur.

Sosial-mədəni sahələrin inkişafının gender aspektlərinin təhlilinə keçməzdən əvvəl beynəlxalq təşkilatların hesabatlarında Azərbaycan Respublikasının tutduğu yerini müəyyənləşdirməyə çalışaq. ÜİF-nin QGBİ-nin (WEF Gender Gap Report) hesabatında gender bərabərsizliyi ümumi indeksinə gərə Azərbaycan Respublikası 100-cü, iqtisadi iştirakçılıq və imkanlar subindeksinə (altgöstəricisinə) görə dünya reytinqində Azərbaycan Respublikası 36, təhsilə görə 62, sağlamlıq (səhiyyə) və sağqalma imkanlarına görə 154, siyasi təmsilçilik subindeksinə görə isə 141-ci yeri tutur [21].

ÜİF QGBİ-nin Regionlar üzrə Qlobal Gender Bərabərsizliyi İndeksində (The Global Gender Gap Index rankings by region, 2021) Azərbaycan "Şərqi Avropa və Mərkəzi Asiya" regionunun 26 ölkəsi arasında 0.688 balla 23-cü yerdədir [21].

Təhsil səviyyəsinə gəldikdə isə Şərqi Avropa və Mərkəzi Asiya regionunda gender bərabərsizliyi demək olar ki, aradan qaldırılmışdır ((99%), 26 ölkədən 23-də isə hətta 99,6% təşkil edir. 2021-ci ilin hesabatına görə Şərqi Avropa və Mərkəzi Asiya sağlamlıq və sağqalma subindeksinə görə gender bərabərsizliyini xeyli azaltmağa nail olmuşlar və bu orta hesabla 97,7% təşkil edir. Əksər ölkələrin indeksi 95%-dən yuxarıdır. 2020-ci ildə bu göstəricinin ən aşağı olduğu Azərbaycanda tərəqqi müşahidə edilmiş və ölkəmizdə bu sahədə gender bərabərsizliyi 93,9% təşkil etmişdir.

Qlobal reytinqdə MDB ölkələri arasında ən yüksək yeri Belorus (29), Ukrayna (59), Qazaxıstan (72) tuturlar. Rusiya 81 yerlə postsovet ölkələri arasında ən aşağı yerlərdən birindədir. MDB ölkələrində təhsil sahəsində gender bərabərliyi indeksi yüksək olsa da bazar iqtisadiyyatının təsiri altında əmək bazarından qadınların sıxışdırılıb çıxarılması onların gender bərabərsizliyi ilə əlaqədar reytinqlərinə mənfi təsir göstərir. Nəticədə məşğulluq sahəsində gender differensasiyası təhsil sahəsindəki vəziyyəti arxa plana keçirir.

ÜİF-nun gender bərabərsizliyinin aradan qaldırılması ilə bağlı proqnozları da maraq doğurur. 2020-ci ilin hesabatına görə gender bərabərsizliyinə yalnız təqribən 99,5 ildən sonra nail olunacaqdır. İqtisadi iştirak və karyera imkanları sahəsində bərabərsizlik azaltmaq sahəsində tərəqqiyə nail olunmayacağı halda bu müddətin 257 ilə çata biləcəyi proqnozlaşdırılırdı [21; 15].

Cinslər arasında bərabərliyin təmin olunması üçün ən nikbin proqnoz təhsil sahəsi ilə bağlıdır ki, burada gender bərabərsizliyini növbəti 12 ilə ərzində neytrallaşdırılması gözlənilir. Bunun da əsas səbəblərindən biri inkişaf etməkdə olan ölkələrdə təhsil sahəsində son illərdə qazanılmış uğurlarla bağlıdır [16].

ÜİF-nun 156 ölkə üzrə Gender Bərabərsizliyi İndeksinə dair 2021-ci il Hesabatında (World Economic Forum: Global Gender Gap Report 2021.) ilk 5 yeri Şimali Avropa ölkələri (İslandiya, Finlandiya, Norveç, İsveç (5-ci yer) və Yeni Zelandiya (4-cü yer) tutmuşlar (İndeks 0.892 – 0.823) [14, p.18]. Qadın və kişilər arasında bərabərsizliyin azaldılması üzrə lider artıq 12 ildir ki İslandiyadır. Bu ölkə ümumi gender bərabərsizliyini 89.2%-ə çatdıraraq əvvəlki illərin nəticələrini (2020-ci ildə 87.7%) də geridə qoymuşdur. Qeyd edildiyi kimi, Azərbaycan bu siyahıda 0.688 indekslə 100-cü olmuşdur. Yunanıstan, Macarıstan və İndoneziya kimi ölkələr ölkəmizlə yanaşı yerləri tutmuşlar [14, p.18, 107]. Qeyd edək ki 2014-cü ildə Azərbaycan ÜİF Gender Bərabərsizliyi İndeksində 0.6754 balla 143 ölkə arasında 94-cü sırada [19], 2020-ci il ildə də 0.687 balla yenə də 94-cü ildə idi [14, 20-21].

Etiraf etmək lazımdır ki, humanitar sahələrdə (təhsil, səhiyyə, mədəniyyət) Azərbaycanda gender bərabərliyinin yüksək olması (hətta bəzi hallarda qadınların xeyrinə olması, məsələn, mədəniyyət və məktəbəqədər təhsil sahələrində onlar üstünlük təşkil edirlər) sovet dövründə qadınların ictimai həyata geniş cəlb edilməsi ilə əlaqədar idi.

Azərbaycan Respublikasında təhsil sahəsində gender amili bir sıra səciyyəvi cəhətləri ilə fərqlənir.

Təhsilin Beynəlxalq Standart Təsnifatına (TBST 2011) uyğun olaraq hazırlanmış məlumatlara əsaslanaraq qeyd etmək olar ki, təhsil pillələri üzrə şagirdlərin və tələbələrin cins bölgüsü göstəricilərinə görə Azərbaycan Respublikasında vəziyyət dünya səviyyəsinə uyğundur. Belə ki, TBST 2011-in 1-ci pilləsi (ibtidai təhsil) üzrə təhsil alanların 47 faizini qadınlar, 53 faizini kişilər, 2-ci və 3-cü pillələr üzrə (orta təhsil) müvafiq olaraq 46 və 54, 5-8-ci pillələr üzrə (3-cü səviyyəli təhsil, ali və orta ixtisas təhsili) təhsil üzrə isə 49 və 51 faiz təşkil edir [7, s.107].

Göründüyü kimi, əhalinin cinsi strukturunda qadınlar (51%) üstünlük təşkil etsələr də, təhsilin bütün pillələrində bu balans kişilərin xeyrinə dəyişir. Müqayisə üçün qeyd edək ki, Türkiyədə son pillə üzrə göstəricilər tamam fərqlidir: qadınlar 63 faiz, kişilər 37 faiz, halbuki, aşağı pillələr üzrə kişilərin və qadınların faizi ölkənin ümumi cins üzrə bölgüsünə ümumən uyğun gəlir.

2019-cu ildə ölkənin ali təhsil müəssisələrinə qəbul olunmuş tələbələrin cins üzrə bölgüsünün təhlili ölkənin müxtəlif bölgələri üzrə müxtəlif vəziyyət olduğunu göstərir. Bakı şəhəri üzrə bu göstərici qadınlar 49.95, Gəncə-Qazax iqtisadi rayonu üzrə 56.1%, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 54.7%, Lənkəran iqtisadi rayonu üzrə 43.6%, Quba-Xaçmaz iqtisadi rayonu üzrə 53.5%, Aran iqtisadi rayonu üzrə 48.5%, Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 49.6%, Kəlbəcər-Laçın iqtisadi rayonu üzrə 46.7%, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 48.3%, Naxçıvan Muxtar Respublikası üzrə 48.6% təşkil edir. (Azərbaycan Respublikası üzrə 49.9.%) [7, s.108-110].

Ölkədə qanunvericiliklə təhsildə gender bərabərliyi tam təsbit olunmuşdur. Gender vəziyyətinin mühüm göstəricisi olan savadlılıq səviyyəsinə görə Azərbaycan dünya ölkələri arasında liderlər sırasındadır. 15 və yuxarı yaşda əhalinin savadsızlıq əmsalı ölkədə qadınlar arasında 0.3 faiz, kişilər arasında 0.1 faiz, gənclərin savadsızlıq əmsalı qadınlar arasında 0.1, kişilər arasında 0.0 faiz təşkil edir [7, s.99]. Dünyada 15-24 yaşa arası qızların 10% savadsız olduğu bir dövrdə bu kifayət qədər yüksək göstəricidir. Müqayisə üçün Türkiyədə bu rəqəmlər 6.5, 1.2 və 0.4, 0.1 faizdir. Azərbaycan bu göstəricilər üzrə AB-nin üzvü olan Yunanıstanı (bu ölkədə yuxarıda qeyd olunan göstəricilər müvafiq olaraq 2.6, 1.5 və 0.9, 0.7 faiz təşkil edir) qabaqlayır.

2019/2020-ci tədris ilinin əvvəlinə təhsil növləri üzrə şagirdlərin və tələbələrin cins üzrə bölgüsündə ümumi təhsil müəssisələrində qadınlar 46.7%, peşə təhsili müəssisələrində 45.5%, orta ixtisas təhsili müəssisələrində 64.1%, ali təhsil müəssisələrində və doktoranturada 48.8% təşkil edirdi [7, s.102]. 2019/2020-ci tədris ilinin əvvəlinə dövlət ali təhsil müəssisələri tələbələri arasında qadınların xüsusi çəkisi 48,5 faiz, kişilərin xüsusi çəkisi isə 51,5 faiz olmuşdur. Qadınlar əsasən pedaqoji, mədəniyyət və incəsənət, eləcə də təbiət elmləri ixtisaslarına üstünlük verirlər [7, s.106]. Təhsildə gender bərabərliyi indeksi 2019-cu ildə məktəbəqədər təhsildə 0,878, ümumi təhsildə 0,876, orta ixtisas təhsilində 1,783, al təhsildə 0,949 təşkil etmişdi [7, s.101].

Qadın və qızların təhsilə və ixtisas hazırlığına əlçatarlığı sahəsində Azərbaycanda gender bərabərliyi demək olar ki, təmin olunub. Ancaq bununla yanaşı, əksər ölkələrdə olduğu kimi Azərbaycanda da ali texniki və təbii fənlər üzrə təhsil alanlar arasında qadınların sayı xeyli aşağıdır və əksinə, ibtidai təhsil müəllimləri arasında onlar sayca üstünlük təşkil edirlər.

Təhsil sahəsində sovet dövründə qadınların üstünlüyü müstəqillik dövründə də davam etmişdir. Məktəbəqədər təhsil müəssisələrində işləyən müəllimlərin 99.8%, ibtidai təhsil müəssisələri müəllimlərinin 93.4%, ümumi orta və tam orta təhsil müəssisələri müəllimlərinin 76.4%, bütövlükdə təhsil sahəsində çalışanların 87.7% qadınlardır [7, s.115]. Dünya üzrə təhsil sahəsində işləyənlərin 65.4%-ni qadınlar təşkil edirlər.

Hazırda dövlət əyani ümumi təhsil müəssisələrində müəllimlərin 81%ni qadınlar, 19%-i kişilər (qeyri-dövlət əyani ümumi təhsil müəssisələrində müvafiq olaraq 82% və 18%) təşkil edir. Orta ixtisas təhsili müəssisələrində çalışan müəllimlərin 79% qadınlardan, 21% kişilərdən ibarətdir. Ali təhsil müəssisələrində də onlar üstünlük təşkil edirlər (dövlətə məxsus ali məktəblərdə 55%, qeyri dövlət ali təhsil müəssisələrində 52%) [7, s.24].

Təhsil sistemində qadınların sayca üstünlük təşkil etməsi, bir tərəfdən hələ sovet dövründə formalaşmış "müəllimlik kişi peşəsi deyil" yanlış stereotipi ilə bağlıdırsa, digər tərəfdən, təhsil sahəsinin azmaaşlı sahə olması ucbatından kişilər üçün cəlbedici olmaması ilə bağlıdır. Əslində, ibtidai və orta məktəblərdə kişi müəllimlərin azlığı oğlan uşaqlarının mənəvi tərbiyəsinə, psixoloji dünyagörüşünün, mənliyinin formalaşmasına mənfi təsir göstərir.

Təhsil sahəsində müəllimlər arasında gender nisbəti qadınların xeyrinə olsa da, təhsil müəssisələrinə rəhbərlikdə, qərar qəbuletmə səviyyəsində gender bərabərsizliyi, "kişilərin hökmranlığı" hələ də davam etməkdədir. Özü də bu təhsilin bütün pillələrində özünü göstərir.

2019-cu ildə qadınlar tam orta təhsil müəssisələri direktorlarının 38.1 faizini təşkil edirdilər. Bu zaman direktor müavinlərinin 57 faizi qadınlardan ibarət idi [7, s.111]. Dövlət ali təhsil müəssisələrində rektorlar 90.2 %, prorektorların, filial direktorlarının 81.1%, fakültə dekanlarının 73.5%, kafedra müdirlərinin 73.3%, professorların 79.2%, dosentlərin 51.7% kişilərdir. Halbuki yuxarıda qeyd edildiyi kimi, kişilər ümumi təhsil müəssisələrində müəllimlərin cəmi 19%-ni, ali məktəblərin professor müəllim heyətinin cəmi 45% təşkil edirlər. Təqribən eyni vəziyyət qeyri-dövlət ali təhsil müəssisələrində də mövcuddur [7, s.24, 112]. Qadınların üstünlük təşkil etdiyi səhiyyə və sosial xidmətlərdə, təqaüd təminatında da bənzər durum mövcuddur. Bu da onu göstərir ki, əməyin daha yüksək ödənildiyi vəzifələrdə, əsasən kişilər çalışırlar [1, s.206].

Azərbaycanda elm sahəsində son otuz ildə gender amili nəzərə alınarsa ciddi kəmiyyət dəyişiklikləri baş verməkdədir. Ölkənin elmi-tədqiqat institutlarında qadınlar kişilərlə bərabər fəal elmi işlə məşğul olurlar. Bütövlükdə, elm sahəsində çalışanlar arasında qadınlar 53 faiz təşkil edir ki, bu da bir sıra inkişaf etməkdə olan ölkələrdəki səviyyəyə yaxındır [10, s.22]. 2012-ci ilin məlumatlarına əsasən, ölkənin aparıcı elmi müəssisəsində – Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) çalışan 9937 əməkdaşın 5521 nəfəri, habelə 33 institut direktorundan 7-si, 545 elmlər doktorundan 106-sı, 4694 nəfər elmi işçidən 2342-si qadınlar idi [13, s.36]. Sovet hakimiyyətinin son ilində - 1991-ci ildə Azərbaycanda 2339 qadın, 6566 kişi fəlsəfə doktoru (elmlər namizədi) var idisə, 2020-ci ildə bu rəqəm müvafiq olaraq 5181 və 5658 təşkil etmiş [7, s.25], nəticədə 30 il ərzində qadın və kişi fəlsəfə doktorları arasındakı 3 mislə çatan say fərqi demək olar ki, aradan qalxmışdır. Bunun əsas səbəblərindən biri elm sahəsində maaşların az olmasıdır. 2020-ci ilin əvvəlinə fəlsəfə doktoru proqramı üzrə təhsil alanların 56%, elmlər doktoru proqramı üzrə təhsil alanların isə 51.6% qadın idi. Elm sahələri üzrə: humanitar elmlər üzrə tədqiqat aparanların 69%, tibb elmləri 57.7%, təbiət elmləri üzrə 59.5%, kənd təsərrüfatı elmləri üzrə 37.2%, texnika elmləri üzrə 49.6%, ictimai elmlər üzrə 54.4% qadınlar təşkil edirdi [7, s.117]. Kişilər ənənəvi olaraq ailənin əsas qazanc gətirəni olduqlarından, elmə gələn kişilərin sayı getdikcə azalmaqdadır. Elmlər doktorları arasında isə kişilərin üstünlüyü hələ də davam etməkdədir. 1991-ci ildə ölkədə 120 qadın, 1066 kişi elmlər doktoru var idisə, 2020-ci ildə bu rəqəmlər müvafiq olaraq 478 və 1981 təşkil etmişdir [7, s.25]. Akademik və müxbir üzvlər arasında da qadınların sayı çox azdır, 68 akademikdən 8-i, 94 müxbir üzvdən 11-i qadındır [7, s.122]. Fəlsəfə doktorları ilə müqayisədə elmlər doktorları, müxbir üzvlər, akademiklər arasında qadınların az olması onların fəlsəfə doktoru elmi dərəcəsi aldıqdan sonra ailə-məişət qayğıları ilə daha çox

yüklənmələri və elmlə məşğul olmağı dayandırmaları ilə də izah oluna bilər.

1990-cı illərin əvvəllərində planlı sovet sisteminin dağılması, bazar iqtisadiyyatına keçid əmək bazarında rəqabətin genişlənməsinə, qadınların əmək haqlarının daha aşağı olduğu mövqelərə yuvarlanmalarına və son nəticədə ölkədə sosial-humanitar sahələrlə iqtisadi sahələr, əmək bazarı arasında gender bərabərsizliyinin dərinləşməsinə gətirib çıxardı. Sosioloqlar bunu "patriarxal intibah" dövrü kimi də səciyyələndirirlər. Təbii ki bu bərabərsizliyin dərinləşməsində sosial-iqtisadi amillərlə yanaşı, mental ənənələr ("kişi çörək qazanmalı, qadın isə evə və uşaqlara baxmalıdır") də az rol oynamırlar.

Sağlam ömür uzunluğu (Healthy Life Expectancy Index) dünya ölkələrində gözlənilən ömür uzunluğunun əsas orta göstəricisidir. Bu indeks bu və ya digər ölkədə əhalinin sağlamlığının və həyat keyfiyyətinin ümumi vəziyyətini, milli səhiyyə sisteminin və sosial siyasətin səmərəlilik səviyyəsini dəqiq xarakterizə edir [20]. Ümumdünya Səhiyyə təşkilatının (ÜST / World Health Organization (WHO) dünya ölkələrində sağlam ömür uzunluğunun səviyyəsinin ölçülməsi məqsədi ilə apardığı tədqiqatda (World Health Organization: Healthy Life Expectancy Index 2018) bu göstəriciyə görə dünya ölkələri arasında ən yüksək reytinqə Sinqapur (ümumi ömür müddəti -76.2, kişilər - 74.7, qadınlar 77.6) və Yaponiyaya (müvafiq olaraq 76.2, 74.7, 77.6) malikdir. Azərbaycan bu göstəricilərə (müvafiq olaraq 64.9, 62.8, 66.9) görə 92-ci yerdə olub qonşu Gürcüstandan (64.9, 61.5, 68.4) bir pillə irəlidə idi. Ermənistan həmin siyahıda (66.3, 63,6, 68.7) 71-ci yer tutmuşdu [20]. Bütün dünyada olduğu kimi Azərbaycanda da qadınların kişilərə nisbətən daha çox ömür sürməsi yaşa görə pensiya alanlar arasında qadınların sayca çox olmasına gətirib çıxarır. Belə ki, 2020-ci ilin əvvəlinə ölkədə olan pensiyaçıların 60.7 faizini qadınlar təşkil edirdi. Bu zaman pensiyaların orta aylıq məbləği 263,6 manat olmuş və orta aylıq nominal əməkhaqqının 41,5 faizini təşkil etmişdir [7, s.177].

Gender bərabərliyinin təhlili baxımından Azərbaycanda səhiyyə göstəricilərinin gender aspektləri mühüm yer tutur.

Gender vəziyyətinin mühüm göstəricilərindən biri olan doğulanda gözlənilən uzunluğuna görə Azərbaycan əksər Avropa ölkələrindən geri qalır. 2020-ci ilə görə bu rəqəm qadınlarda 76.5, kişilərdə 70.1 il təşkil edirdi. Halbuki Avropanın əksər ölkələrində bu rəqəmlər bir sıra ölkələr üzrə qadınlar arasında 86, kişilər arasında isə 79-a çatır. Türkiyədə bu rəqəmlər 78 və 70, Ermənistanda isə 79 və 72 təşkil edir.

Ana ölümü göstəricisi də gender siyasətinin əsas indikatorlarından biridir. Hər 100 000 nəfər diri doğulana ana ölümü Azərbaycanda 1989-cu ildə 28.6, 1990-cı ildə 9.3 (ən az), 1995-ci ildə 44.1 (ən yüksək), 2010-cu ildə 15.7, 2019-cu ildə 14.9 təşkil etmişdir. Ana ölümünün səviyyəsi 2019-cu ildə əvvəlki illə müqayisədə şəhər yerlərində 1,1 dəfə, kənd yerlərində isə 1,4 dəfə artmışdır. Ümumilikdə 2019-cu ildə ana ölümü 2018-ci illə müqayisədə 2,1 faiz artmışdır [7, s.59]. Göründüyü kimi Azərbaycan Respublikasında hər 100 000 diri doğulana düşən ana ölümü göstəricisi inkişaf etmiş ölkələrlə müqayisədə çox yüksək rəqəmdir. Qərbi Avropa ölkələrində bu rəqəm 2-5 arası təşkil edir. Ancaq MDB ölkələri ilə müqayisədə Azərbaycan mühüm irəliləyişə nail olmuşdur. Düzdür, Belarus bu göstəriciyə (1.0) görə hətta Qərbi Avropa ölkələrini qabaqlayır. Ancaq digər MDB ölkələrində uşaq ölümü göstəricisi (Ermənistanda 33.3, Qırğızıstanda 25, Özbəkistanda 20.2, Ukraynada 17) xeyli yüksəkdir [22]. Azərbaycan hökuməti müntəzəm olaraq YUNİSEF, UNFPA ilə birgə ana ölümü hallarının azaldılmasına yönəlmiş layihələr həyata keçirir. Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş «Reproduktiv sağlamlıq üzrə ikinci Milli Strategiyada (2009-2015)» HİV/AİDS-in qarşısının alınması və gənclərin reproduktiv sağlamlığının təşviqi ilə bərabər, ana sağlamlığı standartlarının inkişaf etdirilməsi meyarları əks olunmuşdur [3].

Körpə ölümünə görə Azərbaycan Respublikası inkişaf etməkdə olan ölkələrlə müqayi-

sədə mühüm uğurlar əldə etsə də bu əmsala görə Avropa ölkələrindən xeyli geri qalır.

Son 50 ildə Azərbaycanda körpə ölümü sahəsində çox ciddi müvəffəqiyyətlər əldə edilsə bu sahədə vəziyyət yenə də qənaətbəxş deyil. 1960-cı ildə hər 1 000 diri doğulana 41,7 qız, 42,7 oğlan, 1990-cı ildə 20.6 qız və 25.1, 2000-ci ildə 15.5 qız, 17.2 oğlan körpə ölmüşdü. Son 10 ildə bu göstərici xeyli yaxşılaşsa da (2010-cu ildə bu rəqəmlər müvafiq olaraq 11 və 11.5, 2019-cu ildə isə 9.1 və 12.7) dünya üzrə ümumi göstəricilərdən xeyli geri qalır. Bütövlükdə oğlanlar arasında körpə ölümü halları qızlara nisbətən daha yüksəkdir. Bu 5 yaşadək uşaq ölümü göstəricilərinə də aiddir. 1990-cı ildə ölkədə 5 yaşadək uşaq ölümü oğlanlar arasında 37.2, qızlar arasında 43.5, 2000-ci ildə müvafiq olaraq 29.1 və 31.7, 2010-cu ildə 13.7 və 14.6, 2019-cu ildə 10.9 və 14.8 təşkil etmişdir [7, s.60]. Hər 1000 nəfər diri doğulana Azərbaycanda 2020-ci ildə 8.6 ölü qız və 10.9 ölü oğlan doğulmuşdur ki, bu MDB ölkələri arasında ön sırada gedən Belarusdan (müvafiq olaraq (2.1 və 2.7) xeyli aşağıdır. Ermənistanda 2019-cu ildə bu rəqəm 5.3 və 6.8, Türkiyədə isə 8.5 və 9.6 təşkil etmişdir.

Qeyd edildiyi kimi, Azərbaycanda ana və uşaq ölümü hadisələrinin çox olması da tibbi yardım keyfiyyətinin arzuolunan səviyyədə olmadığına dəlalət edir..

2019-cu ilin sonuna həkimlərin sayı 31829 nəfər təşkil edirdi və əhalinin hər 10 000 nəfərinə orta hesabla 32 həkim düşürdü. Qadın həkimlərin sayı 20980 (bütün həkimlərin 65,9%), kişi həkimlərin sayı isə 10849 nəfər (34,1%) təşkil edirdi [7, s.90].

Qadınların reproduktiv sağlamlığının qorunması ölkədə həyata keçirilən sosial siyasətin mühüm istiqamətlərindən birini təşkil edir. Minilliyin 4-cü (Uşaq ölümünün azaldılması) və 5-ci (Anaların sağlamlığının qorunması) İnkişaf məqsədlərinə nail olunması, əhalinin reproduktiv sağlamlığının qorunmasının təşkilini və təhlükəsiz analığı təmin edilməsi məqsədi ilə hələ 2006-cı ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı"nı təsdiq etmişdi [2]. Azərbaycan Respublikasının Prezidentinin 2008-ci il 15 sentyabr tarixli Sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın, 2013-cü il 28 oktyabr tarixində "Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə", eləcə də "Uşaqların icbari dispanserizasiyası haqqında» qanunun qəbulundan sonra respublikada ana və uşaqların sağlamlığının qorunması işində əhəmiyyətli dəyişikliklər baş vermişdi.

Ciddi rəqəmlərdən biri də qadın məsləhətxanalarının və qadın məsləhətxanası olan tibb müəssisələrinin sayının 2010-cu illərdə 214-dən 131-ə düşməsidir. Lakin doğuşların 99.9% ixtisaslı tibb işçiləri tərəfindən həyata keçirilmişdir ki, bu da ana və körpə ölümü riskini xeyli azaldır [7, s.90].

Narahatlıq yaradan problemlərdən biri də doğulmuş körpələr arasında gender mütənasibliyinin pozulmasıdlr. Azərbaycan Respublikasında doğulanlar arasında oğlan uşaqlarının çox olması (2021-ci ilin avqustun 1-dək doğulanların 53.2%) [21] ölkədə narahatedici halın - selektiv doğuşların sayının artmasını göstərir. 2020-ci ilə dair statistik materiallara əsasən Azərbaycanda 15-49 yaşlı hər 1 000 qadına 2000-cii ildə 7.8, 2010-cu ildə 9.9, 2019-cu ildə isə 14.2 abort düşürdü [7, s.22]. Ölkədə qadınların istəyinə görə abortlara icazə verilməsi gender bərabərliyi baxımdan müsbət amil olsa da, hamiləliyin dayandırılması tibbi amillərdən daha çox təcrübədə valideynlərin oğlan uşaqlarına üstünlük vermələri ilə izah olunur. Nəticədə doğulan uşaqların cins nisbətində oğlanlar üstünlük təşkil etməyə başlamışdı. Hər 100 doğulan qız uşağına 1991-cil də 106, 2001-ci ildə 117, 2019-cu ildə isə 114 oğlan uşağı doğulmuşdu [7, s.53]. Əgər bu tendensiya davam edərsə, gələcəkdə çox ciddi demoqrafik, sosial, iqtisadi fəsadlara gətirib çıxara bilər. Ancaq eyni zamanda onu da vurğulamaq lazımdır ki, doğulanlar arasında oğlanlar üstünlük təşkil etsələr də, qadınlar arasında sağ

qalma ehtimali daha yüksəkdir. Bu da öz növbəsində əhalinin cinsi strukturunda qadınlarla kişilər arasında balansı ümumən saxlamağa imkan verir. Azərbaycanda doğulanda gözlənilən ömür uzunluğu qadınlarda 78,7 il, kişilərdə 74 il, sağlam ömür uzunluğu isə müvafiq olaraq 68,5 il və 63,6 il təşkil edir [7, s.43-44]. Ölkədə qadınların kontraseptik vasitələrdən istifadəsində azməlumatlılığı, mentalitetə uyğun olaraq seksual tərbiyənin olmaması da qadınların reproduktiv sağlamlığına mənfi təsir göstərir. Bu isə son nəticədə beynəlxalq reytinq hesabatlarında Azərbaycanın ən zəif göstəricilərə malik olmasına gətirib çıxarır.

Uzun illər idi ki, ölkədə nəsilvermə əmsalının tədricən azalması müşahidə olunurdu. 1975-ci ildə bu rəqəm 3.7-dən 2002-ci ildə 1.8-ə düşmüş, 2003-cü ildə əvvəlki ilə nisbətən bu göstərici bir qədər (1.9), 2004-2012-ci illərdə isə nəzərəçarpacaq dərəcədə (2.4, 2.3) artmış, 2019-cu ildə yenidən aşağı (2.0) düşmüşdür [7, s.49].

Təhsil və elm sahəsində gender bərabərliyinin faktiki vəziyyəti ilə tanışlıq söyləməyə əsas verir ki, bu sahələrdə müəyyən mütənasibsizliyə, habelə şaquli gender seqreqasiya hallarının qeydə alınmasına baxmayaraq, son illərdə pozitiv dinamika müşahidə olunur.

Son illərdə səhiyyə sahəsində Azərbaycanda həyata keçirilən islahatlar, bir sıra tibbi göstəricilərin yaxşılaşması gender münasibətlərinə də öz müsbət təsirini göstərir. Bu göstəricilərin təhlili ölkədə əhalinin sağlamlığının və həyat keyfiyyətinin ümumi indeksinin Avropa ölkələri ilə müqayisədə geri qaldığını, lakin əksər region ölkələri ilə müqayisədə yüksək olduğunu təsdiq edir.

Azərbaycanda qadınların səhiyyəyə əlçatarlığı ilə bağlı göstəricilər də yaxşılaşsa da bir çox göstəricilərə görə ölkəmiz Avropa ölkələrindən xeyli geridə qalır və bu da beynəlxalq hesabatlarda öz əksini tapmış olur. Azərbaycanda əhali sağlamlığını əks etdirən əksər göstəricilərin dünya indikatorlarına görə aşağı olması tibbi yardım keyfiyyətinin qənaətbəxş səviyyədə olmadığına dəlalət edir. Ona görə də əhali sağlamlığının qorunması ölkədə həyata keçirilən sosial islahatların mühüm istiqamətlərindən birini təşkil etməlidir.

Azərbaycan Respublikasında gender siyasətinin həyata keçirilməsi ilə bağlı müsbət nəticələr müxtəlif beynəlxalq sənədlərdə və hesabatlarda da öz əksini tapmışdır. Bu qəbildən olan sənədlər sırasında Azərbaycanın BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinə təqdim etdiyi məruzələr və CEDAW Komitəsinin həmin məruzələrə dair yekun qeydləri xüsusi qeyd etmək lazımdır. Məruzədə Azərbaycan hökumətinin CEDAW Komitəsinin tövsiyələrinə lazımi diqqətlə yanaşdığı və fəal surətdə Konvensiya haqqında bilgilərin yayılmasına və onun müddəalarının həqiqi bərabərlik anlamında izah edilməsinə yardım etdiyi göstərilir, Azərbaycan hökuməti tərəfindən kənd yerlərində yaşayan qadınların vəziyyətinin və həyat şərtlərinin yaxşılaşdırılması məqsədilə gördüyü tədbirlər müsbət qiymətləndirilirdi (Пятый периодический доклад, представленный Правительством Азербайджанской Республики в Комитет по ликвидации дискриминации в отношении женщин ООН, 11 марта 2013 г., 52 с.).

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının milli qanunvericiliyi həyatın bütün sahələrində gender bərabərliyi ideyalarını tam ifadə edir. Azərbaycan Respublikası 1995-ci ildə qadınlara qarşı bütün növ ayrı-seçkiliyin ləğv olunması barədə Konvensiyanı, eləcə də insan haqları üzrə əsas beynəlxalq sənədləri qəbul etmiş və onlara qoşulmuşdur. Bütün bunlar ölkədə gender qeyri-bərabərliyinin ləğv edilməsi və genderə görə balanslaşdırılmış siyasətin inkişafı üçün mühüm zəmin yaradır. Bu sənədlər arasında BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyası (CEDAW) xüsusi əhəmiyyətə malikdir

Azərbaycan Respublikasında qadın hüquqlarının və gender bərabərliyinin təmin edilməsi ilə bağlı 150-yə yaxın sənəd imzalanmışdır. 2006-cı ilin oktyabrın 10-da qəbul edilmiş "Gender (kişi və qadınların) bərabərliyinin

təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu [11] ölkədə gender bərabərliyinin ali dövlət qanunvericiliyi səviyyəsində təşviqi sahəsində atılmış mühüm addım hesab edilir. Qanun Azərbaycan Respublikasında həyata keçirilən gender siyasətinin qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində mühüm addım olmaqla gender bərabərliyi sahəsində hüquqi-normativ fəaliyyətə bir növ yekun vurur. 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi [12]. Qanunla məişət zorakılığının qarşısının alınması sahəsində hüquqi, sosial qabaqlayıcı xarakterli tədbirlər nəzərdə tutulmuşdur. Qanunun qəbulu ilə yanaşı onun tətbiqi ilə əlaqədar bir sıra normativ hüquqi aktlar da qəbul edildi [4, s. 61-83]. 2011-ci il 24 noyabr tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununa bir sıra dəyişikliklər edildi. Qanunun qəbulundan sonra zorakılığa qarşı mübarizə daha sistemli xarakter aldı. Qanunun qəbul edilməsindən sonra bir sıra aktlara da dəyişiklik edildi. Bu dəyişikliklər erkən nikah hallarının qarşısının alınmasında xüsusi əhəmiyyətə malikdir.

Əhalinin cins üzrə bölgüsünə görə (50.1 qadınlar, 49.9 kişilər) Azərbaycan Respublikası ümumdünya göstəriciləri ilə üst-üstə düşür. Yalnız ÇXR-da (48.7, 51.3) və Hindistanda (48 və 52) bu rəqəmlər bir qədər fərqlidir [22; 24].

Təəssüf doğuran məqamlardan biri müstəqillik illərində ölkədə boşanma hallarının sürətlə artması və rəsmi nikaha daxil olanların sayının aşağı düşməsidir. Qeyd edək ki, əhalinin hər 1000 nəfərinə ən çox boşanma sayı 1990-cı ildə qeydə alınmışdısa (2.0), 2000-ci illərdə bu rəqəm orta hesabla 0.7-0.9 təşkil etmiş, 2010-cu illərdə isə yenidən durmadan artmağa (2010-cu ildə 1.0-dan 2019-cu ildə 1.7-yə qədər) başlamışdır. Əgər 2010-cu ildə ölkədə 79172 nikah bağlanmışdısa (9061 boşanma qeydə alınmışdı), 2019-cu ildə xeyli az - cəmi 63869 nikah bağlanmış, boşanmaların sayı isə əksinə iki dəfə artaraq 17148 təşkil etmişdir. 2019-cu ildə Azərbaycanda əhalinin hər 1000 nəfərinə 6,4 nikah və 1,7 boşanma düşürdü [7, s.68]. Evlənənlərlə boşananlar arasında nisbət faizi başqa ölkələrlə müqayisədə aşağı olsa da, son dövrlərdə boşananların sayının kəskin artması narahatlıq doğurmaya bilməz. 2020-2021-ci illərdə pandemiya ilə əlaqədar olaraq nikahların sayının kəskin şəkildə aşağı olduğunu nəzərə alsaq bu tendensiyanın gələcəkdə hansı mənfi demoqrafik nəticələrə gətirib çıxara biləcəyini təsəvvür etmək çətin deyildir. Bu müddət ərzində nikaha daxil olanların orta yaş həddi də həm qadınlar, həm də kişlilər arasında (qadınlar arasında 23.4-dən 24.7-yə, kişilər arasında 27.9-dan 29.4-ə) artmışdır [7, s. 68-69]. Ümumiyyətlə son 30 il ərzində həm qadınlar, həm də kişilər arasında nikaha daxil olanların orta yaşı ən yüksək 2019-cu ildə qeydə alınmışdır.

Maraqlıdır ki, orta və ali təhsillilər arasında ümumən gender bərabərliyi mövcud olsa da, ixtisaslı məşğul əhali arasında qadınların sayı azdır. Bu ilk növbədə ölkədəki gender stereotipi ilə bağlıdır. Bir qayda olaraq qadınlar ailə qurduqdan sonra işləməkdən vaz keçərək uşaqların tərbiyəsi ilə məşğul olmağa üstünlük verirlər.

Azərbaycan cəmiyyətinin üzləşdiyi ciddi sosial-demoqrafik problemlərdən biri də bəzi bölgələrdə qızların erkən ərə verilməsidir. 18 yaşadək qız və oğlanların nikaha daxil olması ənənəvi olaraq Azərbaycanda yüksək olmuşdur Araşdırmalar göstərir ki, əksər hallarda qızların erkən yaşda ərə verilməsi onların valideynlərinin razılığı ilə baş verir. 16 yaşda öz istəyi ilə, 15 yaşda hamilə olduğuna görə erkən nikaha daxil olma hallarının xüsusi çəkisi daha yüksək idi. Qaçırılma halları 15 və 17 yaşlılar arasında daha çox baş vermişdir [9 s. 11]. Son 30 ilin statistikasına nəzər salsaq, nikahları rəsmi qeydə alınmış 18 yaşadək gəlin və bəylərin sayı 1990-cı ildə 471 qız (21 kişi), 2010-cu ildə 4742 qız (7 kişi), 2019-cu ildə 366 (cəmi 1 kişi) (cəmi 0.57%) təşkil etmişdir [7, s.70]. Erkən yaşda nikaha daxil olanların sayında nəzərəçarpacaq dərəcədə azalmanın müşahidə olunmasının əsas səbəbi Azərbay-

canda ailə qurmaq üçün minimum yaş həddinin kişilərdə və qadınlarda 18 yaşın müəyyən olunmasıdır. Lakin buna baxmayaraq erkən yaşlı qızların ərə verilməsi halları hələ də qalmaqdadır. Sadəcə olaraq bu zaman onların bir qayda olaraq nikahları qeydə alınmır, yalnız 18 yaşa çatdıqdan sonra rəsmi nikaha daxil olurlar.

Azərbaycan Respublikasının milli qanunvericiliyi gender bərabərliyinin təmin edilməsinə və cinsi ayrı-seçkiliyin qadağan edilməsinə yönəldilmişdir. Bununla yanaşı, ölkənin milli statistikası və beynəlxalq gender hesabatları Azərbaycanda iqtisadi imkanlar və siyasi təmsilçilik sahəsində müəyyən problemlərin olduğunu təsdiq edir. Məhz bu amilə görə Azərbaycan dünya reytinqində sabit olaraq ölkələr arasında aşağı üçdə iki ölkələr reytinqinə daxildir. BMT İP Gender Bərabərliyi İndeksi Azərbaycanı son illərdə insan inkişafının ən yüksək, yüksək və ya orta səviyyəsində olan ölkələr sırasına daxil edir.

Səhiyyə, Təhsil və Əmək və Sosial Müdafiə nazirliklərində uyğun olaraq qadın əməkdaşların sayı 79,5%, 68% və 60,8% olduğu halda rəhbər vəzifələrdə qadınların sayı uyğun olaraq 37%, 41,3% və 24,8%-dir [5, s.247].

Hazırda Azərbaycan Respublikasının dövlət qurumlarında 30 min 108 nəfər dövlət qulluqçusu çalışır və onların 28,5 faizi qadınlardır [8]. Qadınların idarəçiliyə cəlb olunmaları sahəsində mühüm uğurlar əldə edilsə də qeyd olunmalıdır ki, ölkə əhalisinin təqribən 51%-ini təşkil edən qadınlar hələ də hakimiyyət orqanlarında və rəhbər vəzifələrdə öz saylarına proporsional şəkildə təmsil olunmamışlar. Bu baxımdan problemin həlli xüsusi qanunların qəbul edilməsindən daha çox, insanların mental təfəkkürünün dəyişməsindən asılıdır.

Hazırda Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində əsas məqsəd və vəzifələr aşağıdakılardan ibarətdir: qadın və kişilərin haqlarının qorunması və möhkəmləndirilməsi, bu haqlardan istifadə edilməsi üçün müvafiq tədbirlərin görülməsi; idarəçilikdə və qərar qəbul etmək səviyyəsində onların bərabər iştirakına şəraitin yaradılması, demokratik təmsilçiliyin yaxşılaşdırılması və inkişafı; qadınların və kişilərin əmək bazarında, biznesdə və maliyyə sferasında bərabər iştirakının, iqtisadi müstəqilliyinin təmin edilməsi.

Milli siyasətin prioritet məsələlərindən olan gender problemlərinin həlli ilk növbədə aşağıdakı məsələlərin həllini tələb edir: qadın və kişilərin ömür uzunluğunun yüksəldilməsi; uşaq və ana ölümü səviyyəsinin azaldılması; qadın və kişilərin reproduktiv sağlamlığının yaxşılaşdırılması; əhalinin aztəminatlı təbəqələrinin müdafiə olunması; təhsil sistemində qadın və kişilərin bərabər iştirakına şərait yaradılması, qız və oğlanların bərabər təhsil almaq imkanlarının artırılması [22].

Hazırda bazar iqtisadiyyatı şəraitində ölkədə sosial-humanitar sahələrlə iqtisadi sahələr arasında, əmək bazarında gender bərabərsizliyinin dərinləşməsinə səbəb olur ki, burada sosial-iqtisadi amillərlə yanaşı, mental ənənələr də müəyyən rol oynayırlar.

Son illərdə ölkədəki bir sıra demoqrafik göstəricilərin (doğumun azalması, boşanmaların artması, abortların çoxalması, doğulanlar arasında cinsi mütənasibliyin pozulması və s.) ölkədə gender bərabərsizliyinin dərinləşməsinə gətirib çıxarır ki, bu da öz növbəsində bir sıra siyasi, hüquqi, sosial-iqtisadi addımların atılmasını zəruri edir.

**Cədvəl**

**2000-ci illərdə Azərbaycan Respublikasında Gender amili nəzərə alınmaqla İnsan İnkişafı indeksi**

(Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında hesablanmışdır)

| 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|
| 0,827 | 0,843 | 0,824 | 0,826 | 0,839 | 0,840 | 0,897 | 0,916 | 0,927 | 0,934 |

Mühüm məsələlərdən biri də qadınlara qarşı zorakılığın aradan qaldırılmasıdır . Bu isə ilk növbədə məişət zorakılığının tamamilə ləğv edilməsini, sosial uyğunsuzluqların aradan qaldırılmasının vacibliyinin dərk edilməsinə kömək göstərilməsini və qadınlarla kişilər arasında məsuliyyətin bölünməsini nəzərdə tutur.

Cinslər arasında bərabərliyin təmin olunmasın əsas şərtlərindən biri də qadınların siyasi hüquqlarını və imkanların artırılmasıdır. Bir sıra beynəlxalq gender hesabatları Azərbaycanda qadınların siyasi təmsilçiliyi sahəsində müəyyən problemlərin olduğunu təsdiq edir. Bu da öz növbəsində Azərbaycanın dünya ölkələri arasında reytinqinə mənfi təsir göstərir. Milli qanunvericilik bu sahədə qadınlara və kişilər bərabər imkanlar yaratsa da, ənənəvi mental dəyərlər bu imkanların gerçəkdirilməsinə müəyyən əngəllər yaradır. Mühüm məsələlərdən biri də qərarların qəbul edilməsində qadınlar iştirakının genişləndirilməsi, onların ictimai fəallığının təşviq edilməsidir. Bu isə son nəticədə qadınların ölkənin siyasi həyatında iştirakının genişlənməsinə müsbət təsir göstərəcəkdir.

Azərbaycanın milli qanunvericiliyi gender bərabərliyinə tam hüquqi təminat versə də, bu bərabərliyə əməli (faktik) nail olunması bir sıra kompleks tədbirlərin həyata keçirilməsini tələb edən uzunmüddətli prosesdir.

Nəticə: Beynəlxalq hesabatlar və milli statistik məlumatlar təsdiq edir ki, Azərbaycanda təhsil və mədəniyyət sahələrində qadınlarla kişilər arasında bərabərsizlik müəyyən qədər aradan qaldırılsa da, ictimai sektorda, idarəçilikdə qadınlar daha az təmsil olunublar. Qərarların qəbul edilməsində də qadınların iştirakı yenə də aşağı olaraq qalır. Rəhbər vəzifələrdə qadınların payı cəmi 33% təşkil edir. Azərbaycanda qadınların səhiyyəyə əlçatarlığı ilə bağlı göstəricilər də yaxşılaşsa da, bu göstəricilərə görə ölkə Avropa ölkələrindən xeyli geridə qalır və bu da özünü ilk növbəsində ana və uşaq ölümü, orta yaş həddi kimi göstəricilərdə əksini tapır. Azərbaycanda əhali sağlamlığını əks etdirən əksər göstəricilərin dünya indikatorlarına görə aşağı olması tibbi yardım keyfiyyətinin qənaətbəxş səviyyədə olmadığına dəlalət edir. Ona görə də əhali sağlamlığının qorunması ölkədə həyata keçirilən sosial islahatların mühüm istiqamətlərindən birini təşkil etməlidir.

**Ədəbiyyat:**


1. Ağayeva, K. Azərbaycanda gender məsələləri. – Bakı: Təhsil Nazirliyi və Qərb Universiteti. – 2014.
2. Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 15 sentyabr tarixli 211 nömrəli qərarı ilə təsdiq edilmişdir // «Azərbaycan Respublikasının Qanunvericilik Toplusu», 30 sentyabr 2006-cı il. – №9. – s.2053-2056.
3. Azərbaycan Respublikası Hökumətinin BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi üzrə 2-ci dövri məruzəsinin layihəsi // http://www.mfa.gov.az/?options=content&id=636
4. Azərbaycan Respublikasında Məişət Zorakılığının Qarşısının Alınmasına dair Qanunvericilik Toplusu. – Bakı. – 2012. – s. 61-83.
5. Azərbaycan Respublikasının tarixi (2003-2016). İlham Əliyev dövrü. – Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi. – 2016.
6. Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. Kişilərin gender bərabərliyinə münasibətinə dair Tədqiqatın (IMAGES) nəticələri üzrə Hesabat. – Bakı. – 2018.
7. Azərbaycanda qadınlar və kişilər. Statistik məcmuə / Bakı, AR DSK. – 2021. – 224s.
8. Azərbaycanın dövlət qurumlarında çalışanların 28,5 faizi qadınlardır // http://teleqraf.com/news/60227
9. Erkən nikahlar ailələrin möhkəmliyini zəiflədir // «Qadın və Cəmiyyət». – 2013. – №3. – s. 11-14

10. Əhmədov, İ., Mehtiyev, A., Bağırzadə, M., Aslanlı, K. "Azərbaycanda gender büdcəsinin tətbiqi üçün iqtisadi, siyasi, sosial və institusional bazanın təhlili" üzrə tədqiqat. – Bakı: ACİ-YF. – 2008.
11. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu, 10 oktyabr 2006-cı il // "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu". – 30 noyabr 2006. – №11. – s. 2315-2319.
12. Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu, 22 iyun 2010 "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu". – 31 oktyabr 2010-cu il. – №10. – s.2097-2107.
13. Salahova, E. Qadınlar elmin müxtəlif sahələrini fəth edir / "Azərbaycanda gender problemləri: mövcud vəziyyət və əsas istiqamətlərin inkişafı" mövzusunda dəyirmi masanın materialları (14 mart 2012-ci il). – Bakı: Aspoliqraf. – 2012
14. Global Gender Gap Report 2021 INSIGHT REPORT MARCH https://www3.weforum.org/docs/WEF_GGGR_2021.pdf
15. Global Gender Gap Report 2020 http://www3.weforum.org/docs/WEF_GGGR_2020.pdf
16. http://eawfpress.ru/press-tsentr/news/world/indeks-gendernogo-razryva-v-mire/
17. https://gtmarket.ru/ratings/gender-inequality-index
18. https://gtmarket.ru/ratings/global-gender-gap-index
19. https://gtmarket.ru/news/2014/10/31/6970 [31.10.2014]
20. https://gtmarket.ru/ratings/healthy-life-expectancy-index
21. https://yenisabah.az/azerbaycanda-ehalinin-sayi-aciqlandi [23.09.2021]
22. https://www.stat.gov.az/source/gender/ [17.10.2023]
23. https://www.statista.com/statistics/1251565/total-fertility-rate-in-europe/
24. https://statisticstimes.com/demographics/countries-by-male-female-population.php

***Açar sözlər:*** *Azərbaycan Respublikası, sosial-mədəni sahələr, cins strukturu, gender bərabərliyi*

**Sevda Aliyeva (Ahadova)**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan,*
*The Department of Public Service and Personnel Policy,*
*Professor, Doctor of Political Science*

## GENDER ASPECTS OF THE DEVELOPMENT OF SOCIAL AND HUMANITARIAN SPHERES IN THE REPUBLIC OF AZERBAIJAN

### ABSTRACT

The article summarizes and analyzes the gender aspects of the development of the social and humanitarian spheres of the Republic of Azerbaijan, highlights positive and negative trends in this area. The main problems that lead to gender inequality in the spheres of culture, education, and science are considered, and recommendations and proposals are put forward to reduce gender inequality.

Acquaintance with the real situation of gender equality in socio-cultural spheres allows us to say that, despite a certain disproportion in these areas, as well as cases of vertical gender segregation, positive dynamics have been observed in recent years.

The reforms carried out in Azerbaijan in recent years in the healthcare sector and the improvement of a number of medical indicators also have a positive impact on gender relations. An analysis of these indicators confirms that the overall index of population health and quality of life in the country lags behind European countries but is high compared to most countries in the region.

***Keywords:*** *Azerbaijan Republic, sociocultural directions, gender structure, gender equality*

**Севда Алиева (Ахадова)**

*Профессор кафедры "Государственной службы и кадровой политики"*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор политических наук*

## ГЕНДЕРНЫЕ АСПЕКТЫ РАЗВИТИЯ СОЦИАЛЬНОЙ И ГУМАНИТАРНОЙ СФЕР В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

### РЕЗЮМЕ

В статье обобщаются и анализируются гендерные аспекты развития социальной и гуманитарной сфер в Азербайджанской Республике, выделяются положительные и отрицательные тенденции в этой сфере. Рассматриваются основные проблемы, которые приводят к гендерному неравенству в сферах культуры, образования, науки, выдвигаются рекомендации и предложения по снижению гендерного неравенства.

Знакомство с реальной ситуацией гендерного равенства в социокультурных сферах позволяет говорить о том, что, несмотря на определенную диспропорцию в этих сферах, а также случаи вертикальной гендерной сегрегации, в последние годы наблюдается положительная динамика. Реформы, проведенные в последние годы в Азербайджане в сфере здравоохранения, и улучшение ряда медицинских показателей также положительно сказываются на гендерных отношениях. Анализ этих показателей подтверждает, что общий индекс здоровья населения и качества жизни в стране отстает от европейских стран, но является высоким по сравнению с большинством стран региона.

***Ключевые слова:*** *Азербайджанская Республика, социокультурные направления, гендерная структура, гендерное равенство*

DOI 10.30546/2309-1347.84.2023.145

**SİYASİ NƏZƏRİYYƏ**
**POLITICAL THEORY**

UOT 323; 321:330.342.22; 321(1-773)

**YUSİF AĞAYEV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya və siyasi idarəetmə" kafedrasının doktorantı**

*e-mail: yusif_agayev@rambler.ru*

# AZƏRBAYCAN RESPUBLİKASINDA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ VƏ TOLERANTLIQ MÜHİTİNİN FORMALAŞMASINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR: NƏZƏRİ-KONSEPTUAL YANAŞMA

Multikulturalizm "multi"–"çox", "çoxluq", "müxtəliflik", "kulturalizm" isə "mədəniyyət" anlamına gəlir. Mədəniyyətlərarası münasibətlərdə mədəniyyətlərin müxtəlifliyi mənasında işlənir. Əsasını liberal demokratik dəyərlər, qloballaşma, yanaşı yaşama və inteqrasiya şəraitində mədəni müxtəlifliyin qorunması təşkil edən multikulturalizm Qərb ictimai-siyasi və fəlsəfi fikrində, Qərb məkanında meydana gəlmişdir.

Hər bir multikultural cəmiyyət özündə müxtəlif mədəniyyətlərin qarşılıqlı təsirini təmin etməklə, tolerantlığın meydana gəlməsində, sosial münaqişələrin sivil yolla həll edilməsində, cəmiyyətdə sülh və əmin-amanlığın bərqərar olmasında böyük rol oynayır. Multikulturalizm siyasətinin əsasını xalqların qarşılıqlı əməkdaşlığı, mədəniyyətlərarası və dinlərarası dialoq, tolerantlıq ideyaları və sülh şəraitində birgə, dinc yaşama prinsipləri təşkil edir. Əsrlər boyu sivilizasiyaların qovşağında yerləşən Azərbaycan fərqli mədəniyyətlərə malik xalqlar və müxtəlif etnik qruplara və dinlərə mənsub insanlar sülh və qarşılıqlı anlaşma şəraitində yaşadığı məkan olub.

Şərqlə-Qərbin arasında körpü rolunu oynayan Azərbaycan tarix boyu müxtəlif sivilizasiyaların qovuşduğu bir məkan olmuşdur. Mövcud şəraitin formalaşmasında Azərbaycanın tarixi inkişafı, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi və digər amillər böyük rol oynamışdır. Min illərlə mövcud olmuş tarixi şərait müxtəlif dinlərin birgə mövcudluğuna hər cür imkan yaratmışdır. Tarixin ayrı-ayrı dönəmlərində Azərbaycan ərazisində bütpərəstlik, zərdüştilik, xristianlıq, islam və bir çox başqa dini inanclar bu və ya digər səviyyədə yayılmış, bir-birinə qarşılıqlı təsir göstərmiş və bütövlükdə mənəvi həyatın özəlliyini səciyyələndirmişdir. Belə bir şəraitdə bəşər sivilizasiyanın müxtəlif mədəniyyətlərinin qorunması üçün dinlər və mədəniyyətlər arasında dialoqun yaranması böyük əhəmiyyət kəsb edir. Müasir dövrün yeni çağırışlarının həyatımıza və təfəkkürümüzə gətirdiyi yeniliklər həyatın müxtəlif sahələrini əhatə etdiyi kimi, düşüncə tərzini, yeni ideologiyaların yaranmasını gündəmə gətirməyə, onları yeni dövrün dəyərləri baxımından müzakirə etməyə zəmin yaradır. "Din bəşər mədəniyyətinin yalnız əvəzsiz mənəvi irsi deyil, həm də hər yeni gələn nəslin yaşadığı, öyrəndiyi və münasibət bildirdiyi gerçək reallıqdır" [11, s.197].

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycanda başlanan yeni tarixi dövrdə milli-mənəvi inkişafın bütün

istiqamətlərini əhatə edən strateji kursu həyata keçirməklə, bu sahəni dövlətçiliyin mənəvi dayaqlarından birinə çevirdi. “Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir... O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir” [12].

Sosialist düşərgəsinin süqutu ilə dünyanın mövcud siyasi xəritəsi dəyişmiş, bir sıra yeni problemlər meydana çıxmışdır. İqtisadi, ekoloji və demoqrafik problemlərlə yanaşı, mənəvi dəyərlər sisteminin çevik formalaşmaması və ya formalaşmaqda olan dəyərlər sisteminə məqsədyönlü kənar müdaxilələr nəticəsində mənəviyyat problemləri də kəskinləşmişdir.

Belə bir dövrdə dünya dinləri arasında mövcud fərqlərə əsaslanan «sivilizasiyaların toqquşması» nəzəriyyəsi meydana çıxmış və öz tərəfdarlarını tapmışdır. Bəzi “qüvvələr” bir çox hallarda öz fəaliyyətlərinə bəraət qazandırmaq məqsədi ilə dini amildən də istifadə etmək niyyətində olmuşlar. Harvard Universitetinin professoru Samuel Hantinqton 1993-cü ildə “The Clash of Civilizations” (“Sivilizasiyaların toqquşması”) adlı məqaləsini “Foreign Affairs” jurnalında dərc etdirmişdir. Bu məqalədə o, “sivilizasiyaların toqquşması” adlı nəzəriyyəsini cəmiyyətin müzakirəsinə vermişdir. Hantinqtonun fikirlərinə görə, yeni əsr sivilizasiyaların toqquşması əsri olacaqdır.

Nəzəriyyə ictimaiyyət, nəzəriyyəçi və praktik siyasətçilərin geniş marağına səbəb oldu. Bu günün özündə belə nəzəriyyə müxtəlif cür qiymətləndirilir. Bəziləri Hantinqtonun konsepsiyasını reallığa uyğun nəzəriyyə kimi qiymətləndirirsə, digərləri onun yararsız olduğunu vurğulayır. S.Hantinqtonun tezislərinə əsasən, bəşəriyyətin gələcəyi bir-birindən tarixi keçmişi, mədəni ənənələri, xüsusən də konfessional mənsubluğuna görə fərqlənən “sivilizasiyaların toqquşması” ilə xarekterizə olunacaqdır. Amerika aliminin fikrinə görə, demokratik Qərblə kommunist Şərqin siyasi qarşıdurması ilə səciyyələnən “soyuq müharibə”dən sonrakı dövrdə münaqişə və qarşıdurmaların əsas mənbəyini ideologiya və siyasi baxışlar deyil, din və mədəniyyətdəki fərqlər təşkil edəcəkdir. Özü də «gələcəkdə ən qanlı münaqişələr sivilizasiyaları bir-birindən ayıran sərhədlər boyunca baş verəcəkdir» [9].

Elmi təhlillər göstərir ki, bu kimi ciddi risklərin idarəedilməsi və gələcəyə yönələn cəmiyyətin inkişafını təmin etmək üçün multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Digər mədəniyyətlərin mahiyyətini, xüsusiyyətlərini, tarixi inkişaf və nailiyyətlərini öyrənmədən, onlara qarşı tolerant münasibət, onların nümayəndələrinə hörmət, qarşılıqlı anlaşma, sivilizasiyaların dialoqunu qurmaq mümkün deyildir. Bu gün dünyada baş verən hadisələrin təhlili göstərir ki, sivilizasiyalar arasında dialoqun qurulması və inkişafı həyati zərurətə çevrilməkdədir. Bu mənada ideologiyaların qarşılaşdırılması, müxtəlif mədəniyyətlərin assimilyasiyası, milli-mədəni dəyərlərin qorunması, virtual aləmin mənəvi təsir imkanları daha çox insan faktoru ilə bağlıdır. Elm və təhsilə əsaslanan sivil inkişafın və bilik cəmiyyətinin qurulmasına xidmət edən strategiyanın hədəfində də bu kimi təsirlərə qarşı immunitetin yaradılması öz əhəmiyyətini saxlamaqdadır.

Belə bir şəraitdə bəşər sivilizasiyanın müxtəlif mədəniyyətlərinin qorunması üçün dinlər və mədəniyyətlər arasında dialoqun yaranması böyük əhəmiyyət kəsb edir. Bu baxımdan tolerantlıq və dözümlülük ənənələri zəngin olan ölkə və regionların təcrübəsi nümunə ola bilər. Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir. Azərbaycan ərazisində yaşayan çoxsaylı etnik və dini qruplar arasında möhkəm əlaqələrin formalaşmasında onların eyni həyat taleyini yaşamaları amili də böyük rol oynamışdır.

Tarix boyu Azərbaycanda yaşayan xalqlar dəfələrlə qüdrətli dövlətlərdən asılı vəziyyətə düşmüş və yaranmış şərait onları, dünyagörüşlərindəki fərqlərə baxmayaraq, yaxınlaşmağa vadar etmişdir. Sovet İttifaqının dağılması

regionda dini dözümlülük ənənələri üçün əsl sınağa çevrildi. Bu proseslərin nəticəsində keçmiş müttəfiq respublikaların xalqları müstəqilliklə yanaşı, dini etiqad azadlığı da əldə etdilər. Azərbaycandakı mövcud tolerantlığın əsasları üçün ən böyük təhlükəni minlərlə dinc sakinin ölümünə və bir milyondan çox soydaşımızın doğma yurdlarından didərgin düşməsinə səbəb olan erməni təcavüzü yaradırdı.

Lakin bu hadisələr respublikadakı dini konfessiyalar arasında olan münasibətlərə həlledici mənfi təsir göstərə bilmədi. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bu münasibətlər ciddi formada yaxşılaşdı. Bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublikada yayılmış digər dinlərə də qayğı göstərir. Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən hər bir şəxs vicdan azadlığı hüququna malikdir [1, s.16]. Konstitusiyanın 18-ci maddəsinin 1 və 3 bəndlərində göstərilir ki, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır, bütün dini etiqadlar qanun qarşısında bərabərdir, insan şəxsiyyətini alçaldan, insanlıq prinsiplərinə zidd olan dinləri yaymaq və təbliğ etmək qadağandır. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu hər bir şəxsin dinə münasibətini müəyyənləşdirmək və ifadə etmək hüququna və həmin hüququ həyata keçirməyə təminat yaradır [10].

Müasir dövrün yeni çağırışlarının həyatımıza və təfəkkürümüzə gətirdiyi yeniliklər həyatın müxtəlif sahələrini əhatə etdiyi kimi, düşüncə tərzini, yeni ideologiyaların yaranmasını gündəmə gətirməyə, onları yeni dövrün dəyərləri baxımından müzakirə etməyə zəmin yaradır. "Din bəşər mədəniyyətinin yalnız əvəzsiz mənəvi irsi deyil, həm də hər yeni gələn nəslin yaşadığı, öyrəndiyi və münasibət bildirdiyi gerçək reallıqdır" [11, s.197].

Müstəqillik əldə etdikdən sonra ölkəmizdə keçid dövrü adlandırılan mürəkkəb bir zamanda mənəvi dəyərlərin varisliyinin təmin edilməsi son dərəcə çətin idi. 70 il müddətində mövcud olan milli-mənəvi köklərdən uzaqlaşma proseslərinin nəticələrinin aradan qaldırılması bu sahədə ciddi dövlət siyasətinin müəyyən olunmasını tələb edirdi. Ən mühüm məsələ ideoloji vakuumu müəyyənləşdirmək və yeni mərhələnin qarşıya qoyduğu vəzifələri həyata keçirmək idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycanda başlanan yeni tarixi dövrdə milli-mənəvi inkişafın bütün istiqamətlərini əhatə edən strateji kursu həyata keçirməklə, bu sahəni dövlətçiliyin mənəvi dayaqlarından birinə çevirdi. "Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir... O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir" [12].

Dünyada baş verən təhdid və çağırışların fonunda Azərbaycanda həyata keçirilən siyasət tarixi ənənəyə, insan potensialına və yaxşı idarəetməyə əsaslanır. Bu baxımdan dünyaya multikultural həyat tərzinin təbliği, multikulturalizm ilinin elan olunması ilə açıq mesajlar verilir. Yuxarıda qeyd edilən üç amilin tədqiqi onu deməyə əsas verir ki, Azərbaycan həmişə müxtəlif etnosların nümayəndələrinin mədəniyyətləri və dinlərinin inteqrasiya məkanına çevrilib. Müsəlman, xristian və yəhudi əhalisinin nümayəndələri arasındakı tolerant və dostluq münasibətləri Azərbaycan xalqının humanist mədəniyyəti üçün hər zaman xarakterik olubdur [2, s.102].

Azərbaycanda dini abidələrə münasibət din və dövlət arasında münasibətlərin təzahürüdür: "Azərbaycanda dövlət yalnız məscidləri və islam dininə aid olan digər abidələri tikib bərpa etmir. Eyni zamanda, digər dinlərə aid məbədlər də təmir və inşa edilir. Təbii ki, burada dövlət siyasəti də, bu siyasətin əsasları da düzgün qurulub. Bu, bizim həyat tərzimizdir. Bu bizim dünyaya baxışımızdır. Biz belə yaşayır və belə yaşayaraq özümüzə, regiona və dünyaya sübut edirik ki, multikulturalizm

mövcuddur. Multikulturalizm nisbətən yeni anlayışdır. Mahiyyət etibarı ilə isə müxtəlif mədəniyyət və dinlərə mənsub olan şəxslərin birlikdə yaşamaları deməkdir. Yəni bu anlayış Azərbaycanda əsrlər boyu mövcud olub, bu gün də mövcuddur və möhkəmlənməkdədir. Azərbaycan xalqı müxtəlif dövrlərdə müxtəlif ictimai-siyasi quruluşlarda yaşayıb. Buna baxmayaraq, sevindirici haldır ki, müstəqillik dövründə bu müsbət tendensiyalar daima güclənib və güclənməkdədir. Bizim uğurlu inkişafımızı gücləndirən amillər bunlardır" [9].

Təhlillər onu deməyə əsas verir ki, ölkədə bu sahədə həyata keçirilən fəaliyyətin əsasında tarixi ənənə, yaxşı idarəetmə və insan potensialı dayanır. Qeyd edilən bu üç amil tarix boyu formalaşmışdır. Azərbaycan müxtəlif mədəniyyətlərin, sivilizasiyaların qarşılıqlı anlaşma şəraitində bir araya gəldiyi, multikultural dəyərləri həyat tərzinə çevirən nadir ölkələrdəndir. Multikulturalizm eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun olan siyasətdir. "Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir" [13].

Qəbul edilən həqiqət bundan ibarətdir ki, multikulturalizm Azərbaycan cəmiyyətini səciyyələndirən dəyərə çevrilib və ölkəmizdə əsrlər boyu müxtəlif xalqların və konfessiyaların nümayəndələrinə hörmətlə yanaşılması ənənəsi mövcud olub. Azərbaycan Respublikası ikinci dəfə müstəqilliyini bərpa etdikdən sonra məhz Heydər Əliyevin idarəçilik məharəti, onun siyasi müdrikliyi və uzaqgörənliyi nəticəsində bu ənənə prinsiplər səviyyəsinə yüksəlmiş, dövlət siyasətinin vacib istiqaməti kimi öz təsdiqini tapmışdır. Ulu Öndər bildirirdi: "Avropa ilə Asiyanın qovuşuğunda, Böyük İpək Yolunun üstündə yerləşən Azərbaycanda zərdüştilik, atəşpərəstlik kimi qədim dini inanclar öz izlərini qoymuş, islam, xristianlıq və yəhudi dinləri əsrlər boyu dialoq və qarşılıqlı anlaşma mühitində dinc yanaşı yaşamış və hələ də yaşamaqdadır. Azərbaycan Şərqlə Qərbin qovuşmasında mühüm rol oynayır" [14].

Azərbaycan Respublikasında indiyədək fasiləsiz formada həyata keçirilən multikultural siyasəti layiqincə davam etdirən Prezident İlham Əliyev ənənəvi olaraq ölkəmizdə yaşayan xalqların, dini icmaların nümayəndələri ilə vaxtaşırı görüşür, onları dini bayramları münasibəti ilə təbrik edir. Prezidentin sərəncamı ilə Azərbaycan Respublikasının Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyinin təsis edilməsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması bu sahəyə göstərilən diqqətin əyani göstəricisidir.

Azərbaycan artıq dünyada multikulturalizm və sivilizasiyalar arasında dialoq məkanı kimi qəbul edilir. Xalqımızın sahib olduğu multikultural dəyərlərin dünyaya təqdim edilməsində, ölkələr və beynəlxalq qurumlar arasında sivilizasiyalararası dioloqun təşviq edilməsində, multikulturalizmin Azərbaycan modelinin təbliği sahəsində Heydər Əliyev Fondunun da əvəzsiz xidmətləri vardır. Yaşadığımız günlərin reallığı isə budur ki, artıq multikulturalizmin Azərbaycan modeli mükəmməl şəkildə formalaşıbdır.

Təəssüf ki, dünyanın bir çox ölkələrində toqquşmalar və humanitar problemlər ayrı-ayrı xalqların faciəsinə çevrilib. Eyni zamanda, bu qarşıdurmalar milli və dini zəmində baş verir. Qərb dünyasında islamofobiya meyilləri artdığı bir zamanda Şərq dünyasında ideologiyalar, inanclar, məzhəblər arasında olan qarşıdurmalar artır və daha da dərinləşir. Bu isə sonda mədəniyyətlər və sivilizasiyalararası ziddiyyətləri dərinləşdirir.

Bəzi Qərb dövlətləri multikulturalizmi idarə etməyin kifayət qədər mürəkkəb olması ilə əlaqədar ondan imtina edir, onun bir dəyər kimi iflasa uğradığını açıq bəyanatla bildirirlər.

Son illər dünyada baş verən toqquşmalar, qarşıdurmalar, xüsusilə bəzi liderlərin sivilizasiyalar və mədəniyyətlərarası gərginliyə gətirib çıxaran siyasi bəyanatları gündən-günə gərginləşən münasibətlərin düşmənçilik həddinə çatdığından xəbər verir. Buna görə də dünyada mədəniyyətlərarası dialoqun rolunun dominantlıq təşkil etməsi və qlobal problemlərin intellektual, mədəni, tolerant müstəvidə həlli

olduqca önəmlidir. Bu sahədə potensialı güclü olan ölkələrin dialoq məsələlərində təşəbbüslərinin və rolunun artırılması da vacib amillərdəndir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı ili ölkəmizdə "Multikulturalizm ili" elan etməklə dünyaya daha bir sülh mesajı vermişdir. Bu addımla bir daha təsdiq olunur ki, Azərbaycan dövləti öz ərazisində məskunlaşan bütün xalqların mehriban və dostluq şəraitində birgəyaşayışının, onların mədəni inkişafının, adət və ənənələrinin qorunmasının təminatçısıdır. Azərbaycanın sivilizasiyalararası dialoqun mərkəzinə çevrildiyini diqqətə çatdıran Prezident İlham Əliyev dünyada sülhün təmin edilməsində dialoqlara böyük ehtiyac olduğunu bildirir. Həqiqətən də, bu gün Azərbaycan təkcə Şərqdən Qərbə və Qərbdən Şərqə gedən yolların körpüsü deyil, həm də siyasi və iqtisadi maraqların, dinlərin, mədəniyyətlərin, sivilizasiyaların da qovuşduğu və bir-birini qarşılıqlı surətdə tamamladığı siyasi-iqtisadi və mədəni-mənəvi mərkəzə çevrilmişdir. III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılış mərasimində Prezident İlham Əliyev çıxışında demişdir: "Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşir. Biz Avropa və Asiya arasında yerləşirik. Əlbəttə ki, bu coğrafi yerləşmə Azərbaycanın mədəni müxtəlifliyində öz rolunu oynamışdır. Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşamışlar. Biz fəxr edirik ki, bu müsbət meyillər müstəqillik illərində daha da güclənmişdir. Bizim tarixi abidələrə nəzər salmaq yetər ki, Azərbaycanın mədəni müxtəlifliyi aydın görünsün. Biz tarixi və mədəni irsimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən olan, 743-cü ildə inşa edilmiş məscid Azərbaycanın qədim Şamaxı şəhərində yerləşir. Dünyanın ən qədim kilsələrindən biri - Qafqaz albanlarının kilsəsi Azərbaycanın digər qədim Şəki şəhəri yaxınlığındadır. Pravoslav və katolik kilsələri, sinaqoqlar, atəşpərəstlər məbədi bizim mədəni irsimizin tərkib hissəsidir və biz bununla fəxr edirik. Bu gün Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri yaşayır və ölkəmizin uğurlu inkişafına öz töhfələrini verirlər. Düşünürəm ki, bu, bizim ən böyük sərvətlərimizdəndir. Biz bundan qürur duyuruq və multikulturializm dəyərlərinin, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşmanın təşviqi üçün müxtəlif beynəlxalq tədbirlər keçiririk. Hesab edirəm ki, müsbət meyillərin güclənməsi üçün dünyada belə tədbirlərə, açıq müzakirələrə və fikir mübadiləsinə ehtiyac var" [4].

Fəxrlə deyə bilərik ki, Azərbaycanın həyata keçirdiyi uğurlu siyasi strategiya nəticəsində "sivilzasiyalararası dialoqun Azərbaycan modeli" üzərində beynəlxalq elmi ictimaiyyət bu gün diskussiyalar aparır, xalqımızın adət-ənənələrindən irəli gələn yüksək dəyərlərin öyrənilməsi və onun tətbiq olunmasının elmi şəkildə araşdırılmasının əhəmiyyəti barədə söhbət açırlar .

Təsadüfi deyil ki, bu gün Azərbaycan sivilizasiyalararası qarşıdurmanın təzahürləri kimi meydana çıxan qlobal problemlərin həllində qarşılıqlı əməkdaşlıq çağırışları edən elm, din və siyasət xadimlərinin görüşdüyü bir məkana çevrilmişdir. Azərbaycan mədəniyyətlərin, sivilizasiyaların qovuşduğu məkan kimi bütün dünyada qəbul olunmaqdadır. Bu mənada sivilizasiyalararası dialoqun, multikulturalizmin Azərbaycan modeli bütün dünyanın diqqətini cəlb etməkdədir.

Sivilizasiyalar və mədəniyyətlərarası dialoq prosesinin davamlılığını təmin edən Azərbaycan Şərq ilə Qərb arasında körpüdür. Azərbaycanın iqtisadiyyatı, elmi-mədəni potensialı elə bir səviyyəyə çatmışdır ki, sadəcə olaraq, iki sivilizasiya arasında körpü rolunu oynamır, sivilizasiyaların hər ikisinin daşıyıcısı olmaqla onların vəhdətini təcəssüm etdirir. Son illərdə qazanılmış böyük iqtisadi nailiyyətlər Azərbaycana özünün beynəlxalq mövqeyini möhkəmləndirmək, Şərq ilə Qərb arasında tutduğu əlverişli coğrafi vəziyyətdən daha optimal surətdə istifadə etmək imkanı vermişdir. Ölkə Prezidenti İlham Əliyev Azərbaycan multikulturalizminin özünəməx-

susluğunu yüksək qiymətləndirərək bəyan edir: "Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir"(4).

Yuxarıda qeyd olunanlara əsasən deyə bilərik ki, ölkədə insan faktorunun inkişafı baxımından kompleks tədbirlərin görülməsinə, gənclərin multikultural dəyərlərlə formalaşmasına daim xüsusi önəm verilmişdir. İnsanın hərtərəfli inkişafına, güclənməsinə və idarəedilməsinə yönəldilmiş siyasətin mərkəzində ilk növbədə Azərbaycan vətəndaşı, xüsusən Azərbaycan gəncliyi dayanır. "Qara qızıl"ın "insan qızılına" çevrilməsinə yönəldilmiş strategiyada bilik və bacarıq əsas rol oynayır. "....neft faktorunun insan kapitalına çevrilməsi insan potensialının inkişafına səbəb olur. Strateji önəm daşıyan, tükənməyən və daim təkmilləşən təbii sərvətlər arasında ən böyük əhəmiyyətə malik olan insan potensialı isə hər zaman inkişafın həlledici amili kimi çıxış edib və etməkdədir. Son zamanlar ölkələrin inkişafının, əhalinin həyat səviyyəsi və rifahının bilik və bacarıqlardan asılı olması insan amilinin vacibliyini bir daha ön sıraya çıxarıb (6).

Bu yanaşma yuxarıda qeyd etdiyimiz üçbucağın müddəalarından irəli gəlir. Elmsiz, təhsilsiz nə dialoq, nə sülh, nə də tolerantlıq təmin edilə bilməz. Təsadüfi deyildir ki, 2016-cı ilin 25-27 aprel tarixində paytaxtımızda BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçiriləcəkdir. Bu mötəbər beynəlxalq tədbirin ölkəmizdə keçirilməsi Azərbaycanda yüksək səviyyədə qorunan multikultural dəyərlərə dünya birliyi tərəfindən verilən qiymətdir. Azərbaycan Respublikasının bu sahədə apardığı xətt belə deməyə əsas verir ki, o, təkcə maddi sərvətləri ilə deyil, həm də mənəvi sərvətləri, o cümlədən yüksək mənəviyyatı, tolerantlığı, multikultural həyat tərzi və birgəyaşayışa, sülhə meylli olması ilə digər dövlətlərə nümunə göstərilə bilər.

Dövlətimizin bu sahədə apardığı xətt onu deməyə əsas verir ki, Azərbaycan xalqı təkcə maddi sərvətləri ilə deyil, həm də mənəvi sərvətləri, o cümlədən xalqın yüksək mənəviyyatı, onun tolerantlığı, multikultural həyat tərzi və birgə yaşayışa, sülhə meylli olmaları ilə də dünya ictimaiyyətinə eyni zamanda təhsil və tədrisin standartlarının tətbiqi baxımından da model olaraq nümunə göstərilə bilər.

Ölkədə zəngin multikultural həyat tərzinin dünyada təbliği istiqamətində mühüm tədbirlər görülür. Qürur duyulası haldır ki, ölkəmizdə ardıcıl olaraq uğurla həyata keçirilən hüquqi-demokratik islahatlar, vətəndaş cəmiyyəti quruculuğu, bilik iqtisadiyyatının formalaşması kimi gələcəyə yönəlmiş baxışların əsasında insan potensialının inkişafı və idarə edilməsi, onun tarixi və mənəvi dəyərlərinin qorunması da prioritet təşkil etməkdədir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı: Qanun. – 2011.
2. Əliyev H., Müstəqilliyimiz əbədidir. – Bakı: Azərnəşr. 1997-2004.
3. İlham Əliyevin Üçüncü Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimindəki çıxışı, http://www.president.az/articles/15172
4. İlham Əliyevin III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuda çıxışı. [18.05.2015] http://www.president.az/articles/15172
5. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 11.01.2016 http://www.president.az/articles/17437
6. Ələkbərov, U., Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi və mənəvi inkişafın harmoniyası I virtual dəyirmi masa, 2014 http://cdn.bbmm.az/pdf/rt1.pdf
7. Xəlilov, S.S. Şərq və Qərb: ümumbəşəri ideala doğru fəlsəfi etüdlər. – Bakı: Azərbaycan Universiteti nəşriyyatı. – 2003. – 630 s.

8. Xəlilov, S., Şərqdə və Qərbdə milli-mənəvi dəyərlər http://psychology.az/salahaddin_halilov.php
9. The Clash of Civilizations and the Remaking of World Order. New-York: Simon & Schuster, 1996
10. Darabadi, P. «Sivilizasiyaların toqquşması» və ya Samuel Hantinqtonun neoatlantizmi, http://newtimes.az/az/politics/3026
11. Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı, 20 avqust 1992-ci il
12. Nəcəfov, E. Müxtəlif ölkələrdə multikulturalizm siyasətinin müqayisəli təhlili // ru.wikpediya.org/wiki
13. Мец, А. Мусульманский Ренессанс. – М.: Наука. – 1973.
14. Глобализация и мультикультурализм. – Москва. – 2005. – 301 с.
15. Мультикультурализм и трансформация постсоветских обществ. – Москва: АСТ. – 2002. – 192 с.
16. Azərbaycan-tolerantlığa nümunə ölkə http://xalqqazeti.com/az/news/politics/56945 http://www.president.az/articles/9894
17. Azərbaycan multikulturalizmin əsas məkanlarından biridir http://www.interaztv.com/society/1838.
18. Azərbaycanda tolerantlıq http://www.azerbaijan.az/_GeneralInfo/_TraditionReligion/traditionReligion_03_a.html#to
19. Multiculturalism Policies in Contemporary Democracies. Immigrant Minorities. Results. https://www.queensu.ca/mcp/immigrant-minorities/results.

***Açar sözlər:*** *Azərbaycanın multikulturalizm modeli, sivilizasiyalararası dialoq, tolerantlıq, tarixi ənənə, yaxşı idarəetmə*

**Yusif Aghayev**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Associate Professor, Ph.D. student, Department of Political Management and Political Science*

# FACTORS DETERMINING THE FORMATION OF AN ENVIRONMENT OF INTERCULTURAL DIALOGUE AND TOLERANCE IN THE REPUBLIC OF AZERBAIJAN: THEORETICAL-CONCEPTUAL APPROACH

## ABSTRACT

Multiculturalism is a crucial tool for fostering intercultural dialogue and civilizations aimed at managing risks and ensuring the sustainable development of society. Tolerance, respect for representatives of other cultures, and the creation of mutual understanding and dialogue among civilizations are impossible without learning about those cultures, histories, and achievements. Analysis of current events indicates that establishing and developing dialogue among civilizations has become a necessity of life. However, from which perspective is the problem assessed? This question remains urgent. The basis of the problem demonstrates triangular dialogues among civilizations, incorporating historical traditions, good governance, and human resources as the points of the angles above. Indeed, due to the policies established by national leader Heydar Aliyev and successfully continued by President Ilham Aliyev, the preserved and developed tolerance in our country contributes significantly to the culture of tolerance worldwide and holds priceless value for future generations.

***Keywords:*** *multiculturalism model of Azerbaijan, dialogues among civilizations, tolerance, historical tradition, good governance*

**Юсиф Агаев**

*Докторант кафедры "Политологии и политического управления"*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по филологии, доцент*

# ФАКТОРЫ, ОПРЕДЕЛЯЮЩИЕ ФОРМИРОВАНИЕ СРЕДЫ МЕЖКУЛЬТУРНОГО ДИАЛОГА И ТОЛЕРАНТНОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ: ТЕОРЕТИКО-КОНЦЕПТУАЛЬНЫЙ ПОДХОД

## РЕЗЮМЕ

Для управления рисками и обеспечения развития общества, направленного в будущее, мультикультурализм является важным звеном в культурном и цивилизационном диалоге. Невозможно построить межцивилизационный диалог, толерантное отношение, уважение, обоюдное согласие не изучив сущность, особенность, историю и достижения других культур. Анализ событий, происходящих в мире в наши дни, показывает, что построение и развитие межцивилизационного диалога становится жизненноважным явлением. Однако вопрос "С какого аспекта оценивается взгляд на проблему?" сохраняет свою актуальность. Основу проблемы отражает треугольник в межцивилизационном диалоге: историческая традиция, хорошее управление, человеческий потенциал. Это – отражение указанных углов. Вне всяких сомнений, сохраненная и развитая среда толерантности в результате политики, основанной Общенациональным Лидером Гейдаром Алиевым, и успешно продолжаемой Президентом Ильхамом Алиевым, является большим вкладом нашего государства в мировую культуру и незаменимой ценностью для будущих поколений.

***Ключевые слова:*** *модель мультикультурализма в Азербайджане, межцивилизационный диалог, толерантность, историческая традиция, хорошее управление*

DOI 10.30546/2309-1347.84.2023.153

# H Ü Q U Q
# L A W

UOT: 34. 342. 324.4; 342.5

**SAMİRƏ BABAYEVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru**

*e-mail: samirababayeva@list.ru*

## CİNAYƏT QANUNUNUN TƏKMİLLƏŞDİRİLMƏSİNİN AKTUAL MƏSƏLƏLƏRİ

Dövlətimizdə hüquq quruculuğunun həyata keçirilməsində atılan ən mühüm addımlardan biri Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulu olmuşdur. Konstitusiyamızda demokratik, hüquqi dövlət quruculuğu və insan haqlarının qorunması dövlətimizin ali, strateji məqsədi kimi önə çıxarılıb. İlk dəfə olaraq, Konstitusiyamızın maddələrinin üçdə bir hissəsi məhz insan hüquq və azadlıqlarına həsr olunmuşdur. Konstitusiyanın 71-ci maddəsində qeyd olunmuşdur ki, insan və vətəndaş hüquq və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu hesab edilir. Bu istiqaməti rəhbər tutaraq, dövlətimizin cəza siyasəti formalaşmış və daim təkmilləşməkdədir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 9-cu maddəsində öz təsbitini tapmış humanizm prinsipinin müddəalarına görə: "Cinayət Məcəlləsi insanların təhlükəsizliyini təmin edir. Cinayət törətmiş şəxsə tətbiq edilən cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər işgəncə və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan xarakter və ya məqsəd daşıya bilməz".

Cəza dövlətin adından çıxarılan məhkəmə hökmü ilə müəyyən olunan cinayət-hüquqi xarakterli tədbirdir. Cəza dövlət siyasətinin mühüm qollarından birini təşkil edir. Kriminoloji tədqiqatlara nəzər saldıqda görürük ki, cəza sisteminin sərtliyi cinayətkarlığın qarşısının alınmasında təsiredici amil kimi çıxış etmir. İnkişaf etmiş iqtisadiyyat, işsizliyin aradan qaldırılması, əhali arasında aparılan kompleks maarifləndirmə tədbirləri, ölkə ərazisində mövcud olan ictimai-siyasi sabitlik və s. bu kimi mühüm məsələlər cinayətkarlığın tendensiyasına azalan xətlə təsir edən ən mühüm amillər sırasında durur. Buna görə də, müasir dünyada inkişaf etmiş ölkələr sərt cəza siyasətindən imtina edərək humanist cəza siyasətinə keçmişdir.

Bu məqamda, 1993-cü ildən Azərbaycan Respublikasında ölüm hökmü cəzası üzərində moratorium qoyulmasının, 1998-ci ildə isə bu cəzanın tamamilə ləğv edilməsinin də Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu xüsusi qeyd etmək lazımdır. Ölüm hökmünün ləğvi ilə Azərbaycan Respublikasının adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən ölkə kimi tarixə düşdü. Ölüm cəzasının ləğvi tarixi hadisə olmaqla bərabər, cinayət-hüquq siyasətinin humanistləşdirilməsi sahəsində atılan qətiyyətli addım olmuşdur.

Cəza insanların psixikasına təsir edir, sosial ədalətin bərpa olunması, cinayətkarlığın qarşısının alınması vasitəsi kimi çıxış edir, həmçinin cinayət törədən şəxslərin islah olunmasını təmin edir.

Dövlətimizin cəza siyasətinin digər mühüm istiqamətini cəzaya qənaət prinsipi təşkil edir. Azərbaycan Respublikasının CM-in 58.1-ci maddəsinə görə, törədilmiş cinayətə görə nəzərdə tutulmuş cəzalardan daha ciddi cəza növü və ya həddi yalnız o halda təyin edilir ki, az ciddi cəza növü və ya həddi cəzanın məqsədlərini təmin edə bilmir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (CM-in 79-cu maddəsi) humanizm mövqeyini rəhbər tutaraq, azyaşlı uşağı olan qadın və kişilərə təyin olunan cəzanın çəkilməsini uşaq 14 yaşına çatana qədər təxirə salmaq hüququ verir. Bu müddəalar cəza siyasətində humanizm prinsipinin xüsusi çəkisi olduğunu aydın şəkildə ifadə edir.

Bundan əlavə, Azərbaycan Respublikasının CM-nin 59.1.4-cü maddəsində "cinayət törətmiş şəxsin himayəsində azyaşlı uşağın olması" cəzanı yüngülləşdirən hal kimi əksini tapır. Fikrimizcə, qanunun müvafiq normasının redaksiyasının "cinayət törətmiş şəxsin himayəsində yetkinlik yaşına çatmayan uşağının, əmək qabiliyyəti olmayan valideyninin və ya ərinin (yaxud arvadının) olması" formasında ifadəsini tapması cinayət qanununun prinsipləri, xüsusən də, humanizm və ədalətlilik nöqteyi-nəzərdən daha düzgün olardı. Belə ki, yetkinlik yaşına çatmamış şəxslər əksər hallarda valideynlərinin, yaxud övladlığa götürənlərin və ya onlara himayədarlıq edən başqa şəxslərin himayəsində olurlar. Beynəlxalq qanunvericilikdə və milli qanunvericilikdə 18 yaşına çatmayan şəxslər "uşaq" adlanır. Bu baxımdan, onların öz müqəddəratını sərbəst olaraq təmin etmələri ya mümkün olmur, ya da çox çətin olur. Onlar yad insanların təsirinə asanlıqla düşə bilirlər. Bu mənada, valideyn himayəsindən kənarda qalmış şəxslərin kriminal mühitə cəlb olunması ehtimalı gözlənilən olur. Digər tərəfdən, Azərbaycan Respublikasının Konstitusiyasının "Ailə, uşaqlar və dövlət" adlanan 17-ci maddəsində qeyd olunur ki, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Ailə hüquq münasibətlərinin təmini meyarı kimi təkcə uşaqlar deyil, həmçinin valideynlər və ər-arvad təsisatlarının da nəzərdə tutulması(yuxarıda qeyd olunan istisnalarla) fikrimizcə, hüquqi baxımdan kamil yanaşma olardı. Bu yüngülləşdirici halın mühüm əhəmiyyəti vardır. Belə ki, hər zaman ailənin vəziyyəti cinayət törətmiş şəxsin gələcək taleyindən asılıdır. Qeyd olunan vəziyyətlərdə şəxslərə alternativ sanksiya hüduqlarında mümkün olduğu qədər, azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzaların təyin edilməsinə üstünlük verilməsi daha ədalətli və humanist olar.

Digər bir məqam, cinayət qanununun 42-ci maddəsində cəzanın sistemi ilə əlaqədardır. Fikrimizcə, cəzanın sisteminin qurulmasında qanunvericinin iyerarxiya üzrə (yüngül cəzadan ağır cəzaya doğru) müəyyənləşdirdiyi sıralama qüsurludur. Azərbaycan Respublikasının CM-nin 42-ci maddəsinin aşağıdakı redaksiyada verilməsini təklif edirik:

Maddə 42. Cəzanın növləri

42.0. Cəzanın növləri aşağıdakılardır:

42.0.1. nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə;

42.0.2. ictimai işlər;

42.0.3. islah işləri;

42.0.4. hərbi xidmət üzrə məhdudlaşdırma;

42.0.5. cərimə;

42.0.6. müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə;

42.0.7. xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə;

42.0.8. Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma;

42.09. azadlığın məhdudlaşdırılması.

42.0.10. intizam xarakterli hərbi hissədə saxlama;

42.0.11. müəyyən müddətə azadlıqdan məhrum etmə;

42.0.12. ömürlük azadlıqdan məhrum etmə.

Hazırda cinayət qanunvericiliyinin ən aktual məsələlərindən biri ekosid və urbisid cinayətlərinin cinayət qanununda təsbit edilməsi zəruriliyi ilə əlaqədardır. Uzun illər erməni işğalı altında qalan tarixi və qanuni torpaqlarımızda şəhərlər, kəndlər dağıdılmış, mədəni sərvətlər, tarixi abidələr məhv ol-

muşdur. Belə böyük həcmli, hesablanmış və məkrli siyasətin tərkib hissəsi olan davranışları əmlak ziyanı vurma cinayət tərkiblərinə sığışdırmaq qeyri-mümkündür. Eyni zamanda, respublikamızın ekologiyasına çox böyük zərər vurulmuş, heyvanlar aləmi, meşələr məhv edilmiş, yandırılmış, çayların suyu zəhərlənmiş (Araz çayının sol qolu olan Oxçuçay buna xüsusilə nümunə ola bilər), bulaqlar qurumuşdur. Bu əməllər beynəlxalq cinayətlər kimi Cinayət Məcəlləsinin "Sülh və insanlıq əleyhinə cinayətlər" fəslində yer almalıdır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində müvafiq olaraq urbisid və ekosid cinayət tərkiblərinə aşağıdakı məzmunda anlayış verilməsini təklif edirik:

104-1. Urbisid

– Şəhər, rayon, kənd, qəsəbə ərazilərində mövcud olan yaşayış yerlərinin, tarixi abidələrin, mədəni sərvətlərin kütləvi məhvinə yönəlmiş əməllər

– 8 ildən on beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

104-2. Ekosid

– Bitki və heyvanlar aləminin kütləvi məhv edilməsi, atmosferin və suların zəhərlənməsi ilə müşayiət olunan ekoloji qəza yaradan əməllər

– On iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Digər bir məsələ, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 172-ci maddəsi – Özgənin uşağını dəyişdirmə" ilə əlaqədardır: "Tibb müəssisələrində uşağın mühafizəsi və ya ona qayğı göstərilməsi vəzifəsini daşıyan şəxs tərəfindən tamah məqsədilə, intiqam və sair alçaq niyyətlə özgənin uşağını dəyişdirmə – üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır". (2) Bu maddənin məzmunundan göründüyü kimi, özgənin uşağını dəyişdirmə cinayət tərkibinin subyekti xüsusidir, yəni tibb müəssisələrində uşağın mühafizəsi və ona qayğı göstərilməsi vəzifəsi həvalə edilən şəxs başa düşülür. İnsan mülki dövriyyənin predmeti deyildir. Buna görə də onun üzərindən dəyişmə müqaviləsinin icrası yolverilməzdir. Maddənin dispozisiyasından aydın olur ki, əgər bu əməl tibb müəssisəsindən kənarda baş verirsə, adam oğurluğu hesab olunmalıdır. Eyni zamanda, tibb müəssisəsində törədilsə belə, əgər uşağın mühafizə edilməsi və ya ona qayğı göstərilməsi vəzifəsi həvalə olunmayan şəxs tərəfindən törədilərsə, yenə adam oğurluğu maddəsi ilə tövsif olunmalıdır. Nəzərə alsaq ki, cinayət qanununda tamah məqsədilə adam oğurluğunun törədilməsi tövsifi əhəmiyyət daşıyaraq məsuliyyəti ağırlaşdıran hal kimi müəyyən olunmuşdur (CM-nin 144.2.6-cı maddəsi), bu təqdirdə yalnız məkan fərqinə görə və xüsusiləşmiş subyektə görə əmələ hüquqi qiymətin bir-birindən paradoksal dərəcədə fərqlənməsi absurddur. Azərbaycan Respublikasının CM-də bir qayda olaraq, xüsusi subyekt məsuliyyətin fərdiləşdirilməsində rol oynayır. Konkret halda, müvafiq norma subyektin üzərinə əlavə məsuliyyət qoymalı olduğu halda, adam oğurluğuna münasibətdə çox aşağı həddə cəza təyinini nəzərdə tutur. Fikrimizcə, bu əməlin törədilməsinə görə sanksiya aşağıdakı kimi müəyyən olunmalıdır: "səkkiz ildən 12 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

Özgənin uşağını dəyişdirmə əməlinin fiziki ziyanından başqa, çox dərin mənəvi zərəri də danılmazdır. Burada uşağın azadlığı, valideynin qanunla qorunan hüquq və mənafeləri ziyan çəkir. Əmələ hüquqi qiymət verilməsindəki boşluğun aradan qaldırılması cəzanın sosial ədaləti bərpa etmək məqsədini təmin etmiş olar.

Digər tərəfdən bu əməlin ehtiyatsızlıqdan törədilməsi cinayət qanununda nəzərdə tutulmayıb. Burada kriminalizasiya prosesinin vacibliyi özünü göstərir. Əməlin mənfi motivlər olmadan – ehtiyatsızlıqdan törədilməsi dekriminal olmamalıdır. Çünki bu, tibb personalında məsuliyyətsizlik hissini yarada bilər. Dəyişmə zamanı insanın azadlığı, onun kimliyi, şəxsiyyəti zərər görür. Cinayət qanununda aşağıdakı məzmunda yeni maddənin əlavə edilməsini təklif edirik:

172-1 “Tibb müəssisələrində uşağın mühafizəsi və ya ona qayğı göstərilməsi vəzifəsini daşıyan şəxs tərəfindən ehtiyatsızlıqdan özgənin uşağını dəyişdirmə - bir ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır”.

İnsan hüquq və azadlıqlarının təmini, xüsusilə də gender hüququ baxımından əhəmiyyət daşıyan məsələlərdən biri də, Cinayət Məcəlləsinin 176-1-ci maddəsi, yəni, “Qadını nikaha daxil olmağa məcbur etmə” maddəsi ilə əlaqədardır. Belə ki, bu maddədə zərərçəkmiş şəxsin xüsusiləşməsi, yəni ancaq qadının bu maddədən zərərçəkmiş şəxs qismində tanınması insan hüquq və azadlıqlarının təminində cinsi fərq yaratmış olur. Bu, ilk növbədə, Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsində təsbitini tapmış “Bərabərlik hüququ” na ziddir. Həmin maddədə qeyd edilir ki, hamı qanun və məhkəmə qarşısında bərabərdir. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. (1)

Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30 mart 2006-cı il tarixli 5№ li qərarında deyilir ki, insan hüquqları ümumi səciyyəyə malikdir və onların həyata keçirilməsi ilə bağlı məhkəmələr aşağıdakıları nəzərə almalıdırlar:

– bütün insanlar heç bir ayrı-seçkiliyə yol verilmədən əsas hüquq və azadlıqlara malikdirlər;

– insan hüquq və azadlıqları məkan, ərazi hüdudları ilə bağlı deyildir. İnsanlar harada olmalarından asılı olmayaraq əsas hüquq və azadlıqlara malikdirlər;

– insan hüquqları universal, bölünməz olmaqla qarşılıqlı bağlılıqdadır. Milli, dini, tarixi, mədəni özünəməxsusluq nəzərə alınmaqla insan hüquq və azadlıqlarına ali dəyər kimi hörmət və riayət edilməli, onların müdafiəsi təmin olunmalıdır;

– hüquq və azadlıqların həyata keçirilməsi başqalarının hüquq və azadlıqlarını pozmamalıdır;

– insan hüquq və azadlıqları yalnız qanun, konstitusiya və beynəlxalq hüquq normalarında nəzərdə tutulmuş hallarda və qaydada məhdudlaşdırıla bilər;

– hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququ vardır;

– hər kəsin hüquq və azadlaqlarının məhkəmədə müdafiəsinə təminat verilir (3).

Nəzərə alaq ki, praktiki cəhətdən kişinin də nigaha məcburi daxil olması mümkündür. Belə olan təqdirdə, konkret halın cinayət tərkibi yaratmaması mübahisə doğurur və insan hüquq və azadlıqlarının təminində bərabərlik hüququnu birbaşa pozur.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 176-1-ci maddəsinin aşağıdakı formada təsbit olunmasını təklif edirik:

176-1 Qadını və ya kişini nikaha daxil olmağa məcbur etmə

176-1.1. Qadını və ya kişini nikaha daxil olmağa məcbur etmə – iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

176-1.2. Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə – üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Fikrimizcə, konkret maddənin bu məzmunda müəyyənləşdirilməsi insan hüquq və azadlıqlarının müdafiəsində bərabərlik hüququnu tam təmin etmiş olar.

Cinayət Məcəlləsində təkmilləşdirilməyə ehtiyacı olan tərkiblərdən biri də 246-cı maddədir. “Tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama” adlanan bu tərkib böyük ictimai təhlükə törətməyən cinayət kimi təsbit olunmuş, törədilməsinə görə iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə cəzası müəyyən olunmuşdur. Maddənin dispozisiyası dövlət tərəfindən mühafizə olunan tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama kimi formulə olunmuşdur. Bu tərkibi bir sıra oxşar tərkiblərlə müqayisə etdikdə, görürük ki, sanksiya sistemi qüsurlu qurulmuşdur, obyektiv cəhətdən bir-birinə bənzəyən əməllərin sanksiyası adekvat müəyyən olunmamışdır. Halbuki, qanunvericilik texnikası baxımından xüsusiləşmiş predmetlər, xüsusisi subyekt və xüsusiləşmiş zərərçəkmiş şəxs xüsusi normaların yaranmasına səbəb olur və məsuliyyətin differensasiyasına da artan xətlə təsir göstərir. “Tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama” ictimai mənəviyyat əleyhinə törədilən cinayət olmaqla xalqın, dövlətin milli-mənəvi, tarixi dəyərlərinə zərər vurur. Tarix və mədəniyyət abidələrinin məhv edilməsi, korlanması nəinki qəsdən, ehtiyatsızlıqdan törədildikdə belə cinayət məsuliyyətinə səbəb olmalıdır. Müqayisəli təhlil edək: CM-nin 245-ci maddəsi “Qəbir üzərində təhqiredici hərəkət adlanır”. Bu maddədə qəbirin korlanması, zədələnməsi, məhv edilməsi də təhqiredici hərəkət hesab olunur. Bu əməl az ağır cinayətlər kateqoriyasına daxil olmaqla, iki ilədək müddətə islah işləri və ya beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Maddənin dispozisiyasından belə məlum olur ki, əgər qəbir tarix və ya mədəniyyət abidəsidirsə və korlanmışa, yaxud məhv edilmişsə, böyük ictimai təhlükə törətməyən əməl, hər hansı digər qəbirdirsə az ağır cinayət kateqoriyasına aid olacaqdır. Digər bir müqayisəli məqam, CM-nin 183-cü maddəsi ilə əlaqədardır. CM-in 183.1-ci maddəsinə görə, xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyaları və ya sənədləri üsulundan asılı olmayaraq talama beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. CM-nin 183.2.3-cü maddəsində isə qeyd olunur ki, eyni əməllər bu Məcəllənin 183.1-ci maddəsində göstərilən əşyaların və ya sənədlərin məhv olmasına, korlanmasına və ya dağıdılmasına səbəb olduqda səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Burada isə tarixi, mədəni əhəmiyyətinə görə eyni olan predmetlərin məhv edilməsinə münasibətdə ik tərkibin sanksiyaları arasında kəskin fərqi müşahidə edirik. Növbəti məqam odur ki, cinayət qanununun 187-ci maddəsində əmlakın ehtiyatsızlıqdan məhv edilməsi və ya zədələnməsi əməli kriminallaşdırıldığı halda, tarix və mədəniyyət abidəsinə qarşı belə əməl dekriminaldır.

Cinayət Məcəlləsinin 183, 186, 187, 245-ci maddələrinin müqayisəli təhlili zamanı bu qənaətə gəlmək olur ki, 246-cı maddə təkmilləşdirilməlidir. Bütün bu məqamları nəzərə alaraq, cinayət qanununun 246-cı maddəsinin aşağıdakı formada təsbit olunmasını təklif edirik:

Maddə 246. Tarix və mədəniyyət abidələrini məhv etmə və ya korlama

246.1. Dövlət tərəfindən mühafizə olunan tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama – yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır

246.2. Dövlət tərəfindən mühafizə olunan tarix və mədəniyyət abidələrini odla və ya başqa yüksək təhlükə mənbəyi ilə ehtiyatsız davranma üzündən məhv etmə və ya korlama – iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Dövlət öz cəza siyasətini ali qanunverici orqan olan Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi Cinayət Məcəlləsi vasitəsilə təmin edir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 1.2-ci maddəsində qeyd olunur ki, bu Məcəllə Azərbaycan Respublikasının Konstitusiyasına, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına və prinsiplərinə əsaslanır. Olduqca əhəmiyyətli bir məqam da ondadır

ki, cinayət məsuliyyətini müəyyən edən və cinayət törətmiş şəxsin cəzalandırılmasını nəzərdə tutan qanunlar yalnız bu Məcəlləyə daxil olunduqdan sonra tətbiq edilə bilər. Belə ki, hər hansı bir əməlin cinayət-hüquqi məzmun kəsb etməsi, yəni cinayət tərkibi yaratması üçün bu əməlin Cinayət Məcəlləsində təsbit olunması vacibdir. Əks halda baş vermiş əməl ictimai əxlaqla pislənilsə belə, onunla cinayət-hüquqi mübarizə aparılması mümkün olmur.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Konstitusiyası // https://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi // https://www.e-qanun.az/framework/46947
3. Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30 mart 2006-cı il tarixli 5№ li qərarı. https://e-qanun.az/framework/16701

***Açar sözlər:*** *insan hüquqlarının müdafiəsi, urbisid, ekosid, kriminalızasiya*

**Samira Babayeva**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan,*
*Department of Law,*
*Associate Professor, Ph.D. in Law*

# THE IMPORTANCE OF IMPROVING CRIMINAL LEGISLATION IN THE PROTECTION OF HUMAN RIGHTS AND FREEDOMS

## ABSTRACT

Currently, one of the most urgent issues in criminal legislation is related to the need to establish the crimes of ecocide and urbicide in criminal law. Cities and villages were destroyed, and cultural resources and historical monuments were demolished in our historical and legal lands that were under Armenian occupation for many years. It is impossible to fit the behaviors that are part of such a large-scale, calculated, and insidious policy into the criminal elements of property damage. At the same time, significant damage was done to the ecology of our republic: the animal world, forests were destroyed and burned, and the water of the rivers was poisoned (Okhchuchay, which is the left branch of the Araz river, can be an example of this), and the springs dried up. These acts should be included in the "Crimes against Peace and Humanity" chapter of the Criminal Code as international crimes.

***Keywords:*** *protection of human rights, urbicide, ecocide, criminalization*

**Самира Бабаева**

*Доцент кафедры Права Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по праву*

## АКТУАЛЬНЫЕ ВОПРОСЫ СОВЕРШЕНСТВОВАНИЯ УГОЛОВНОГО ЗАКОНОДАТЕЛЬСТВА

### РЕЗЮМЕ

В настоящее время один из наиболее актуальных вопросов уголовного законодательства связан с необходимостью установления в уголовном законодательстве преступлений экоцида и урбицида. На наших историко-правовых землях, многие годы находившихся под армянской оккупацией, были разрушены города и села, уничтожены культурные ценности и исторические памятники. Поведение, являющееся частью такой масштабной, расчетливой и коварной политики, невозможно подогнать под криминальные элементы порчи имущества. При этом был нанесен большой ущерб экологии нашей республики, животному миру, были уничтожены, сожжены леса, высохли источники и отравлены воды рек (примером может служить Охчучай, который является левым притоком реки Араз) и источники высохли. Эти преступные деяния должны быть включены в главу «Преступления против мира и человечности» Уголовного кодекса как международные преступления.

***Ключевые слова:*** *защита прав человека, урбицид, экоцид, криминализация*

DOI 10.30546/2309-1347.84.2023.161

**D A V A M L I   İ N K İ Ş A F I N   İ D A R Ə   E D İ L M Ə S İ**
**S U S T A I N A B L E   D E V E L O P M E N T   M A N A G E M E N T**

UOT 327(4/9);930.22(4/9); 327; 351.78; 504.4/8; 614.8

**FUAD HÜMBƏTOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi kafedrasının dosenti, r.ü.f.d., BDU-nun siyasi elmlər doktoru proqramı üzrə doktorantı, COP29-a hazırlıq üzrə Mitiqasiya Qrupu (danışıqçılar) rəhbəri, iqlim dəyişmələri üzrə beynəlxalq ekspert (UNFCCC)**

*e-mail : fuad.humbatov@eco.gov.az, fuad.humbatov@mail.ru,*

# EKOLOJİ VƏ SİYASİ TƏHLÜKƏSİZLİK RİSKLƏRİNİN KORRELYASİYASI VƏ ONLARIN QARŞISININ ALINMASINDA BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN ROLU

Məlum olunduğu kimi, günümüzdə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasına qlobal miqyasda mane olan əsas risklər sırasında başlıca yeri qlobal və regional siyasi qarşıdurmalar, müxtəlif miqyaslı hərbi münaqişələr, iqtisadi və maliyyə böhranları, qlobal ekoloji problemlər, habelə yeni pandemiya dalğaları və digər qlobal çağırışlar tutur. Bir sıra hallarda qeyd olunan risklərin korrelyasiyası, yəni qarşılıqlı asılılığı, bir-birilə dialektik əlaqəsi müşahidə olunmaqdadır.

Belə ki, məsələn, qlobal geo-siyasi oyunçuların dünyanın hər hansı bölgəsində birbaşa və ya dolayı iştirakı ilə baş verən qarşıdurmaların, o cümlədən silahlı münaqişələrin bir çox hallarda qlobal və ya regional miqyasda sosial-iqtisadi böhranlara səbəb olması faktı yaxın tariximizə məlumdur. Bu da məlumdur ki, belə münaqişələr bir sıra hallarda müxtəlif ekoloji təhlükələr də yarada bilər və ya mövcud olanları öz miqyasına və təsir gücünə görə daha ağırlaşdıra bilər. Bu mənada çağdaş dünyamızda qeyd olunan risklərinin korrelyasiyasının öyrənilməsi, təhlili, qiymətləndirilməsi və onların əsasında ölkədaxili siyasi proseslərin və beynəlxalq münasibətlərin proqnozlaşdırılması həm nəzəri, həm də praktiki cəhətdən böyük əhəmiyyət daşıyır.

Məsələn, ekoloji, energetik və həm də siyasi təhlükəsizlik sistemlərinə olan risklərin korrelyativ əlaqəsinə bariz misal olaraq, hazırda Ukraynada davam edən müharibəni misal göstərmək olar. Belə ki, 2000-ci illərin lap əvvəllərində dünyada siyasi bipolyarlığın bərpa yolunu tutan RF ilə qərb ölkələri arasında baş vermiş və hazırda davam edən ən siyasi və diplomatik qarşıdurma sonrakı mərhələdə Avropa İttifaqı və digər qərb ölkələrinin enerji təhlükəsizliyi sisteminə ciddi problemlərlə nəticələndi. Nəhayət, 24.02.2022-ci il tarixdə Rusiya tərəfindən Ukraynada başladılmış olan hərbi əməliyyat bölgədə və onun ətrafında ciddi iqtisadi və ekoloji problemlərin yaranması ilə müşayiət olundu. Belə ki, bu hərbi əməliyyatın ekoloji fəsadları sırasında bölgədə biomüxtəlifliyin deqradasiyası, ekosistemin dağılması, hətta havanın keyfiyyətinin korlanması, o cümlədən illik təxminən 120 milyon ton $CO_2$ ekvivalentində (AR-in illik istixana qazları miqdarından təxminən iki dəfə çox – F.H.) istixana effekti yaradan qazlarının (gələcəkdə, istixana qazları) atılması və s. məsələləri göstərmək olar. Bunlarla yanaşı, 2023-cü ilin iyun ayının 6-da Dnepr çayı üzərində Kaxovski Su Elektrik Stansiyasına aid su ambarını "maraqlı

tərəflər”in partlatması ilə meydana gələn iri daşqın böyük bir ərazinin ekoloji vəziyyətini daha da ağırlaşdırmışdı. Qeyd etmək lazımdır ki, siyasi-ekoloji təxribat aktı olan bu partlayış “Ətraf mühitin dəyişdirilməsi metodlarından hərbi və ya hər hansı düşmən istifadəsinin qadağan edilməsi haqqında” beynəlxalq Konvensiyanın 1-ci maddəsi ilə qəti qadağan edilmiş əməkdir və ekosid cinayəti kimi tövsüf oluna bilər. Belə ki, həmin maddədə birbaşa qeyd edilir ki, münaqişə tərəfləri geniş miqyaslı, uzunmüddətli və ya ciddi nəticələrə malik olan, digər iştirakçı dövlətin məhv edilməsi, ona zərər verilməsi və ya ziyan vurulması ilə nəticələnən ətraf mühitin dəyişdirilməsi texnikası vasitələrindən hərbi və ya hər hansı düşmən istifadəsində iştirakdan çəkinməlidirlər [20], [47].

Eyni zamanda, məlum olduğu kimi, bəhs edilən Rusiya-Ukrayna silahlı qarşıdurması qlobal səviyyədə taxıl təminatı və qida təhlükəsizliyi məsələlərinə də ciddi təhlükələr yaratmışdır və bu da regional siyasi təhlükəsizlik sisteminə olan risklərin qlobal səviyyədə qida təhlükəsizliyi sisteminə yönəlmiş yeni risklər yaratmasına bariz nümunədir. Belə ki, bu müharibə qlobal qida təhlükəsizliyi sisteminə, o cümlədən bir çox inkişaf etməkdə olan ölkələrin taxıl təminatına mühüm çətinliklərlə müşayiət olunur.

Göründüyü kimi, qeyd olunan münaqişə regional xarakter daşımasına baxmayaraq, həm qlobal təhlükəsizlik sisteminə, həm də regional ekoloji və energetik təhlükəsizlik sisteminə ciddi risklər yaratmaqla yanaşı, qlobal qida təhlükəsizliyi sisteminə böyük risklər yaratmışdır. Eyni zamanda, buraya hərbi əməliyyatlar zamanı qlobal istiləşmə effekti yaradan xeyli miqdarda istixana qazları emissiyalarının atmosferə atılmasını, habelə havanın keyfiyyətinə, ekosistemə vurulan zərərləri, biomüxtəlifliyin deqradasiyasını əlavə etsək, o zaman bu kimi beynəlxalq və ya lokal silahlı münaqişələrin timsalında qlobal siyasi təhlükəsizlik sisteminə olan risklərin qlobal və regional ekoloji, enerji, qida və digər təhlükəsizlik sistemlərinə nə dərəcədə risklər yaratdığını, bir növ “risklərin korrelyasiyası matrisini” formalaşdırdığını aşkar görmək olar. Məlumat üçün qeyd edək ki, hər il dünyada həyata keçirilən hərbi əməliyyatlar (müharibə, hərbi təlim və s.) zamanı atmosferə təxminən qlobal istixana emissiyalarının 5,5% (təxminən 3,3 Gt $CO_2$ ekv) qədər tullantı atılır [75].

Bu mənada beynəlxalq münasibətlər kontekstində “risklərin korrelyasiyası matrisinin” araşdırılması, o cümlədən ekoloji risklərin də qlobal və regional siyasi təhlükəsizlik sisteminə təsirlərinin tədqiqi böyük maraq doğurur.

Qeyd edək ki, ekoloji risklərin də qlobal və regional siyasi təhlükəsizlik sisteminə birbaşa və ya dolayı risklər yaratması hallarının araşdırılmasına bir çox alimlər tərəfindən son illər böyük formalaşmışdır və bu məsələ az tədqiq edilmişdir. Belə ki, müxtəlif risklərin korrelyasiyasının ciddi təhlili və beynəlxalq münasibətlərin proqnozlaşdırılmasına töhfəsi çox böyük elmi və praktiki maraq kəsb edir. Bu baxımdan, hazırki məqalədə bir sıra ekoloji problemlərin, xüsusən də iqlim dəyişmələrinin və bir sıra hallarda hətta iqlim dəyişmələrinə qarşı mübarizə tədbirlərinin (mitiqasiya və uyğunlaşma) müxtəlif sosio-iqtisadi, humanitar nəticələrinin siyasi təhlükəsizlik və beynəlxalq münasibətlər sisteminə neqativ təsirləri, o cümlədən bu risklərin “iqlim münaqişələri”nə adlanan silahlı qarşıdurmalara gətirib çıxarması şəraiti və halları araşdırılır. Eyni zamanda, ekoloji və siyasi təhlükəsizlik sisteminə yönəlmiş riskləri aradan qaldırmaq və ya onların təsirlərini azaltmaq üçün ilk növbədə bu risklər arasında korrelyativ əlaqələri müəyyən etmək lazımdır.

Məsələn, iqlim dəyişmələrinə qarşı uyğunlaşma tədbirlərinin maliyyələşməsi üzrə nüfuzlu qurumlardan biri olan Adaptasiya Fondunun mövzu üzrə son araşdırmalarından biri “Qeyri-sabit şəraitdə və münaqişələrdən təsirlənən ölkələrdə iqlim dəyişmələrinə uyğunlaşma probleminin həlli: AF portfoliosundan öyrənilmiş dərslər” adlanır [79]. Burada iqlim dəyişmələri probleminin siyasi, ekoloji qeyri-sabitlik kontekstində həllinin vacibliyi barədə bir neçə tədqiqat birləşdirilmişdir. Belə ki, qeyri-sabit siyasi sistemə malik və münaqişələrdən təsirlənən ölkələr iqlim dəyişmələrinin nəticələrinə ən həssas ölkələr sırasına daxil olduğundan və onların xarici yardıma ehtiyacları yüksək olması ilə yanaşı, onlara dəstək verilməsi, bir qayda olaraq, çətin məsələdir. Eyni zamanda,

zaman keçdikcə, iqlim dəyişmələrinin əlverişsiz nəticələri, o cümlədən ekstremal hava şəraiti, quraqlıq və daşqınlar gücləndikcə və bu ölkələrin təbii ehtiyatlarını və həssas əhalisini daha çox riskə atdıqca, qeyd olunan qeyri-sabit idarəçilik sistemi olan və münaqişələrlə parçalanmış ölkələrdə təhlükəsizlik problemləri və digər çağırışları xüsusilə ağırlaşa bilər.

Bu mənada bəhs edilən risklər arasında korrelyativ əlaqələri müəyyən etmək və onları proqnozlaşdırılmaq üçün hazırki məqalədə müəllif tərəfindən ilk dəfə olaraq ölçü (metrik) alət qismində İqlim Münaqişələrinə qarşı Zəiflik İndeksi (Climate Conflicts Vulnerability İndex) anlayışı daxil edilmişdir. Aşağıda qeyd olunan xüsusi formulalar (1-5) ilə hesablanan bu anlayış istənilən ölkə və ya ölkələr birliyinin iqlim dəyişmələrinin mənfi təsirləri ilə birbaşa və əlaqəli surətdə meydana gələ bilən iqlim münaqişələrinin qarşısının almaqda zəiflik, yəni onlarla bacarabilməməsi dərəcəsini müəyyən etməyə kömək edir. Bundan əlavə, hazırki məqalədə Cənubi Qafqaz və Xəzər hövzəsi regionlarında mümkün iqlim münaqişələrinin risklərinin təhlilinə geniş yer verilir, onların qarşısının alınması üzrə beynəlxalq əməkdaşlıq institutlarının rolu və əhəmiyyəti barədə bəhs edilir.

Beləliklə, yuxarıda qeyd olunan risklər sırasında qlobal ekoloji təhlükələr, xüsusən qlobal və ya regional ekoloji deqradasiya, ətraf mühitin çirkləndirilməsi, habelə qlobal istiləşmə ilə bağlı problemlər onların nəticələrinin sosial-iqtisadi, humanitar cəhətdən ağırlığı, bu nəticələrin əsasən kaskad (yəni, onların sinxronluğu və bir-birini gücləndirməsi) xarakteri daşıması və qısa müddətdə aradan qaldırılmasının bir sıra hallarda qeyri-mümkünlüyü səbəbindən bəşəriyyət üçün ən təhlükəli hesab olunmaqdadır. Günümüzdə bu problemlərin müxtəlif təzahürlərini həm müharibə, həm də dinc dövrdə, daha intensiv və bəzən dağıdıcı formalarda görmək, insan fəaliyyətinin ən müxtəlif fəaliyyət sahələrinə sirayət etdiyini müşahidə etmək olar. Bütün bu məsələlər beynəlxalq münasibətlər kontekstinə də tədricən yeni forma verir, onu elmi və praktik cəhətdən yeni məzmunla zənginləşdirir.

Bu mənada, ekoloji risklər və əlaqəli problemlər artıq beynəlxalq münasibətlər sisteminə xeyli dərəcədə nüfuz edərək bu sistemi institusional, nəzəri və praktiki cəhətdən yeniləməkdədir, hətta artıq beynəlxalq münasibətlərin bir sıra klassik anlayışların, konsepsiya və yanaşmaların yenidən nəzər keçirilməsi ehtiyacını yaratmışdır.

Belə klassik anlayışlardan biri də beynəlxalq münasibətlər sistemində mərkəzi rola malik olan "təhlükəsizlik" anlayışıdır. Müəllifin mövzu üzrə əvvəlki araşdırmalarında qlobal geosiyasi proseslər kontekstində ekoloji təhlükəsizlik institutunun formalaşması və siyasi proseslərə təsir mexanizmləri, qlobal ekoloji təhlükəsizliyin təmin edilməsində beynəlxalq əməkdaşlığın rolu, bu sahədə müasir çağırışlar, habelə siyasi təhlükəsizlik və ekoloji təhlükəsizlik risklərinin korrelyasiya kimi mühüm məsələlər tədqiq edilmişdir [24].

Ekoloji və siyasi risklərin korrelyasiyasının təhlili kontekstində iqlim dəyişmələri problematikasına keçməzdən əvvəl qeyd edək ki, terminoloji cəhətdən "ekoloji təhlükəsizlik" anlayışı "ətraf mühit", "təhlükəsizlik" və "beynəlxalq münasibətlər" kimi anlayışların sintezindən meydana gəlmişdir və bu anlayış "təhlükəsizlik" konsepsiyasını xeyli transformasiyaya uğratmış və beynəlxalq münasibətlər nöqteyi-nəzərindən onun klassik kontekstini genişləndirmişdir [5], [11], [43].

Qeyd edək ki, "ekoloji təhlükəsizlik" termini ilk dəfə BMT-nin alt-qurumu olan Ətraf Mühit və İnkişaf üzrə Ümumdünya Komissiyası (The World Commission on Environment and Development, Brundtland Komissiyası kimi tanınır) tərəfindən 1987-ci ildə dərc edilmiş "Ümumi gələcəyimiz" adlı məruzədə istifadə olunmuşdur [14], [28]. Hazırda bu termin müxtəlif beynəlxalq sənədlərdə, elmi araşdırmalarda geniş istifadə olunmaqdadır.

Ümumən isə, "təhlükəsizlik" anlayışı tarixən, mövcud qlobal və regional geo-siyasi proseslərin təsiri nəzərə alınmaqla, hər hansı dövlətin digər ölkə(lər) və yaxud onların birliyi tərəfindən gözlənilən hər hansı potensial təhlükənin, riskin təhlili əsasında formalaşdırdığı özünümüdafiə sisteminin nəzəri ifadəsi kimi meydana gəlmişdir.

Məlum olduğu kimi, İkinci Dünya Müharibəsindən sonrakı dövrdə beynəlxalq müna-

sibətlər sistemində klassik "təhlükəsizlik" anlayışda istinad obyekti, yəni təhlükə mənbəyi rolunu digər dövlət(lər) və ya onların birliyi oynamışdır. Bu anlayış bütöv beynəlxalq münasibətlər sisteminin, o cümlədən "Beynəlxalq münasibətlər" predmetinin müvafiq surətdə formalaşmasına təsir göstərmişdir [24].

Hazırda "təhlükəsizlik" termininin daha geniş sahələri əhatə etməsi səbəblərindən biri kimi, ekoloji təhlükəsizlik məsələləri hazırda beynəlxalq münasibətlər sistemində mərkəzi yerlərdən birini tutmağa iddialıdır. Bunun əsas səbəblərindən biri ondan ibarətdir ki, ekoloji təhlükəsizlik sistemi üçün əsas təhlükə mənbələri (məsələn, ekoloji deqradasiya, biomüxtəlifliyin məhvi, iqlim dəyişmələri və s.) hazırda öz müxtəlifliyi ilə seçilməkdədir, bu təhlükə mənbələrindən biri kimi iqlim dəyişmələri isə öz qlobal və lokal nəticələrinin getdikcə dərinləşməsi və intensivləşməsi ilə xarakterizə olunur.

Ümumən, "ekoloji təhlükəsizlik" anlayışının tarixi formalaşmasına nəzər salsaq, görərik ki, bu anlayışda ekoloji proseslər və təbii ehtiyatlar insanlar, ölkələr və digər subyektlər arasında münaqişə doğuran səbəb və ya katalizator rolunu oynayır. Bu mənada "ekoloji təhlükəsizlik" termini həm də qeyd olunan istiqamətdə hər hansı təhlükənin təsirini azaltmaq və ya onu ümumiyyətlə aradan qaldırmaq funksiyasının hüquqi ifadəsi, üsulu kimi formalaşmışdır.

Ümumiyyətlə, ekoloji təhlükəsizlik icmalar, xırda təsərrüfatlar üçün davamlı dolanışıq, sağlamlıq və rifah üçün xüsusi əhəmiyyət kəsb etməklə, istənilən cəmiyyətin təhlükəsizliyinin təməli kimi qəbul olunmalıdır. Məsələn, BMT-nin Ətraf Mühitin Təhlükəsizliyi Proqramı (UNEP) ekoloji təhlükəsizlik anlayışını ətraf mühitin və təbii ehtiyatların sülh və təhlükəsizlik formatında oynaya biləcəyi rol da daxil olmaqla, əlaqəli proseslərin, o cümlədən münaqişənin ekoloji səbəbləri və aparıcı qüvvələri, münaqişənin ətraf mühitə təsirləri, ətraf mühitin bərpası və münaqişədən sonrakı sülh quruculuğu kimi predmetləri də özündə əks etdirən "konseptual zərf" kimi təsvir edir [42].

"Ekoloji təhlükəsizlik" anlayışı ötən əsrin 80-ci illərinin ikinci yarısından etibarən sürətlə inkişaf etməyə başladı. Lakin bir çox tanınmış alimlərin ekoloji problemlər və təhlükəsizlik məsələləri arasındakı əlaqələrin daha dərin köklərə malik olmasına dair iddiaları hələ əvvəllər də mövcud idi. Belə ki, məsələn, bir sıra alimlərin fikrincə, "ekoloji təhlükəsizlik" anlayışına dair ən qədim araşdırmalardan biri kimi Tomas Maltusun "Əhali prinsipinə dair esse" əsərini hesab etmək olar. Bu əsərdə hər hansı potensial münaqişəni proqnozlaşdırmaq üçün əhali artımı ekoloji məhdudiyyətlərlə əlaqəli təhlil edilmişdir [32]. 1960-70-ci illərdə işıq üzü görmüş bir sıra oxşar tədqiqatlarda ekoloji problemlər fərdlərin, icmaların və hətta bütün dövlətlərin təhlükəsizliyinə təhdid yarada biləcək ssenarilərlə əlaqələndirmişdi [6]. 1983-cü ildə dərc olunmuş, Richard Ullmanın "Təhlükəsizliyin yenidən müəyyən edilməsi" adlı məqaləsində isə əhalinin artımı, ətraf mühitin keyfiyyəti, dünyadakı aclıq və insan hüquqları məsələləri, ilk dəfə olaraq, ayrıca götürülmüş dövlətin (ABŞ) milli təhlükəsizlik məsələləri, yəni siyasi təhlükəsizlik anlayışı ilə birbaşa əlaqələndirilmişdir [39].

Hazırda "təhlükəsizlik" anlayışı öz klassik əhatə dairəsini xeyli aşaraq daha geniş sahələri əhatə etdiyinə görə, digər məsələlərlə yanaşı ekoloji təhlükəsizlik məsələləri də getdikcə beynəlxalq münasibətlər sistemində mərkəzi yerlərdən birini tutmağa iddialıdır. Bu prosesin əsas hərəkətverici qüvvələrindən biri budur ki, iqlim dəyişmələri qlobal ekoloji təhlükəsizlik sistemi üçün ən təhlükəli risklərdən biri kimi formalaşmışdır və bu fenomenin qlobal və yerli səviyyələrdə təsirlərinin intensivləşməsi tendensiyası müşahidə olunmaqdadır.

Həqiqətən də, iqlim dəyişmələri mövzusu ilə bağlı, günümüzdə qlobal ekoloji təhlükəsizliyə ən real təhdid kimi iqlim dəyişmələri bir çox ölkələrin ekoloji təhlükəsizlik sisteminə, o cümlədən, siyasi, enerji, qida, su təhlükəsizliyi sistemlərinə ağır fəsadlar törətməkdədir. Bu məsələ, xüsusən də, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) müvafiq təsnifatına uyğun, Ən Zəif İnkişaf Etmiş Ölkələr (LDC, 24 dövlət, o cümlədən əsasən Afrika ölkələri, [63]), İnkişaf Etməkdə Olan Kiçik Ada Dövlətlər (SIDS) və Dənizə Çıxışı Olmayan İnkişaf Etməkdə olan Ölkələrə (LLDC) [55] aiddir. Belə ki, məsələn, iqlim dəyişmələrinin təsirilə dəniz səviyyəsinin

artması, o cümlədən Xəzər dənizi və bir sıra digər daxili su hövzələrində bu səviyyənin azalması, yağıntıların qeyri-bərabərliyi, ekstremal hava hadisələri nəticəsində xeyli insan tələfatı, iqtisadi itki və zərərlər bir çox ölkələri hazırda ağır iqtisadi və humanitar vəziyyətə salmışdır. Buna görə də, risk və təhlükələrin ağırlıq dərəcəsi baxımdan məsələyə yanaşılarsa, hazırda ekoloji təhlükəsizlik sisteminə olan risklərin dağıdıcı potensialı getdikcə daha da artmaqdadır və bu risklər həm insan tələfatı, sosial-iqtisadi məsələlərlə yanaşı, həm də beynəlxalq təhlükəsizliyə, beynəlxalq münasibətlər sisteminə ciddi neqativ təsir göstərməkdədir. Məhz buna görə də, iqlim dəyişmələri ilə mübarizə üzrə qlobal səylərin artırılması istiqamətində UNFCCC, həmçinin iqlim dəyişmələri ilə əlaqəli digər mühüm beynəlxalq müqavilələr – Kioto Protokolu və Paris Sazişi, adı çəkilən müqavilələrin tərəflərinin toplantılarının qərarları səmərəli beynəlxalq əməkdaşlıq mexanizmini formalaşdırmışdır. Burada əsas məqsəd atmosferə atılan istixana qazlarının azaldılması, ekosistemlərin təbii şəkildə iqlim dəyişmələrinə uyğunlaşdırılması və dayanıqlı inkişafının təmin edilməsindən ibarətdir. Məhz yuxarıda qeyd olunan beynəlxalq müqavilələrin tərəflərinin qərarları iqlim dəyişmələrinin qarşısını almaq üçün qlobal diplomatik çərçivə qurur, qlobal istiləşməni sənayeləşməyəqədərki dövrü ilə müqayisədə 2°C-dən aşağı səviyyədə saxlamağı və onu 1,5°C-yə qədər məhdudlaşdırmağı hədəfləyir [21].

İqlim dəyişmələrinin qlobal və lokal nəticələri ilə bağlı qeyd edək ki, Dünya Meteorologiya Təşkilatının (WMO) qlobal iqlimin vəziyyəti ilə bağlı məruzəsinə əsasən, 2022-ci ildə ekstremal istilik dalğaları, quraqlıq və dağıdıcı daşqınlar milyonlarla insana ziyan vurmuş və iqlim dəyişmələrinin iqtisadi zərəri milyardlarla ABŞ dollarına bərabər olmuşdur. “Nature Climate Change” jurnalının 2021-ci ildə aparıldığı araşdırmaya əsasən, hazırda dünya əhalisinin təxminən 85%-i iqlim dəyişmələrindən faktiki əziyyət çəkməkdədir. Bundan əlavə, fırtınaların kəskinləşməsi, ekstremal hava şəraiti, meşə yanğınları ötən illərdə insan sağlamlığına xüsusilə ciddi təhlükə yaratmışdır. Milli Okean və Atmosfer Tədqiqatları İdarəsinin Milli Ekoloji Informasiya Mərkəzinin məlumatına görə, yalnız 2021-ci ildə ABŞ-da 18 iqlim fəlakəti baş vermişdir [69]. Məsələn, Pakistanda 2022-ci ilin iyun-avqust aylarında intensiv yağışlarla əlaqədar baş vermiş daşqınlar nəticəsində bu ölkənin üçdə biri su altında qalmış, 1100 nəfər həlak olmuş, 33 milyon nəfərə ziyan dəymişdi. Liviyada 2023-cü ilin sentyabr ayında baş vermiş leysan yağışların səbəb olduğu daşqınlar nəticəsində isə 11300-dən çox insan həlak olmuşdur. Digər etibarlı araşdırmalara əsasən, 2023-cü il bəşəriyyət tarixinin ən isti ili olmuşdur, belə ki, ilin hər günü orta temperatur sənayeləşməyəqədərki dövrlə (1850-1900) müqayisədə 1°C artıq olmuş, təxminən ilin yarısında temperatur sənayeləşməyəqədərki dövrlə müqayisədə təxminən 1,5 °C çox olmuş, noyabr ayında isə iki gün ilk dəfə olaraq sənayeləşməyəqədərki dövrlə müqayisədə 2°C-dən çox isti olmuşdur [74].

Bundan əlavə, qlobal iqlim dəyişmələri ilə mübarizə üzrə hazırda dünyada yeganə ixtisaslaşmış elmi təşkilat olan İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər Qrupunun (İPCC) hazırladığı sonuncu, yəni 6-cı Qiymətləndirmə Hesabatındakı məlumata əsasən, Mərkəzi və Şərqi Afrika, Cənubi Asiya, Mərkəzi və Cənubi Amerikada yerləşən kiçik ada və inkişaf etməkdə olan dövlətlər, o cümlədən Ən Zəif İnkişaf Etmiş Ölkələr, İnkişaf Etməkdə Olan Kiçik Ada Dövlətlər, Dənizə Çıxışı Olmayan İnkişaf Etməkdə olan Ölkələr və Arktika iqlim dəyişmələrinin təsirlərinə ən çox həssas bölgələr hesab edilir. Bu və digər həssas bölgələrdə hazırda təxminən 3,3–3,6 milyard insan yaşamaqdadır. Məhz bu bölgələrdə 2010-2020-ci illərdə kəskin xarakterli daşqın, fırtına və quraqlıq hadisələri nəticəsində tələf olmuş insan sayı digər bölgələrlə müqayisədə 15 dəfədən çox olmuşdur [48].

Bəhs edilən problemin paradoksal tərəfi ondan ibarətdir ki, hazırda iqlim dəyişmələrinə səbəb olan istixana qazlarının həcminin atmosferdə son 170-180 ildə sürətlə artmasına və belə böyük miqdarda toplanmasına (təxminən 2400 Gton $CO_2$ ekvivalenti) görə tarixi məsuliyyət məhz inkişaf etmiş ölkələrin üzərinə düşdüyü halda, iqlim dəyişmələrindən ən çox zərər çəkən dövlətlər isə əsasən kasib və

ya inkişaf etməkdə olan ölkələrdir. Bu mənada, ekoloji və siyasi təhlükəsizlik sistemlərinə olan risklərin və onların nəticələrinin aradan qaldırılması, xüsusən də bu istiqamətdə beynəlxalq əməkdaşlıq mexanizmləri və institutlarının inkişaf etdirilməsi üçün maliyyə, texniki, təşkilati və digər məsələlərin həllində əsas maddi məsuliyyət, heç şübhəsiz ki, qeyd olunan inkişaf etmiş qərb ölkələrinin üzərinə düşməlidir və onlar digər ölkələrin bu istiqamətdə səylərinə dəstək verməlidirlər. Bu istiqamətdə iqlim dəyişmələrinin neqativ təsirlərinin meydana gətirdiyi ilkilər və zərərlərlə bağlı Santyaqo şəbəkəsi 2019-cu ildə dekabrın 2-13-cı Madriddə keçirilmiş COP 25-də elan edildi və onun əsas məqsədi iqlim dəyişmələrinin təsiri ilə inkişaf etməkdə olan ölkələrdə baş verə bilən itki və zərər barədə ilkin xəbərdarlıq sistemi yaratmaq, bu riskləri azaltmaq və baş vermiş itki və zərəri qarşılamaq üzrə bu ölkələrə dəstək göstərməkdən ibarətdir. Məhz Santyaqo şəbəkəsi inkişaf etməkdə olan ölkələrdə iqlim dəyişmələrinin nəticələrinə qarşı mübarizədə həlledici rol oynayır. Belə ki, burada əsas diqqət müxtəlif təşkilatlar, orqanlar, şəbəkələr və ekspertlər tərəfindən texniki yardımın göstərilməsinə yönəldilir. Bu şəbəkənin mandatı iqlim risklərinin hərtərəfli aradan qaldırılması üçün zəruri olan bilik, resurs və texniki yardıma əlçatanlığın asanlaşdırılmasına əhatə edir. Ötən dövrdə, yəni 4 il ərzində iqlim diplomatiyasının gərgin fəaliyyətindən sonra məhz 2023-cü ilin 30.11-13.12.23 tarixlərində BƏƏ-nin Dubay şəhərində keçirilmiş COP28-də Santyaqo şəbəkəsinin İtki və Zərər Fonduna (Loss and Damage Fund) Almaniya, Danimarka, İrlandiya, Lüksemburq, İsveçrə və Böyük Britaniya və Şimali Irlandiya Birləşmiş Krallığı tərəfindən təxminən 40,7 mln. ABŞ məbləğində töhfə verildi və ən əsası – Santyaqo şəbəkəsi çərçivəsində iqlim tədbirlərinin reallaşdırılmasına institusional dəstək orqanı kimi iki beynəlxalq təşkilat (UNDRR (Fəlakət Risklərinin Azaldılması üzrə BM Offisi, www.undrr.org) və UNOPS (Layihə Xidmətləri üzrə BM Ofisi, www.unops.org) təyin edildi seçildi [76].

Hazırda iqlim dəyişmələri ilə bağlı digər önəmli problem – münaqişə, zorakılıq, insan haqlarının pozulması və bir sıra digər səbəblərdən dünyanın müxtəlif bölgələrində artan qaçqın və məcburi köçkünlərlə yanaşı, iqlim dəyişmələrinin yuxarıda qeyd olunan neqativ təsirləri səbəbindən öz doğma evlərini, ölkələrini tərk edərək münasib yaşayış şəraiti və təbii resursları olan digər bölgələrə, ölkələrə üz tutan qaçqınlar, yəni "iqlim miqrantlarının" sayının son on ildə kəskin artmasıdır. Qeyd edək ki, hazırda mətbuatda və bir sıra elmi mənbələrdə "iqlim qaçqınları" terminindən istifadə edilsə də, müvafiq beynəlxalq hüquq normalarına görə, iqlim miqrantları, təəssüf ki, qaçqın hesab edilmirlər [52]. Buna baxmayaraq, iqlim miqrantlarının sosial-iqtisadi hüquqlarının müdafiəsi kontekstində onların vəziyyəti məlum, yəni konvensional qaçqınlarla eynilik təşkil edir və buna görə də, beynəlxalq ictimaiyyət onları mediya və mətbuatda qaçqınlarla eyniləşdirirlər.

Ümumilikdə, BMT-nin qaçqınlarla bağlı ali qurumu kimi, UNHCR tərəfindən aparılmış araşdırmaya əsasən, təkcə 2022-ci ildə dünyada qaçqınların sayı 100 milyon nəfəri keçmişdir və bunların hansı hissəsinin iqlim miqrantı olduğunu müəyyən etmək bir çox hallarda, təəssüf ki, texniki cəhətdən qeyri-mümkün olur [41]. Məsələn, təkcə Sudanda 2021-ci ildə baş vermiş daşqın nəticəsində on minlərlə iqlim qaçqını kütləsi formalaşmışdır və onlar bölgədəki məlum silahlı münaqişə ilə əlaqədar meydana gəlmiş digər məcburi köçkünlər ordusu ilə birgə Sudan Ağ Nil Dövlətindəki Alganaa qaçqın düşərgəsində ağır sosial-iqtisadi məhrumiyyətlər içində indiyədək yaşamaqdadırlar.

Eyni zamanda, iqlim dəyişmələrinin təsiri ilə baş vermiş ekstremal iqlim hadisələri ilə bağlı birbaşa formalaşan iqlim qaçqınları ilə yanaşı, iqlim dəyişmələrinin təsiri ilə ölkələrdə əhalinin güzəranı və makroiqtisadi baxımdan bir sıra önəmli iqtisadi sektorlar (kənd təsərrüfatı, meşəçilik, balıqçılıq və s.) üzrə yaranan mürəkkəb sosial-iqtisadi vəziyyətlə əlaqədar də iqlim qaçqınlarının meydana gəlməsi məlumdur. Məsələn, iqlim dəyişmələrinin təsiri ilə Banqladeşdə kənd təsərrüfatı sahələrində istifadə olunan su ehtiyatlarında duzluluğun artması səbəbindən düyü yetişdirilməsinin

artıq mümkün olmaması səbəbindən xeyli iqlim miqrantı, faktiki daxili köçkünlər ölkənin digər bölgələrinə köç etmişlər. Bundan əlavə, Keniyada intensiv daşqınlarla bağlı mal-qaranın tələf olması və kənd təsərrüfatı bitkilərinin məhv edilməsi nəticəsində xeyli iqlim miqrantlarının ölkənin digər bölgələrinə köç etməsi faktları məlumdur. Qeyd edək ki, Azərbaycan Respublikasında da 2022-ci ildə Kür çayında azsululuq dövründə aşağı axarda suyun azalması və çayın 50 kilometrlik mənsəb hissəsində Xəzər dənizinin suyunun çayın suyuna qarışması nəticəsində Kür suyunun duzluluğunun xeyli artması baş vermişdi ki, bu da həmin ərazidə məskunlaşmış əhalinin fasiləsiz içməli su və əkin sahələrinin suvarma suyu ilə təminatında ciddi problemlər yaratmışdır [53]. Bu proses nəticəsində bu bölgədə yaranmış çətin sosial-iqtisadi vəziyyətlə bağlı iqlim qaçqınları barədə konkret statistik məlumatın olmamasına baxmayaraq, həmin dövrdə bölgəni tərk edən şəxslər, xüsusən fəaliyyət sahəsini (kənd təsərrüfatı, balıqçılıq və s.) və iş yerlərini dəyişməyə məcbur qalmış soydaşlarımız barədə müəyyən məlumatlar mövcuddur. Bu isə Azərbaycanda da həmin dövrdə iqlim miqrasiyasının mövcudluğuna bariz sübutdur. Bununla yanaşı, Azərbaycan hökuməti iqlim dəyişmələrinin qeyd olunan ağır, presedenti olmayan nəticələrinin qısa zamanda aradan qaldırılması üçün lazımi tədbirləri vaxtında həyata keçirmişdir.

İqlim dəyişmələrinin ağır fəsadları ilə bağlı insan haqlarının müdafiəsilə əlaqədar İnsan Haqları Şurasının (Human Rights Council) 48/14 saylı qərarı ilə Xüsusi məruzəçi təyin edilmişdir. Bundan əlavə, BMT-nin Insan Hüquqları Komitəsinin 2020-ci ilin yanvar ayında verdiyi qərarda isə qeyd olunmuşdur ki, beynəlxalq insan hüquqlarına uyğun olaraq iqlim dəyişmələri və təbii fəlakət kontekstində sərhədlərdən keçən insanlar onların yaşamaq hüquqlarına qarşıalınmaz zərər riski mövcud olan ölkəyə qaytarılmamaq hüququna malikdirlər [67].

Eyni zamanda, hazırda iqlim miqrantlarının məskunlaşdığı digər ölkələrdə, xüsusən Afrika və Mərkəzi-Şərqi Asiyadakı iqtisadi cəhətdən zəif inkişaf etmiş dövlətlərdə də bir sıra hallarda ağır sosial-iqtisadi vəziyyət, o cümlədən iqlim dəyişmələrinin yaratdığı fəsadlar nəticəsində resurs (su, qida və s.) çatışmamazlığı ilə əlaqədar, yerli əhali ilə iqlim miqrantları arasında qarşıdurma və münaqişə halları barədə çoxsaylı məlumatlar mövcuddur. Bütün bu məsələlər, beynəlxalq ictimaiyyətin, BMT-nin ixtisaslaşmış qurumlarının, o cümlədən iqlim dəyişmələrinin, istixana qazlarının hazırki səviyyədə formalaşmasında tarixi məsuliyyəti olan inkişaf etmiş ölkələrin təcili cavab tədbirləri olmazsa, fikrimizcə, dünyanın müxtəlif bölgələrində iqlim qaçqınları “ordusunun” genişlənməsi və yeni-yeni münaqişə ocaqlarının yaranması labüddür. Bu mənada UNFCCC-nin tərəflər konfransının yüksək səviyyəli illik toplantılarında (COP) iqlim maliyyələşməsi, yəni iqlim dəyişmələri ilə mübarizə tədbirləri üçün inkişaf etmiş ölkələr tərəfindən illik əsasda yüz milyard ABŞ dolları vəsaitin toplanılması məsələsinin indiyədək öz həllini tapmaması təəssüf doğurur. Ümid edirik ki, 2024-cü ilin noyabr ayının 11-24 tarixlərində Bakı şəhərində keçiriləcək COP-29-da bu məsələ üzrə inkişaf etməkdə olan ölkələrin ehtiyac və prioritetlərinin nəzərə alınmaqla İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Hesablanmış Məqsədin (New Collective Quantified Goal on Climate Finance (NCQG)) müəyyən edilməsində diplomatik uğur əldə ediləcəkdir, belə ki, COP 21-də bu məsələnin 2025-ci ildən əvvəl həll edilməsi barədə müvafiq qərar mövcuddur.

Beləliklə, nəzəri məsələlərə qayıdarsaq, günümüzdə öz aktuallığı ilə seçilən ekoloji risklərin daxili spesifikliyi ilə əlaqədar, “təhlükəsizlik” anlayışının klassık interpretasiyasından fərqli olaraq, ekoloji təhlükəsizlik konsepsiyasında təhlükə mənbəyi, ayrı-ayrı halları nəzərə almasaq, hər hansı dövlət(lər) və ya onların birliyi deyil, müxtəlif ekoloji proseslər, o cümlədən qlobal iqlim dəyişmələri, ekoloji deqradasiya və digər əlaqədar proseslərdır. Ayrı-ayrı hallar dedikdə isə, dövlətlər tərəfindən hərbi münaqişələr zamanı müxtəlif ekoloji cinayətlərin törədilməsidir ki, nəticə etibarilə, bu da lokal və ya qlobal miqyasda ekoloji fəlakətlərə səbəb olur. Konkret olaraq, Ermənistanın misalında bunu Azərbaycan Respublikasına qarşı son otuz ildə törədilmiş və günümüzdə davam etdirilən ekoloji cinayətləri misal göstərmək olar ki, bu barədə

müəllifin əvvəlki məqalələrində geniş bəhs edilmişdir [19], [20].

Qeyd edildiyi kimi, ekoloji risklər arasında məhz qlobal iqlim dəyişmələri beynəlxalq ictimaiyyət tərəfindən ən təhlükəli, sosial-iqtisadi, humanitar kontekstdə ən böyük dağıdıcı potensiala malik olan və müxtəlif sferaları əhatə edən antropogen mənşəli proses kimi qəbul edilir. Bununla əlaqədar, bu fenomenlə mübarizə məsələləri heç bir ayrıca götürülmüş dövlətin imkanları daxilində deyildir. Buna görə də, bu məsələ qlobal səviyyədə beynəlxalq əməkdaşlığı zəruri edir və hazırki proseslər məhz bu istiqamətdə inkişaf etməkdədir. Bu isə ekoloji risklərin beynəlxalq münasibətlərin, beynəlxalq əməkdaşlıq institutlarının fəaliyyətinin daha yüksək səviyyəyə çatdırılması prosesinə təsirinin sübutudur. Bu institutların rolu və funksiyaları və hazırki dövrdə onların fəaliyyəti ilə bağlı müasir çağırışlar barədə ayrıca məqalə müəllif tərəfindən hazırlanmaqdadır.

Qeyd olunmalıdır ki, iqlim dəyişmələri kimi mürəkkəb ekoloji riskin birbaşa və ya dolayısı ilə ayrı-ayrı dövlətlərdə, bölgələrdə yaratdığı ağır iqtisadi, sosial, siyasi, humanitar vəziyyət lokal və beynəlxalq səviyyəli iqlim münaqişələrinə səbəb ola bilir. Məqalənin növbəti hissələrində iqlim münaqişələrinə aid konkret situasiya və misalları nəzərdən keçirəcəyik. Bu misalların nümunəsində iqlim dəyişmələrinin nəinki ekoloji təhlükəsizlik sisteminə təhlükə yaratmasını, eləcə də qlobal və regional siyasi təhlükəsizlik sisteminə ciddi risklər yaratmasını müəyyən edəcəyik. Faktiki olaraq, bu misallar ekoloji və siyasi təhlükəsizlik risklərinin ciddi korrelyasiyasının mövcud olmasının sübutudur. Göstərilən amil müvafiq sahə üzrə elmi tədqiqatların genişləndirilməsini labüd edir. Məhz bu araşdırmaların nəticələri əsasında dövlətlərin qərarverici qurumları, geosiyasi oyunçular və beynəlxalq təşkilatlar indidən zəruri qabaqlayıcı tədbirlər görməli, bu növ iqlim münaqişələrinin qarşısını almaq üçün yeni beynəlxalq əməkdaşlıq mexanizmlərini işləyib hazırlamalıdır.

Qeyd edək ki, iqlim münaqişələri mövzusunda elmi araşdırmalar haqqında ilk icmal xarakterli xüsusi buraxılış 2012-ci ildə Sülh Araşdırması Jurnalında (Journal of Peace Research - JPR) nəşr edilmişdir [15]. Həmin buraxılışda qlobal istiləşmə ilə bağlı ictimai rəydən tutmuş iqlimlə bağlı dövlətlərarası münaqişə riskinə qədər məsələləri araşdıran ən azı 17 məqalə məzmun və metodoloji yanaşma cəhətdən təhlil edilmişdir. Ötən on ildə də bu mövzu üzrə bir sıra yeni maraqlı tədqiqat əsərləri də meydana çıxmışdır. Bu məqalələrin böyük hissəsi orada tətbiq edilmiş metodoloji yanaşmalar baxımdan [34] məqaləsində geniş təhlil edilmişdir Bu icmal xarakterli məqalədə indiyədək iqlim münaqişələri mövzusu üzrə həyata keçirilmiş araşdırmalar orada xüsusi diqqət verilmiş prioritetlərə görə yeddi qrup üzrə təsnif edilmişdir. Belə ki, məsələn, müəyyən qrup məqalələrdə iqlim dəyişmələrinin birbaşa və ya dolayısı ilə yaratdığı ağır sosial-iqtisadi, humanitar fəsadlar nəticəsində sırf məhəlli, regional, yəni lokal, bir sıra hallarda etnik qarşıdurmalar, silahlı münaqişələr, vətəndaş müharibələri (Afrika, Asiya və digər qitələrdə) təhlil edilmiş, bir sıra hallarda ekoloji, sosial və digər təhrikedici amillər barədə məlumat azlığı səbəbindən bu tədqiqatların empirik xarakter daşıması vurğulanmışdır.

Beləliklə, icmal xarakterli [34] məqaləsində belə bir nəticəyə gəlinmişdir ki, iqlim dəyişmələri nəticəsində ölkədə ekoloji deqradasiya, resurs çatışmazlığı və digər fəsadların əhali arasında lokal qarşıdurma, zorakılıq yaratma potensialı beynəlxalq səviyyəli silahlı münaqişələrdən daha çoxdur. Bu tezis bir sıra lokal qarşıdurma halları, o cümlədən Kenyada 1991-1993-cü illərdə baş vermiş yerli qarşıdurmalarla öz təsdiqini tapmışdır [26]. Məqalədə həm də qeyd edilmişdir ki, iqlim dəyişmələrinin ölkələrarası, beynəlxalq silahlı münaqişələrə səbəb olması prosesinin tədqiqinə çox az sayda araşdırma həsr edilmişdir və onların böyük əksəriyyəti transsərhəd çaylardan, içməli su ehtiyatlarından istifadə zamanı baş verən qarşıdurma nəticəsində meydana gələn beynəlxalq silahlı münaqişələrdən ibarətdir.

Qeyd edək ki, transsərhəd çaylardan istifadə məsələsi zamanı beynəlxalq münaqişə riski ilə bağlı, hazırda Azərbaycan Respublikasının Gürcüstan və Ermənistanla münasibətlərində də transsərhəd su hövzələrinin mühafizəsi və onlardan istifadə məsələlərində müəyyən çətinliklər mövcuddur. Ümumiyyətlə, Azərbaycanın

su ehtiyatlarının Cənubi Qafqaz regionundakı digər qonşu ölkələrlə müqayisədə xeyli məhdud olması barədə məlumat bir sıra rəsmi mənbələrdə, o cümlədən ölkənin UNFCCC katibliyinə təqdim etdiyi 4-cü Milli Məlumatda [66] geniş əks olunmuşdur. Belə ki, bu ehtiyatlar bütöv regiondakı su ehtiyatlarının cəmi 15 %-i təşkil edir, ölkədəki çay sularının 67-70%-i qonşu ölkələrin ərazisində formalaşır. Çay sularının ümumi təbii ehtiyatları 28,5-30,5 $km^3$, qonşu ölkələrdən transsərhəd çaylarla daxil olan su ehtiyatları 19,0-20,5 $km^3$, yerli axım 9,5-10,0 $km^3$ təşkil edir. Quraqlıq dövrlərdə su ehtiyatları 22,6-27,0 $km^3$-ə qədər azala bilir. Müvafiq olaraq, bu həcmin 17,1–14,3 $km^3$ transsərhəd çaylarına aiddir. Kür və Araz çaylarının su ehtiyatları, qonşu ölkələrin ərazisində istifadə nəticəsində 20% qədər azalır. Bu da ölkədə su çatışmazlığının artmasına gətirib çıxarır (ildə təqribən 4-5 $km^3$) və Azərbaycanda getdikcə artan su tələbatının ödənilməsində ciddi çətinlik yaradır.

Bununla yanaşı, iqlim dəyişmələrinin təsiri və adı çəkilən qonşu ölkələrdə, o cümlədən RF, Gürcüstanda transsərhəd su ehtiyatlarının kənd təsərrüfatı, sənaye sahələri və s. üçün ekstensiv istifadəsi ilə əlaqədar, adı çəkilən qonşu ölkələrdən Azərbaycana daxil olan çaylarda suyun, o cümlədən yeraltı su ehtiyatları həcminin hər il tədricən azalması, həmçinin Ermənistanda və digər qonşu ölkələrdə bu ehtiyatların məişət və sənaye tullantıları ilə sistematik surətdə çirkləndirilməsi hazırda regional ekoloji təhlükəsizlik sistemi üçün ciddi problemlər yaratmışdır [20]. Faktiki olaraq, bütün bu amillərin iqlim dəyişmələrinin nəticələri ilə daha da ağırlaşması Cənubi Qafqaz regionunda qonşu dövlətlər arasında məlum geosiyasi oyunçular tərəfindən asanlıqla manipulyasiya edilə bilən diplomatik qarşıdurmalara səbəb ola bilər və sonradan bu qarşıdurmalar geosiyasi oyunçular və ER-də, digər ölkələrdəki müəyyən revanşist qüvvələr tərəfindən silahlı fazaya da keçirilə bilər. Bütün bu məsələlər bir daha sübut edir ki, ekoloji risklər istənilən bölgənin siyasi təhlükəsizlik sisteminə ciddi siyasi risklər doğura bilər.

Azərbaycana qonşu ölkələrdən daxil olan çaylar məsələsində regional ekoloji və yuxarıda qeyd edildiyi kimi, siyasi təhlükəsizlik sisteminə təhlükəni artıran məqam olaraq əlavə edək ki, Azərbaycan Respublikasından fərqli olaraq, Ermənistan və Gürcüstanın qeyd olunan məsələlərin tənzimlənməsi üzrə 1992-ci ildə qəbul edilmiş "Transsərhəd Su Axınları və Beynəlxalq Göllərinin Mühafizəsi və İstifadəsi Haqqında" Konvensiyaya (yəni, qısaca "Helsinki Konvensiyasına") [61] indiyədək üzv olmaqdan məqsədyönlü surətdə yayınması region ölkələri arasında bu problemin beynəlxalq hüquqi müstəvidə həllini əngəlləyir və yaxın perspektivdə regional ekoloji və xüsusən siyasi təhlükəsizlik sisteminə riskləri daha da gücləndirmiş olur.

Halbuki Azərbaycan Respublikası bu konvensiyanı hələ 2000-ci ildə ratifikasiya etmişdir. Ermənistan və Gürcüstan isə beynəlxalq ictimaiyyətin, nüfuzlu ekspertlərin tövsiyələrinə məhəl qoymayaraq, qeyd olunan konvensiyaya qoşulmağı nəinki məqsədyönlü surətdə ləngidirlər, eləcə də, qeyd olunan çayların su ehtiyatlarından ədalətsiz, qeyri-inklüziv istifadə və sistematik çirkləndirmə praktikasını davam etdirirlər və bu da region ölkələri arasında məsələ ilə bağlı, müəyyən etimadsızlıq və mübahisələrə səbəb olur. Paralel olaraq, iqlim dəyişmələrinin artan təsirləri ilə su və digər təbii resurslara çıxış üçün region dövlətləri arasında rəqabətin güclənməsi, müvafiq mübahisələrin qarşısının alınması və həlli üçün səmərəli mexanizmlər yaradılmadığı təqdirdə, qeyd olunan bu mübahisələri iqlim münaqişəsi mərhələsinə asanlıqla keçirə bilər.

Bununla yanaşı, iqlim dəyişmələrinin səbəb olduğu ekstremal iqlim hadisələrinin və təbii fəlakətlərin intensivliyinin və miqyasının getdikcə artması istənilən regionda siyasi qeyri-sabitliyi daha da artıra bilər və öz mənfi sosial-iqtisadi zərərləri ilə bölgədə əhalinin yaşayış səviyyəsinə neqativ təsir edə bilər ki, bu da öz növbəsində əhalinin kütləvi surətdə miqrasiyasına səbəb ola bilər və ya onları qeyri-formal iqtisadiyyata keçməyə sövq edə bilər. Eyni zamanda, iqlim dəyişmələri nəticəsində hər hansı bölgədə su çatışmazlığı kənd təsərrüfatı və məşğulluq baxımdan vacib olan digər sektorlarda da əmək məhsuldarlığının azalmasına səbəb ola bilər. Bu proses ölkələrdə ərzaq istehsalı və təminatı zəncirinin pozulması və ərzaq məhsullarına olan qiymətlərin

ciddi surətdə artması ilə nəticələnə bilər ki, bu da, öz növbəsində, istənilən regionda sosial gərginlik, qeyri-sabitlik, şiddətli etirazlar və iğtişaşlara gətirib çıxara bilər.

Bu mənada, qlobal iqlim dəyişmələrinin təsiri ilə Cənubi Qafqaz bölgəsindən havanın orta illik temperaturun getdikcə artması və illik yağıntıların qeyri-bərabərliyi və ümumən azalma tendensiyası ayrı-ayrı ölkələrdə, xüsusən transsərhəd çayların aşağı axarında yerləşən Azərbaycanda iqtisadiyyatın müxtəlif sferalarına getdikcə daha çox mənfi təsir göstərə bilər. Bu proses həm də su elektrik stansiyalarında, habelə yaxın perspektivdə istehsalı istisna olunmayan yaşıl hidrogen istehsalına neqativ təsir edə bilər və nəticə etibarilə, bölgə ölkələrinin, xüsusən Azərbaycanın yaşıl enerji təchizatı üzrə dəyər zəncirində tədricən ciddi problemlərin meydana gəlməsinə səbəb ola bilər.

Məlum olduğu kimi, hazırda dünyanın bir çox ölkələrində yaşıl enerjiyə keçid çərçivəsində sudan elektroliz əsasında hidrogen istehsalının genişləndirilməsi qlobal dekarbonizasiya yolunda yeni perspektiv fəaliyyət sahəsidir. Lakin bu məsələlərin transsərhəd çaylarda su ehtiyatlarının ədalətsiz istifadəsinə səbəb olması, habelə bunun nəticəsində qonşu ölkələr arasında münasibətlərin mürəkkəbləşməsinə təsiri bir çox hallarda tədqiq olunmur. Belə ki, yaşıl iqtisadiyyatın açarı olan yaşıl enerjiyə keçid regional anlamda, beynəlxalq münasibətlər kontekstində ədalətli, inklüziv olmalıdır. Çünki hər hansı bölgədə bir dövlətin ekoloji və enerji təhlükəsizliyinin təmin edilməsi, digər ölkədə ağır ekoloji, sosial-iqtisadi problemlərə səbəb olmamalı, ümumən bölgənin ekoloji və siyasi təhlükəsizlik sistemlərinə risklər təşkil etməməlidir. Məsələn, Gürcüstan yaxın perspektivdə başlanılması nəzərdə tutulan yaşıl hidrogen istehsalı və mövcud qaz-nəqli infrastrukturu ilə istehlakçılara çatdırılması ilə bağlı müvafiq potensialın dəyərləndirilməsi üçün 2020-ci ildə Avropa Yenidənqurma və İnkişaf Bankına (EBRD) müraciət etmişdir [51] və bu istiqamətdə Avropa Təmiz Hidrogen Alyansının [54] vasitəçiliyi ilə fəaliyyətinin genişləndirməyi planlaşdırır. Bundan əlavə, bu ölkədə yaşıl enerji istehsalının genişləndirilməsi istiqamətində su elektrik stansiyalarının qoyuluş gücünün artırılması, habelə kənd təsərrüfatında əkin sahələrinin genişləndirilməsi planları, heç şübhəsiz ki, yaxın perspektivdə Azərbaycana daxil olan transsərhəd çayların, ilk növbədə Kür çayının səviyyəsinə, ölkədə ümumi su ehtiyatlarının təminatına neqativ təsir edə bilər. Bu da, öz növbəsində, iki ölkə arasında diplomatik münasibətlərin gərginləşməsinə səbəb ola bilər.

Ümumən, ekstremal iqlim hadisələri nəticəsində enerji istehsalı və onun nəqli infrastrukturuna vurula bilən zərər və itkilər enerji təchizatı zənciri və ümumən enerji təhlükəsizliyi sisteminin normal fəaliyyətini tam və ya qismən iflic edə bilər. Konkret olaraq, iqlim dəyişmələrinin neqativ təsirlərinin tədricən intensivləşməsi gələcəkdə Azərbaycanda da yaşıl enerjiyə keçid, iqlim dayanıqlığı və dekarbonizasiya tədbirlərinə, habelə yaşıl enerjinin istehsalı və qərb ölkələrinə ixracı məsələlərinə ciddi problemlər yarada bilər. Məlum olduğu kimi, 17 dekabr 2022-ci ildə Buxarest şəhərində Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş imzalanmışdır və Prezident Ilham Əliyevin müvafiq Fərmanı ilə 7 fevral 2023-cü ildə təsdiq edilmişdir [57]. Tarixi əhəmiyyət daşıyan bu saziş yaşıl enerji sahəsində regional əməkdaşlığın ilk mərhələsidir və gələcəkdə Avropa İttifaqı ölkələri (Şərqi Avropa), Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarını birləşdirən yaşıl enerji dəhlizinin (Black Sea Cable) yaradılmasının açar rolunu oynamaqdadır. Bu baxımdan sazişin regional energetik və siyasi əhəmiyyətini nəzərə alaraq, bölgədə iqlim dəyişmələrinin mümkün təsirləri barədə etibarlı Erkən Xəbərdarlıq Sisteminin yaradılması, mümkün ekoloji, energetik, siyasi və digər risklərin təhlili və proqnozlaşdırılması, iqlim dəyişmələri ilə mübarizənin ayrı-ayrı sahələri üzrə region ölkələri arasında sıx əməkdaşlıq əlaqələrinin qurulması çox aktual məsələlərdir.

Beləliklə, bir sıra digər bölgələrdə olduğu kimi, Cənubi Qafqaz regionunda da su, kənd təsərrüfatı və enerji məsələləri ilə bağlı dövlətlərarası münasibətlər xüsusi həssaslığı ilə seçilir. Bu, ələlxüsus, su ehtiyatlarının müx-

təlif sektorlar üzrə milli səviyyədə istifadəsi təcrübəsi və transsərhəd çayların axımından yuxarıda və aşağıda yerləşən ölkələr arasında su ehtiyatlarının koordinasiyalı istifadəsi mexanizminin qeyri-mövcudluğu ilə əlaqədardır.

Bütün bu faktorlar, heç şübhəsiz ki, bölgədə sabitlik və əməkdaşlığın inkişaf etdirilməsinə səy göstərən beynəlxalq təşkilatların, BMT-nin ixtisaslaşmış təşkilatlarının, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, AB institutlarının daim nəzarətində olmalıdır və bu səpkidə hər hansı diplomatik qarşıdurmanın baş verməsinin qarşısı vaxtında alınmalıdır. Göstərilən istiqamətdə adı çəkilən beynəlxalq təşkilatlar tərəfindən Gürcüstan və Ermənistanın yuxarıda bəhs edilən Helsinki Konvensiyasına təcili qoşulmasının stimullaşdırılması mexanizminin işlənib hazırlanması və ya transsərhəd çayların su ehtiyatlarının koordinasiyalı istifadəsi və mühafizəsi ilə əlaqədar müvafiq ikitərəfli beynəlxalq müqavilələrin imzalanması prosesinin sürətləndirilməsi zəruridir. Bu mənada Azərbaycan ilə Gürcüstan arasında Kür çayı üzrə ikitərəfli sazişin hazırlanması istiqamətində fəaliyyət hazırda davam etdirilir. Bununla yanaşı, Gürcüstana 2023-cü ilin dekabrında Avropa İttifaqına üzvlük istiqamətində namizəd ölkə statusunun verilməsi bu ölkənin yuxarıda bəhs edilən Helsinki Konvensiyasına üzvlüyü prosesini sürətləndirəcəyi mütəxəssislər tərəfindən bildirilir. Belə ki, Aİ-nin namizəd dövlətlərə bir sıra tələbləri sırasında bu konvensiya da qoşulması məsələsi də vardır. Gürcüstanın bu konvensiyaya qoşulmasından sonra təşkil ediləcək sistematik monitorinqlər, heç şübhəsiz, ölkələrimiz arasında qeyd olunan transsərhəd su ehtiyatlarının keyfiyyət və kəmiyyətinin yaxşılaşmasına öz töhfəsini verəcəkdir.

Lakin transsərhəd su ehtiyatlarının birgə istifadəsi ilə Ermənistan ilə hər hansı ikitərəfli müqavilənin imzalanması yalnız Azərbaycan Respublikasının bu ölkə ilə hərtərəfli sülh sazişini imzalamasından sonra mümkün ola bilər ki, bu da bir daha AR Prezidenti İlham Əliyev tərəfindən 2023-cü ilin fevral ayında Münhen Təhlükəsizlik Konfransında qeyd olunan sülh sazişinin imzalanmasının vacibliyi barədə bildirilən fikirlərin əhəmiyyətini artırmış olur. Belə ki, Prezident İlham Əliyev həmin konfransda bu xüsusda açıq mesaj verərək bildirmişdir: "...Hesab edirəm ki, Azərbaycan və Ermənistan uzun müddət çəkmiş toqquşmadan uzaqlaşmanı nümayiş etdirməli, qarşılıqlı ədavət və düşmənçiliyə son qoymalıdırlar. Hazırda biz Ermənistan ilə Azərbaycan arasında sülh sazişi üzərində çalışırıq. Ümid edirik ki, biz bu işi gec yox, tezliklə tamamlayacağıq. Düşünürəm ki, bu, ciddi tarixi fikir ayrılığına malik olan ölkələrin bir araya gəlməsi və düşmənçilik səhifəsinin bağlanmasında yaxşı nümunə ola bilər..." [70].

Qeyd edək ki, transsərhəd su hövzələrindən istifadə, onun keyfiyyəti, içməli su ehtiyatları təminatına olan iqlim riskləri məsələsinin aktuallığını sübut edən mötəbər mənbə kimi, İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Ekspertlər Qrupunun (İPCC) 2008-ci il üzrə Texniki məruzəsi böyük əhəmiyyət kəsb edir. Belə ki, sənəddə təqdim edilmiş proqnoza görə, yağıntının intensivliyinin və dəyişkənliyinin artması dünyanın bir çox bölgələrində daşqın və quraqlıq təhlükəsinin artmasına səbəb olacaq, qida təhlükəsizliyinə təsir göstərəcək, həmçinin suyun çirklənməsi hallarını artıracaqdır. Bundan əlavə, İPCC-nin 2023-cü ildə nəşr etdiyi Sintez Hesabatının 99-cu səhifəsində də qeyd edilir ki, 2021-2040-cı illərdə iqlim dəyişmələri nəticəsində baş verə biləcək ekstremal hava şəraiti ilə bağlı dəyər zənciri, bazar və resurs axınına olan zərərlərlə bağlı transsərhəd risklər qida, enerji və su təminatı kimi sektorları əhatə edəcəkdir və pandemiya kimi risklərlə birlikdə kaskad xarakterli risklər yaratma ehtimalı yüksələcəkdir [71].

Qlobal və regional ekoloji təhlükəsizlik risklərinin, o cümlədən iqlim dəyişmələrinin siyasi təhlükəsizlik, stabillik məsələlərinə və beynəlxalq münasibətlər sisteminə təsirlərinin nəzərəçarpan dərəcədə artması ilə əlaqədar bu məsələlər xeyli müddətdir ki, ATƏT və digər nüfuzlu beynəlxalq təhlükəsizlik institutlarının da gündəliyinə daxil edilmişdir. Hazırda bu istiqamətdə araşdırmalar və konkret layihələr icra olunmaqdadır. Belə ki, məsələn, iqlim dəyişmələrinin milli və qlobal təhlükəsizlik riski kimi təsirinin artması ilə bağlı, ATƏT tərəfindən "Ətraf mühit və təhlükəsizlik" (ENVSEC)

adlı təşəbbüs [62] bu qurumun Iqtisadi və Ekoloji Forumunda müzakirəyə çıxarılmış və 2003-cü ilin may ayında Kiyev şəhərində keçirilmiş “Avropa üçün ətraf mühit” mövzulu Nazirlər Konfransında və Praqada keçirilmiş ATƏT-in On Birinci İqtisadi və Ekoloji Forumunda eyni vaxtda bəyan edilərək, konkret layihə kimi onun implementasiyasına başlanılmışdır. ATƏT tərəfindən irəli sürülmüş və maliyyəşdirilməsinə başlanılmış bu layihəyə daha sonra Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) və Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) və BMT Avropa üzrə İqtisadi Komissiyası (UNECE) da qoşulmuşlar. Layihənin əsas məqsədi dörd bölgə – Şərqi Avropa, Cənub-Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya bölgələri arasında, habelə bölgələrdəki dövlətlər arasında ekoloji əməkdaşlığı təşviq etməklə təhlükəsizlik nöqteyi-nəzərindən ekoloji risklərlə və təhlükəsizlik risklərinə qarşı birgə mübarizə aparmaqdan ibarətdir. Belə ki, Cənubi Qafqaz regionunun da “Ətraf mühit və təhlükəsizlik” (ENVSEC) layihəsinə daxil edilməsinin səbəbi, fikrimizcə, hazırda iqlim dəyişmələrinin məhz bu bölgədə regional hərbi-siyasi təhlükəsizlik sisteminə müxtəlif aspektlərdə sürətlə artan neqativ təsirləri və bölgədəki transsərhəd çayların su ehtiyatlarının koordinasiyalı istifadəsi və mühafizəsi məsələsində yuxarıda qeyd olunan problemlərlə əlaqədardır.

Bununla yanaşı, bir sıra hallarda iqlim dəyişmələrinin birbaşa deyil, dolayısı ilə, yəni sosial-iqtisadi faktorlara təsir etməklə münaqişə riskləri yaratması mümkündür. Belə ki, məsələn, iqlim dəyişmələrinin təsiri ilə quraqlıq və ya normadan artıq yağıntı, sel və daşqınlar, torpaq sürüşmələri və digər kəskin hava şəraiti nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalında kəskin azalmalar və müvafiq olaraq, onların qiymətlərində baş verə biləcək hər hansı ciddi bahalaşmalar, digər siyasi və ya sosial-iqtisadi, o cümlədən etnik faktorlarla birgə istənilən bölgə və ya ölkədə müxtəlif əhali qrupları arasında qarşıdurma, qeyri-sabitlik, kütləvi miqrasiya, hətta silahlı münaqişəyə səbəb ola bilər. Bəzən belə lokal münaqişələr bölgədə müxtəlif qlobal və regional geosiyasi aktorların gizli müdaxiləsi ilə beynəlxalq silahlı münaqişələrə də keçə bilər. Bu kimi hallara etnik zənginliyi ilə seçilən Afrika ölkələri, Balkanlar, Hindistan və Pakistan və digər bölgələrdə rast gəlmək olar [45].

Buna görə də, ətraf mühit, o cümlədən iqlim dəyişmələri nöqteyi-nəzərdən transsərhəd, milli, submilli və ictimai səviyyələrdə risklərin ətraflı və kompleks qiymətləndirilməsini, təhlilini və xəritələnməsini həyata keçirmək, cəmiyyətə təsir edən qəfil sarsıntı və tendensiyaları müəyyənləşdirmək və bu tendensiyaların sosial, siyasi və iqtisadi dinamika ilə necə əlaqəli olduğunu müəyyən etmək son dərəcədə vacibdir.

Qeyd edildiyi kimi, bir sıra hallarda iqlim dəyişmələrinin istənilən ölkədə sosial-iqtisadi məsələlərə neqativ təsir etməklə lokal və ya beynəlxalq münaqişə yaratma riskləri yerli etnik faktorlarla birgə xüsusən təhlükəli nəticələrə səbəb ola bilər. Bunun regionda bariz nümunəsi kimi, məsələn, Gürcüstanın şimali-qərbindəki Svanetiya bölgəsində iqlim dəyişmələrinin təsiri ilə 1987-ci ildə baş vermiş torpaq sürüşməsi nəticəsində mindən artıq svan ailənin o dövrdə Gürcüstanın millətçi rəhbərliyi tərəfindən məqsədyönlü surətdə azərbaycanlıların tarixi torpaqları olan Borçalı mahalına (Marneuli, Bolnisi, Dmanisi və s.) yerləşdirilməsini göstərmək olar. Bir sıra nüfuzlu siyasi ekspertlərinin rəyinə görə, həmin dövrdə gürcü hökumətinin bu qərarının əsas məqsədi aqressiv svan miqrantlarının köməyi ilə yerli azərbaycanlıların Borçalıdan Azərbaycan Respublikasına kütləvi köçməsi prosesini tətikləməkdən ibarət olmuşdur. Nəticə etibarilə, dağ şəraitində yaşamış və əsasən ovçuluqla, turizmlə məşğul olmuş və Borçalıdakı yeni ərazilərdə yaşamağa uyğunlaşa bilməyən və bununla bağlı aqressivləşən millətçi svanlarla öz tarixi torpaqlarında kənd təsərrüfatı, tikinti və digər sahələrdə uğur qazanmış yerli azərbaycanlılar arasında sistematik və kütləvi münaqişələr baş vermiş, bölgənin ictimai asayişi svanlar tərəfindən sistematik pozulmuşdur. Bu proses yerli gürcü hakimiyyətinin nəzarəti altında otuz yeddi ilə yaxın davam etməkdədir. Son belə kütləvi etnik münaqişə 16 may 2021-ci ildə Dmanisi şəhərində dörd svan gəncin azərbaycanlılara məxsus mağazadan zorla “nisyə”

pivə və digər malları götürməsinə etiraz edən soydaşlarımızın miqrant svanlar tərəfindən döyülməsi ilə bağlı meydana gəlmiş, nəticədə yerli azərbaycanlılar birləşərək yerli özünümüdafiə dəstələri yaratmağa məcbur olmuşlar. Məhz Azərbaycan hökumətinin, xarici siyasət orqanlarının səyləri nəticəsində svanların bu təxribatına vaxtında son qoyulmuş və müvəqqəti də olsa barışığa nail olunmuşdu [56]. Qeyd edək ki, svanların müxtəlif təxribatları Gürcüstanın digər bölgələrində də baş verir. Belə ki, məsələn, 2013-cü ildə Gürcüstanın Pankisi dərəsində də svanlar və yerli çeçenlər arasında etnik əsasda münaqişələr baş vermişdir.

Beləliklə, iqlim dəyişmələrinin təsiri ilə baş vermiş hadisələrlə bağlı görüləcək tədbirlərin ölkənin (onun ayrı-ayrı bölgələrinin) ictimai asayişi, siyasi stabilliyi və təhlükəsizliyinə yarada biləcək hər hansı risk yaratmaq (məsələn, yuxarıda qeyd olunan etnik qarşıdurma və digər hadisələr) baxımdan əvvəlcədən təhlil edilməli, modelləşdirilməli, proqnozlaşdırılmalıdır və bu modelləşdirmədə yerli şərait, etnik, regional, siyasi və digər faktorlar mütləq nəzərə almaq lazımdır.

Məlum olduğu kimi, hazırda elmi ədəbiyyatda ayrı-ayrı bölgələrin, dövlətlərin, onların ayrı-ayrı ərazilərinin iqlim dəyişmələrinin təsirlərinə zəiflik (vulnerability) indeksi anlayışı mövcuddur və o, müvafiq formulalarla hesablanır. Belə ki, bu indeks iqlim dəyişmələrinin təsirlərinə məruzqalma, həssaslıq və adaptiv potensial kimi məfhumlarla müəyyən edilir. Bütün bu anlayışlar iqlim dəyişmələrinin hər hansı bölgədə, dövlətdə və ya ərazidə nə dərəcədə təsirlərinin ola biləcəyini (məruzqalma, həssaslıq) və bu təsirlərin aradan qaldırılması və ya onlara uyğunlaşdırılması üzrə nə kimi uyğunlaşma imkanlarının (adaptasiya potensialı) olduğunu ifadə edir [64].

Yuxarıda qeyd olunan misallardan da göründüyü kimi, iqlim dəyişmələri ekoloji təhlükəsizlik sistemi ilə yanaşı, bir sıra hallarda siyasi təhlükəsizlik sisteminə də birbaşa və ya dolayısı ilə risklər formalaşdırır. Tərəfimizdən iqlim dəyişmələrinin siyasi təhlükəsizlik sisteminə təsirlərinin təhlili və proqnozlaşdırılması üçün yeni anlayışlar qismində "İqlim Münaqişələrinə qarşı Zəiflik İndeksi" (Climate Conflict Vulnerability Index – CCVI), "Təhlükəsizliyin (geniş mənada) İqlim Həssaslığı" (Climate Sensitivity Index of Security – CSIS) və "İqlim Münaqişələrinin Qarşıalınma Qabiliyyəti" (Climate Conflict Prevention Capacity – CCPC) terminlərinin daxil edilməsi təklif edilir. Burada "İqlim Münaqişələrinə qarşı Zəiflik İndeksi" anlayışı iqlim dəyişmələrinin ayrıca götürülmüş regionda və ya ölkədə (onun ayrı-ayrı bölgələrində) siyasi təhlükəsizlik, sabitlik məsələlərinə və beynəlxalq münasibətlər sisteminə təsirlərinin qiymətləndirilməsi və əvvəlcədən proqnozlaşdırılması üçün istifadə edilir. Aşağıda bu anlayışların hesablanması və izlənəbilənliyi üçün müvafiq düsturlar və izahı təqdim edilir.

İlk öncə iqlim dəyişmələrinin təsirlərinə uyğunlaşma tədbirləri üçün böyük əhəmiyyət daşıyan anlayışı, yəni iqlim riski anlayışını yada salaq. Bu anlayış bir sıra etibarlı elmi mənbələrdə aşağıdakı düsturla ifadə edilir [78]:

$$\text{Risk} = \text{Təhlükə (təhlükəli iqlim hadisəsi)} \times \times \text{İqlim Zəifliyi (Climate Vulnerability)}. \quad (1)$$

Bu formulada ölkənin qlobal iqlim dəyişmələrinin təsirlərinə qarşı İqlim Zəifliyi, müvafiq olaraq, aşağıda verilmiş düsturla hesablanan İqlim Zəifliyi İndeksi anlayışı ilə ölçülür [72], [73]:

$$\text{İqlim Zəifliyi İndeksi (Climate Vulnerability İndex)} = \{\text{Məruzqalma (Exposure)} + \text{Həssaslıq (Climate Sensitivity)} + (1 - \text{Uyğunlaşma Qabiliyyəti (Adaptive Capacity)})\}/3. \quad (2)$$

Beləliklə, İPCC tərəfindən iqlim dəyişimlərinə "İqlim Zəifliyi" (Climate Vulnerability) anlayışına verilmiş tərifə görə, bu anlayış hər hansı ölkə və ya subyektin geofiziki, bioloji və sosial-iqtisadi sistemlərinin qlobal iqlim dəyişməsinin mənfi təsirlərinə, o cümlədən iqlim dəyişkənliyi (variability) və ekstremal iqlim hadisələrinə qarşı zəifliyi, onlarla bacarabilməməsi dərəcəsini ifadə edir. İqlim Zəifliyinin ölçüləbilənliyi üçün, yuxarıdakı (2) düsturunda ifadə edildiyi kimi, "İqlim Zəifliyi İndeksi"

(Climate Vulnerability İndex – CVI) anlayışından istifadə edilir və o, iqlim həssaslığı, iqlim dəyişmələrinə məruzqalma ehtimalı və uyğunlaşma qabiliyyəti indekslərinin ədədi ortası kimi müəyyən edilir [72]. Bu formuladakı hər bir komponent üzrə göstəricilər 0 və 1 arasında dəyişir. Qeyd olunan komponentlərin izahı və hesablanması metodologiyası barədə elmi ədəbiyyatda xeyli məlumat mövcuddur [73].

Hazırda ayrı-ayrı sahələrdə belə indekslərin müxtəlif kontekstdə aqreqasiyası üsulları mövcuddur. Məsələn, [1] monoqrafiyasında İnklüziv İnkişaf İndeksi, İnsan İnkişafı İndeksinin hesablanması bu qəbildəndir.

Beləliklə, analoji qaydada tərəfimizdən istənilən ölkə və ya ölkələr birliyinin "İqlim Münaqişələrinə qarşı Zəiflik" (Climate Conflicts Vulnerability – CCV) anlayışı daxil edilir. Bu anlayış hər hansı ölkə və ya ölkələr birliyinin siyasi təhlükəsizlik sisteminin (geniş mənada təhlükəsizlik) iqlim dəyişməsinin mənfi təsirləri ilə birbaşa və dolayı surətdə meydana gələn risklər qarşısında zəifliyi, onlarla bacarabilməməsi dərəcəsini ifadə edir. Beləliklə, İqlim Münaqişələrinə qarşı Zəiflik anlayışının ölçüləbilənliyi üçün "İqlim Münaqişələrinə qarşı Zəiflik İndeksini" (Climate Conflicts Vulnerability İndex – CCVİ) aşağıdakı düsturla hesablamağı təklif edirik:

İqlim Münaqişələrinə qarşı
Zəiflik İndeksi
(Climate Conflicts Vulnerability İndex) =
= {İqlim Zəifliyi Indeksi
(Climate Vulnerability İndex) + (3)
+ Təhlükəsizliyin İqlim Həssaslığı İndeksi
(Climate Sensitivity Index of Security) +
+ (1 – İqlim Münaqişələrinin
Qarşısıalınma Qabiliyyəti
(Climate Conflict Prevention Capacity))}/3,

burada (3) düsturunda İqlim Zəifliyi İndeksi (Climate Vulnerability İndex – CVİ) yuxarıdakı (2) düsturu ilə müəyyən edilir, Təhlükəsizliyin (geniş mənada) İqlim Həssaslığı İndeksi (Climate Sensitivity Index of Security - CSIS)) isə aşağıdakı düstur ilə hesablanır:

$$CSİS=(A1+A2+A3+B1+B2+C+D+E+F+G+H1+H2+İ+J1+J2)/15, \quad (4)$$

burada

– A1 – ölkədə geosiyasi marağı olan qlobal və regional siyasi oyunçuların (dövlətlər və onların birlikləri) təsir imkanları indeksi, yəni neqativ (N – stabillikdə maraqlı olmayan geosiyasi qlobal və regional oyunçuların sayı) və pozitiv (P – stabillikdə maraqlı olan geosiyasi qlobal və regional oyunçuların sayı) ölkələrin sayının fərqinin modulunun onların cəminə nisbətinə bərabərdir:

$$– A1= |N-P|/(N+P) \quad (5)$$

burada P ədədi N-dən böyük olarsa, A1 sıfra bərabər götürülür;

– A2 – ölkənin yerləşdiyi regionda baza ilindən indiyədək qonşu ölkələrlə transsərhəd su və digər təbii ehtiyatların birgə istifadəsi ilə bağlı həll edilməmiş məsələlərin sayı (baza ili kimi - 1990-cı il);

– A3 – regiondakı qonşu ölkələrlə baza ilindən indiyədək tam həllini tapmamış (müvafiq sülh sazişi ilə) münaqişələrin sayı (baza ili kimi – 1990-cı il);

– B1 – ölkədə (və ya dəyərlənmə miqyası ilə əlaqədar, müvafiq olaraq, onun bölgəsində) hazırki ildə ayrı-ayrı ayrılıqda hər bir etnik azlıq əhalisinin sayının baza ili (baza ili kimi - 1990-cı il) ilə müqayisədə ümumi əhali (müvafiq olaraq, bölgə əhalisinin) sayında olan payının (faizlə) dəyişmələrinin cəminin ümumi əhali sayının baza ili ilə müqayisədə dəyişməsinin (faizlə) moduluna olan nisbəti (bütün etnik azlıqların dəyişmə trendinin cəmi mənfidirsə nəticə 0 götürülür);

– B2 – ölkəyə (müvafiq olaraq, onun bölgəsinə) xarici (daxili) miqrantların illik axını səviyyəsinin həmin ildə ümumi əhali (bölgə əhalisi) sayına olan nisbətinin son on ildə maksimum qiyməti;

– C – ölkənin (müvafiq olaraq, onun bölgəsinin) etno-münaqişə həssaslığı, yəni etnik qruplar arasında baza ilindən indiyədək münaqişələrin (qarşıdurmaların) ümumi sayının baza ilindən indiyədək olan illərin sayına olan nisbəti (baza ili kimi – 1990-cı il);

– D – ölkədə (müvafiq olaraq, bölgəsində) baza ilindən indiyədək iqlim dəyişmələrinin birbaşa və ya dolayı təsirləri ilə bağlı olan münaqişələrin (qarşıdurmaların) əhali qrupları, sosial, etnik toplumlar arasında ümumi münaqişələrin (qarşıdurmalar) sayına nisbəti (baza ili kimi – 1990-cı il);

– E – ölkədəki (müvafiq olaraq, onun bölgəsindəki) etnik qruplar arasında onların miqrasiyası nəticəsində meydana gəlmiş etnik münaqişərin (qarşıdürmaların) etnik qruplar arasında baza ilindən indiyədək baş vermiş münaqişələrin ümumi sayına nisbəti (baza ili kimi – 1990-cı il);

– F – ölkənin (müvafiq olaraq, onun bölgəsinin) iqtisadiyyatında (ümumi daxili məhsulda, əhalinin gəlirlərində) kənd təsərrüfatından və ya iqlim dəyişmələrinin təsirlərinə bilavasitə həssas olan əsas iqtisadi sektorlardan və resurslardan (su resursları, meşə resursları, sahilboyu zona təsərrüfatı) asılılıq dərəcəsi (yüksək - 3, orta - 2, aşağı - 1);

– G – ölkənin (müvafiq olaraq, onun bölgəsinin) iqlim dəyişmələri riskləri ilə mübarizə üzrə cavab tədbirlərinin (yumşaltma və uyğunlaşma tədbirləri) yerli və beynəlxalq münaqişələrə (qarşıdurmalara) səbəbolma baxımdan həssaslıq dərəcəsi, yəni iqlim tədbirləri (yumşaltma və uyğunlaşma tədbirləri) nəticəsində baza ilindən indiyədək meydana gəlmiş münaqişələrin sayının əhali qrupları, sosial, etnik toplumlar arasında daxili münaqişələrin (qarşıdurmalar) və region dövlətləri arasında beynəlxalq münaqişələrin (qarşıdurmalar) cəminə olan nisbəti (baza ili kimi – 1990-cı il);

– H1 – ölkədə (müvafiq olaraq, bölgəsindəki) hər bir etnik azlıq üzrə işsizlik faizinin və yoxsulluq faizinin, müvafiq olaraq, ümumi əhali üzrə işsizlik və yoxsulluq faizi ilə fərqlərinin (fərq mənfidirsə, 0 götürülür) cəmi;

– H2 – ölkədə (müvafiq olaraq, bölgəsində) ayrı-ayrılıqda hər bir etnik azlıq üzrə orta illik gəlirlər arasında paylanılma göstəricisi (Cini əmsalı əsasında hesablanır [77])) ilə ümumi əhali üzrə orta illik gəlirlər arasında paylanılma göstəricisi arasında fərqlərin (fərq mənfidirsə, 0 götürülür) cəmi;

– İ – ölkədə (müvafiq olaraq, bölgəsində) iqlim dəyişmələrinə həssas olan ayrı-ayrı sosial gərginlik faktorlarının (məsələn, iqlim dəyişmələrinin sosial-iqtisadi təsirləri nəticəsində əhali qrupları tərəfindən bəzi iş yerlərinin itirilməsi, bəzi ixtisasların iqlim dəyişmələri ilə mübarizə tədbirləri zamanı əmək bazarında aradan qalxması, gəlirlərin azalması, əhalinin səhhətində problemlərin artması və s.) ümumi statistik sayı;

– J1 – ölkənin müxtəlif bölgələri arasında İnklüziv İnkişaf İndekslərinin paylanılma göstəricisi (Cini əmsalı əsasında hesablanır);

– J2 – ölkənin yerləşdiyi regiondakı müxtəlif dövlətlər arasında İnklüziv İnkişaf İndekslərinin paylanılma göstəricisi (Cini əmsalı əsasında hesablanır).

Bununla yanaşı, İqlim Münaqişələrinin Qarşısıalınma Qabiliyyəti (Climate Conflict Prevention Capacity - CCPC) belə müəyyən edilir:

$$CCPC= (K+L+M+N+O)/5 \qquad (5)$$

K – bölgədəki əsas geosiyasi oyunçuların bölgədə (ölkədə) geo-siyasi, iqtisadi və s. təsirlərinin ölkə tərəfindən neytrallaşdırılması potensialı: silahlı qüvvələrin döyüş qabiliyyəti (müvafiq beynəlxalq reytinqi), çevik diplomatiya, nüfuzlu strateji-hərbi ittifaqda üzvlüyü və ya aktiv iştirakı nəzərə alınmaqla (yüksək - 5, yaxşı - 4, orta - 3, zəif - 2, aşağı - 1);

L – ölkədə (bölgədə) etnik münaqişələrə və sosial narazılıqlara meylli kontingentlə siyasi, ideoloji, hüquqi mövzuda keçirilmişi profilaktik tədbirlərin sayı;

M – ölkənin (bölgənin) iqtisadiyyatının şaxələndirilməsi səviyyəsi (yüksək – 3, orta – 2, aşağı – 1);

N – ölkənin (bölgənin) ümumi daxili məhsulunda, əhalinin gəlirlərində kənd təsərrüfatından və ya iqlim dəyişmələrinin neqativ təsirlərinə həssas olan digər sektorlardan (su resursları, meşə resursları, sahilboyu zona təsərrüfatı) asılılığın aradan qaldırılması potensialı (yüksək – 5, yaxşı – 4, orta – 3, zəif – 2, aşağı – 1);

O – bölgənin (ölkənin) iqlim dəyişmələrinin neqativ təsirlərinə uyğunlaşma potensialı, yəni (2) formulasındakı Uyğunlaşma Qabiliyyəti [73].

Növbəti məqalələrdə İqlim Münaqişələrinə qarşı Zəiflik İndeksinin hesablanması ilə əla-

qədar yuxarıdakı formulaların təkmilləşdirilməsi istisna olunmur, habelə onların tətbiqinə dair konkret misallara və nümunələrə tərəfimizdən geniş yer veriləcək və müvafiq şərhlər təqdim ediləcəkdir. Fikrimizcə, bu anlayış istənilən ölkənin və ya onun hər hansı bölgəsinin iqlim münaqişələrinə zəiflik dərəcəsini müəyyən etməyə imkan verəcək, habelə belə münaqişələrin qarşısını almaq üçün müvafiq profilaktik tədbirlərin görülməsinə və gələcəkdə bu kimi proseslərin nəzarətdə saxlanılması üçün proqnozlaşdırılmasına şərait yaradacaqdır.

Bu anlayışın daxil edilməsi və ölkələr, müxtəlif bölgələr üzrə hesablanması məsələsinin metodoloji əhəmiyyətini izah etmək üçün yuxarıda qeyd olunan misallarla yanaşı, Azərbaycan Respublikasının misalına nəzər yetirək. 2020-ci ildə rəşadətli Azərbaycan ordusunun erməni işğalçılarına qarşı “44 günlük müharibə”dəki tarixi qələbəsi və 2023-cü ilin sentyabr ayında uğurlu antiterror əməliyyatı nəticəsində AR öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Hazırda erməni silahlı qüvvələrinin işğalından azad edilmiş bölgədə bərpa-quruculuq işləri davam etdirilir. Eyni zamanda, yuxarıdakı misallarda qeyd edildiyi kimi, qlobal iqlim dəyişmələrinin digər ölkələrdə olduğu kimi, AR-in də müxtəlif ərazilərində, o cümlədən Qarabağ və Şərqi iqtisadi rayonunda mənfi təsirlərinin bilavasitə və dolayı nəticələrinin mümkün intensivləşməsi fonunda müvafiq uyğunlaşma tədbirlərinin işlənib hazırlanması, eyni zamanda İqlim Həssaslığı İndeksi və Təhlükəsizliyin İqlim Həssaslığı İndeksinin hesablanması vacib məsələlərdəndir.

Bununla yanaşı, bir sıra hallarda iqlim dəyişmələrinin təsiri ilə baş verən dəyişikliklər beynəlxalq hüquqla nizamlanan münasibətlərə də gələcəkdə müəyyən risklər və gərginliklər yarada bilər. Belə ki, məsələn, beynəlxalq dəniz hüququ əsasında və ya ikitərəfli, çoxtərəfli beynəlxalq müqavilələr əsasında tənzimlənən dənizlərin, digər daxili su hövzələrinin, transsərhəd çayların və s. gələcəkdə iqlim dəyişmələrinin təsiri ilə səviyyəsində və həcmində, o cümlədən sahil xətlərinin koordinatlarında müəyyən dəyişikliklər baş verə bilər. Baş verə bilən bu dəyişikliklər müvafiq su hövzələrindən istifadə, onları mühafizəsi kimi məsələlər üzrə əvvəllər imzalanmış bir sıra beynəlxalq müqavilələrin predmetinə elə təsir edə bilər ki, bir sıra hallarda həmin sənədlərdə və onlara texniki əlavələrdəki parametrlərdə ciddi düzəlişlərə ehtiyac yarada bilər. Əks təqdirdə iqlim dəyişmələrinin təsiri ilə baş verən bu dəyişikliklər su hövzələri ətrafındakı dövlətlər arasında diplomatik qarşıdurma və hətta silahlı münaqişələrə səbəb ola bilər. Bu məsələyə [10] məqaləsində və orada təqdim edilmiş elmi ədəbiyyatda da geniş verilmişdir. Məsələ ilə bağlı, fikrimizcə, yaxın perspektivdə iqlim dəyişmələrinin mümkün təsirləri ilə bağlı əmələ gələ bilən qeyri-müəyyənliklər və onların həlli yolları barədə müddəalar müvafiq beynəlxalq müqavilələrdə öz əksini tapmalı, beynəlxalq hüquqi sənədlər də bir növ iqlim dəyişmələrinə “uyğunlaşdırılmalı"dır.

Bu mənada məlum olduğu kimi, qlobal iqlim dəyişmələrinə həssas olan daxili su hövzəsi kimi Xəzər dənizinin səviyyəsində də son iyirmi ildə ciddi azalmalar müşahidə olunmaqdadır. Belə ki, XX əsrdə onun səviyyəsinin ən aşağı göstəricisi 1977-ci ildə, yəni beynəlxalq səviyyədə qəbul edilmiş dəniz səviyyəsindən 29 metr aşağı olduğu vaxt qeydə alınmışdır. 1995-ci ilə qədər dövrdə səviyyə – 26,5 metr həddinə qalxmasına baxmayaq, növbəti 29 il ərzində Xəzərin səviyyəsi aşağı düşməkdədir və son 2-3 ildə isə səviyyə 0,5 metrə qədər düşmüşdür [60]. Hazırda bəzi proqnozlara görə, səviyyənin XXI əsrin sonunadək 1995-ci il göstəricisindən 9 metr və hətta 18 metrə qədər enəcəyi istisna edilmir ([49]). Bu prosesin əsas səbəbləri sırasında tektonik proseslər, iqtisadi fəaliyyət, habelə qlobal iqlim dəyişmələri nəticəsində buxarlanmanın artması və digərlərini göstərmək olar. Eyni zamanda, məlum olduğu kimi, dənizə çayla gətirilən su ehtiyatının 85%-i Volqa çayı ilə daxil olur və bir tərəfdən qlobal iqlim dəyişmələri ilə bağlı bu çayın hövzəsində yağıntıların azalması, ümumən dəniz səthindən buxarlanmaların artması, digər tərəfdən isə RF-də iqtisadiyyatın müxtəlif sektorlarında adı çəkilən çayın su ehtiyatlarından getdikcə daha ekstensiv istifadə edilməsi, heç şübhəsiz ki, Xəzərin səviyyəsinə bu çayla daxil olan suyun xeyli azalmasına səbəb olmuşdur. Beləliklə, dəniz səviyyəsinin

önümüzdəki illərdə davamlı surətdə azalması nəticəsində sahil xətlərinin koordinatlarının dəyişməsi prosesi qaçınılmazdır. Bu isə "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın 1-ci maddəsində [59] qeyd edilmiş "düz çıxış xəttləri"nin koordinatlarının və sahil xəttinin ardıcıl dəyişməsinə səbəb olacaqdır. Nəticə etibarilə, "ərazi sular"ı və müqavilədəki digər anlayışların koordinatları və konturlarının yenidən müəyyən edilməsi ehtiyacını yaradacaqdır.

Məlumat üçün qeyd edək ki, məhz 2018-ci ildə imzalanmış Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyada nəzərdə tutulur ki, dövlət dəniz sərhəddinin başlanğıc nöqtəsinin müəyyənedilmə üsulu ayrıca müqavilə ilə tənzimlənən ilkin düz xətlərdir. Buna görə də, xəritəçəkmə üçün sahil və ya adalardakı ilkin nöqtələrin koordinatlarını birləşdirərək müəyyən etmək lazımdır ki, "düz çıxış xəttləri"alınsın. Bu mənada, başlanğıc nöqtələr elə seçilməlidir ki, dəniz səviyyəsinin qalxması/enməsi Xəzər dənizinin bölünməsinə dair ikitərəfli və çoxtərəfli sazişlərə yenidən baxılması zərurətini yaratmasın. Məsələn, Qazaxıstan Respublikası artıq 2017-ci ildə hökumətin müvafiq fərmanında təsbit edilmiş baza səviyyələrinin (düz çıxış xəttlərinin) müəyyən edilməsi metodologiyasına dair qərar qəbul etmişdir. Lakin, digər dörd ölkə (Azərbaycan, İran, Rusiya və Türkmənistan), hələ ki, baza səviyyələrinin müəyyən edilməsi metodologiyasına dair müvafiq qərar qəbul etməmişlər. Beləliklə də, Xəzər "beşliyi" dövlətlər hələ də bu məsələni de-yure həll etməmişlər. Xəzərin statusunun müəyyən edilməsi məsələsində olduğu kimi, bu problemin həlli də ciddi səylər tələb edəcəkdir. Nəticə etibarilə, bu kimi məsələlərin vaxtında həlli, o cümlədən iqlim dəyişmələrinin Xəzərin səviyyəsinə mümkün gələcək təsirlərinin nəzərə alınması, sahilyanı dövlətlər arasında qarşılıqlı etimadsizlıq, diplomatik qarşıdurma və hətta mümkün silahlı münaqişələrin indidən neytrallaşdıra bilər.

Bununla yanaşı, Xəzərdə olan zəngin karbohidrogen yataqlarının bir sıra hallarda milli sektorların kəsişməsi zonalarında yerləşməsi ilə bağlı (məsələn, Azərbaycan və Türkmənistanın misalında [50]), sahil xətlərinin qeyd olunan sürüşmələri milli sektorların yenidən müəyyən edilməsi məsələlərini aktuallaşdıra bilər və bu da sahilyanı dövlətlər arasında yuxarıda təsvir edilən gərginliklər yarada bilər. Xüsusən də, Xəzər dənizi hövzəsində öz siyasi təsir dairəsini genişləndirməyə səy göstərən regional və qlobal geo-siyasi oyunçular tərəfindən regional sabitliyin pozulması üçün bu məsələlərdən sui-istifadə edilə bilər.

Bu kimi məsələlərin həlli, yəni adı çəkilən konvensiyanın da bir növ iqlim dəyişmələrinin təsirlərinə "uyğunlaşdırılması" bölgənin ümumi siyasi təhlükəsizlik sistemi üçün böyük əhəmiyyət kəsb edir. Bu məntiqi nəticə siyasi və ekoloji təhlükəsizlik sistemlərinə olan risklər arasında yaxın korrelyasiyanın mövcud olmasını bir daha sübut edir. Qlobal iqlim dəyişmələrinin neqativ təsirlərinin intensivləşməsi ilə bağlı, növbəti onilliklərdə qeyd olunan korrelyasiya özünü daha da aşkar göstərəcəkdir.

Bundan əlavə, bir sıra hallarda iqlim dəyişmələrinin təsirləri ilə yaranan reallıqlar müəyyən bölgələrədəki ölkələr, habelə maraqlı geo-strateji oyunçular üçün geostrateji və iqtisadi üstünlüklər əldə etmək baxımdan müəyyən yeni imkanlar da aça bilər və bu da bölgədə rəqabət aparan dövlətlər, qlobal siyasi oyunçular arasında mövcud siyasi və digər gərginlikləri artıra bilər. Belə ki, məsələn, qlobal istiləşmə nəticəsində Arktikanın qütb buz örtüyünün əriməsi məsələsi təkcə Şimal-Şərq keçidi boyunca bütün il boyu loqistik marşrutlar üzrə daşınmalar baxımdan yeni iqtisadi imkanlar təmin etməyir, o həm də bu bölgədə ərazilərə nəzarət məsələsinin strateji əhəmiyyətini artırır və ən əsası isə regionda marağı olan əsas geo-siyasi oyunçular, ayrı-ayrı ölkələr arasında zəngin resurslara olan rəqabəti intensivləşdirir [33]. Bu proses yaxın perspektivdə regiondakı ölkələr, xüsusən də əsas geo-siyasi aktorlar (Rusiya, ABŞ, Aİ, Çin) arasında yeni siyasi və hərbi qarşıdurmaların yaranmasına gətirib çıxara bilər. Qeyd edək ki, [33] monoqrafiyasında ekoloji risk qismində qlobal istiləşmənin nəticəsi kimi Arktikanın qütb buz örtüyünün əriməsinin ümumən regional təhlükəsizlik sistemində və ümumən beynəlxalq münasibətlərdə yaratdığı reallıqlar müfəssəl

tədqiq edilmişdir. Monoqrafiyada belə bir nəticəyə gəlinmişdir ki, region ölkələrinin və qlobal oyunçuların buz örtüyünün əriməsi nəticəsində bölgədə meydana gəlmiş loqistik marşrut imkanları, ərazi nəzarəti, resurs rəqabəti məsələlərinə münasibətləri bu dövlətlərin innovativ inkişaf yolu və ya resurslardan asılı, yəni ekstensiv inkişaf yolu tutmasından birbaşa asılı olaraq, diametral fərqlidir. Belə ki, resurs tutumlu inkişaf yolu seçmiş dövlətlər, texnologiya tutumlu dövlətlərdən fərqli olaraq, iqlim dəyişmələri və texnoloji innovasiyaların yaratdığı bu kimi resurs rəqabəti zamanı beynəlxalq münaqişələrə daha çox meylli olacaqlar. Bununla əlaqədar, fikrimizcə, yaxın gələcəkdə, yerin təkindəki faydalı qazıntıları müəyyən etmək üçün daha innovativ texnologiyalar kəşf edildikcə, habelə iqlim dəyişmələrinin artan təsirləri nəticəsində buz örtüyününü əriməsi ilə yeni iqtisadi imkanlar açıldıqca, bölgədə təbii resurs tutumlu iqtisadi inkişaf yolunu tutmuş dövlətlərın iştirakı ilə diplomatik və silahlı münaqişələrin yaranma ehtimalı xeyli artacaqdır.

Qeyd olunmalıdır ki, bəzi hallarda ekoloji təhlükəsizlik sisteminə yönələn risklər, o cümlədən ekoloji deqradasiya, iqlim dəyişmələrinin nəticələri ilə yanaşı, hökumət və ya yerli icra hakimiyyəti orqanları tərəfindən bu risklərə qarşı mübarizə tədbirləri (məsələn, uyğunlaşma (adaptasiya) və mitiqasiya tədbirləri) bölgənin yerli sosial-iqtisadi və humanitar şəraiti, spesifik özəllikləri nəzərə alınmadan, inklüzivlik, ədalətlilik prinsiplərinə əməl edilmədən həyata keçirildikdə lokal və hətta beynəlxalq münaqişə risklərini artıra bilər. Belə ki, məsələn, [2] məqaləsində 2012-ci ildə Tanzaniyada "yaşıl iqtisadiyyat"a keçid tədbirləri zamanı ölkənin əsas maldarlıq bölgələrindən biri hesab olunan Kilombero vadisindən yerli xırda maldarların zor gücünə başqa bölgələrə köçürülməsi prosesinin yaratdığı ağır nəticələr barədə bəhs edilir. Belə ki, "yaşıllaşdırmaya yatırım" şüarı ilə xırda maldarların ölkənin müxtəlif bölgələrinə səpələnməsi və bir müddət sonra yerli siyasi elita tərəfindən adı çəkilən vadinin, faktiki olaraq, ələ keçirilməsi nəticəsində həm bu bölgədə, həm də digər müxtəlif yerlərdə sosial narazılıq dalğası və münaqişələr baş vermişdir. Maraqlıdır ki, hələ 2012-ci ilin iyun ayında Braziliyada keçirilmiş mötəbər "Rio+20" Konfransında çıxış etmiş Tanzaniyanın Ətraf Mühit naziri, xanım Tereza Xuvisa Tanzaniyanın (SAGKOT) Kənd Təsərrüfatının Artımı Cənub Dəhlizi layihəsi barədə məlumat vermiş və layihəni kənd təsərrüfatına, yerli infrastrukturun inkişafına, istehsal-satış zəncirinin yaranmasına və ekosistem xidmətlərinin və bütövlükdə təbii kapitalın mühafizəsi ilə birlikdə insan kapitalının inkişafına təkan verən "investisiya planı" kimi təqdim etmişdir. Lakin layihənin icraatında yerli maldarların hüquqları tamamilə pozulmuş, onlar polis orqanları tərəfindən zor gücünə digər bölgələrə köçürülmüş, "iqtisadiyyatın yaşıllaşdırılması" prosesi kimi təqdim olunan layihə isə faktiki iqtisadi tənəzzül və sosial narasızıqlarla nəticələnmişdir. Bu misal bir daha göstərir ki, ətraf mühit riskləri ilə yanaşı, ona qarşı cavab tədbirlərinin də dövlətin siyasi stabilliyinə, təhlükəsizliyinə risk yaratmaması üçün bu kimi layihələrin nəinki ətraf mühitə təsirləri, o cümlədən sosial sferaya və ümumilikdə dayanıqlı inkişaf məqsədlərinin reallaşdırılmasına təsirləri əvvəlcədən təhlil edilməli və uzun müddət üçün modelləşdirilməlidir.

Yuxarıda qeyd olunan misallardan aydın göründüyü kimi, iqlim risklərini azaltmaq və ya aradan qaldırmaq üçün müvafiq tədbirləri əvvəlcədən işləyib hazırlamaq üçün ilk növbədə yuxarıda bəhs olunan İqlim Münaqişələrinə qarşı Zəiflik İndeksini, o cümlədən Təhlükəsizliyin İqlim Həssaslığı İndeksini düzgün müəyyən etmək və gələcək illər üçün proqnozlaşdırmaq olduqca vacib məsələdir.

Qeyd edək ki, hazırda Afrika və Asiyadakı ölkələrin əksəriyyətində torpaqdan istifadə ilə bağlı fəaliyyətlər zamanı meydana gələn lokal, etnik və beynəlxalq münaqişələrin böyük əksəriyyəti əsasən təbii ehtiyatların çatışmazlığı və ətraf mühitin deqradasiyası ilə məsələləri ilə əlaqədardir. [17], [18]. Bu mənada, Tanzaniyada 2012-ci ildə baş vermiş yuxarıda qeyd olunan hadisənin misalında, hökumət guya Dayanıqlı İnkişaf Məqsədlərindən birinə və ya bir neçəsinə (DİM 13, DİM 15) nail olunması istiqamətində ədalətsiz, qeyri-inklüziv idarəçilik metodlarından istifadə etmiş, buna görə də digər DİM-lərin implementasiyasın-

dan tamamilə uzaqlaşma baş vermiş və nəticədə lokal münaqişə yaranmışdır. Faktiki olaraq, münbit torpaqların ələ keçirilməsi üzrə öz məkirli planlarının icrası üçün resurs qıtlığı faktorunun "qanuni əsaslandırılması" üsulundan istifadə edilməsi müşahidə olunmuşdur. Göstərilən misal, iqlim dəyişmələri, ekoloji deqradasiya ilə mübarizə və yaşıl iqtisadiyyata keçid, ümumən iqlim dayanıqlığı və karbonsuzlaşma siyasətlərinin icrası zamanı ədalətli, inklüziv idarəçiliyin təmin edilməsi məsələsinin, habelə bölgənin iqlim risklərinin siyasi təhlükəsizlik sisteminə birbaşa və ya dolayısı ilə təsirlərinin nəzərə alınmasının önəmini nümayiş etdirmişdir. Məhz kiçik etnik, lokal qarşıdurmaların regiondakı maraqlı geosiyasi qüvvələr tərəfindən asanlıqla beynəlxalq münaqişələrə çevrilə bilməsi faktoru da daim nəzarətdə saxlanılmalıdır.

Ümumən isə, UNFCCC-nin müvafiq hesabatlarında iqlim cəhətdən dayanıqlı iqtisadiyyata ədalətli keçid (fair transition) üzrə verilmiş tərifə görə, ədalətli keçid iqtisadiyyatın və iqtisadi sistemin bütün maraqlı tərəflər üçün mümkün qədər ədalətli və inklüziv olması, layiqli iş imkanlarının "heç kimin kənarda qalmaması" prinsipi əsasında təmini deməkdir.

Bu mənada, iqlim cəhətdən dayanıqlı iqtisadiyyata ədalətli keçid üzrə ən yaxşı təcrübələr barədə UNFCCC-nin Cavab Tədbirlərinin İmplementasiyasının Təsirləri üzrə Ekspertlərin Katovitse Komitəsi (Katowice Committee of Experts on Impact of Implementation of Response Measures (KCI)) tərəfindən 23 aprel 2023-cü il tarixində nəşr edilmiş son hesabatda geniş bəhs edilmişdir. Təsadüfi deyildir ki, həmin hesabatın 51-ci səhifəsində ədalətli keçid üzrə əsas çağırışlar bölməsində silahlı münaqişələr və siyasi böhranlar məsələsinə xüsusi önəm verilmişdir [64].

Beləliklə, Paris Sazişi və UNFCCC-nin tərəflərinin illik toplantılarının (COP) qərarlarında vurğulandığı kimi, iqlim dəyişmələri ilə mübarizə tədbirləri sırasında cavab tədbirləri qismində uyğunlaşma (adaptasiya) və mitiqasiya tədbirlərinin hazırlanması və icrası zamanı, o cümlədən ədalətli keçid zamanı inklüzivliyin təmini, bütün dayanıqlı inkişaf məqsədlərinə nail olunmasına səy göstərilməsi, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi, innovativ idarəçilik və digər texnologiyaların istifadəsi kimi məsələlərin nəzərə alınması böyük əhəmiyyət daşıyır. Belə ki, bu məsələlər nəzərə alınmadığı təqdirdə, ölkənin və ya regionun siyasi təhlükəsizlik sisteminə, siyasi sabitliyinə ciddi təhlükələr meydana gələ bilər. Bu mənada, akademik Urxan Ələkbərovun [1] kitabında bəhs edilən innovativ idarəçilik texnologiyalarından (sinergetik, komplementar, komlimentar və kompensasion texnologiyalar) dövlət-özəl tərəfdaşlığı, korporativ sosial məsuliyyət və digər formatlarda uğurla tətbiq edilə bilər. Məhz bu texnologiyalardan istifadə etməklə iqlim cəhətdən dayanıqlı iqtisadiyyata ədalətli keçid yalnız və yalnız bütün maraqlı tərəflərin, o cümlədən, özəl sektorun, vətəndaş cəmiyyəti institutlarının, akademik dairələrin cəlb edilməsi, habelə gender bərabərliyi və regional balans şərtilə həyata keçirilməlidir.

Qeyd olunduğu kimi, iqlim cəhətdən dayanıqlı iqtisadiyyata keçid zamanı yuxarıda bəhs edilən İqlim Münaqişələrinə Zəiflik İndeksinin hesablanması ilə yanaşı, orta və uzun müddətə müvafiq parametrlərin hesablanması, proqnozlaşdırılması, iqlim münaqişələrinin simulyasiyası və modelləşdirilməsi məsələləri hazırda elmi və praktik cəhətdən böyük əhəmiyyət kəsb edir.

Yuxarıda tərəfimizdən vurğulandığı kimi, iqlim dəyişmələrinin neqativ təsirlərinin intensivləşməsi yeni diplomatik qarşıdurmaların, münaqişələrin yaranmasına və ya "dondurulmuş", habelə davam edən münaqişələrin silahlı qarşıdurmaya keçməsinə, yəni bu proseslərin militarizasiyasına "münbit şərait" yarada bilər və bu mövzu ilə əlaqədar elmi ədəbiyyatda bir sıra maraqlı araşdırmalar mövcuddur. Bunlardan birində, [36] məqaləsində iqlim təhlükəsizliyinin bir qədər az öyrənilmiş dövlətlərarası ölçüsü barədə konkret misallarla bəhs edilmişdir

Qeyd edək ki, indiyədək mövzuya aid məqalələrin əksəriyyətində [3], [8], [37] əsasən transsərhəd su hövzələrinin istifadəsi və ehtiyatların paylanılması məsələləri dövlətlər arasında mövcud qarşıdurmaların yaranması və ya onların militarizasiyası riskini artıran faktor kimi nəzərdən keçirilmişdir. Bu mənada, yuxarıda

xüsusi qeyd edildiyi kimi, Cənubi Qafqazda da transsərhəd su hövzələrinin istifadəsi və ehtiyatların paylanılması məsələsi iqlim dəyişmələrinin getdikcə dərinləşən neqativ təsirləri fonunda yeni regional təhlükəsizlik riskləri formalaşdıra bilər.

Bununla yanaşı, [36] məqaləsində iqlim dəyişmələri proseslərinin yaratdığı ekstremal iqlim hadisələrinin (daşqın, quraqlıq, sel, torpaq sürüşmələri və s.) ölkələr arasında ərazi, dəniz və su hövzələrinə aid rayonlarına dair qarşılıqlı diplomatik iddiaları intensivləşdirə bilməsi barədə söz açılır. Belə ki, ekstremal iqlim hadislərinin meydana gətirdiyi qeyri-müəyyənliklər hər hansı regiondakı ölkələr arasında əvvəlki dövrdən mövcud mübahisəli resurslara (məsələn, suyun miqdarı/keyfiyyəti, balıq ehtiyatları, kənd təsərrüfatı cəhətdən yararlı torpaqlar və s.) nəzarət məsələsində diplomatik qarşıdurmanı dərinləşə bilər. Bu baxımdan, bəhs olunan məqalədə iqlim dəyişmələrinin neqativ təsirlərinin yeni dövlətlərarası diplomatik qarşıdurmaların yaranması və ya mövcud olanların militarizasiyasına keçməsi şəraiti araşdırılmışdır. Burada iqlim hadisələri qismində iqlim normasından kənarlaşmalar (məsələn, quraqlıq/daşqın, istilik dalğaları/soyuq dövrlər) və iqlimin qeyri-sabitliyi (yağış/temperaturun qısamüddətli olmaqla böyük dispersiyası) kimi anlayışlar vasitəsilə, empirik ölçmə üsulu ilə diplomatik qarşıdurmaların yaranması araşdırılmışdır. Məqalədə, məsələn, Boliviya və Çili arasında Mauri, Lauka və Silala çayları ilə bağlı diplomatik münaqişənin dinamikası təhlil edilmiş və iqlim dəyişmələrinin təzahürü kimi uzunmüddətli yağışlar nəticəsində bu iki dövlət arasında diplomatik qarşıdurmanın gərginləşməsi və militarizasiyası şəraiti təhlil edilmişdir. Belə ki, Boliviyanın Atakama səhrası üzərində suverenlik iddialarına qarşı Çili 1848-ci ildən etibarən etiraz etmiş, eyni zamanda, dənizə çıxış yolu axtarması səbəbindən Boliviya 1884-ci ildən etibarən bu rayon üzərində Çilinin ərazi nəzarətinə etiraz etmişdir. Nəticə etibarilə, 1879–1884-cü illərdə baş vermiş Sakit Okean müharibəsində Çili Boliviya və Peruya qarşı uğurlu hərbi əməliyyatlar keçirərək qeyd olunan mübahisəli əraziyə nəzarəti tam ələ keçirmişdir. Bir qədər sonra isə, Boliviya Çilinin Antofaqast limanı üzərində nəzarətinə etiraz edərək onun dənizə girişini kəsmişdi. Bu proseslərin davamı olaraq, iqlim dəyişmələrinin təzahürü kimi yağıntıların iqlim normasından kənarlaşmalarının diplomatik qarşıdurmanın başlanmasına necə təsir göstərməsi məqalədə təhlil edilir. Belə ki, bu ölkələrdə 1910–1940-cı illər üzrə yağıntıların normadan kənarlaşmaları və ölkələrin birində digərindən daha az yağıntıların baş verməsi onların arasındakı diplomatik qarşıdurmanı kəskinləşdirmişdir. Konkret olaraq, Çilinin yerli şirkətlərdən biri ilə müqavilə bağlayaraq, irriqasiya məqsədilə Mauri çayından su çıxarmaq qərarına Boliviya etiraz edərək, 1921-ci ildə Çiliyə qarşı diplomatik iddialar irəli sürmüşdür. 18 il sonra isə Boliviya qonşu Çilinin bu dəfə Lauka çayından Rio-Azapa vadisinə su çəkmək qərarına kəskin etiraz etmişdir. Hər iki iddianın əsasında isə Çilidən fərqli olaraq, Boliviyada yağıntının xeyli azalması ilə bağlı su təchizatında meydana gəlmiş çatışmazlıqlar olmuşdur. Növbəti mərhələdə, yəni 1962-ci ildə isə Boliviya Çili ilə diplomatik əlaqələrini kəsmiş və Amerika Dövlətləri Təşkilatına müraciət edərək məsələyə müdaxilə etməsini rəsmən xahiş etmişdir. İqlim dəyişmələrinin təsiri ilə tədricən su ehtiyatlarının azalması məsələsi Boliviyanın milli təhlükəsizlik məsələsinə çevrilmiş, bu da, faktiki olaraq, diplomatik qarşıdurmanın silahlı münaqişə fazasına keçməsinə təkan vermişdir. Burada iqlim dəyişmələrinin təzahürü kimi yağıntı miqdarının önəmli dərəcədə azalmasının ölkədə su ehtiyatlarının kəskin azalması ilə bağlı insan kapitalı və kənd təsərrüfatının dayanıqlı inkişafı üçün əngəl yaratması müvafiq silahlı qarşıdurmaya səbəb olmuşdur. Məqalədə belə bir nəticəyə gəlinmişdir ki, qərb yarımkürəsində və Avropada iqlim normasından xeyli kənarlaşmalar və iqlimin kəskin qeyri-sabitliyi, faktiki olaraq, yeni diplomatik münaqişələr risklərini və xüsusən də revanşist siyasət yürüdən dövlətlərin iştirakı ilə hərbi münaqişələrin başvermə riskini artıra bilər.

Eyni zamanda, transsərhəd çayları ilə bağlı qarşıdurmalara aid yuxarıda qeyd olunan çoxsaylı mənbələrdə iqlim dəyişmələrinin quru və dəniz sərhədləri ilə əlaqədar olan qarşıdurma-

lara da təsirləri nəzərdən keçirilir. Qeyd edək ki, quru sərhədlərinin iqlim dəyişmələrinin təsiri ilə deformasiyaya məruz qalması ümumən müvafiq ölkələr üçün potensial təhlükə kimi daim diqqətdə saxlanılmalıdır. Eyni zamanda, bu kimi qarşıdurmalarda "iddiaçı" (yəni, "status quo"-nu dəyişməyə çalışan) və "hədəf" ("status quo"-nu saxlamağa çalışan) dövlətlərin davranış xətləri diqqətlə araşdırılmalı və iqlim dəyişmələri ilə bağlı məsələlərin iddiaçıların revanşist davranışına nə kimi təsir göstərməsi diqqətlə təhlil edilməlidir. Belə hallarda iddiaçılar tərəfindən iqlim dəyişmələrinin bəhanə kimi istifadə edilməsi məsələsi də istisna edilməməlidir. Bu məsələ hazırda Cənubi Qafqazda əsas revanşist ölkə kimi tanınan Ermənistanının iştirakı ilə meydana gələ bilən yeni regional münaqişə ocaqlarının qarşısının vaxtında alınması baxımdan böyük əhəmiyyət kəsb edir. Müvafiq beynəlxalq təşkilatlar bu amili daim diqqət dairəsində saxlamalı və bədxah qonşumuzun gələcəkdə hər hansı iqlim münaqişəsi yaratma imkanlarını neytrallaşdırmaq üçün diplomatik vasitələrlə preventiv tədbirlər görməlidirlər.

Maraqlıdır ki, [36]-da digər maraqlı nəticə ondan ibarətdir ki, iqlim dəyişmələrinin təsiri əsasında meydana gələn dövlətlərarası münaqişələr, bir qayda olaraq, yağıntı və temperaturun qeyri-sabitliyinə məhz uzun müddət məruz qalmış qonşu ölkələr arasında baş verir [8]. Yəni, qısa müddətli qeyri-sabit iqlim təzahürləri, bir qayda olaraq, daxili münaqişələrə səbəb olur.

Eyni zamanda, iqlim münaqişələrinə dair ədəbiyyatın təhlili göstərir ki, bu kimi münaqişələrə gətirib çıxaran səbəblər müxtəlifdir, lakin əsas səbəblər sırasında üç məsələ xüsusi yer tutur: kənd təsərrüfatının məhsuldarlığı, mövsümiliyi və su resurslarının çatışmazlığı. Belə ki, bir çox hallarda, iqlim dəyişmələrinin mənfi təsiri ilə kənd təsərrüfatı istehsalında baş verən problemlər, risklər, bəzi dövlətləri (əsasən Afrika, Şərqi-Asiya və s.) öz ərazilərindən kənarda əlavə torpaq və resurs axtarmağa sövq edir və bu da qonşu ölkələr arasında yeni münaqişə ocaqlarının yaranmasına səbəb olur. Məsələn, iqlim dəyişmələrinin təsiri ilə quraqlıq, daşqın və s. nəticəsində əkin sahələrinin yararsız hala gəlməsi, habelə səhralaşma prosesi ilə bağlı bir sıra Afrika, Şərqi-Asiya ölkələrindəki (məsələn, Keniya, Efiopiya, Sudan, Somali) fermerlərlə qonşu ölkələrin fermer icmaları arasında dəfələrlə şiddətli qarşıdurmalar baş vermişdir.

Beləliklə, iqlim dəyişmələrinin getdikcə artan neqativ təsirləri, xüsusən qeyri-sabit iqlim şəraiti, quraqlıq, intensiv və qeyri-bərabər yağıntı və digər hallar mövcud təbii resursların, o cümlədən şirin su, torpaq ehtiyatları və digər strateji əhəmiyyətli ehtiyatların təmini məsələlərində problemlər yarada bilər. Bu da gələcəkdə, yuxarıda bəhs edilən misallarda göstərildiyi kimi, yeni diplomatik qarşıdurmaların, hətta silahlı münaqişələrin artmasına səbəb ola bilər [18]. Bu mənada, yaxın perspektivdə çay hövzələrində su çatışmazlığı səbəbindən iqlim münaqişələrinin sayının artacağı da daha çox ehtimal olunur [3]. Belə ki, iqlim dəyişmələri dövlətlərin müvafiq çay müqavilələrinin şərtlərini yerinə yetirə bilməsini daha da çətinləşdirir [9].

Maraqlıdır ki, iqlim dəyişmələri və onun səbəb olduğu təhlükəsizlik riskləri arasındakı korrelyasiya, yəni empirik və nəzəri əlaqələr hazırda elmi ədəbiyyatda daha çox daxili, lokal münaqişələr kontekstində araşdırılır, iqlim amillərinin beynəlxalq münaqişələr yaratma şəraiti haqqında araşdırmalar, hələ ki, çox azdır. Bu baxımdan qlobal və regional miqyasda ekoloji və siyasi təhlükəsizlik sistemlərinə olan riskləri aradan qaldırmaq və ya azaltmaq üçün bu risklər arasında yeni, daha dəqiq səbəb-nəticə əlaqələrini müəyyən edən və onların proqnozlaşdırılmasına imkan verən tədqiqatların aparılması böyük əhəmiyyət kəsb edir. Bu mənada yuxarıda bəhs olunan iqlim münaqişələrinə zəiflik indeksinin və digər metrik alətlərin işlənib hazırlanması və iqlim münaqişələrinə həssas ölkələr üçün hesablanması, müvafiq proqnoz təhlillərin aparılması nəzəri və praktiki anlamda olduqca perspektiv tədqiqat istiqamətləridir.

**Ədəbiyyat:**

1. Ələkbərov U., Inklüziv inkişafın idarə edilməsinin əsasları, Ali Məktəblər üçün dərslik. Bakı, "Təhsil" nəşriyyatı, 2018, 216 s.
2. Bergius, Mikael; Tor A Benjaminsen, Faustin Maganga & Halvard Buhaug (2020) Green economy, degradation narratives, and land-use conflicts in Tanzania. World Development 129(May): 104850.
3. Brochmann & Hensel, 2009.
4. Bulloch and A. Darwish, Water Wars: Coming Conflict in the Middle East (London: Victor Gollancz, 1993).
5. Buzan, Barry (1991) P eople, states, and fear: an agenda for international security studies in the post-Cold War era (New York: Harvester Wheatsheaf), p.19-20.
6. Carson, R. Silent Spring; Fawcett Publications: Robbinsdale, MN, USA, 1962, Hardin, G. The Tragedy of the Commons. Sci. New Ser. 1968, 162, 1243–1248
7. Deudney D., 'Environmental Security: Muddled Thinking', Bulletin of The Atomic Scientists, 47: 3 (April 1991), pp. 22–8.
8. Devlin & Hendrix, 2014
9. De Stefano et al., 2012
10. Dinar, Shlomi; David Katz, Lucia De Stefano & Brian Blankespoor, Climate change, conflict, and cooperation, Global analysis of the effectiveness of international river treaties in addressing water variability. Political Geography, 2015, 45(March): 55–66.
11. Dyer H. Environmental security and international relations: the case for enclosure. Review of International Studies. 27(3), pp. 441-450, 2001.
12. Dyer H., 'Environmental Security as a Universal Value: Implications for International Theory', in J. Vogler and M. Imber (eds.), The Environment and International Relations (London: Routledge, 1996).
13. Dyer H., 'International Theory and Environmental Security: Values, Interests and Agency', Environment and Security, 1:3 (1998), pp. 133–53.
14. Dell'Anna F., Energy Policy, 149, 112031 (2021).
15. Gleditsch, Nils Petter. Whither the weather? Climate change and conflict. Journal of Peace Research, 2012, 49(1): 3–9.
16. Gleick P., 'Water and Conflict: Fresh Water Resources and International Security', International Security, 18:1 (1993).
17. Homer-Dixon, Thomas (1991) 'On the threshold: environmental changes as causes of conflict', International Security, 16:2, 76 – 116.
18. Homer-Dixon, 1991; Hendrix & Glaser, 2007; Raleigh & Urdal, 2007.
19. Humbatov F., "Environmental and regional security issues in the South Caucasus", "İnsan və biosfer" (MaB, UNESCO) Azərbaycan milli komitəsinin əsərləri. Bakı, "Təhsil", 2021, 352 s., s.197-214.
20. Humbatov F., Environmental crimes of Armenia against the Republic of Azerbaijan, South Caucasia in the context of social, economic and political progress in the post-cold war era, Turkey, Iksad Publications- 2021, , p.354, chapter VII, pp. 231-264.
21. Humbatov F., Low emission development outlook and its role in the environmental security system of the Republic of Azerbaijan", Baku, "Tuna"PPC LLC, 256 p.
22. Hümbətov F., Beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik sisteminə real təhdid kimi qlobal iqlim dəyişmələri ilə mübarizə məsələləri // Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə. Elmi-nəzəri jurnal, 2021, №3(75), səh.159-176.
23. Hümbətov F., Müasir beynəlxalq münasibətlərdə enerji diplomatiyası. Bakı, 2018, 356 s.
24. Hümbətov F., Beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik məsələləri və müasir çağırışlari, Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə" elmi-nəzəri jurnal, 2022,№(80), səh.177-188.
25. Humbatov F., Low emission development prospective of the Republic of Azerbaijan and regional environmental security challenges". Public Administration: theory

and practice. Scientific and theoretical journal. 2023, №1(81), Baku, Publication of Academy Public Administration under the President of the Republic of Azerbaijan, pp.213-230.
26. Kahl, Colin H (1998), Population growth, environmental degradation, and state-sponsored violence: The case in Kenya, 1991-1993. International Security 23(2), 80-119
27. Koren, Ore. Food abundance and violent conflict in Africa. American Journal of Agricultural Economics, 2018, 100(4): 981–1006.
28. Kumar R., Strategic Analysis, 44(5), 479-489 (2020)
29. Lacy, Mark (2005) Security and climate change: international relations and the limits of realism (London: Routledge)
30. Lietzmann and Vest 1999.
31. Lowi M., 'Transboundary Resource Disputes and Their Resolution', in D. Deudney and R. Matthew (eds.), Contested Ground: Security and Conflict in the New Environmental Politics (New York, NY: SUNY Press, 1998).
32. Malthus, T. An Essay on the Principle of Population; Palgrave Macmillan: London, UK, 1798
33. Markowitz, Jonathan N (2020) Perils of Plenty: Arctic Resource, Competition and the Return of the Great Game. Oxford: Oxford University Press
34. Nina von Uexkull, Halvard Buhaug. Security implications of climate change: A decade of scientific progress, Journal of Peace Research, 2021 Vol. 58(1): 3–17)
35. Pirages D., 'Environmental Security and Social Evolution', International Studies Notes, 16:1 (1991), p. 8.
36. Schmidt, Cody J; Bomi K Lee & Sara McLaughlin Mitchell, Climate bones of contention: How climate variability influences territorial, maritime, and river interstate conflicts. Journal of Peace Research, 2021, 58(1), pp. 132–150.
37. Toset, Gleditsch & Hegre, 2000; Hensel, Mitchell & Sowers, 2006; Brochmann & Hensel, 2009; Brochmann & Gleditsch, 2012; Devlin & Hendrix, 2014
38. Trombetta Maria Julia (2008) Environmental security and climate change: analysing the discourse, Cambridge Review of International Affairs, 21:4, 585-602, DOI: 10.1080/09557570802452920
39. Ullman, R.H. Redefining Security. Int. Secur. 1983, 8, 129–153.
40. Homer-Dixon, Thomas (1991) 'On the threshold: environmental changes as causes of conflict', International Security, 16:2, 76 – 116
41. UNHCR Announcement, 23, 2023
42. United Nations Environment Programme. 2016. Environmental Cooperation for Peacebuilding Programme. Final Report and D. E. Jensen, personal communication, April 10, 2018
43. Waever, Ole (1995) 'Securitization and desecuritization' in Ronnie Lipschutz (ed) On security (New York: Columbia University Press), p. 46–86.
44. Walker R.B.L., 'Security, Sovereignty and the Challenge of World Politics', Alternatives, 15:1 (1990), p. 8
45. Wischnath Gerdis, Halvard Buhaug, Rice or riots:On food profuction and conflict severity accross India. 2014, Political Geograpgy 43, p.6-14
46. Кукушкина А.В. Международно-правовые аспекты экологической безопасности // Московский журнал международного права. 1993. № 2. С. 59.
47. Рыженков А.Я. Экологический терроризм как глобальная проблема современности // Правовая парадигма. 2017.Т. 16. № 2. С. 479–483
48. https://apps.ipcc.ch/comments/ar6syr/fgd/chapters.php
49. https://www.azerbaijan-news.az/az/posts/detail/rauf-haciyev-esrin-sonunadek-xezer-denizinin-seviyyesi-9-ve-ya-18-metr-ene-biler-1640260642
50. https://www.dur.ac.uk/resources/ibru/publications/full/bsb5-4_harris.pdf
51. https://www.ebrd.com/news/2020/georgia-joins-the-race-to-produce-green-hydrogen.html

52. https://ehs.unu.edu/news/news/5-facts-on-climate-migrants.html#:~:text=Fact%201%3A%20Climate%20migrants*%20are,are%20not%20legally%20considered%20refugees
53. https://fed.az/az/dovlet/kur-cayinin-qurumasinin-qarsisini-almaq-ucun-hokumetden-serencam-126999
54. https://hydrogeneurope.eu/project-pipeline- of-the-european-clean-hydrogen-alliance
55. https://www.itu.int/online/mm/scripts/gensel38
56. https://www.kavkaz-uzel.eu/articles/ 364029
57. https://minenergy.gov.az/en/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade
58. http://www.nato.int/ccms/pilot.htm
59. https://e-qanun.az/framework/41551
60. https://sputnik.az/20230810/xezerin-seviyyesinin-real-azalmasina-qeyri-iqlim-amiller-de-tasir-edir---nazir-muavini---457603411.html
61. https://treaties.un.org/doc/treaties/1992/03/19920317%2005-46%20am/ch_xxvii_05p.pdf
62. https://www.osce.org/oceea/446245
63. https://www.un.org/ohrls/content/list-ldcs
64. https://www.uncclearn.org/wp-content/uploads/library/idb01062016_vulnerability-indicators-of-adaptation-to-climate-change-and-policy-implications-for-investment-projects.pdf
65. https://unfccc.int/documents/624596
66. https://unfccc.int/documents/299472
67. https://www.unhcr.org/media/climate-change-displacement-and-human-rights
68. https://www.un.org/ohrls/content/list-ldcs
69. http://www.publichealthnewswire.org/?p=climate-update-2021
70. https://president.az/az/articles/view/58996
71. Climate Change 2023, Synthesis Report
72. https://unfccc.int/files/adaptation/methodologies_for/vulnerability_and_adaptation/application/pdf/vulnerability_indices.pdf
73. https://www.undp.org/sites/g/files/zskgke3 26/files/2023-03/Climate%20Vulnerability%20Index%20Book.pdf
74. https://climate.copernicus.eu/copernicus-2023-hottest-year-record#:~:text=Global%20surface%20air%20temperature%20highlights%3A&text=2023%20marks%20the%20first%20time,than%202%C2%B0C%20warmer
75. https://ecdpm.org/work/addressing-military-carbon-footprint-cop28#:~:text=This%20points%20to%20a%20major,data%20from%202017%2D2020).
76. https://www.undrr.org/news/cop28-ends-progress-loss-and-damage-santiago-network-and-transition-away-fossil-fuels#:~:text=It%20aims%20to%20support%20developing,to%20address%20climate%20risks%20comprehensively.
77. https://corporatefinanceinstitute.com/resources/economics/gini-coefficient/
78.https://www4.unfccc.int/sites/NAPC/Country%20Documents/General/apf%20technical%20paper04.pdf
79. https://www.adaptation-fund.org/document/addressing-climate-change-adaptation-in-fragile-settings-and-conflict-affected-countries-lessons-learned-from-the-adaptation-funds-portfolio/

***Açar sözlər:*** *təhlükəsizlik, ekoloji təhlükəsizlik, beynəlxalq münasibətlər, dayanıqlı inkişaf, iqlim dəyişmələri, istixana qazları, adaptasiya, mitiqasiya tədbirləri, iqlim münaqişələri, İqlim Münaqişələrinə qarşı Zəiflik, Təhlükəsizliyin (geniş mənada) İqlim Həssaslığı İndeksi, İqlim Münaqişələrinin Qarşısıalınma Qabiliyyəti*

**Fuad Humbatov**

*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Department of Planning and Management of Sustainable Development*
*Post-doctoral Researcher of the Political Science Program*
*at Baku State University, Associate Professor, Ph.D.*

# THE CORRELATION BETWEEN ENVIRONMENTAL AND POLITICAL SECURITY RISKS AND THE ROLE OF INTERNATIONAL COOPERATION IN THEIR PREVENTION

## ABSTRACT

The paper investigates the negative impacts of environmental problems, including adverse effects and various socio-economic and humanitarian consequences of global climate change, and, in some cases, of a number of climate change combat measures (adaptation and mitigation measures) for the political security system and international relations. Moreover, for the assessment of the correlation between environmental and other risks and to predict them in order to mitigate and exclude their negative effects on the environmental and political security systems, the author introduced the concept of the Climate Conflicts Vulnerability Index as a metric tool based on correlation analysis between environmental and other risks for the first time in this article. Calculated with a special formula here below, CCVI determines the degree of vulnerability or predisposition to so-called climate conflicts or the inability of any country or union of countries to prevent climate conflicts that may occur as direct or indirect consequences of global climate change.

In addition, special attention is paid to the analysis of the risks of possible climate conflicts in the South Caucasus and Caspian basin regions, as well as the role of institutions of international cooperation in preventing such risks.

***Keywords:*** *security, environmental security, international relations, sustainable development, climate change, greenhouse gases, adaptation, mitigation measures, climate conflicts, Climate Conflicts Vulnerability*

**Фуад Гумбатов**
*Доцент кафедры "Планирование и управление устойчивого развития"*
*Академии Государственного Управления при Президенте Азербайджанской Республики,*
*к.ф.-м.н., докторант программы доктора политических наук*
*Бакинского Государственного Университета,*
*Руководитель переговорной группы по митигационным мерам процесса подготовки*
*к COP29, международный эксперт по климатическим измененниям (UNFCCC)*

# О КОРРЕЛЯЦИИ РИСКОВ ЭКОЛОГИЧЕСКОЙ И ПОЛИТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ И РОЛИ МЕЖДУНАРОДНОГО СОТРУДНИЧЕСТВА В ИХ ПРЕДОТВРАЩЕНИИ

## РЕЗЮМЕ

Статья посвящена изучению влияния негативных последствий ряда экологических проблем, включая неблагоприятные последствия глобального изменения климата, а в некоторых случаях и меры по борьбе с изменением климата (адаптационные и митигационные мероприятия) на систему политической безопасности и международных отношений. Автором впервые введены понятие «Индекс Уязвимости к Климатическим Конфликтам» (ИУКК) и методология его расчета. ИУКК, как метрический инструмент для оценки уязвимости страны к локальной или международной климатической конфликтам, на основе корреляционного анализа между экологическими и другими рисками, определяет степень склонности или предрасположенности какой-либо страны или союза стран к так называемым климатическим конфликтам, которые являются прямыми или косвенными последствиями глобальных климатичических изменений. Особое внимание в работе уделено и анализу рисков климатических конфликтов в таких регионах, как Южный Кавказ и Каспийский бассейн, а также роли институтов международного сотрудничества в их предупреждении.

***Ключевые слова:*** *безопасность, экологическая безопасность, международные отношения, устойчивое развитие, изменение климата, парниковые газы, адаптация, митигационные меры, климатические конфликты, Уязвимость к Климатическим Конфликтам, Индекс Климатической Уязвимости Безопасности, Способность по Предупреждению Климатического Конфликта*

DOI 10.30546/2309-1347.84.2023.187

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**
**SUSTAINABLE DEVELOPMENT MANAGEMENT**

UOT 328; 342.5; 351/354; 351

**ÜLFƏT MEHDİYEV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi" kafedrasının baş müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru**

*e-mail: ulfat_mehdiyev@yahoo.com*

# 2030-cu İLƏ QƏDƏR MİLLİ SOSİAL-İQTİSADİ PRİORİTETLƏR KONTEKSTİNDƏ TƏHSİL SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN İSTİQAMƏTLƏRİ

Təhsil elə bir sahədir ki, o cəmiyyətin digər müxtəlif sahələri ilə sıx qarşılıqlı əlaqədədir. Siyasi, sosial, iqtisadi, mədəni münasibətlərin formalaşmasında və inkişafında təhsil önəmli yer tutur. Ölkədə elmin və təhsilin tərəqqisi digər sferaların da canlanmasına, irəli getməsinə səbəb olur. Xüsusilə də sosial-iqtisadi müstəvidə təhsilin önəmi daha çox özünü büruzə verir. Təhsil ölkənin sosial-iqtisadi kontekstdə inkişafını müəyyən edən ən başlıca sahədir. Təhsil həm sosial, həm də iqtisadi cəhətdən ölkə tərəqqisinin ən əsas hərəkətverici qüvvəsidir. Cəmiyyətin intellektual potensialının formalaşdırılmasında, hüquqi cəmiyyətin mövcudluğunda, milli-mənəvi dəyərlərin qorunmasında və gələcək nəsillərə ötürülməsində təhsil xüsusi yer tutur. Başqa sözlə desək, cəmiyyətin hərtərəfli inkişafının tənzimlənməsində təhsil ilk sırada dayanır.

Qloballaşmış dünyada dövlətlərin yürütdüyü siyasətin əsas hissəsini təhsil siyasəti təşkil edir. Təhsilin və elmin önəmi onu dövlət siyasətinin strateji istiqamətlərindən biri kimi müəyyənləşdirir. Ölkənin təhsil siyasəti təhsil haqqında müvafiq qanunlara və sənədlərə əsaslanmaqla həyata keçirilir. Təhsil siyasəti hər bir dövlətin həm milli ənənələrə, həm də ümumbəşəri dəyərlərə söykənməsini, dünyəviliyi, humanist prinsiplərlə təşkili, təhsilin heç bir digər sahələrdən asılı olmamasını, demokratik əsaslarla qurulmasını tələb edir. Azərbaycan Respublikasında dövlətin təhsil siyasəti məhz bu prinsiplər əsasında qurulmuş və ölkənin inkişaf konsepsiyasının önəmli tərkib hissəsi kimi bərqərar olmuşdur. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qeyd olunur ki, təhsil sahəsində mövcud olan qanunvericilik, inkişaf strategiyası və fəaliyyət planı bütün sosial meyarlar nəzərə alınaraq tərtib olunur və təsdiq edilir [5].

Müasir dünyada təhsil sistemi, dövlətin təhsil siyasəti ölkənin inkişaf səviyyəsini göstərən ən vacib amillərdəndir. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi tərəqqisində təhsildə aparılan islahatlar, təhsildə yeniliklər önəmli yer tutur. Çünki təhsil sistemində aparılan islahatlar, sınaqdan çıxmış və müsbət nəticə verən üsulların tətbiqi, uğurlu təhsil siyasəti bütün sahələri daha da inkişafa aparır və bu ölkənin müasir dünyada hərtərəfli nüfuzunun artmasına şərait yaradır. Müasir çağırışlara və tələblərə uyğun olaraq ölkənin təhsil siyasətində islahatların aparılması,

mütərəqqi layihələrin hazırlanması, təhsildə inteqrasiya meyllərinin müşahidə olunması amilləri təhsilin və onun təsir etdiyi bütün sahələrin tərəqqisi üçün vacibdir və bu proses qloballaşma şərtlərində baş verir.

Qloballaşmanın şərtlərinə uyğun olaraq milli iqtisadiyyatın rəqabət qabiliyyətini artırılması məqsədilə təhsildə önəmli addımlar atılır və əsas hədəflər müəyyənləşir. Ölkənin inkişafını şərtləndirən birinci amil iqtisadi sahədə yüksəlişdir ki, bunun da əsasında dayanan vacib faktorlardan biri ölkənin yüksək təhsilli, bacarıqlı işçi qüvvəsidir. Təhsil sistemi həm maddi, həm də mənəvi istehsala təsir göstərir, cəmiyyətin əsas işçi qüvvəsinin formalaşdırır. Sosial-iqtisadi sferada həm kəmiyyət, həm də keyfiyyət baxımından görünən müsbət dəyişikliklər birbaşa olaraq, insan resurslarının inkişafı cəmiyyətin intellektual potensialı, təhsil ilə bağlıdır. Buna görə də elm və təhsil dövlət siyasətinin sosial-iqtisadi kontekstdə əsas prioritet istiqamətlərindən biridir.

Artıq qeyd etdiyimiz kimi, təhsil üçün dövlət qayğısı, təhsilin inkişafının dövlət strategiyasının hədəfinə çevrilməsi xüsusi əhəmiyyətlidir. Azərbaycanda elmin və təhsilin inkişafında, dünyanın inkişaf tendensiyalarına cavab verən hazırkı səviyyəyə çatmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Ümumilli Lider qeyd edirdi: “Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır”. Əsası Ümummilli lider tərəfindən qoyulmuş islahatlar, uğurlu təhsil siyasəti hal-hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İlham Əliyev tərəfindən ötən illər ərzində təhsillə bağlı çox mühüm Fərmanlar və Sərəncamlar verilmişdir. Müasir təhsil sisteminin qurulmasında fundament rolunu oynayan həmin proqramlar müəyyən illər ərzində təhsildə əsas hədəfləri özündə əks etdirir. Bu hədəflər dövlət büdcəsindən ayrılan böyük vəsaitlər hesabına reallaşdırılır, təhsilin və elmin inkişafına töhfə verir. Yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqram (2003-2007-ci illər), Məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010-cu illər), Ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər), Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı (2008-2012-ci illər), Ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı (2009-2013-cü illər), 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı, “Elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı (2009-2015-ci illər), “Təhsilin inkişafı üzrə Dövlət Strategiyası” və bu kimi onlarla proqram ölkəmizin təhsil sahəsində yeni inkişaf mərhələsinə qədəm qoymasına imkan vermişdir [7]. Sonrakı illər ərzində təhsil haqqında qəbul olunmuş qərarlar, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş Sərəncamlar Azərbaycan təhsil sisteminin daha da modernləşməsinə və dünya standartlarına cavab verməsinə, səmərəli və nəticəyönümlü təhsil modelinin formalaşmasına şərait yaratmışdır.

Məlumdur ki, hal-hazırda bütün sahələrdə görülən işlər və gələcək perspektivlər dünyada gedən rəqabət vəziyyətinə uyğun olaraq nəzərdə tutulur. Belə şərait sosial və iqtisadi cəhətdən inkişafın davamlılığı üçün dövlətin strateji məqsəd və hədəflərində təhsilin davamlı və güclü sfera olaraq daim diqqətdə saxlanılmasını tələb edir. Hal-hazırda və önümüzdəki illər ərzində təhsil sistemində güclü və rəqabətə davamlı təhsil modelinin qorunub saxlanması üçün icrası nəzərdə tutulan prioritet istiqamətlər cənab İlham Əliyevin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də öz əksini tapır. Təhsildə əsas prinsip kimi “ömürboyu təhsil” ideyası strateji hədəflərin alındığı müasir dövrdə kompetensiyaların, sosial bacarıqların inkişafı üçün həyata keçirilir. Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər çoxşaxəli tərəqqini dəstəkləyir. Sərəncamda qeyd olunur ki, təhsil cəmiyyətin

inkişafının təminatçı qüvvəsi kimi çıxış edir. Təhsil sisteminin gücləndirilməsi üçün müasir metodların tətbiqi, modernləşdirmə siyasəti aparılmalı, təhsilin məzmunu yenilənməli və dərinləşməli, inteqrativ tədris prosesi icra edilməlidir. Bu əsasda ölkənin beynəlxalq qiymətləndirmələrdə (PISA, PIRLS, TIMSS, ICILS) mövqeyinin yaxşılaşmasına nail olunmalıdır. Təhsil sistemində rəqəmsal bacarıqların formalaşmasına diqqət yetirilməli, gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaq lazımdır. Ənənəvi təhsildən fərqlənən yeni bacarıqlar, ixtisaslar və peşələrə hazırlıq olmalıdır. Təhsildə insanların imkanları genişləndirilməli, mütəxəssislərin hazırlanması müasir əmək bazarının tələbləri ilə ayaqlaşmalıdır. Müasir kadrlar və mütəxəssislər beynəlxalq sertifikatlara uyğun olmalıdır [2].

Sosial sistemin inkişafı təhsildə davamlı inkişaf ilə səsləşir. Ümumiyyətlə, təhsil özlüxyündə sosial xarakterli və mahiyyətlidir. Belə ki, təhsilin sosial mahiyyəti onun cəmiyyətin yaşından asılı olmayaraq hər bir üzvü üçün əlçatan olmasının vacibliyində, sosial vəziyyətin və insanların rifahının yaxşılaşdırılması üçün hərəkətverici qüvvə olması, insan kapitalının formalaşmasında rol oynaması, bir sözlə, sosial mövcudluğun kökündə dayanmasındadır. Cəmiyyətdə və dünyada baş verən müxtəlif proseslər, qlobal problemlər, məsələn, az müddət öncə yaşadığımız pandemiya şəraiti və s. təhsilə öz təsirini göstərir. Bunları öncədən nəzərə alaraq, gələcəkdə baş verə biləcək problemlərin qarşısını almaq məqsədilə dövlət adekvat və səmərəli təhsil siyasəti aparır.

İqtisadiyyatın tərkibində olan elm və təhsilin maliyyələşdirilməsi məsələsi günümüzdə ən aktual məsələlərdəndir. Təhsilin bütün pillələrində, orta məktəblərdə, ali təhsil müəssisələrində və onlarla bərabər peşə təhsilində maliyyələşdirmə müzakirə mövzusudur. Mütəxəssislər bildirir ki, təhsil sistemində maliyyə üzrə mexanizmləşdirmənin təkmilləşdirilməsi strategiyasında dövlət və özəl sektorların tərəfdaşlığının ortaq cəhətlərinin müəyyənləşməsinə ehtiyac var və müvafiq prosesə xidmət edən investisiya infrastrukturu mövcud olduğu zaman birgə əməkdaşlığın həyata keçirilməsində dövlət idarəetmə orqanları, özəl kapital, peşə təhsili müəssisələri fəaliyyət göstərə bilər [11].

Bu gün təhsilin maliyyələşdirilməsi problemi müasir dünyada müxtəlif istiqamətlərdə həllini tapmağa çalışır. Təhsilin maliyyələşdirilməsi ilə bağlı inklüziv təhsil meyarları, təhsilalanların gələcəkdə əmək bazarına inteqrasiyası məsələlərinə nəzarət təmin olunur. Azərbaycanda dövlət büdcəsindən təhsil sahəsi üçün ayrılan vəsait hər il artırılır. 2023-cü ildə ayrılmış vəsaitin həcmi xüsusilə yüksəldilmişdir. Belə ki, 2023-cü ildə təhsil xərcləri 2022-ci ilə nisbətən 13,3 faiz çoxdur.

Elmin inkişafı ölkə tərəqqisinin əsas fundamentidir və dövlət büdcəsindən elmin inkişafı üçün xeyli vəsait ayrılır. Aşağıdakı cədvəldə 2018-2022-ci illərdə elmə çəkilən xərclərin (milyon manatla) inkişaf dinamikası müşahidə olunur.

Dövlət siyasətinin təhsil prioritetlərindən biri insan kapitalının inkişaf etdirilməsidir. Təhsil sosial-iqtisadi inkişafın başlıca meyarı kimi insan kapitalını formalaşdıran əsas amildir. Həm mərkəzdə, həm də regionlarda təhsilə və elmə ayrılan vəsait insan kapitalının formalaşması və inkişafı çərçivəsində keyfiyyət göstəricilərinin yüksəlməsinə xidmət edir. Bu gün Azərbaycanda təhsil siyasətinin hədəfləri olduqca genişdir. Qarabağa Böyük Qayıdışın sevincini yaşayan Azərbaycanda təhsil siyasətinin qarşısına qoyduğu əsas məqsədlərdən biri işğaldan azad olunmuş ərazilərdə təhsil infrastrukturunun qurulmasıdır. İnsan kapitalının inkişaf etdirilməsi, müasir bilik və bacarıqlara malik mütəxəssislərin azad edilmiş ərazilərə cəlb olunması və müasir innovasiyalar məkanına çevrilməsi istiqamətində sürətli işlər həyata keçirilir.

**Cədvəl**

2018-2022-ci illərdə elmə çəkilən xərclərin inkişaf dinamikası

| | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| **Elmi xərc (mln AZN)** | 117,8 | 122,3 | 143,6 | 151,8 | 167,8 |
| **ÜDM nisbətən** | 0,15% | 0,15% | 0,20% | 0,16 % | 0,13% |
| **Dövlət büdcəsi xərclərinə nis.** | 0,52% | 0,50% | 0,54% | 0,55% | 0,52% |

Mənbə: Azərbaycanda təhsil, elm və mədəniyyət 2023 (statistik məcmuə). Azərbaycan Dövlət Statistika Komitəsi

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanın 2022-2026-cı ilin sosial-iqtisadi inkişafı Strategiyasının təyin edilməsi haqqında" 22 iyul 2022-ci il tarixli Sərəncamında qeyd olunur ki, təhsildə əlçatanlıq təmin olunmalıdır. Sosial vəziyyətindən asılı olmayaraq hər kəsin ali təhsil ala bilmək imkanı olmalıdır. Təhsildə əsas hədəflər sırasında göstərildiyi kimi, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı üzrə strategiya çərçivəsində məktəbəqədər təhsilin əhatə dairəsi artırılmış və ölkədə ümumi təhsildə səriştəəsaslı proqramların tətbiqi, təhsil üzrə beynəlxalq qiymətləndirmələrdə mövqe yaxşılaşdırılmışdır. Peşə təhsilinin əhatə dairəsi və keyfiyyəti artırılır. Gəlirindən asılı olmayaraq bütün ailələrin övladları üçün ali təhsilə əlçatanlıq təmin edilir. Elmin müxtəlif sahələri üzrə tədqiqatların mümkünlüyü vurğulanır. Əhalinin davamlı savadlanması üçün "ömürboyu işləmə" mexanizmi yaradılmışdır. Təhsilin bütün səviyyələrində təhsilalanlara rəqəmsal biliklər aşılanır. Təhsil müəssisələrində İKT əsaslı infrastruktur inkişaf yaradır [1].

İnsan kapitalı amili digər sənədlərdə də əks olunmuşdur. Belə ki, Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədində (2021-2025) görürük ki, əsas məqsəd qurulan tərəfdaşlıqların uğurla davam etməsi, inkişaf etmiş insan kapitalından effektiv şəkildə yararlanmaya nail olmaq üçün təsdiqlənən sənəd sosial-iqtisadi inkişafın təminatçısı və mühərriki kimi çıxış edir. Əldə olunan və gələcək əldə olunacaq nailiyyətlər onlar Azərbaycanın milli, regional və qlobal tərəqqisini daha da irəli apararaq inklüziv və bərabərliyə əsaslan cəmiyyət qurmaq və onun davamlığını qorumaq məqsədinə yol verəcək [8].

İnsan kapitalı ilə əlaqədar tədbirlər planının icrası əsas prioritetlərdəndir. "Azərbaycan Respublikasının Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə həmin planı dəstəkləyən hədəflər açıq şəkildə təyin edilmişdir. Birinci hədəf ondan ibarətdir ki, təhsilin bütün səviyyələrində keyfiyyətin təminatı və yüksəldilməsi insan kapitalının formalaşması və inkişafı üçün dayaqdır. İkinci hədəf isə əmək məsələləri ilə bağlı olub əmək məhsuldarlığının artırılması üçün insan kapitalının fasiləsiz inkişafının, araşdırma və təkmilləşdirmə sahəsinə investisiya yatırımının stimullaşdırılmasını əsas götürür [6].

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" nda prioritet istiqamətlər üzrə ixtisas sahələrinin müəyyənləşməsi, nüfuzlu xarici ali təhsil müəssisələri üzrə proqramların müəyyənləşməsi, xaricdə təhsilin maliyyələşdirilməsi və s. kimi məsələlər öz əksini tapmışdır [12].

Sənədlərin qısa məzmunundan açıq şəkildə görünür ki, sosial-iqtisadi əhatədə təhsil sahəsində dövlət siyasətinin prioritetləri çox mühüm

məsələləri özlüyündə ehtiva edir. Sadalanan problemlərin əksəriyyəti bu gün Azərbaycan təhsil sistemində öz həllini tapır. Bununla paralel olaraq növbəti onillik ərzində təhsildə problemlərinin köklü həllini tapması üçün qarşıya məqsədlər qoyulur. Azərbaycanda təhsil perspektivləri özünəməxsus xüsusiyyətlərə malikdir. İlk növbədə onu dilə gətirə bilərik ki, Azərbaycanda təhsil siyasətinin ən ümdə məqsədi insanların irqindən, cinsindən, milli mənsubiyyətindən asılı olmayaraq qanunvericilik çərçivəsində bərabərhüquqlu təhsil ala bilməsidir. Bu dövlətin təhsil siyasətinin ən böyük uğurlarındandır.

Təhsillə bağlı normativ aktların, hüquqi-normativ sənədlərin qəbul olunması, yeni qərarların qəbulu təhsilin dövlət siyasətinin əsas hədəflərindən olduğunun göstəricisidir. Elm və təhsildə davamlı olaraq təkmilləşmə, müasir standartlara cavab verən təhsil sisteminin formalaşdırılması, beynəlxalq təcrübədə sınanmış metod və üsulların tətbiqinin önəminin vurğulanması hər daim müşahidə olunur. Bu əsasların qorunduğu təhsilə əlçatanlığın təmin edilməsi, təhsilə cəlb olunma müstəsna əhəmiyyət daşıyır. Statistik göstəricilər onu deməyə imkan verir ki, bu gün ali təhsilin həm bakalavr, həm də magistr pilləsində təhsilalanların sayında xüsusi artım müşahidə olunur.

Azərbaycanda təhsil siyasətinin prioritet istiqamətlərindən biri və birincisi maddi-texniki təminatı təmin etməkdir ki, biz bunun sənədlərdə əks olunduğunu gördük. Maddi-texniki bazanın inkişafı üçün infrastrukturun yenilənməsi və müasirləşdirilməsi məqsədilə şəhər mərkəzlərində və regionlarda təhsil müəssisələrində təmir-bərpa işləri aparılır. Ali təhsil müəssisələrinin, orta məktəblərin müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunmasına diqqət ayrılır. İnformasiya-kommunikasiya texnologiyalarının təlim prosesində rolu pandemiya dövründə özünü xüsusilə büruzə verdi. 2020-ci ildə bütün dünyada pandemiya şəraiti iqtisadiyyatın digər sahələri kimi təhsilə də təsirsiz ötüşmədi. Ənənəvi təhsil artıq yerini distant təhsilə verdi, təhsil sistemində yeniliklərə pəncərə açdı, texnoloji innovasiyaların inkişafı prosesini sürətləndirdi.

Ölkə ərazisində yerləşən bütün təhsil ocaqlarında qlobal dünyaya çıxışı əldə etmək üçün internetlə təmin olunma prosesi son illərdə sürətləndirilmişdir. 2010-cu illə müqayisədə 2022-ci ildə ölkə üzrə təhsil məqsədləri üçün




**Şəkil 1.** Ali təhsil müəssisələrinə qəbul olan tələbələrin sayı (min nəfər)

Mənbə: Azərbaycanda təhsil, elm və mədəniyyət 2023 (statistik məcmuə). Azərbaycan Dövlət Statistika Komitəsi.




**Şəkil 2.** Təhsil məqsədləri üçün internetə çıxışla təmin edilmiş məktəblərin xüsusi çəkisi, yaşayış yerləri üzrə bölgüdə, faizlə

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Dayanıqlı İnkişaf Məqsədləri 2023 (statistik icmal)

internetə çıxışla təmin edilmiş məktəblərin xüsusi çəkisi 37,0 faiz bəndi artaraq 39,1 faizdən 76,1 faizədək, təhsil məqsədləri üçün kompyuterlərlə təchiz edilmiş məktəblərin xüsusi çəkisi isə 15,3 faiz bəndi artaraq 83,9 faizdən 99,2 faizə çatmışdır.

Rəqabətədavamlı milli iqtisadiyyatın qurulması üçün təhsildə keyfiyyətin təmin edilməsi, beynəlxalq tendensiyaların nəzərə alınması və bu istiqamətdə effektiv strateji tədbirlərin həyata keçirilməsi zəruridir. Təhsil siyasətində strateji tədbirlər planında xüsusi əhəmiyyətli hadisələrdən biri də təhsilə marağın artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 17 iyun 2021-ci il tarixli Fərmanı ilə Təhsil Tələbə Krediti Fondunun təsis edilməsidir. Bu dövlətin uğurlu təhsil siyasətinin göstəricilərindəndir.

Məlumdur ki, insanların fəaliyyət göstərdiyi cəmiyyətlərdə, sosial, iqtisadi sahələrdə ən önəmli detallardan birincisi təhlükəsizliyin təmin edilməsidir. Bu məsələ təhsil siyasətində də müzakirə olunmalıdır. Təhlükəsizliyin təmin olunmadığı heç bir cəmiyyətdə, heç bir sahədə, o cümlədən sosial-iqtisadi sahədə tərəqqidən söhbət gedə bilməz. Bir anlayış kimi təhlükəsizlik müxtəlif aspektlərdən müzakirə oluna bilər. Hər bir halda inkişaf təhlükəsizliyin təmin olunduğu mühitdə gedir. Ona görə də bütün sahələrdə, təhsil sistemində aparılan siyasətdə təhlükəsizlik vacib element kimi qiymətləndirilməlidir.

Sosial-iqtisadi təhlükəsizliyin təşkil olunmasında dövlət tərəfindən konkret siyasət yürüdülür. Həmin dövlət siyasətinin təhlükəsizliyin təmin edilməsində konkret şərtləri mövcuddur. Bu şərtlər dövlət siyasətində əsas iki istiqamətdə özünü göstərir. İlkin istiqamət kimi rəqabətə davamlı milli iqtisadiyyatın davamlığı və rəqabətdə üstünlüklər dövlətin həyata keçirdiyi tədbirlər sayəsində mümkünləşir. İkinci istiqamət isə dövlət tədbirləri ümumi yaşayış səviyyəsinin yaxşılaşmasına, təhsilin dövrün tələblərinə uyğun olaraq rəqabətə davam gətirə bilməsinə yönəlmişdir [10].

Milli tərəqqinin əsas faktoru kimi təhsildə konseptual əsaslar mühafizə olunur. İnkişafda yeni meyllərin, dövrün tələblərinə uyğun infrastrukturun qurulması ilə paralel olaraq təhsildə dəyər məfhumu xüsusi yer tutur. Dünyada yeni təhsil modellərinin konseptual özlüyündə milli xüsusiyyətlərin qorunması, milli kimliyin dərk edilməsi, həmçinin şagirdlərə və tələbələrə aşılanması, ümumbəşəri dəyərlərin

öyrədilməsi məsələsi önəmli yer tutur. Həm milli, həm də ümumbəşəri dəyərlər təhsilin məzmununda öz əksini tapır. Azərbaycanın təhsil siyasətinin ən ümdə vəzifələrindən biri odur ki, təhsilin məzmunu Azərbaycan dövlətçilik ənənələrinə və prinsiplərinə söykənərək yaradılır.

Təhsilin bütün səviyyələrində – məktəbəqədər təhsil, orta təhsil, ali təhsil, həmçinin peşə təhsilində təhsilin məzmunun yenilənməsi, yeni dərs vəsaitləri və texnoloji avadanlıqlarla təmin olunma, yeniliklərə açıqlıq və daimi öyrənmə həyata keçirilir, keyfiyyətin təmin olunması məqsədilə təhsildə qiymətləndirmə və monitorinq aparılır, təhsilalanların dünyagörüşünün və xarici dil biliklərinin artırılması, nəticəyönümlü və şəxsiyyətyönümlü təhsil prinsipləri icra olunur. İcraatın hərtərəfliliyi Azərbaycanda təhsil sisteminin uğurlu inkişaf dinamikasını izləməyə imkan verir.

Ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsində dövlətin məqsədyönlü və sabit fəaliyyəti dayanır. Ölkənin sosial-iqtisadi inkişafını təmin edən mühüm məsələlər vardır. Bu istiqamətdə sosial-iqtisadi rifahın yüksəldilməsi, həyat şəraitinin daha da yaxşılaşdırılması üçün görülən işlər və aparılan islahatlar, o cümlədən təhsil sistemində tətbiq olunan yeniliklər və islahatlar xüsusi əhəmiyyətlidir. Dövlətin təhsil siyasəti təhsil sisteminin effektiv fəaliyyətinin təmin olunmasına yönəlmiş çoxşaxəli və strateji əhəmiyyətli istiqamətlənmədir. Belə ki, təhsilin modernləşdirilməsi, təhsilin maliyyələşdirilməsi, təhsilin keyfiyyətinin artırılması, beynəlxalq təcrübədə sınanmış metodlardan istifadə edilməsi, müasir texnologiyalardan istifadə etməklə müxtəlif sahələrdə elmi tədqiqatların aparılması, təhsilin əmək bazarındakı vəziyyətə təsiri, innovativ inkişaf, o cümlədən bu kimi bir çox mühüm məsələlər daim diqqət mərkəzində saxlanılır. Müasir təhsil sistemində keyfiyyətin təminatı özlüyündə təhsilalanların bilik, bacarıq və vərdişlərinin inkişafını, zehni, fiziki, mənəvi inkişafı, tələbələrin maraqlarını, fərdi xüsusiyyətlərinin nəzərə alınmasını, təlimdə müasir texnologiyaların istifadəsini, fənlərarası inteqrasiyanı, birgə fəaliyyəti, elmi və texniki tərəqqiyə uyğunluğun qiymətləndirilməsini, təhsilin nəticələrini və bu kimi müxtəlif məsələləri ehtiva edir. Bu sırada yüksək hazırlıqlı kadrların cəlb olunması, davamlı təhsil, yeniliyə meyillilik, tərəfdaşlığın inkişafı da yer alır.

**Ədəbiyyat:**


1. "Azərbaycanın 2022–2026-cı ilin sosial-iqtisadi inkişafı Strategiyasının təyin edilməsi haqqında". Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 22 iyul 2022-ci il.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 02 fevral 2021-ci il.
3. Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycanda təhsil, elm və mədəniyyət (statistik məcmuə). – Bakı: Çaşıoğlu Eİ-MMC. – 2023. – 497 s.
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Dayanıqlı İnkişaf Məqsədləri (statistik icmal). – Bakı. – 2023.
5. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 24 oktyabr 2013-cü il.
6. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 6 dekabr 2016-cı il.
7. Azərbaycan-2030: Minilliyin inkişaf məqsədlərindən Dayanıqlı İnkişaf Məqsədlərinə doğru. – Bakı. – 2017.
8. Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə sənədi (2021-2025)
9. Əhmədov, H. Elm və təhsilin inkişafı ölkənin sosial-iqtisadi strategiyasının prioritet sahəsi kimi // Azərbaycan müəllimi qəzeti, – 7 oktyabr. – 2022. – s. 12.
10. Əhmədov, H. Təhsil dövlətin milli təhlükəsizliyinin və innovativ inkişafının amili kimi // Azərbaycan müəllimi qəzeti. – 11 yanvar. – 2019.
11. Əhmədov, H. Təhsil sisteminin maliyyələşdirilməsi prosesi təhsilin inkişafı üzrə dövlət strategiyasının əsas istiqamətlərindən biri kimi // Azərbaycan məktəbi. – 2023. – №1(702). – s.19-28.
12. Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 28 fevral 2022-ci il.


***Açar sözlər:*** *Azərbaycan Respublikası, sosial-iqtisadi milli prioritetlər, təhsil siyasəti, insan kapitalı*

**Ulfat Mehdiyev**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Planning and Management of Sustainable Development Senior Lecturer, Doctor of Philosophy in Political Science*

# DIRECTIONS OF STATE POLICY IN THE FIELD OF EDUCATION IN THE CONTEXT OF NATIONAL SOCIO-ECONOMIC PRIORITIES UNTIL 2030

## ABSTRACT

Education is a sphere that plays a special role in the political, social, economic, and cultural development of society. In the era of globalization, when competition is increasing, processes are being implemented in the education system as a priority direction of the state strategy in the socio-economic context of our country to ensure the comprehensive development of science and education, and factors that will further accelerate the development of education in the coming years. The main purpose of the article is to consider the prospects for the multifaceted and strategically important educational policy of the state in Azerbaijan.

As one of the state policy priorities in the Republic of Azerbaijan, education is constantly improving and developing. Processes such as optimization of learning, a competent approach to the formation of a modern personality, interactivity in the learning process, innovation, equipment with modern communication technologies, international assessments in education, training of modern personnel in accordance with labor market conditions, a mechanism for lifelong learning are already a part of successfully implemented government projects.

***Keywords:*** *the Republic of Azerbaijan, socio-economic, national priorities, educational policy, human capital*

**Ульфат Мехтиев**

*Старший преподаватель кафедры “Планирование и управление устойчивым развитием” Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам*

# НАПРАВЛЕНИЯ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ В ОБЛАСТИ ОБРАЗОВАНИЯ В КОНТЕКСТЕ НАЦИОНАЛЬНЫХ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИХ ПРИОРИТЕТОВ ДО 2030 ГОДА

Образование – сфера, играющая особую роль в политическом, социальном, экономическом и культурном развитии общества. В эпоху глобализации, когда усиливается конкуренция, в системе образования, как приоритетном направлении государственной стратегии в социально-экономическом контексте нашей страны, осуществляются процессы, обеспечивающие всестороннее развитие науки и образования, и факторы, еще более ускоряющие развитие образования в будущем. Основная цель статьи – рассмотреть перспективы многогранной и стратегически важной образовательной политики государства в Азербайджане.

Одним из приоритетов государственной политики в Азербайджанской Республике является постоянное совершенствование и развитие образования. Такие процессы, как оптимизация обучения, грамотный подход к формированию современной личности, интерактивность в процессе обучения, инновации, оснащение современными коммуникационными технологиями, международные оценки в образовании, подготовка современных кадров в соответствии с условиями рынка труда, механизм непрерывного обучения уже являются частью успешно реализуемых государственных проектов.

***Ключевые слова:*** *Азербайджанская Республика, социально-экономические национальные приоритеты, образовательная политика, человеческий капитал*

DOI 10.30546/2309-1347.84.2023.197

**SİYASİ MƏDƏNİYYƏT**
**POLITICAL CULTURE**

UOT 371

**ТАМИЛЛА ГУСЕЙНОВА**

**Доцент кафедры языков Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по филологии**

*e-mail: nidal.huseynova@gmail.com*

# РОЛЬ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В ФОРМИРОВАНИИ ПОЛИКУЛЬТУРНОГО ОБЩЕСТВА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

Глобализация современных мировых процессов и динамичная интернационализация образа жизни стран мирового сообщества приводят к тому, что в общественной жизни Азербайджанской Республики, как и в других странах, на первый план выдвигается потребность в воспитании личности с толерантным образом мышления, уважительно относящейся к своей национальной и другим культурам, понимающей и принимающей важность этнического плюрализма, способной сосуществовать с представителями совершенно иной субкультуры. В этом плане фундаментом поликультурности азербайджанского общества стала языковая политика Общенационального Лидера Гейдара Алиева.

«Язык народа – это то, что помогает каждому народу сохранять свою национальность, его духовные ценности, а также развиваться» [11]. Эти слова, как известно, принадлежат великому Общенациональному Лидеру Азербайджана Гейдару Алиеву, последовательная и целенаправленная языковая стратегия которого обеспечила азербайджанскому языку статус государственного языка еще в период нахождения нашей страны в составе СССР, а также способствовала его дальнейшему развитию в период обретения Азербайджаном независимости и превращению азербайджанского языка в символ солидарности азербайджанцев всего мира. Языковая стратегия выдающегося государственного деятеля Гейдара Алиева заключалась не только в формальном придании азербайджанскому языку статуса государственного языка на законодательном уровне, но и предусматривала осуществление мер по расширению сферы его применения, сохранению его богатства и чистоты, повышению роли и влияния национальной литературы на родном языке для возрождения национального самосознания, национальной самоидентичности и свободы.

Результатом этой стратегии стало то, что был реализован комплекс мер по научному изучению азербайджанского языка, началось его всестороннее развитие, азербайджанский язык распахнул двери в мир мировой науки и дипломатии, занял свое достойное место на самых престижных международных форумах и площадках. Азербайджанский язык стал не только средством общения, но превратился в символ истории, литературы и культуры нашего народа. Это стало претворением в жизнь известного изречения Гейдара

Алиева: «Язык связан с литературой, культурой и духовностью, а без них, в принципе, нет патриотической формулы». Такое отношение к языку легло в основу идеи азербайджанства, которая предусматривала сохранение национальной самобытности азербайджанского народа, формирование единой национальной идеи, культурно-исторической основы самоидентичности азербайджанской нации, укрепление национальной диаспоры. Особую роль азербайджанского языка в идее азербайджанства Общенациональный Лидер Гейдар Алиев видел в сплочении всего населения страны, независимо от этнической, языковой и конфессиональной принадлежности.

Целенаправленная реализация языковой стратегии Гейдара Алиева началась в далёком 1969 году после избрания его на должность первого секретаря ЦК Компартии Азербайджанской ССР в июле 1967 года. Реалии советского времени были таковы, что все руководящие кадры входивших в состав СССР союзных республик на официальных мероприятиях должны были выступать только на русском языке. И формально Гейдар Алиев не нарушал это требование, выступая на всех партийных и государственных мероприятиях именно по-русски. Однако при любой возможности он старался обращаться к аудитории на родном азербайджанском языке. И первым официальным мероприятием, где Гейдар Алиев обратился к участникам на азербайджанском языке, стало празднование 50-летия Азербайджанского Государственного Университета. Это стало актом высочайшего политического и гражданского героизма, положившим начало возрождению роли азербайджанского языка в жизни общества и основанным на следующей позиции Общенационального Лидера: «Музыка, литература, отдельные исторические памятники, несомненно, также подтверждают национальную самобытность народа. Но именно язык подтверждает национальную самобытность нации. Не будь азербайджанского языка, не было бы и литературы на азербайджанском языке. Не будь азербайджанского языка, не было бы и песен на азербайджанском языке. Все это связано одно с другим. Существование, укрепление, развитие азербайджанского языка является одним из самых больших наших достижений. Это вопрос не только языка, но и азербайджанства» [10, с.412]. Это выступление определило дальнейшие перспективы развития азербайджанского языка и культуры народа в целом.

Проведение юбилеев поэтов и писателей, деятелей науки и искусства становится демонстрацией величия национальной литературы и языка, создаёт в стране небывалую доселе атмосферу активного использования азербайджанского языка всеми слоями населения на любом уровне. Примечательным фактом является то, что в 70-е годы, будучи Первым секретарём ЦК КП Азербайджана, Гейдар Алиев добился присвоения Государственной премии группе азербайджанских ученых-лингвистов, являвшихся авторами четырехтомного учебного пособия «Современный азербайджанский язык». Это способствовало росту авторитета азербайджанских языковедов и расширению сферы применения азербайджанского языка.

Апофеозом языковой стратегии Общенационального Лидера Гейдара Алиева стали события 1978 года. Как известно, в 1977 г. была принята новая Конституция СССР, которая априори должна была явиться основой для всех новых Конституций, подготавливаемых в советских республиках. Поскольку она не содержала статьи, касающейся признания национальных языков государственными, ни в одной Конституции каждой конкретной республики данный факт не нашёл отражения. И только политический, гражданский и личный героизм Гейдара Алиева привели к тому, что 21 апреля 1978 года на внеочередной сессии Верховного Совета Азербайджанской ССР девятого созыва он в своём докладе выступил с призывом внести в

Конституцию Азербайджанской Республики 1978 года статью о придании азербайджанскому языку статуса государственного. На основании данного предложения в Конституцию Азербайджана была включена статья 73, в которой азербайджанский язык утверждался в качестве государственного и где говорилось о том, что Азербайджанская ССР является гарантом употребления азербайджанского языка в государственных и общественных органах, учреждениях культуры, просвещения и т.д. и осуществляет государственную заботу о его всестороннем развитии.

Закрепление в Конституции республики азербайджанского языка как государственного обеспечило своего рода эпоху возрождения духовности азербайджанской нации: проведение во всесоюзном масштабе юбилеев великих классиков отечественной литературы; возведение памятников Нариману Нариманову, Насими, Джафару Джаббарлы; выход азербайджанской культуры на ведущие позиции в СССР; активизация научных исследований деятельности выдающихся деятелей Азербайджана.

Весь дальнейший период деятельности Гейдара Алиева сопровождался шагами по развитию и укреплению азербайджанского языка как государственного. Это, в первую очередь, подтверждение его статуса в принятой 12 ноября 1995 года путём всенародного референдума Конституции независимого Азербайджана, в которой согласно статье 21 азербайджанский язык вновь провозглашался как государственный. При этом был отменён возврат к применявшемуся до 1936 года названию «тюркский язык» и восстановлено существовавшее с 1936 г. по 22 декабря 1992 г. официальное название «азербайджанский язык».

Политическая мудрость и дальновидность Общенационального Лидера Гейдара Алиева, его истинный патриотизм проявились не только в придании азербайджанскому языку официального юридического статуса. Учитывая исторические особенности развития родного языка и проявляя к нему особое внимание, Гейдар Алиев 18 июня 2001 года подписал Указ «О совершенствовании применения государственного языка». Уникальность этого документа состояла в том, что, проанализировав славный исторический путь азербайджанского языка, Гейдар Алиев подверг тщательному анализу его текущие актуальные проблемы и представил эффективные пути их решения. А 9 августа 2001 года Гейдар Алиев подписал указ «Об учреждении дня азербайджанского алфавита и языка». Этот день в нашей стране ежегодно отмечается как триумф возрождения азербайджанского языка, национальной истории и культуры. Целенаправленная политика Общенационального Лидера Гейдара Алиева по укреплению и развитию азербайджанского языка явилась, как мы уже говорили, фундаментом сформулированного им понятия «азербайджанство»: «…Знания, язык каждой нации очень дорог ей. Нам чрезвычайно дорог азербайджанский, наш родной язык, так как долгие годы наш родной азербайджанский язык не занимал достаточно широкого места в нашей жизни. Но, несмотря на это, каждый азербайджанец внёс какой-то - малый или большой – вклад в сохранение азербайджанского языка… Сегодня с чувством безграничной гордости я могу сказать, что в XX столетии азербайджанский язык прошёл большой путь развития. Обратите внимание, какой богатый, какой приятный, какой мелодичный у нас язык и какой у него большой словарный запас для изложения любых мыслей.

Мы обеспечим господство азербайджанского языка в Азербайджане, его постепенное развитие. Вместе с тем мы желаем, чтобы каждый азербайджанец, независимо от того, на каком континенте, в какой стране он живет, усвоил язык этой страны, пользовался её обычаями и традициями, адаптировался к её условиям, но одновременно развивал азербайджанский язык» [9, с.1].

Уникальность языковой стратегии Общенационального Лидера, великого

кормчего Гейдара Алиева заключалась и в том, что повсеместное укрепление азербайджанского языка как государственного ни в коей мере не означало ограничение использования родных языков этносов, проживающих на территории Азербайджана. Это коснулось, в том числе, и русского языка. Гейдар Алиев, рассматривая русский язык как важный фактор в интеграционных процессах и диалоге культур на евразийском пространстве, в развитии науки, литературных взаимосвязей, диалога народов, языков и традиций стран СНГ (Содружество Независимых Государств), придавал большое значение сформировавшемуся в результате известных исторических реалий в Азербайджане национально-русскому двуязычию. С этой целью он после обретения Азербайджаном независимости систематически встречался с представителями русской диаспоры, проявлял заботу об образовании на русском языке и в целом о развитии русской культуры в Азербайджане. Как известно, в 1972 г. по инициативе Гейдара Алиева был создан Азербайджанский педагогический институт русского языка и литературы имени М.Ф.Ахундова, который сыграл большую роль в подготовке квалифицированных кадров в области лингвистики русского языка и методики его преподавания. Позже это высшее учебное заведение было преобразовано в Бакинский Славянский университет, осуществляющий на сегодняшний день значительно более широкий объем научной и учебной деятельности.

Целенаправленная языковая политика Общенационального Лидера Гейдара Алиева была успешно продолжена на самом высоком уровне нынешним Президентом Азербайджанской Республики господином Ильхамом Алиевым. Об этом свидетельствуют подписанные им указы «Об осуществлении массовых изданий латинским шрифтом на азербайджанском языке» (12 января 2004 года), «Список книг, предусмотренных в первую очередь к переизданию на азербайджанском языке с латинской графикой (12 января 2004 года), а также его распоряжение «О финансировании издания произведений выдающихся представителей мировой литературы на азербайджанском языке (18 сентября 2008 года). Результатом большой заботы Президента Ильхама Алиева о всестороннем развитии азербайджанского языка стал также его указ «О подготовке национальной энциклопедии Азербайджана» (5 мая 2004 года) и проделанная в этом направлении работа.

Стратегически важным в развитии и укреплении азербайджанского языка стало распоряжение Президента Ильхама Алиева от 17 июля 2018 года «О ряде мер по обеспечению более широкого использования азербайджанского языка в электронном пространстве».

Свою приверженность языковой стратегии Общенационального Лидера Гейдара Алиева Президент Ильхам Алиев подтвердил в своём выступлении на V съезде азербайджанцев мира в Шуше, где он подчеркнул особую важность владения родным языком молодыми представителями азербайджанской диаспоры:

«…Конечно, мы очень хотим, чтобы азербайджанцы второго, третьего поколений были привязаны к своей культуре. Это, разумеется, не такой уж простой вопрос. Здесь они, в первую очередь, должны владеть азербайджанским языком. Конечно, сохранять азербайджанский язык только в семьях можно, но этого недостаточно. Потому мы всегда готовы оказать помощь в открытии азербайджанских школ, воскресных школ. На самом деле мы это делаем. Возможно, это надо делать более организованно, потому что родной язык – основной фактор. Родной язык объединяет всех граждан Азербайджана…».

Президент Азербайджанской Республики Ильхам Алиев особое внимание уделяет мерам по овладению азербайджанским языком представителями многочисленных национальных меньшинств, проживающих на территории Азербайджана. С этой целью фондом «Знание» при Президенте

Азербайджанской Республики реализуется масштабный проект «Изучение азербайджанского языка», предусматривающий овладение навыками общения на азербайджанском языке, изучение норм современного литературного азербайджанского языка гражданами Азербайджана неазербайджанской национальности.

Преемственность языковой стратегии Общенационального Лидера Гейдара Алиева по отношению к языкам этносов, проживающих на территории Азербайджана, ярко проявилась в деятельности Президента Азербайджанской Республики Ильхама Алиева. Это касается, в первую очередь, русского языка, который активно функционирует в обществе, бытовой, образовательной и научной сферах. Уникальность ситуации в том, что русский язык на сегодня функционально актуален не как вненациональное явление, а является органичным элементом понятия «азербайджанство». Именно этим обусловлено то, что значительную часть получающих образование на русском языке составляют азербайджанцы и представители других народов нашей страны. Статистические данные говорят сами за себя:

– в 435 дошкольных воспитательных и 248 дошкольных учебных заведениях осуществляется обучение на русском языке;

– в 379 общеобразовательных школ совмещается обучение на азербайджанском и русском языках, а в 16 средних школах образовательный процесс ведется только на русском языке.

– в общей сложности на русском языке получает образование более 100.000 учащихся средних школ и около 500.00 учашихся с азербайджанским языком обучения изучают русский язык как иностранный.

– все государственные высшие учебные заведения предоставляют студентам возможность обучения на русском языке. При этом студенты, обучающиеся на азербайджанском языке, изучают русский язык как иностранный.

– В столице Азербайджана осуществляют деятельность не только традиционный центр русистики – Бакинский Славянский Университет, но и филиал Первого Московского Государственного Медицинского Университета имени Сеченова, а также Бакинский филиал Московского государственного университета им. М.В.Ломоносова.

Выступая на встрече с руководителями российских СМИ в клубе главных редакторов ТАСС 24 февраля 2022 года Президент Азербайджанской Республики Ильхам Алиев отметил, что Азербайджан на постсоветском пространстве – это пример того, как надо относиться к русскому языку: «… Это касается не только образования, это касается и в целом отношения к русскому языку. Очень важно, что в годы, когда мы уже не в одном государстве, и новое поколение уже пришло, мы сумели это сохранить. И будем делать все, чтобы это сохранить и на будущее». Целенаправленная языковая политика Президента Ильхама Алиева обеспечила русскому языку значительно более широкую сферу применения, чем просто получение образования на русском языке. С одной стороны, он является языком обучения в общеобразовательных и высших учебных заведениях. С другой стороны, это один из основных учебных предметов в русскоязычных средних школах. Помимо этого русский язык преподаётся как иностранный в школах и высших учебных заведениях с азербайджанским языком обучения и является средством аудиторного и внеаудиторного общения. Следствием этого является формирование успешной межкультурной коммуникации, четкое понимание как национальной самобытности, так и открытости и восприимчивости к иноязычной культуре, иноязычной духовности. Таким образом, мудрая и последовательная языковая стратегия Президента Азербайджанской Республики Ильхама Алиева создает почву для сохранения паритета между национальными интересами и фор-

мированием гражданского самосознания с одной стороны и интернационализацией образа жизни азербайджанского общества, создания универсальных методов воздействия на это общество с другой. При этом поликультурное образование становится фактором формирования национальной безопасности, экономической конкурентоспособности государства, а также общенациональной самоидентичности.

**Литература:**


1. Азербайджанская ССР. Конституция (1978). Основной закон Азербайджанской Советской Социалистической Республики: [Принята на внеочередной седьмой сессии Верховного совета Азербайджанской ССР девятого созыва 21 апреля 1978 г.]. – Баку: Азербайджанское государственное издательство, 1982.
2. Закон Азербайджанской Республики №413 от 1992 г. «О государственном языке Азербайджанской Республики» - URL:http^//eqanun.az/framework796
3. Азербайджанская Республика. Конституция (1995). Часть 1, статья 21 / URL^//http:/eqanun.az/framework/897
4. Указ Президента Азербайджанской Республики Гейдара Алиева «Об усовершенствовании системы образования в Азербайджанской Республике (пункт 12). Баку, 13.06.2000.
5. Указ Президента Азербайджанской Республики Гейдара Алиева №506 от 2001 года «Об усовершенствовании применения государственного языка». – URL:httpI/eqanun.az/framework/3568.
6. Распоряжение Президента Азербайджанской Республики Ильхама Алиева от 12 января 2004 года «Об осуществлении массовых изданий на азербайджанском языке с латинской графикой».
7. Распоряжение Президента Азербайджанской Республики Ильхама Алиева «О государственной программе по использованию азербайджанского языка в условиях глобализации в соответствии с требованиями времени и развитию языкознания в стране» от 23 мая 2012 года.
8. Гейдар Алиев. Наша независимость – вечна. (Выступления, речи, заявления, письма, интервью). – Азернешр. Баку, 1998.
9. Гейдар Алиев. Речь на I Съезде Азербайджанцев мира // Бакинский рабочий. – 2001. – 11 ноября.
10. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On altıncı kitab. – Bakı: Azərnəşr. – 2005.
11. www.science.gov.az. 06.09.2018
12. Асадов З.В. Языковая политика Азербайджана. Место русского языка в системе образования республики // Русский язык за рубежом. Бакинский Славянский Университет. Баку, 2011, №2(225).
13. Ахундова Э. Гейдар Алиев. Личность и эпоха. Баку, «Озан», 2007.
14. Рау Иоганн. Национальный вопрос в деятельности Гейдара Алиева: к идеологии азербайджанизма // Современная научная мысль, 2018.


***Ключевые слова:*** *Азербайджанский язык как государственный, языковая политика Общенационального Лидера Гейдара Алиева, идея азербайджанства, культурно-историческая самоидентичность, поликультурное образование и общество, этический плюрализм*

**Tamilla Hüseynova**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının Dillər kafedrasının dosenti,*
*filologiya üzrə fəlsəfə doktoru*

# AZƏRBAYCAN RESPUBLİKASINDA POLİKULTURAL CƏMİYYƏTİNİN FORMALAŞMASINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLIYEVİN ROLU

## XÜLASƏ

Təqdim olunan məqalədə Ümummilli Lider Heydər Əliyev tərəfindən Azərbaycan dilinə dövlət dili statusunun verilməsi, onun möhkəmləndirilməsi və hərtərəfli inkişafı istiqamətində həyata keçirilən əsaslı tədbirlər öz əksini tapmışdır. Bununla yanaşı, Heydər Əliyevin Azərbaycan Respublikasında rusdilliliyin qorunub saxlanılması üzrə fəaliyyətinə multikultural Azərbaycan cəmiyyətinin amillərindən biri kimi toxunulur. Müəllif qeyd edir ki, Heydər Əliyevin dil siyasəti Azərbaycan Respublikasının əhalisinin parlaq multikulturallığını təmin edərək Azərbaycan Respublikasının hazırki Prezidenti, ölkədə tolerant düşüncənin və etnik plüralizmin saxlanmasının zəmanəti olan İlham Əliyevin fəaliyyətində də öz layiqli davamını tapmışdır.

***Açar sözlər:*** *Azərbaycan dili dövlət dili kimi, Ümummilli Lider Heydər Əliyevin dil siyasəti, azərbaycançılıq ideyası, mədəni-tarixi özünəməxsusluq, multikultural təhsil və cəmiyyət, etik plüralizm*

**Tamilla Huseynova**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Languages, Ph.D. in Philology, Associate Professor*

# THE ROLE OF NATIONAL LEADER HEYDAR ALIYEV IN THE FORMATION OF A MULTICULTURALSOCIETY IN THE REPUBLIC OF AZERBAIJAN

## ABSTRACT

The presented article reflects the fundamental measures to give the Azerbaijani language the status of the state language, its strengthening and comprehensive development, taken by the national leader Heydar Aliyev. Along with this, the activities of Heydar Aliyev to preserve Russian-speaking in the Republic of Azerbaijan as one of the factors of the multicultural Azerbaijani society are touched upon. The author emphasizes that the language policy of Heydar Aliyev, which ensured the bright multiculturalism of the population of the Republic of Azerbaijan, found its worthy continuation in the activities of the current President of the Republic of Azerbaijan, Ilham Aliyev, who became the guarantor of the preservation of tolerant consciousness and ethical pluralism in the country.

***Keywords:*** *Azerbaijani language as a state language, language policy of the National Leader Heydar Aliyev, the idea of Azerbaijanism, cultural and historical self-identity, multicultural education and society, ethical pluralism*

DOI 10.30546/2309-1347.84.2023.205

# ELEKTRON DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR

# DİGİTAL PUBLİC ADMİNİSTRATİON AND INTELLECTUAL SYSTEMS

UOT 354

**ELVİN ƏZİZBƏYOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İntellektual sistemlərin idarə olunması kafedrasının müdiri, dosent**

*e-mail: eazizbayov@dia.edu.az*

**ELVİN MƏMMƏDOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İntellektual sistemlərin idarə olunması kafedrasının magistrantı**

*e-mail: mammadli.999@gmail.com*

## AZƏRBAYCAN RESPUBLİKASINDA YERÜSTÜ NƏQLİYYAT İNFRASTRUKTURUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ

1992-ci ildə Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə Rio-de-Janeyro şəhərində keçirilmiş beynəlxalq konfransda qeyd edildiyi kimi, dünyanın gələcək inkişafı ilk növbədə ekoloji problemlərin necə həll olunmasından asılı olacaqdır. Konfrans çərçivəsində bir sıra mühüm qərarlar, o cümlədən "Davamlı inkişaf" konsepsiyası qəbul edilmişdir. Davamlı inkişafda nəqliyyatın rolu da ilk dəfə olaraq bu konfrans çərçivəsində müzakirə edilmiş və Gündəlik 21-də əks olunmuşdur.

BMT-nin 2000-ci ilin sentyabrında keçirilmiş Sammitində hökumətlər 2015-ci ilə qədər xüsusi hədəfləri olan Minilliyin İnkişaf Məqsədləri (MİM) vasitəsilə yoxsulluq içində olan insanların sayını yarıya qədər azaltmağı öhdələrinə götürdülər. Minilliyin İnkişaf Məqsədlərində (MİM) nəqliyyatla bağlı məsələlərə xüsusi istinad edilməsə də, yol-nəqliyyat layihə və proqramlarının iqtisadi inkişafı dəstəklədiyi, həm yoxsulluğun aradan qaldırılması, həm də ekoloji davamlılıq məqsədlərinə böyük təsir göstərdiyi hər kəsə məlum idi.

Dünya liderləri 2012-ci ildə Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf üzrə Konfransında (Rio+20) yekdilliklə qəbul etdilər ki, nəqliyyat və mobillik davamlı inkişafın mərkəzində dayanan amillərdən biridir və davamlı nəqliyyat iqtisadi artımı gücləndirə və əlçatanlığı yaxşılaşdıra bilər.

2013-cü ildə isə Avropa İttifaqı tərəfindən Şəhər Mobillik Paketi nəşr olunmuş və burada davamlı şəhər mobillik planı konsepsiyası öz əksini tapmışdır. Şəhər mobillik planının əsas prinsipləri yerli nəqliyyat və mobillik problemlərini həll etmək üçün yerli səviyyəli strateji planlaşdırma, $CO_2$ miqdarının azaldılması, tıxacların aradan qaldırılması, yol hərəkəti təhlükəsizliyinin təmini, şəhərlərin genişlənməsi, əlçatanlığın təmin edilməsi, şəhər yaşa-

yışının ümumi keyfiyyətinin, rəqabət qabiliyyətinin yaxşılaşdırılması və nəqliyyat infrastrukturunun (avtomobil, dəmir yolu, su və s.) multimodal və intermodallığa doğru kompleks inkişafından (mübadilə məntəqələrinin yaradılması və inkişafı) ibarətdir [1].

Daha sonra BMT-nin Baş Katibi nəqliyyatın davamlı inkişafını özünün Beşillik Fəaliyyət Gündəliyinin əsas komponenti kimi müəyyənləşdirdi. Bu məqsədlə Baş Katib 2014-cü ilin avqust ayında avtomobil, dəmir yolu, aviasiya, dəniz, bərə və şəhər ictimai nəqliyyat daxil olmaqla bütün nəqliyyat növlərini təmsil edən Davamlı Nəqliyyat üzrə Yüksək Səviyyəli Məsləhət Qrupunu (HLAG-ST) yaratdı [2].

2015-ci ilin sentyabrında Nyu-Yorkda dünya liderlərinin tarixi sammitində Birləşmiş Millətlər Təşkilatının 193 Üzv Dövləti tərəfindən yekdilliklə qəbul edilmiş “Dünyamızın transformasiyası: 2030-cuillədək davamlı inkişaf sahəsində Gündəlik”-də nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinin rolu da xüsusi qeyd edildi. “Gündəlik” davamlı inkişafa nail olunmasına xidmət edən 17 Davamlı İnkişaf Məqsədlərini (DİM) özündə cəmləşdirir və bu DİM-lər yoxsulluğa son qoymaq, planeti qorumaq və hamı üçün rifahı təmin etmək məqsədi daşıyır. Davamlılıq dedikdə isə, gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən indiki dövrün əsas ehtiyaclarının qarşılanması başa düşürülür. BMT-nin Baş katibi Pan Gi Munun sözlərinə görə, “17 Davamlı İnkişaf Məqsədi bizim bəşəriyyətə dair ümumi baxışımız və dünya liderləri ilə insanlar arasında sosial müqavilədir. Onlar insanlar və planet üçün görüləcək işlərin siyahısı və uğurun planıdır” [3].

11-ci Davamlı İnkişaf Məqsədi “Şəhərləri və yaşayış məntəqələrini inklüziv, təhlükəsiz, davamlı etmək” adlanır və 10 hədəfə və 14 göstəriciyə bölünür. 11-ci məqsədin 2-ci hədəfinin, yəni 11.2-nin əsas məzmunu təhlükəsiz, sərfəli və davamlı nəqliyyat sistemlərinin əlçatanlığının təmin edilməsi ilə bağlıdır. Hədəfin tam mətni aşağıdakı kimi müəyyən edilmişdir: “2030-cu ilə qədər həssas təbəqələrin – uşaqlar, əlillər, yaşlılar, qadınların ehtiyaclarına xüsusi diqqət yetirməklə, xüsusilə də ictimai nəqliyyatın genişləndirilməsi yolu ilə yol təhlükəsizliyinin yaxşılaşdırılması, hamı üçün təhlükəsiz, sərfəli, əlçatan və davamlı nəqliyyat sistemlərinə çıxışın təmin edilməsi” [4], o cümlədən, “Dünyamızın transformasiyası: 2030-cu ilədək davamlı inkişaf sahəsində Gündəlik”-in 27-ci bəndində də davamlı nəqliyyat sistemlərinin yaradılması məsələsinə toxunulmuşdur [5].

Davamlı nəqliyyat infrastrukturunun yaradılması Davamlı İnkişaf Məqsədlərinin beş hədəfi ilə birbaşa əlaqəlidir:

1. Hədəf 3.6 – Yol xəsarətlərinin və ölüm hallarının azaldılması;
2. Hədəf 7.3 – Enerji səmərəliliyinin ikiqat yaxşılaşdırılması;
3. Hədəf 9.2 – Davamlı və inklüziv infrastrukturların inkişaf etdirilməsi;
4. Hədəf 11.2 – Əlverişli və davamlı nəqliyyat sistemləri;
5. Hədəf 12.b – Səmərəsiz qalıq yanacaq subsidiyalarınının rasionallaşdırılması.

Göründüyü kimi nəqliyyat davamlı inkişafın digər məqsədləri ilə sıx bağlı amildir. Beynəlxalq Yol İttifaqının (International Road Union) baş katibi Umberto de Prettonun da dediyi kimi, “Əgər biz nəqliyyat infrastrukturunu düzgün təşkil etməsək, davamlı inkişaf məqsədlərindən heç birinə tamlıqla nail olmayacağıq” [6].

Azərbaycanda da nəqliyyat sistemləri ilə bağlı problemlər uzun illərdən bəri mövcuddur və keçən əsrdən bəri nəqliyyat infrastrukturunun müasirləşdirilməsi prosesi davam etdirilməkdədir. XX əsrin 20-30-cu illərində Bakıda neft sənayesinin sürətlə inkişaf etməsi, yeni sənaye obyektlərinin tikilib istifadəyə verilməsi əhali axınının güclü şəkildə artmasına səbəb oldu. Bu da Azərbaycanın paytaxtında nəqliyyat sahəsində ciddi problemlər yaradırdı. Bakıda 1924-cü ildə tramvay, 1926-ci ildə şəhər ətrafı elektrik qatarı, 1932-ci ildə avtobus, 1941-ci ildə isə troleybus xəttinin, o cümlədən metro xəttlərinin çəkilməsi sərnişindaşıma sahəsindəki çətinlikləri nəzərə çarpacaq dərəcədə aradan qaldırdı.

Azərbaycan Respublikası son illər ərzində sosial və iqtisadi inkişaf sahələrində kifayət qədər nailiyyətlər əldə etmişdir ki, bu nailiyyətlərin başlanğıcında ulu öndər Heydər Əliyevin yürütdüyü uzaqgörən və uğurlu inkişaf strategiyası dayanır. Ümummilli Liderin dövlət qurucu-luğu siyasəti hüquqi, sosial, iqtisadi, mədəni və sair aspektlərə şaxələnmişdi. Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının tərəqqisinin təmin edilməsi, abadlıq-quruculuq işlərinin həyata keçirilməsi məqsədilə nəqliyyat infrastrukturunun yaradılmasına və yol təsərrüfatının qurulmasına xüsusi diqqət, qayğı və həssaslıqla yanaşırdı. Ümummilli lider Heydər Əliyevin "Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir" fikri Azərbaycanın dövlət başçısının yol təsərrüfatının inkişafına nə qədər böyük önəm verdiyini bir daha təsdiqləyir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk on il ərzində respublikada yolların təmirinə və təminatına ayrılan vəsait 3,5 dəfə, kapital qoyuluşu isə 2,5 dəfə artdı. 1980-ci ilə qədər bütün dövlət əhəmiyyətli yollara asfalt-beton örtüyünün döşənməsinə başlanıldı. Respublikanın yol təsərrüfatında yüksək göstəricilərə nail olmaq üçün yeni sənaye sahələri yaradıldı. Yol texnikasının təmiri ilə məşğul olan təcrübi-eksperimental "Dortexnika" zavodu, Qazax rayonunda karxana çınqılı, yuyulmuş qum istehsal edən Poylu çınqıl zavodu tikilib istifadəyə verildi. Yevlax dəmir-beton tikinti zavodunun uğurlu fəaliyyəti isə yol infrastrukturunun əsaslı şəkildə yenidən qurulmasını, yeni avtomobil yollarının tikintisini sürətlə və keyfiyyətlə aparmağa imkan yaradırdı. Həmin illərdə qəbul olunmuş "Azərbaycan SSR-in avtomobil yollarının tikintisi, təmiri və təminatını yaxşıllaşdırmaq üçün gələcək tədbirlər haqqında" qətnamə Respublikamızda avtomobil yolları şəbəkəsinin genişləndirilməsinə, yol infrastrukturunun yenidən qurulmasına imkan yaratdı. Məhz həmin sənədə əsasən, yolların keyfiyyətini Ümumittifaq səviyyəsinə qaldırmaq üçün yol infrastrukturunun inkişafına yönəldilən kapital qoyuluşunun həcmi xeyli artırıldı.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbulu ilə Azərbaycan Respublikasının dövlətçilik tarixində yeni mərhələ başlandı. İrəliləyən dövr ərzində Heydər Əliyev siyasətinin mahiyyət və məzmun etibarilə mükəmməlliyi öz təsdiqini tapdı, sürətli, inklüziv inkişafa nail olundu. Müstəqilliyin əsas təminatının və davamlı inkişafın mühüm amillərindən birinin iqtisadiyyatın dirçəldilməsi olduğunu və iqtisadiyyatın yol-nəqliyyat infrastrukturu ilə birbaşa bağlılığını dövlət idarəçiliyi səviyyəsində qiymətləndirən Ümummilli liderin göstərişlərinə uyğun olaraq 1998-ci ildə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi təsis edildi və 2003-cü ildə Nazirliyin tabeliyində "Yolnəqliyyatservis" Departamenti yaradıldı. Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2017-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi birləşdirilərək, onların əsasında Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi təsis edildi. Azərbaycan Respublikası Prezidentinin 11 oktyabr 2021-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adlandırılmışdır.

Heydər Əliyevin imza atdığı işlər sırasında Azərbaycan Respublikasının Avropa İttifaqının 1993-cü ildə qəbul etdiyi TRASEKA (Trans-Europe-Caucasus-Asia) proqramına qoşulması mühüm əhəmiyyətli məsələlərdən olmuşdur. TRASEKA proqramının uğurla həyata keçirilməsi genişmiqyaslı layihələrin işlənib hazırlanmasına təkan verdi və bunların arasında tarixi İpək yolunun bərpası layihəsi başlıca yer tuturdu. Azərbaycan da tarixi İpək yolunun bərpasını dəstəkləmiş, bu məsələ ilə bağlı Avropa İttifaqı ilə sıx əməkdaşlıq etmişdir. Sirr deyil ki, Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizinin yaradılması və onun infrastrukturunun inkişaf etdirilməsi Azərbaycan üçün xüsusi önəm daşıyır. Bu baxımdan ulu öndər Heydər Əliyev Mərkəzi Asiyadan,

Qafqazdan keçməklə Qara dənizə və daha sonra Avropaya çıxan nəqliyyat dəhlizinin yenidənqurulması, tarixi İpək yolunun fəaliyyətinin bərpası ideyasını yaxından dəstəkləyirdi [7].

7-8 sentyabr 1998-ci il tarixlərində Bakı şəhərində Tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransın keçirilməsi və Azərbaycanın da iştirakçısı olduğu TRASEKA Proqramı əsasında "Avropa – Qafqaz – Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanması və Bakı Bəyannaməsinin qəbul edilməsi xüsusilə qeyd edilməli məsələlərdəndir. Əsas Çoxtərəfli Saziş Avropa, Qara dəniz, Qafqaz, Xəzər dənizi və Asiya regionunda iqtisadi, ticarət və nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi, avtomobil, hava və dəmir yolu, eləcə də ticarət gəmiçiliyi bazarlarına çıxışın asanlaşdırılması, yük və sərnişinlərin, həmçinin karbohidrogen resurslarının beynəlxalq daşımalarının inkişaf etdirilməsi, nəqliyyatın təhlükəsizliyinin, ətraf mühitin mühafizəsi, müxtəlif nəqliyyat növləri arasında bərabər rəqabət şəraitinin yaradılması kimi məsələlər üzrə əməkdaşlığı nəzərdə tutur.

Heydər Əliyevin hüquqi dövlət quruculuğu yolunda gördüyü işlərin məntiqi töhfələrindən biri də 11 iyun 1999-cu il tarixli 683-IQ nömrəli "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi olmuşdur. Qanun "nəqliyyatın fəaliyyətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyənləşdirir" və nəqliyyat dedikdə, "Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmış yüklərin və insanların daşınma vasitələridir, o cümlədən dəmir yolu, avtomobil, dəniz, daxili su, hava, şəhər və şəhərətrafı elektrik, metropoliten, həmçinin Azərbaycan Respublikasının ərazisində yerləşən magistral boru kəmərləri" nəzərdə tutulur [8].

22 dekabr 1999-cu il tarixli 778-IQ nömrəli "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanunu da nəqliyyat infrastrukturunun davamlı inkişafının təmin edilməsinin hüquqi bazasını təşkil edən mühüm sənədlərdən birdir. Qanun "Azərbaycan Respublikasında avtomobil yollarının və onlarla əlaqədar mühəndisi qurğuların layihələndirilməsi, tikilməsi, istifadəsi, saxlanılması, qorunması və inkişaf etdirilməsinin, habelə yol təsərrüfatının idarə edilməsinin hüquqi, texniki-iqtisadi və təşkilati prinsiplərinin ümumi əsaslarını müəyyənləşdirir və yol təsərrüfatı subyektləri arasında yaranan əsas münasibətləri tənzimləyir" [9].

Ulu öndər Heydər Əliyev tərəfindən dəqiqliklə ilə işlənib hazırlanmış siyasi kurs Prezident cənab İlham Əliyev tərəfindən layiqincə və uğurla davam etdirilməkdədir. Prezidentin nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, ölkəmizin tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirdiyi dövlət siyasəti və qlobal miqyaslı təşəbbüsləri Azərbaycanın sosial-iqtisadi inkişafına mühüm töhfə verir. Son dövrlərdə iqtisadiyyatın, xüsusilə qeyri-neft sektorunun inkişafında mühüm rolu olan nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, tranzit imkanlarının genişləndirilməsi üçün önəmli işlər görülür, modern nəqliyyat infrastrukturu yaradılır, tranzit potensialı artırılır. Bütün bunlar Azərbaycana böyük siyasi və iqtisadi dividendlər gətirir, ölkəmizin dünyada və regionda mövqeyini daha da möhkəmləndirir, dövlətimizin siyasi və strateji əhəmiyyətini artırır.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli Fərmanına əsasən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" təsdiqlənmiş və regionların iqtisadi inkişafının təmin olunmasında, əhalinin həyat səviyyəsinin yüksəldilməsində infrastrukturun və kommunal xidmətlərin başlıca amillər olduğunu nəzərə alınmaqla 2004-2008-ci illəri əhatə edən müddət ərzində bu sahələrdə dövlət siyasətinin əsas istiqamətlərindən birinin kənd, rayonlar və qəsəbələrdə nəqliyyatın, avtomobil yollarının və yol infrastrukturunun inkişaf etdirilməsi olduğu qeyd edilmişdir [10].

Bakı şəhərində mövcud olan nəqliyyat problemlərinin həll edilməsi, o cümlədən yolların buraxılış qabiliyyətinin artırılması, yol

hərəkətindəki gərginliyin, xüsusilə pik saatlarında şəhərin gündəlik həyat ahənginə mənfi təsir göstərən tıxacların aradan qaldırılması, ümumilikdə paytaxtın nəqliyyat sisteminin inkişafının və səmərəli işinin təşkil edilməsi məqsədilə 26 oktyabr 2007-ci ildə "Bakı şəhərində nəqliyyat əməliyyatlarının intellektual idarə edilməsi sisteminin yaradılması haqqında" Sərəncam imzalanmışdır [11].

29 dekabr 2011-ci ildə isə Bakıda nəqliyyat sisteminin təkmilləşdirilməsindən, nəqliy-yat xidmətlərinin keyfiyyətinin yüksəldilməsindən, ictimai nəqliyyatın hərəkətinin tənzimlənməsindən və hərəkət marşrutlarının optimallaşdırılması Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi açılmışdır.

O cümlədən, Bakı şəhərində əhalinin və yerüstü nəqliyyat vasitələrinin sıxlığı, ictimai nəqliyyata olan tələbat nəzərə alınmaqla "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün Tədbirlər Planı" və "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008-2013-cü illər üçün əlavə Tədbirlər Planı" təsdiq edilmişdir. Hər iki tədbirlər planının əsas məqsədi Bakı şəhərində nəqliyyat sisteminin inkişafının və səmərəli işinin təşkil edilməsi, yeni müasir yolların və yol qurğularının, körpülərin, yeraltı və yerüstü keçid və dayanacaqların tikilməsi, ictimai nəqliyyatın fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi və bu istiqamətdə digər zəruri tədbirlərin işlənib hazırlanmasının və həyata keçirilməsinin təmin edilməsi olmuşdur.

22 fevral 2007-ci ildə təsdiq edilmiş "Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən ölkənin avtomobil yolları şəbəkəsinin və yol infrastrukturunun bərpası və yenidən qurulması istiqamətində görülən işlərin səmərəliliyinin artırılması məqsədilə "Yolnəqliyyatservis" Departamenti Məhdud Məsuliyyətli Cəmiyyətinin təşkilati-hüquqi forması dəyişdirilərək Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin tabeliyində "Azəryolservis" Açıq Səhmdar Cəmiyyəti yaradılması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Prezidentinin 14 aprel 2009-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"-nın 2004-2008-ci illər üçün nəzərdə tutulmuş proqramın yekunlarına həsr edilən bölməsində qeyd edilmişdir ki, proqramın icrası "şimal-cənub və şərq-qərb nəqliyyat dəhlizlərinin yaradılması kimi möhtəşəm layihələrin başa çatdırılması, Bakı-Tbilisi-Qars dəmir yolunun inşasına başlanılması ölkənin regional əhəmiyyətini artırmaqla yanaşı, bölgələrdə yaşayan əhalinin infrastruktura və bazarlara çıxış imkanlarını yaxşılaşdıraraq sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün əsaslı zəmin yaratmışdır". "Nəqliyyat sisteminin inkişaf etdirilməsində başlıca vəzifə əhalinin nəqliyyat xidmətlərinə artan tələbini ödəməklə həyat səviyyəsinin yüksəldilməsi və dayanıqlı iqtisadi artıma xidmət etmək üçün əlverişli nəqliyyat siyasətinin həyata keçirilməsindən ibarətdir. Odur ki, 5 il ərzində regionlarda 1000 km-dən çox magistral yol çəkilmiş və ya əsaslı təmir edilmiş, 600 km respublika əhəmiyyətli və 2700 km yerli əhəmiyyətli yollarda təmir işləri aparılmış, 69 yeni körpü tikilmiş, 34 körpü təmir edilmişdir". "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi və sərnişindaşıma xidmətinin keyfiyyətinin daha da yüksəldilməsi məqsədilə ölkəyə iri və orta tutumlu avtobuslar gətirilərək istismara buraxılmışdır" [12].

2009-2013-cü, 2014-2018-ci, 2019-2023-cü illər üçün nəzərdə tutulmuş Dövlət Proqramında da nəqliyyat infrastrukturunun müasirləşdirilməsi məsələsinə toxunulmuş və ölkədə nəqliyyat sisteminin səmərəli inkişafının təşkil edilməsi, yeni müasir yolların və yol qurğularının, körpülərin, yeraltı və yerüstü keçid və dayanacaqların tikilməsi, ictimai nəqliyyatın fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi nəzərdə tutulmuşdur.

Avtonəqliyyat vasitələrinin fasiləsiz hərəkətini, vətəndaşların küçə və prospektlərdən rahat və təhlükəsiz keçidini təmin etmək istiqamətində aparılan kompleks tədbirlər çərçivəsində 2006-2015-ci illər ərzində respublika üzrə 11 min km yol, 70-i Bakı ərazisində

olmaqla 300 körpü tikilib [13], 2016-2018-ci illər ərzində 19 yerüstü piyada keçidi inşa olunub [14]. O cümlədən sonrakı illərdə də tıxacların aradan qaldırılması, vətəndaşların hərəkət qabiliyyətinin effektivliyinin artırılması məqsədilə bu istiqamətdə fəaliyyət intensiv surətdə davam etdirilmişdir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"-də də nəqliyyat infrastrukturunun, yerüstü nəqliyyat sistemlərinin davamlı inkişafının təmin edilməsinə istiqamətlənən müxtəlif tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

2000-ci ilin əvvəllərində yerüstü ictimai nəqliyyatın böyük bir qisminin ekoloji cəhətdən təmiz olmayan mikroavtobuslar təşkil etdiyi halda, Dövlət başçısının tapşırığına əsasən, ötən dövrdə paytaxta artıq AVRO 6 ekoloji standarta cavab verən, təbii qazla işləyən 1000-dən artıq avtobus gətirilmişdir ki, bu da ölkədə davamlı inkişafa təkan verən başlıca amillərdən biri, Gündəlik 2030 ilə qarşıya qoyulmuş məqsədlərə əlçatanlığın təmin edilməsinin mühüm tərkib hissəsidir [15].

Prezident cənab İlham Əliyevin də qeyd etdiyi kimi, nəqliyyat sahəsinə qoyulmuş vəsait ölkənin iqtisadi, xüsusilə qeyri-neft sektorunun inkişafına müsbət təsir göstərir. Çünki yol olmayan yerdə inkişaf da olmur. Dünya İqtisadi Forumunun avtomobil yollarının vəziyyətinə dair hesabatına əsasən, Azərbaycan MDB məkanında 1-ci yer olmaqla ən yüksək nəticə göstərib. Asiya qitəsində 10-cu, ümumilikdə, 141 ölkə arasında isə 24-cü yerdə qərarlaşıb [16].

XX əsrin 80-ci illərinin sonları – 90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmişdir. Lakin 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən müharibədə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Silahlı Qüvvələri düşmən üzərində şanlı Zəfər qazanmış və tarixi ədaləti, ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir. Möhtəşəm qələbənin ardından işğaldan azad edilmiş ərazilərdə intensiv bərpa və yenidənqurma işlərinə start verilmişdir. Hazırda işğaldan azad edilmiş ərazilərdə yol-nəqliyyat infrastrukturunun qurulması istiqamətində işlər davam etdirilir.

2020-ci ilin  il noyabr ayının 16-da təməli qoyulmuş "Zəfər yolu" başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə Şuşa şəhərinə qədər uzanır. Layihələndirilən yolun uzunluğu 101 kilometrdir. Ümumi uzunluğu 124 kilometr olan və 4-6 zolaqdan ibarət Zəngilan-Horadiz avtomobil yolunun tikintisi ilə bağlı işlər də davam edir, uzunluğu 43 kilometr olaraq layihələndirilən Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun da tikintisinin icrasına başlanılmış, uzunluğu 29 kilometr olan Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolunun bərpası həyata keçirilmişdir. O cümlədən azad edilmiş ərazilərdə icra olunan yol infrastrukturu layihələrindən biri Bərdə-Ağdam, Xudafərin-Qubadlı-Laçın, Xanlıq-Qubadlı avtomobil yollarıdır. Həmçinin uzunluğu 100 km olan Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xəttinin gələcəkdə Azərbaycandan keçməklə Cənubi Avropa ilə Asiyanı birləşdirən bir layihəyə çevriləcəyi güman edilir və ümumi uzunluğu 45 kilometr olan Bərdə–Ağdam dəmir yolu xətti isə yenidən qurulur [16].

O cümlədən, Şərq-Qərb/Orta beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılmasında qarşılıqlı əməkdaşlığı möhkəmləndirməsi, Azərbaycan və Türkiyə intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi regionun inkişafında davamlılığın təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Avtomobil nəqliyyatı sahəsində dövlət siyasətinin düzgün müəyyən olunması, dəqiq icrası, icraya nəzarət, fəaliyyətin düzgün koordinasiyası sahəsində mövcud problemlə-

rin aradan qaldırılması, ümumilikdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidentinin "Avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 11 oktyabr 2021-ci il tarixli Fərmanına əsasən, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" publik hüquqi şəxsin, avtomobil nəqliyyatı sahəsində xidmətlərin elektron formada göstərilməsini, habelə məlumatların əlçatanlığını təmin edən "AYNA" informasiya sisteminin yaradılması nəzərdə tutulmuşdur. "Agentlik avtomobil nəqliyyatı sahəsində tənzimləməni, Azərbaycan Respublikasında avtomobil nəqliyyatı ilə daşımalara və digər avtomobil nəqliyyatı xidmətlərinə ehtiyacın təmin edilməsini, beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarına dair qayda və tələblərə, habelə bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının və tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına riayət edilməsinə nəzarəti (Bakı şəhərinin inzibati ərazisində ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində tənzimləmə və nəzarət istisna olmaqla) həyata keçirən publik hüquqi şəxsdir" [17].

Göründüyü kimi bir çox beynəlxalq sənədlərdə təsbit edilən, o cümlədən Davamlı İnkişaf Məqsədləri sırasında qeyd edilmiş düzgün, müasir, davamlı nəqliyyat infrastrukturunun qurulması məsələsi Azərbaycan üçün də reallığa çevrilmişdir. Ulu Öndər Heydər Əliyev və prezident İlham Əliyevin yürütdüyü yenilikçi, innovativ siyasət yol-nəqliyyat sistemləri sahəsində də özünü doğrultmuşdur. Belə ki, qəbul edilən müxtəlif qanun layihələri, dövlət proqramlarının və yaradılan müvafiq dövlət qurumlarının fəaliyyətinin əyani yekunu olaraq, Azərbaycanda müasir dövrün tələblərinə cavab verən yerüstü nəqliyyat sistemləri qurulmuş, şəhərlərdə və kəndlərdə avtomobil yolları çəkilmiş, təmir edilmiş, asfaltlanmış, yerüstü piyada hərəkətinin təhlükəsiz təşkili məqsədilə çoxsaylı piyada keçidləri müəyyən edilmiş, müxtəlif körpülər inşa edilmiş, ölkəyə ekoloji təmiz nəqliyyat vasitələri gətirilmişdir. Hal-hazırda bütün ölkə ərazisində yerüstü nəqliyyatın sistematik inkişafının təmin edilməsi məqsədi ilə işğaldan azad edilmiş Qarabağ regionunda da sürətli yenidənqurma işləri görülməkdə, çoxsaylı avtomobil yolları təmir və bərpa edilməkdədir. Göründüyü kimi Azərbaycan Respublikasında yerüstü nəqliyyat infrastrukturunun qurulması davamlı inkişafın təmin edilməsi kontekstində çoxşaxəli və genişmiqyaslı tədbirlər planı çərçivəsində hüquqi, iqtisadi və siyasi faktorlar da nəzərə alınmaqla təşkil edilməkdədir.

**Ədəbiyyat:**


1. https://azertag.az/xeber/Son_iller_neqliyyatin_planlasdirmasina_yanasma_akademik_muhitde_ehemiyyetli_derecede_deyisib-2117582
2. https://sustainabledevelopment.un.org/topics/sustainabletransport
3. https://www.un.org/en/events/peaceday/index2016.shtml
4. https://en.m.wikipedia.org/wiki/Sustainable_Development_Goal_11
5. https://sdgs.un.org/2030agenda
6. https://www.iru.org/news-resources/newsroom/road-transport-key-solution-achieving-uns-sustainable-development-goals-sdgs
7. Cəfərli R. Azərbaycan TRASEKA layihəsinə mühüm töhfələr verir // Bakı:Azərbaycan,-2008.s.2http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_dekabr2008/63696.htm
8. "Nəqliyyat haqqında" 11 iyun 1999-cu il tarixli 683-IQ nömrəli Azərbaycan Respublikası Qanunu https://e-qanun.az/framework/4764
9. "Avtomobil yolları haqqında" 22 dekabr 1999-cu il tarixli 778-IQ nömrəli Azərbaycan Respublikası Qanunu https://e-qanun.az/framework/490
10. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) https://e-qanun.az/framework/4797
11. "Bakı şəhərində nəqliyyat əməliyyatlarının intellektual idarə edilməsi sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 26 oktyabr 2007-ci il tarixli Sərəncamı https://e-qanun.az/framework/13950
12. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı https://e-qanun.az/framework/16721
13. https://d9mc3ts4czbpr.cloudfront.net/az/article/son-10-ilde-azerbaycanda-300-bakida-70-korpu-tikilib/
14. http://www.aayda.gov.az/az/news/2185
15. https://bna.az/az/news/1438
16. https://azerbaijan.az/related-information/280
17. "Avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 11 oktyabr 2021-ci il tarixli Fərmanı https://president.az/az/articles/view/53408


***Açar sözlər:*** *Davamlı inkişaf, Gündəlik-2030, nəqliyyat infrastrukturu, nəqliyyat siyasəti, yerüstü nəqliyyat sistemləri*

**Elvin Azizbayov**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Head of the Department of Control for Intelligent Systems, Associate Professor*

**Elvin Mammadov**

*Master of the Department of Control for Intelligent Systems of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

# PROSPECTS FOR THE DEVELOPMENT OF LAND TRANSPORT IN THE REPUBLİC OF AZERBAİJAN

## ABSTRACT

In this article, the authors analyze the sustainable development goals set by many international documents, including the Daily 2030, the role of transport infrastructure in ensuring access to these goals, and bills adopted to improve the quality of transport services in the Republic of Azerbaijan. Furthermore, the authors studied commissioned environmentally-friendly vehicles and the prospects for developing surface transport in the context of laid or restored roads.

***Keywords:*** *Sustainable development, Agenda-2030, transport infrastructure, transport policy, surface transport systems*

**Эльвин Азизбеков**

*Заведующий кафедрой "Управление интеллектуальными системами"*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики, доцент*

**Эльвин Мамедов**

*Магистрант кафедры "Управление интеллектуальными системами"*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

# ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ИНФРАСТРУКТУРЫ НАЗЕМНОГО ТРАНСПОРТА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

## РЕЗЮМЕ

В данной статье авторы анализируют цели устойчивого развития, установлен-ные многими международными документами, в том числе повестка дня 2030, роль транспортной инфраструктуры в обеспечении доступа к этим целям, законопроекты, принятые для повышения качества транспортных услуг в Азербайджанской Республике, по заказу экологически чистые транспортные средства, новые изученные перспективы развития наземного транспорта в условиях асфальтированных или восстановленных дорог.

***Ключевые слова:*** *Устойчивое развитие, Повестка дня-2030, транспортная инфраструктура, транспортная политика, системы наземного транспорта*

DOI 10.30546/2309-1347.84.2023.215

# ELEKTRON DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR
# DİGİTAL PUBLİC ADMİNİSTRATİON AND INTELLECTUAL SYSTEMS

UOT 354

**ATİQ ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəçiliyində informasiya texnologiyaları" kafedrasının baş müəllimi**

*e-mail: atiq.aliyev@teams.dia.edu.az*

**KƏMALƏ ƏZİZOVA**

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Fizika İnstitutunun elmi işçisi**
*e-mail: kama-azizova2020@rambler.ru*

## SƏRHƏDÇİ ŞƏBƏKƏSİNİN MƏLUMAT DƏSTƏYİNDƏN MÜSTƏQİL SƏRHƏD NARYADI TRAYEKTORİYASINA ƏSASLANAN NAVİQASİYA

### 1. Giriş

Sosial şəbəkələrin artan yayğınlığı trayektoriyaya əsaslanan naviqasiyaya, yəni fərdin trayektoriya məlumatlarının başqaları ilə paylaşılmasına və trayektoriya məlumatlarının özlərinə əsaslanaraq digər trayektoriyaların naviqasiyasına tələbi artırmışdır. Məqalədə biz yol şəbəkəsinin məlumat dəstəyinə ehtiyac olmadan sərhəd naryadı trayektoriyasına əsaslanan naviqasiya alqoritmi təklif edirik. Alqoritm tapşırıq verilmiş sərhəd naryadı trayektoriyasından təhlükəli keçid rejimlərini müəyyən etmək, təhlükəli keçid rejimlərini naviqasiya məlumatına çevirmək və bütün bunları digər sərhədçilərlə bölüşmək üçün nəzərdə tutulmuşdur.

Elektron xəritələrin əsas funksiyası kimi, xəritə naviqasiyası sərhədçilərin gündəlik xidmətləri ilə sıx bağlıdır. Ənənəvi xəritə naviqasiyası üsulları, adətən ən qısa yol tapmaq problemini həll edir və onların təmsil üsulları iki kateqoriyaya bölünə bilər: etiket təyini (məsələn, the Dijkstra alqoritmi [1, s.270] və etiket korreksiyası (məsələn, Bellman-Ford alqoritmi [2, s.88]. Geniş miqyaslı şəbəkələrdə planlaşdırma alqoritminin hesablama effektivliyini sürətləndirmək və ən qısa yolun axtarış effektivliyini artırmaq məqsədilə müəlliflər məşhur A* alqoritmini təklif edirlər [3, s.102]. Yol şəbəkələrinin çoxsəviyyəli və iyerarxik xüsusiyyətlərini əsas götürən bir sıra alimlər isə çoxsəviyyəli yol şəbəkələrinə əsaslanan ən qısa yolun sürətləndirilmiş axtarış metodlarının daha sərfəli olduğunu söyləyirlər [4, s.302; 5; 6, s.3162]. Optimal şərt kimi qısa məsafədən istifadə etməklə yanaşı, dinamik olaraq dəyişən çəkilərə malik trafik şəbəkəsində ən qısa yolu müəyyən etmək üçün çoxlu tədqiqatlar aparılmış və zamanla dəyişən yol şəbəkələrində effektivlik baxımından ən qısa zamanlı yolun planlaşdırma alqoritmləri işlənib hazırlanmışdır [7, s.178; 8, s.128; 9, s.2432].

İki ölkə energetika, kənd təsərrüfatı, əczaçılıq, turizm, sənaye zonaları və aqroparklar, su təsərrüfatı və s. sahələrdə sıx əməkdaşlıq mövcud olsa da ölkəmiz İsraillə innovativ inkişaf və rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlıqda xüsusi maraqlıdır. [9]

Qonşu ölkələrlə münasibətdə balanslaşdırılmış xarici siyasət yürüdən Azərbaycanın İsrail ilə hərbi əməkdaşlığa önəm verməsi aprel döyüşləri zamanı və ən əsas da 44 günlük vətən müharibəsi dövründə İsrail istehsalı olan hərbi texnikanın istifadə olunması ilə bir daha öz əksini tapdı. Prezident İlham Əliyevin dövlət başçısı seçilməsindən sonra Azərbaycan ilə İsrail Dövləti arasında hərbi sahədə münasibətlərdə yeni bir dövr başlandı. Bu dövrdə siyasi, iqtisadi və hərbi sahədə formalaşan sıx əməkdaşlıq beynəlxalq arenada beynəlxalq və regional təşkilatlar səviyyəsində davam etdirilir. İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın İsraildən səfirini məsləhətləşmək adı ilə geri çağırması, regional və beynəlxalq platformalarda Azərbaycana lazımi dəstəyi verməsi iki ölkə arasında əlaqələrin yüksək səviyyədə olmasının göstəricisidir.

Azərbaycanın kibertəhlükəsizlik sahəsində İsraillə əməkdaşlığı da çox böyük əhəmiyyət kəsb edir. İsrail Dövlətinin yüksək səviyyəli hərbi sənaye potensialından yararlanmaq ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün prioritetlərdən biri olmuşdur. Azərbaycan mümkün təhdidlərdən müdafiə qabiliyyətini artırmaq üçün İsrail ilə müdafiə sənayesi sahəsində uzunmüddətli əməkdaşlıq yaratmış, öz müdafiə qabiliyyətini müasirləşdirmişdir. 2005-ci ildən başlayaraq Azərbaycan və İsrail hərbi-texniki sahədə fəal əməkdaşlıq edir. İlk illər Azərbaycan İsraildən reaktiv yaylım atəş sistemləri və pilotsuz uçuş aparatları idxal edərək 2008-ci ildə hərbi paradda nümayiş etdirmişdir. 2008-ci ildə Azərbaycanın Müdafiə Nazirliyi ilə İsrailin "Erbit" şirkəti arasında imzalanan müqaviləyə əsasən, Azərbaycan Silahlı Qüvvələrinin arsenalında olan T-72 tankları modernizasiya olunmuş və 2016-cı ilin aprel döyüşlərində istifadə edilmişdir. Bundan başqa, 2020-ci il İkinci Qarabağ müharibəsi dövründə İsraildən alınan pilotsuz təyyarələr və digər hərbi texnikalar Azərbaycanın tarixi qələbəsində mühüm rol oynamışdır. [19]

Qeyd olunmalıdır ki, Azərbaycanın silah ehtiyatının 60 faizdən çoxunu məhz İsrail silahları təşkil edir. Azərbaycan silahlı qüvvələrinin modernləşdirilməsi proqramı çərçivəsində İsraildən ən müasir hərbi avadanlıqlar - hərbi təyyarələr, pilotsuz uçuş aparatları, artilleriya, tank əleyhinə və piyadalar əleyhinə silahlar alınmışdır. Prezident İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasət strategiyasının əsas ideyalarından birini ölkəmizin müdafiə qabiliyyətinin artırılması və ordumuzun ən yeni silahlarla təchiz edilməsi təşkil edir. Bu istiqamətdə atılan əsas addımlardan biri 2012-ci ildə İsrail və Azərbaycan arasında zenit və raket əleyhinə sistemlər üzrə 1,6 milyard dollar dəyərində, 2016-cı ildə isə 5 milyard dollarlıq silah-sürsatın alınmasına dair uzunmüddətli müqavilələrin imzalanması olmuşdur. "İndiyədək Azərbaycan və İsrail şirkətləri tərəfindən müdafiə avadanlığının alınması ilə bağlı imzalanmış müqavilələrin dəyəri 5 milyard dollara yaxındır, daha dəqiq desək, 4 milyard 850 milyon dollardır" [15].

Bunu da vurğulamaq yerinə düşərdi ki, 2017-ci ildə Azərbaycan İsraildən ən çox (137 milyon dollar dəyərində) silah alan üçüncü ölkə olmuşdur [10].

27 sentyabr 2020-ci ildə başlayan "Dəmir yumruq" əməliyyatı 9 noyabr 2020-ci ildə ölkəmiz tarixi zəfərə imza ataraq 44 gün ərzində işğal altında olan bütün ərazilərini azad etdi. Azərbaycan ordusunun Ermənistanın

işğalında olan torpaqlarımızı azad etməsində Türkiyə və İsraildən alınmış pilotsuz təyyarələrin çox böyük rolu olmuşdur. Belə ki, Azərbaycan ordusu İsrail istehsalı olan pilotsuz uçuş aparatlarından, o cümlədən "Kamikadze" adlandırılan pilotsuz təyyarələrdən [20], xüsusən də, "Aerostar", "Hermes", "Heron" və "Harop" istifadə etmişdir. Bu cür uçan aparatlar kəşfiyyat, atəşin korrektəsi və düşmənin canlı qüvvəsi və yüngül zirehli texnikası ilə mübarizə aparmaq üçün idarə olunan döyüş sursatı kimi istifadə edilmişdir [14].

Azərbaycan və İsrail arasında regional təhlükəsizlik sahəsində ortaq maraqların olması onların strateji tərəfdaş olduğunu söyləməyə imkan verir. Strateji tərəfdaşlıq dövlətlər arasında yüksək səviyyəli siyasi, iqtisadi, sosial, ticarət və təhlükəsizlik sektorlarında əməkdaşlıq deməkdir.

İsrail və Azərbaycan həmçinin Türkiyə-İsrail-Azərbaycan-Gürcüstan ittifaqının yaradılmasını da dəstəkləyirlər. İsrailin Baş naziri Ariel Şaronun 8 avqust 2011-ci ildə Türkiyəyə səfəri zamanı Rusiya-Ermənistan-İran ittifaqına qarşı Türkiyə-İsrail-Azərbaycan-Gürcüstan ittifaqının yaradılması fikri ətrafında müzakirələr aparılmış, həmçinin İsrailin Azərbaycanla sıx əlaqələr qurmaqda maraqlı olması fikri səsləndirilmişdir.

İsrail ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin qurulmasında Türkiyə katalizator rolu oynamış, eyni zamanda Türkiyə-İsrail münasibətlərinin yaxşılaşmasında bu rol Azərbaycana keçmişdir. Müstəqilliyini yenicə bərpa edən Azərbaycanla İsrail arasındakı əlaqələri Türkiyə tənzimləyirdisə, artıq 2000-ci illərdən sonra ölkəmiz Türkiyə-İsrail münasibətlərinin bərpa edilməsində moderator rolunu oynamışdır.

Beləliklə, Azərbaycan-İsrail münasibətləri ilk qurulduğu illərdə çox yavaş templə və ancaq siyasi sahədə inkişaf etsə də zaman keçdikcə iqtisadi, hərbi, mədəni, təhlükəsizlik sahələrində də iki ölkə arasında geniş əlaqələr yaranmışdır. İki ölkə arasında güclü ikitərəfli münasibətlərin yaranması onların ortaq maraqlarının olmasından irəli gəlir. Xəzər dənizinin enerji təhlükəsizliyinin təmin olunmasında iki dövlətin maraqları eynidir. Həmçinin, Ermənistan-Azərbaycan münaqişəsi dövründə ölkəmiz İsrail lobbisini Qərbə təsir edən əsas vasitə olaraq görürdü, İsrail isə öz növbəsində Azərbaycanı İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində öz tərəfdaşı kimi görməkdədir. İsrail Türkiyə vasitəsilə Azərbaycan, Gürcüstan və Qazaxıstan kimi dövlətlərlə münasibətlərini inkişaf etdirərək, Cənubi Qafqaz və Xəzər regionundakı enerji layihələrinin inkişafına maraq göstərmişdir. Bundan başqa, Azərbaycanla münasibətləri inkişaf etdirən İsrail həm bu əməkdaşlığı digər müsəlman ölkələrinə "model" olaraq göstərir, həm də ölkəmizlə qurulan sıx əməkdaşlıq sayəsində burada yaşayan yerli yəhudi icmasının həyat səviyyəsini yüksəltməyə nail olur.

Azərbaycanın yürütdüyü xarici siyasət beynəlxalq münaqişələrin, milli və dini qarşıdurmaların, zorakılığın və düşmənçiliyin süni şəkildə qızışdırılmasının və bununla da gərginliyin artırılmasının əleyhinə çıxış edir. Ölkəmiz İsrail ilə İslam dünyası arasında sülhün və sabitliyin möhkəmlənməsi işinə öz töhfəsini verə bilər ki, bu da Yaxın Şərq regionunda baş verən və mümkün ola biləcək bir sıra gərginliklərin həll edilməsində mühüm platforma ola bilər [4].

Dünya ölkələri ilə bərabərhüquqlu münasibətlərin qurulması Azərbaycanın xarici siyasət prioritetlərindən biridir. Məhz bu siyasətin nəticəsidir ki, ölkəmizin xarici əlaqələri yüksələn xətt üzrə inkişaf edir. İsrail ilə Azərbaycan arasında qarşılıqlı etimad üzərində qurulan münasibətlərin hazırkı səviyyəyə çatması böyük perspektivlər vəd edir [13].

Azərbaycan Avrasiya regionunda İsraillə ən yüksək səviyyəli əlaqələrə malik olan dövlətdir. İsrail Xəzər regionunun mürəkkəb geosiyasi durumunu-İranın regionda öz rolunu artıraraq aparıcı aktor olmasına qarşı, həmçinin, İsrailə daha çox xam neftin ixrac olunması imkanını dəyərləndirərək Azərbaycanın regiondakı geostrateji əhəmiyyətini nəzərə alır və ölkəmizlə əməkdaşlığa önəm verir [23].

Odur ki, 2022-ci ildə Azərbaycanın Tel-Əvivdə səfirlik açması qərarı həm iki ölkə arasında diplomatik münasibətlərin inkişafı baxımından, həm də qlobal miqyasda Azərbaycanın maraqlarının müdafiə edilməsi baxımından olduqca önəmlidir. Eyni zamanda Azərbaycanın bu addımı yəhudi lobbisinin ölkəmizin maraqlarının təmin olunmasına dəstəyi, Türkiyə-İsrail münasibətlərinin normallaşması və Azərbaycan-ABŞ əlaqələrinin gələcəyi baxımından yüksək qiymətləndirilməlidir [22].

**Ədəbiyyat:**


1. Abilov S. The Azerbaijan-Israel Relations: A non-Diplomatic, but Strategic Partnership. - Orta Asya və Kafkasya Araştırmaları Dergisi, Cilt 4, Sayı 8, 2009, pp. 138-156
2. Azərbaycan-İsrail münasibətləri: 200 illik tarixə söykənən strateji tərəfdaşlıq, https://teleqraf.com/news/hadise/119016.html
3. Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında dostluğa və qarşılıqlı faydalı əməkdaşlığa söykənən əlaqələr mövcuddur, https://yeniazerbaycan.com/MEDIA_e56431_az.html
4. Azərbaycan-İsrail münasibətləri yeni mərhələdə, https://ikisahil.az/post/news-63778
5. Azərbaycan-İsrail münasibətləri: Tarixi əlaqələrə söykənən əməkdaşlıq https://teleqraf.com/news/siyaset/379205.html
6. Azərbaycan-İsrail əlaqələri zamanın qovşağında anl.az/down/meqale/xalqqazeti/2017/yanvar/525181.pdf
7. Azərbaycanın səfiri etimadnaməsini İsrail prezidentinə təqdim edib https://www.amerikaninsesi.org/a/7022600.html
8. Azərbaycan-İsrail münasibətləri https://respublika-news.az/news/azerbaycan-israil-munasibetleri
9. Azərbaycan - İsrail münasibətlərində yeni mərhələ: İran təşviş keçirsə də, əbəsdir https://www.ayna.az/azerbaycan-israil-munasibetlerinde-yeni-merhele
10. Azərbaycan-İsrail münasibətləri: yeni strateji hədəflər TƏHLİL https://sesqazeti.az/news/politics/1062016.html
11. Azərbaycan-İsrail münasibətləri: 200 illik tarixə söykənən strateji tərəfdaşlıq https://teleqraf.com/news/hadise/119016.html
12. Azərbaycan-İsrail əməkdaşlığında yeni mərhələ... https://a-r.az/az/article/19281
13. Azərbaycan-İsrail münasibətləri... https://www.yeniazerbaycan.com/Siyaset_e79020_az.html
14. Bakı Qarabağda əsasən İsrail istehsalı olan pilotsuz təyyarələrdən istifadə edir, https://sputnik.az/20200930/Baki-Qarabagda-esasen-israil-istehsali-olan-pilotsuz-teyyarlerden-istifade-edir-425073713.html
15. İlham Əliyev və Baş nazir Benyamin Netanyahu mətbuata bəyanatlarla çıxış ediblər. 13 dekabr 2016, https://president.az/articles/22035
16. İsrailin yaradılmasının 50-ci ili səbəbilə verilən ziyafətdə Heydər Əliyevin nitqi. 30 aprel 1998, http://library.aliyev-heritage.org/en/530475.html
17. İsrail Xarici İşlər Nazirliyi: Azərbaycanın İsraildə səfirlik açması tarixi qərardır https://www.amerikaninsesi.org/a/israel-s-ministry-of-foreign-affairs-azerbaijan-s-opening-of-an-embassy-in-israel-is-a-historic-decision/6840157.html
18. İsrail və Azərbaycan: “Mehriban münasibətlər və gələcək perspektivlər" https://report.az/analitika/israil-ve-azerbaycan-mehriban-munasibetler-ve-gelecek-perspektivler/

19. İsrail-Azərbaycan münasibətləri... https://www.yeniazerbaycan.com/Analitik_e87345_az.html
20. Israel under diplomatic fire over arms to Azerbaijan, https://www.globalvillagespace.com/israel-under-diplomatic-fire-over-arms-to-azerbaijan/
21. Netenyahu Meets with President of Azerbaijan in Baku, http://www.fas.org/irp/news/1997/970829-il.htm
22. Strateji səviyyədə yeni bir mərhələnin başlanğıcı – ÖZƏL, https://newscenter.az/2022/11/18/strateji-seviyyede-yeni-bir-merhelenin-baslangici.html
23. Lyuk Koffi: Azərbaycanla İsrail arasında inkişaf edən münasibətlər regionu daha sabit və təhlükəsiz edir https://www.amerikaninsesi.org/a/7060046.html
24. Elçin Əmirbəyov: İsrail və Azərbaycan strateji tərəfdaşdırlar https://azertag.az/xeber/elchin_emirbeyov_israil_ve_azerbaycan_strateji_terefdasdirlar-2715820

***Açar sözlər:*** *Heydər Əliyev, İlham Əliyev, İsrail, strateji müttəfiqlik, 44 günlük müharibə, əməkdaşlıq*

**Aynur Kerimova**

*The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan,
Department of History, Ph.D. candidate*

# HEYDAR ALIYEV'S ROLE IN CREATING STRATEGIC RELATIONS BETWEEN AZERBAIJAN AND ISRAEL

## ABSTRACT

Relations with the state of Israel have a special significance in the foreign policy of the Republic of Azerbaijan.

Azerbaijan is the main source of energy for Israel, and being one of the main importers of Azerbaijani oil through the Baku-Tbilisi-Ceyhan pipeline, it provides more than half of its oil needs through our country.

At the same time, Azerbaijan is interested in Israel's military and defense sectors, and in 2019, our country became the second largest customer of Israel's military industry after India.

In order to continue successfully maintaining bilateral relations at the diplomatic level, in November 2022, Azerbaijan decided to open its embassy in Israel. National leader Heydar Aliyev played an essential role in the development of Azerbaijani-Israeli relations, which today have the character of a strategic alliance.

***Keywords:*** *Heydar Aliyev, Ilham Aliyev, Israel, strategic cooperation, 44-day war, cooperation*

**Айнур Керимова**

*Докторант кафедры Истории*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В СОЗДАНИИ СТРАТЕГИЧЕСКИХ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ИЗРАИЛЕМ

### РЕЗЮМЕ

В первые годы независимости Азербайджанской Республики Азербайджано-Израильские отношения развивались только в политической сфере. Но сегодня между двумя странами существуют многосторонние отношения в области экономики, военной промышленности, культуры и безопасности. Азербайджан успешно использовал потенциал военной промышленности Израиля во время 44-дневной отечественной войны.

Решение об открытие посольства в Тель-Авиве в 2022 году очень важно с точки зрения развития дипломатических отношений между двумя странами и защиты интересов Азербайджана в глобальном масштабе. В то же время этим шагом азербайджанское правительство намеревается обеспечить интересы нашей страны, нормализацию отношений между Турцией и Израилем, и будущего отношений между Азербайджаном и США.

***Ключевые слова:*** *Гейдар Алиев, Ильхам Алиев, Израиль, стратегическое сотрудничество, 44-дневная война, сотрудничество*

DOI10.30546/2309-1347.84.2023.249

**G Ə N C T Ə D Q İ Q A T Ç I L A R**
**Y O U N G R E S E A R C H E R S**

**B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R**
**I N T E R N A T I O N A L R E L A T I O N S**

UOT 327

**SƏBİNƏ MUSTAFAYEVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının doktorantı**

*e-mail: sabina.mustafayeva10202@gmail.com*

*"İnsan hüquqlarının qorunması Azərbaycan dövlətinin əsas prinsiplərindən biridir. İnsan azadlığı, söz, vicdan azadlığı, insan hüquqlarının qorunması, bütün vətəndaşların eyni hüquqa malik olması, siyasi plüralizm Azərbaycanda demokratik cəmiyyətin əsas atributları kimi bərqərar olmalıdır".*

*Heydər Əliyev*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA İNSAN HÜQUQLARININ İNKİŞAFI

Azərbaycanda hər bir sahənin, o cümlədən də insan hüquq və azadlıqlarının təminatı və müdafiəsi mexanizminin təkmilləşdirilməsində Ümummilli Lider Heydər Əliyevin rolu əvəzolunmazdır. Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulması, "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanın imzalanması, "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq olunması, Şərqdə ilk dəfə olaraq ölüm hökmünün tamamilə ləğv edilməsi, beynəlxalq təşkilatlara tamhüquqlu üzv qəbul edilməsi və bu kimi digər əhəmiyyətli məsələlər demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuş, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır.

XX əsrin ikinci yarısından etibarən insan hüquqlarının müdafiəsi dünya siyasətinin mühüm istiqamətini təşkil edir. İnsan hüquq və azadlıqlarının qorunması demokratik dövlətin qarşısında duran prioritet vəzifə və müasir dünyaya inteqrasiya yoludur. Müasir dövrdə hər kəsə öz hüquqlarını müdafiə etmək üçün beynəlxalq orqanlara müraciət etmək hüququ verilib. İnsan hüquq və azadlıqlarının reallaşmasına beynəlxalq mexanizmlərlə bərabər milli mexanizmlər də təsir edir. Azərbaycan müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının təmin edilməsi, onların mü-

dafiəsi və daha da genişləndirilməsi dövlətin ən ali məqsədi elan edilib. Bu ali məqsədin müəyyənləşdirilməsi, onun həyata keçirilmə mexanizmlərinin tapılması və reallaşdırılması, hüquqi bazanın yaradılması istiqamətində çox işlər görülüb.

İnsan hüquqları amili Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin əsası olmuşdur. Azərbaycanın bu gün dünyada müstəqil, hüquqi və demokratik dövlət kimi tanınması, ölkə vətəndaşlarının hüquqlarının, azadlıqlarının müdafiə olunması, təmin edilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra ölkədə hüquqi dövlət quruculuğu sahəsində ardıcıl, sistemli və gələcəyə hesablanan islahatlara başlanmışdır. Bu sahədə onun xidmətlərini iki mərhələ üzrə təhlil etmək olar: 1969-1980-ci illər və 1993-cü ildən sonrakı dövr.

Birinci dövrdə, Azərbaycanın 1978-ci il Konstitusiyasında bəzi hüquqların, əsasən də sosial hüquqların, məsələn, istirahət, mənzil, təhsil hüquqlarının tanınması, əsasız həbslərin qadağan olunması insan hüquqları elmində bu istiqamətdə elmi tədqiqatların aparılmasına şərait yaratmışdır.

İkinci dövr 1993-cü ildən sonrakı dövrü əhatə edir. Bu dövr insan hüquqlarının inkişafı ilə bağlı ən mühüm dönəmdir. Həmin dövrdə ilkin olaraq beynəlxalq konvensiyalara qoşulmaq, daha sonra isə həmin konvensiyalar əsasında müasir milli hüquqi normalar işləyib hazırlamaq, mövcud normaları beynəlxalq sənədlər əsasında təkmilləşdirmək Heydər Əliyevin qarşıya qoyduğu başlıca vəzifələr idi. Belə ki, 1995–1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur: “BMT-nin qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında 1979-cu il Konvensiyası (1995), İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” 1965-ci il Beynəlxalq Konvensiyası (1996), “Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında” 1948-ci il Konvensiyası (1996), “Köləliyin, qul ticarətinin və köləliyə oxşar institutların və adətlərin ləğv olunması haqqında” 1950-ci il Əlavə Konvensiyası (1996), “İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı” 1984-cü il Konvensiyası (1996), “Mədəniyyət sərvətlərinin qanunsuz olaraq gətirilməsinin, çıxarılmasının və onların üzərində mülkiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında” 1970-ci il Konvensiyası (1997) [1].

Müstəqillik əldə etmiş Azərbaycan hüquqi və demokratik cəmiyyətin qurulması və inkişafını, insan hüquq və azadlıqlarının müdafiəsini təmin etmək, SSRİ-dən miras qalmış hüquq sistemindən qurtulmaq üçün hüquq sahəsində islahatların həyata keçirilməsini, tamamilə yeni və demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin, qanunvericilik bazasının formalaşdırılması yolunda addımlar atırdı. Bu məqsədlə atılan ilk addım müstəqil Azərbaycanın ilk Konstitusiyasının Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi olmuşdur. Konstitusiyamızın III fəsli (24-71-ci maddələr) bütövlükdə, yəni 158 maddədən 48-i insan və vətəndaş hüquqlarına və azadlıqlarına həsr edilmişdir. Konstitusiyanın 71-ci maddəsində insan və vətəndaş hüquqlarına və azadlıqlarına təminat verilir [2]. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu hesab edilir. Demokratik tələblərə tamamilə cavab verən Konstitusiyanın qəbulu dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur.

Hüquqi islahatların, qəbul edilmiş qanunların, Konstitusiyanın müddəalarının həyata keçirilməsi üçün qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyəti təmin edilməlidir. Bu məqsədlə Heydər Əliyev ölkədə yeni dövrün tələblərinə cavab verən hüquq qanunvericiliyinin formalaşdırılması

üçün 21 fevral 1996-cı il tarixdə Hüquqi İslahatlar Komissiyasının yaradılması barədə sərəncam imzalamışdır [3]. Hüquqi İslahatlar Komissiyası hüquqi islahatların prioritetlərini müəyyən etdi və Sovet İttifaqından qalmış hüquq sisteminin fəlsəfəsini tamamilə dəyişdirdi. Həmin komissiya tərəfindən hazırlanmış "Konstitusiya Məhkəməsi haqqında" (2003), "Məhkəmələr və hakimlər haqqında" (1997), "Vəkillər və vəkillik fəaliyyəti haqqında" (1999), "Prokurorluq haqqında" (1999), "Polis haqqında" (1999) və digər qanunların qəbulu hüquq islahatları sırasında xüsusi əhəmiyyətə malikdir [4].

Cəmiyyətimizin iqtisadi və sosial həyatının daimi inkişafı məhkəmə sisteminin təkmilləşdirilməsi işini hər zaman gündəmdə saxlayır. Bu sahədə növbəti addım Prezident İlham Əliyevin 19 yanvar 2006-cı il tarixdə Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi ilə bağlı imzaladığı fərman olmuşdur [5]. Bəzi məhkəmə instansiyalarının fəaliyyəti ilə bağlı vətəndaşlarda narahatlıq yaradan məqamların aradan qaldırılması istiqamətində bu mühüm addım olmuşdur. Həmin Fərmanla regionlarda apellyasiya və yeni iqtisad məhkəmələri yaradılmışdır. Bu da vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı qorunması, onların məhkəməyə müraciət etmək imkanlarının asanlaşdırılması istiqamətində yeni mərhələnin başlanğıcı olmuşdur.

İnsan hüquqlarının və azadlıqlarının qorunması istiqamətində bir çox qanunlar, o cümlədən "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya qanunu, Seçki Məcəlləsi, "Sərbəst toplaşmaq azadlığı haqqında", "Siyasi partiyalar haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Dini etiqad azadlığı haqqında", "İnformasiya əldə etmək haqqında", "Məlumat azadlığı haqqında", "Gender bərabərliyinin təminatları haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və digər qanunlar qəbul edilmişdir [6].

XX əsrin II yarısından beynəlxalq təşkilatların dünya siyasi arenasında rolu əhəmiyyətli dərəcədə artmışdır. Beynəlxalq aləmdə beynəlxalq təşkilatların sayının və rolunun artması onların daha çox insanın həyatına və hüquqlarına olan təsir gücünü artırmışdır. Müstəqil dövlət kimi beynəlxalq və regional təşkilatlara üzv olmaq, onlarla əməkdaşlıq etmək Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri olmuşdur. Belə ki, 1992-ci il martın 2-də BMT Baş Assambleyasının 46-cı sessiyasının 82-ci plenar iclasında 46/230 saylı qətnamə qəbul olunandan sonra Azərbaycan təşkilata üzv qəbul edilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ilin sentyabr ayında BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirakı ilə Azərbaycan Respublikası ilə BMT arasında məzmunlu tərəfdaşlığın əsası qoyulmuşdur [7].

Azərbaycan Respublikası BMT-yə üzv olduqdan sonra dünya birliyinin tamhüquqlu subyekti kimi 120-dən artıq beynəlxalq konvensiyaya, o cümlədən İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə (1948), BMT-nin Baş Məclisi tərəfindən 1966-cı ildə qəbul olunmuş Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, BMT-nin Uşaq hüquqları haqqında Konvensiyası (1989), BMT-nin Qadınların siyasi hüquqları haqqında Konvensiyası (1952), Hüquq Qaydasının Saxlanması üzrə Vəzifəli Şəxslərin Davranış Məcəlləsi (1979) və digər sənədlərə qoşulmuşdur [8]. Ümumiyyətlə, Azərbaycanın müxtəlif vaxtlarda qoşulduğu beynəlxalq-hüquqi aktların əsas müddəaları Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasında təsbit olunmuşdur.

Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri də BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur [9]. Həmin memoranduma əsasən, BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində

Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir.

Azərbaycan Respublikası insan hüquqları sahəsində əsas beynəlxalq sənədlərə qoşulmaqla yanaşı, onlardan irəli gələn müddəaların həyata keçirilməsi istiqamətində beynəlxalq təşkilatlarla hər zaman sıx əməkdaşlıq etmişdir. Bu təşkilatların sırasında BMT-nin insan hüquqlarının təşviqi və müdafiəsi sahəsində fəaliyyət göstərən müxtəlif qurumları, ATƏT, Avropa Şurası və Avropa İttifaqı mühüm yer tutur.

Məlumdur ki, BMT-nin fəaliyyəti 3 sütun üzərində qurulmuşdur: sülh və təhlükəsizlik, inkişaf və insan hüquqları. Ölkəmiz bu sahələrdə hər zaman BMT ilə fəal əməkdaşlıq etmişdir, həmçinin də insan hüquqlarının təşviqi sahəsində proseslərdə də fəal iştirak etmiş, bir sıra qətnamələrin müəllifi və ya həmmüəllifi olmuşdur. Bunlar arasında müvafiq BMT orqanlarında qəbul olunan "İtkin düşmüş şəxslər" və "Silahlı münaqişələr zamanı girov götürülmüş, o cümlədən sonradan həbs edilmiş qadın və uşaqların azad edilməsi" başlıqlı qətnamələri göstərmək olar.

İnsan hüquqlarının təşviqi və müdafiəsi sahəsində Azərbaycan hökuməti ilə BMT-nin İnsan hüquqları üzrə Ali komissarlığı arasında səmərəli əməkdaşlıq qurulmuşdur. Bu əməkdaşlıq ilkin olaraq 1998-ci ildə imzalanmış və müddəti 2000-ci ilədək müəyyən edilmiş "İnsan hüquqlarının müdafiəsi və təşviqi üçün imkanların və infrastrukturun gücləndirilməsi" (Strengthening Capacities and Infrastructure for the Protection and Promotion of Human Rights in Azerbaijan) adlı texniki əməkdaşlıq sənədinə əsasən həyata keçirilmişdir [10].

1993-cü ildə hakimiyyətə gələn vaxtdan Heydər Əliyev Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələləri hər zaman gündəmdə saxlamışdır. Bu kontekstdə insan hüquqlarının əsasını təşkil edən yaşamaq hüququna təhdid olan beynəlxalq terrorizm və insan hüquqlarının qorunması baxımından onunla mübarizə, dünya ictimaiyyətinə, o cümlədən beynəlxalq elmi ictimaiyyətə Azərbaycan haqqında həqiqətlərin çatdırılması mühüm əhəmiyyət kəsb etmişdir.

Azərbaycan hər zaman insan hüquqlarının ümumi standartlarının təmini məsələsi ilə yanaşı insan hüquqlarının kütləvi şəkildə pozulduğu hallara, xüsusilə də münaqişələr zamanı, diqqətin artırılmasına səy göstərmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində aktuallaşan qaçqın və məcburi köçkün problemi insan hüquqlarının, xüsusilə yaşamaq, mülkiyyət və torpaq hüququnun, eləcə də beynəlxalq humanitar hüquq normalarının pozulması ilə müşahidə olunmuşdur. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşmüş şəxslərin hüquqlarının kütləvi şəkildə pozulması faktının dünya ictimaiyyətinə çatdırılması və onlara dəymiş zərərin Ermənistan dövləti tərəfindən ödənilməsi məqsədilə tədbirlərin həyata keçirilməsi Heydər Əliyevin insan hüquqları yönümlü siyasətinin başlıca istiqamətlərindən biri olmuşdur.

Qaçqın və məcburi köçkünlərin hüquqi statusu həm beynəlxalq hüquq normaları, həm də milli hüquq normaları ilə tənzimlənmişdir. Qaçqınların statusunu tənzim edən milli hüquqi aktlara 21 may 1999-cu ildə "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" və "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanunları, "Qaçqın statusu verilməsi haqqında vəsatətlərə baxılması qaydasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 noyabr 2000-ci il tarixli fərmanı və s., qaçqınların statusunu tənzim edən əsas beynəlxalq hüquqi aktlara isə "Qaçqınların hüquqi statusu haqqında" 1951-ci il Cenevrə Konvensiyası, "Qaçqınların statusuna dair" 1967-ci il Nyu-York protokolu aiddir [11].

Bu məsələ ilə beynəlxalq səviyyədə məşğul olan orqan – Qaçqınlar üzrə Ali Komissarlıq 1950-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən İkinci Dünya Müharibəsindən sonra evlərini itirmiş milyonlarla insana kömək etmək üçün yaradılmışdır [12]. BMT QAK fəaliyyətə başladığı ilk illərdən etibarən qaçqın və məcburi köçkünlər üçün sığınacaq, əsas ehtiyacların ödənilməsi

(ərzaq, qeyri-ərzaq yardımı, su təchizatı, sanitariya və s.), təhsil, səhiyyə, və s. layihələr həyata keçirmişdir.

BMT QAK qaçqın məsələlərinin həllinə dair idarəetmə təcrübəsini və zəruri yardımı Azərbaycana gətirmiş ilk beynəlxalq təşkilatlardan biri olmuşdur. 90-cı illərdə təşkilatın Azərbaycanda olan məcburi köçkünlər üçün əməliyyatlarına hər il 8 milyon ABŞ dollarınadək vəsait sərf olunurdu. Azərbaycan Respublikası 2012-ci ildən BMT QAK-ın İcraiyyə Komitəsinin üzvüdür və qurumun hər ilin oktyabr ayında təşkil olunan sessiyasında Azərbaycan yüksək səviyyəli nümayəndə heyəti ilə fəal iştirak edir [13]. münaqişəsinə toxunmuşdur [8].

Bildiyimiz kimi, Birləşmiş Millətlər Təşkilatı sistemində iki növ insan hüquqlarına nəzarət mexanizmləri mövcuddur: müqavilə əsaslı orqanlar və nizamnamə əsaslı orqanlar. İnsan Hüquqları Müqavilə Orqanları müstəqil ekspertlərdən ibarət komitələrdən ibarətdir və o, beynəlxalq insan hüquqları müqavilələrinin icrasına nəzarət edir. Nizamnaməyə əsaslanan orqanlara isə İnsan Hüquqları Şurası, Xüsusi Prosedurlar, Universal Dövri İcmal və Müstəqil Araşdırmalar daxildir. BMT-nin insan hüquqlarına cavabdeh olan əsas hökumətlərarası qurumu - İnsan Hüquqları Şurası (HRC – Human Rights Council) 15 mart 2006-cı ildə BMT Baş Assambleyasının 60/251 saylı qətnaməsinə əsasən 60 yaşlı BMT İnsan Hüquqları Komissiyasını (HRC- Commission on Human Rights) əvəz etmək üçün yaradılmışdır [14]. Şura Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlərdə birləşmək və toplaşmaq azadlığı, ifadə azadlığı, inanc və din azadlığı, qadın hüquqları, irqi və etnik azlıqların hüquqlarının pozulması ilə bağlı iddiaları araşdırır, onlara dair tövsiyələr verir, o cümlədən insan hüquqları ilə bağlı fövqəladə hallara reaksiya verməklə bütün dünyada insan hüquqlarının təşviqi və müdafiəsini gücləndirmək vəzifəsi daşıyır. İHŞ Baş Assambleyaya hesabat verir. Bu unikal mexanizm dörd ildə bir dəfə BMT-yə üzv olan dövlətlərin insan hüquqlarına dair sənədlərinə baxılmasını nəzərdə tutur. Şuranın regional qrup əsasında mərhələli üç il müddətinə seçilən 47 üzvü var. Şura İnsan Hüquqları üzrə Ali Komissarlığın İdarəsi (OHCHR) ilə sıx əməkdaşlıq edir və Birləşmiş Millətlər Təşkilatının xüsusi prosedurlarını həyata keçirir.

İnsan Hüquqları Şurasının ən innovativ xüsusiyyəti Universal Dövri İcmaldır. İcmal Şuranın himayəsi altında dövlət tərəfindən idarə olunan əməkdaşlıq prosesdir və bu proses hər bir dövlətə öz ölkəsində insan hüquqlarının vəziyyətinin yaxşılaşdırılması və beynəlxalq öhdəliklərini yerinə yetirmək üçün görülən tədbirləri və həll edilməli olan problemləri təqdim etmək imkanı verir. İcmal hər bir ölkə üçün universallığı və rəftar bərabərliyini təmin etmək üçün nəzərdə tutulmuşdur.

Azərbaycan 2006-cı ilin may ayında ora üzv seçilmiş və İHŞ 19 iyun tarixindən fəaliyyətə başlamışdır. İHŞ-nin ilk 47 üzv-dövlətindən biri olmuşdur [15]. Beləliklə, bu addım Azərbaycanın insan hüquqları sahəsində əldə etdiyi mühüm nailiyyətlərdən biri olmuşdur. Bu nailiyyətlər dövlətimizin beynəlxalq nüfuzunun daha da artmasına səbəb olmuşdur.

İnsan hüquqlarının təşviqi və müdafiəsi sahəsində Azərbaycanın əməkdaşlıq etdiyi təşkilatlardan biri də ATƏT-dir. ATƏT çərçivəsində iştirakçı dövlətlərə yardım göstərilməsi və müvafiq sahədə qəbul edilmiş öhdəliklərin icrası məqsədilə iştirakçı dövlətlərə yardım göstərilməsi üçün üç icraçı institut fəaliyyət göstərir: Demokratik Təsisatlar və İnsan hüquqları Bürosu (DTİHB), Media azadlığı üzrə Nümayəndə və Milli Azlıqlar üzrə Ali Komissar.

Azərbaycan Respublikası ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİHB) ilə 1998-ci ildən başlayaraq əməkdaşlıq etməyə başlamışdır. Həmin ilin noyabr ayının 26-da onlar arasında Qarşılıqlı Anlaşma Memorandumu imzalanmışdır [16]. Memorandumun əlavəsində ölkədə insan hüquqları sahəsində demokratik islahatların həyata keçirilməsi istiqamətində sıx əməkdaşlıq nəzərdə tutulmuşdur. Bundan başlayaraq Azərbaycan DTİHB ilə əməkdaşlıq aparmış və demokratikləşdirmə, qanunun aliliyi, qanunvericiliyin,

xüsusilə də seçki qanunvericiliyinin təkmilləşdirilməsi, miqrasiya, gender bərabərliyi və digər sahələrdə bir çox layihələr həyata keçirmişdir. DTİHB Azərbaycanda keçirilmiş prezident, parlament və bələdiyyə seçkilərinin müşahidə prosesində iştirak etmişdir. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu və Bakı Ofisinin dəstəyi ilə Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı, fikir və ifadə azadlığının təşviqi, gender bərabərsizliyi və qadınlara qarşı zorakılıqla mübarizə, işgəncələrin qarşısının alınması, insan hüquqları üzrə maarifləndirmə, azad və ədalətli seçkilər sahələrində mühüm layihələr və tədbirlər həyata keçirilmişdir.

ATƏT-in ikinci icraçı institutu olan Media azadlığı üzrə Nümayəndəsi vəzifəsi təşkilatın Daimi Şurasının 5 noyabr 1997-ci il tarixli qərarı ilə təsis edilmişdir [17]. Nümayəndənin mandatına ATƏT iştirakçı dövlətlərində media sahəsindəki prosesləri müşahidə etmək və müvafiq sahədə qəbul edilmiş öhdəliklərin icrasında iştirakçı dövlətlərə yardım etmək aiddir. Azərbaycan hökuməti ATƏT-in Mətbuat Azadlığı üzrə Nümayəndəsi ilə onun mandatına daxil olan məsələlər ilə bağlı əməkdaşlıq edir. Bu təsisat ilə əməkdaşlığın nümunəsi kimi azərbaycanlı jurnalistlər və müxtəlif qurumların mətbuat xidməti əməkdaşları üçün keçirilən treninqlər, xüsusilə Azərbaycanın kütləvi informasiya vasitələrinə aid qanunvericiliyinin təkmilləşdirilməsi və onun hüquqi ekspertizasını göstərmək olar.

ATƏT-in sonuncu icraçı institutu – Milli Azlıqlar üzrə Ali Komissar vəzifəsi ATƏM-in 1992-ci il Helsinki Sammitinin müvafiq qərarına əsasən təsis edilmişdir [18]. Ali Komissarın mandatı ATƏT iştirakçı dövlətlərində milli azlıqlardan qaynaqlanan gərginliklərin qarşısını almaq məqsədilə erkən xəbərdarlıq və erkən fəaliyyət istiqamətlərini əhatə edir. ATƏT-in tamhüquqlu üzvü olmasından sonra Azərbaycan ATƏT-in Milli Azlıqlar üzrə Ali Komissarı ilə əlaqələr yaratmışdır. Azərbaycan milli azlıqların hüquqlarının müdafiəsi, onların vətəndaşı olduqları dövlətlərin ictimai həyatına tamhüquqlu inteqrasiyası kimi vacib istiqamətlərdə yaxşı təcrübələrin bölüşülməsi və norma yaradıcılığı sahələrində əməkdaşlıq edir.

Heydər Əliyevin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmişdir [19]. Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərara imza atan ilk ölkə olmuşdur. Yüksək insanpərvərliyin əyani təcəssümü olan bu addım Azərbaycanda insan hüquqlarına prioritet əhəmiyyət verildiyini göstərməklə yanaşı, ölkəmizin Avropa Şurasına tamhüquqlu üzvlüyünün reallaşmasına da əsaslı töhfə oldu. 2001-ci ilin 25 yanvarında Azərbaycan Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tam hüquqlu üzv qəbul edildi, bu da ölkəmizdə məhkəmə-hüquq islahatlarının uğurla davam etdirilməsinə, insan hüquq və azadlıqlarının maksimum müdafiəsi üçün çevik mexanizmlərin yaradılmasına, qanunun aliliyinin təmin olunmasına təkan verdi. Bundan sonra Azərbaycan "İnsan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına" qoşuldu [20]. Bu zaman o, öz üzərinə milli qanunvericiliyin beynəlxalq Avropa standartlarına uyğun təkmilləşdirilməsi öhdəliyini götürdü. Bu istiqamətdə atılan addımlardan ən mühümü Heydər Əliyevin 5 mart 2002-ci il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" qanunun qəbul edilməsi və Ombudsman Aparatının yaradılmasıdır. 2001-ci il dekabrın 28-də Milli Məclis tərəfindən "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunu qəbul olundu [21]. Ölkədə Ombudsman Aparatı yaradıldıqdan sonra vətəndaşların hüquqlarının müdafiəsi sahəsində daha ciddi nailiyyətlər əldə edilməyə başlandı.

Demokratik inkişaf yolu seçmiş Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin real təminatı üçün zəruri qanunvericilik bazası yaradılmışdır. İnsan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyasını müəyyən etmək üçün 1998-ci ilin 22 fevralında Ümummilli Lider Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin

edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamışdır [22]. Bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır.

1998-ci il 18 iyun tarixdə isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur [23]. Dövlət Proqramına əsasən, Azərbaycanın qoşulduğu konvensiyalara və qəbul etdiyi qanunvericilik aktlarına, eyni zamanda Konstitusiyanın müddəalarından irəli gələn tələblərə müvafiq olaraq insan hüquqlarının müdafiəsi sahəsində görülən işlərin səmərəliliyi daha da artırılmışdır.

Milli insan hüquqları standartlarının Avropa İnsan hüquqları Konvensiyasına uyğunlaşdırılması məqsədilə 2002-ci ilin dekabrında "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya Qanunu qəbul edildi [24].

Beləliklə, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən hüquqi islahatların birinci mərhələsində demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni üçpilləli məhkəmə sistemi, konstitusiya nəzarəti, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatlar yaradıldı, hüquq mühafizə fəaliyyəti təkmilləşdirildi, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyəti genişləndi.

Demokratik cəmiyyətdən, insan hüquq və azadlıqlarından söz düşəndə diqqət yetirilən ən vacib məqamlardan biri də söz və mətbuat azadlığı, onun necə təmin edilməsidir. Konstitusiyanın 47-ci maddəsi isə ölkəmizdə fikir və söz azadlığının təminatı məsələsini özündə ehtiva edir. Azərbaycanda azad mətbuatın formalaşması, hər kəsin öz fikrini sərbəst şəkildə ifadə edə bilmək imkanı qazanması, təbii ki, Ümummilli Liderin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə bu azadlıqları məhdudlaşdıran süni maneələr aradan qaldırılmış, qanunvericilik bazası təkmilləşdirilmiş, kütləvi informasiya vasitələrinin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində də ardıcıl tədbirlər həyata keçirilmişdir. 1998-ci il avqustun 6-da Heydər Əliyev "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzaladı [25]. Bu fərmanın bir bəndilə mətbuatda dövlət sirlərini mühafizə edən baş idarə ləğv olundu. Bu, senzuranın ləğvi demək idi. Təsadüfi deyil ki, azad sözün təmin olunmasında tutduğu mövqeyə və xidmətlərinə görə Heydər Əliyev 2001-ci ildə "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdür.

Kütləvi informasiya vasitələrinin inkişafına şərait yaradılmasını öz siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirən Prezident İlham Əliyev də bu siyasəti uğurla davam etdirir. Bunu 2005-ci ildən başlayaraq, mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi və jurnalist əməyinin qiymətləndirilməsi məqsədilə bir sıra fərman və sərəncamlar imzalanması faktı ilə aydın görmək mümkündür. Həmin ilin iyulunda milli mətbuatın 130 illiyi Prezidentin sərəncamı ilə ölkə miqyasında qeyd edildi. Sentyabr ayında isə "İnformasiya əldə etmək haqqında" Qanun təsdiq edildi. Jurnalistlər dövlət mükafatına və fəxri adlara layiq görüldü. 2006-cı ildə qəzetlərin "Azərbaycan" nəşriyyatına olan 450 min ABŞ dolları həcmində borcu dövlət büdcəsindən ödənildi [26].

Bundan başqa, 2008-ci ildə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" Prezident sərəncamları dövlət-mətbuat münasibətlərinin tənzimlənməsi istiqamətində atılan mühüm addımlardır. Konsepsiyada əks olunan məsələləri həll etmək üçün 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmışdır [27]. Fond bir sıra tədbirlər həyata keçirməkdədir: müxtəlf illərdə dövlət büdcəsindən fonda milyon manatlarla vəsaitlər ayrılmış, qəzetlərə maliyyə yardımı göstərmiş, KİV layihələrini maliyyələşdirmiş, jurnalist yazılarını mükafatlandırmışdır. Bütün bu xidmətlərin məntiqi ardıcıllığı olaraq Azərbaycan Prezidenti İlham Əliyev 2010-cu ilin yeku-

nuna görə "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdür.

Qadın hüquqları ilə bağlı aparılan tədbirlər bu gün dünyada önəmli yerlərdən birini tutur. Şərqdə ilk dəfə qadına səsvermə hüququnu verən bir ölkə olaraq Azərbaycanda bu istiqamətdə, xüsusilə qadınların hüquqlarının müdafiəsi istiqamətində intensiv işlər görülmüşdür. Dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi və dövlət səviyyəsinə qaldırılması Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev 1998-ci ildə "Azərbaycanda qadınların rolunun artırılması haqqında" və 2000-ci ildə "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərmanlar imzalamışdır. Bu sənədlər hər mənada qadınların fəallığına, cəmiyyətdə öz yerlərini tutmalarına kömək olmuşdur. 2000-ci ilin iyun ayında isə Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasında qadın məsələləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planı"nı qəbul etmişdir [28]. Bu isə ölkədə qadın siyasətinin daha da güclənməsinə gətirib çıxarmışdır.

Azərbaycan bir sıra beynəlxalq təşkilatlara qoşularaq, konvensiyaları, protokolları qəbul etmiş və milli qanunvericilikdə qadınların hüquqları mövzusunu təkmilləşdirmişdir. Ölkəmiz 1995-ci ildə "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" BMT Konvensiyasını, həmçinin Beynəlxalq Əmək Təşkilatının (BƏT) qadın əməyi sahəsində qəbul etdiyi "Yeraltı işlərdə qadın əməyinin tətbiqi haqqında", "Bərabər əməyə görə kişilərə və qadınlara bərabər haqq verilməsi haqqında", "Analığın mühafizəsi haqqında", "Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında" və "Ərdə olan qadının vətəndaşlığı haqqında" Konvensiyalarını qəbul etmişdir. Hüquqi bazanın təkmilləşdirilməsi üçün 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur. Bu qanunların qəbul edilməsi insanların təfəkküründə yeni düşüncə tərzinin formalaşmasına təkan verərək bir çox stereotiplərin qırılmasına səbəb olmuşdur.

Qadın hüquqlarının müdafiəsi, onlar üçün yaradılan bütün imkanların daha da genişləndirilməsi Prezident İlham Əliyevin dövlət siyasətində müəyyən etdiyi prioritet istiqamətlərdəndir. 2006-cı ildə qadınlarla bağlı işlərin daha mütəşəkkil və ardıcıl şəkildə aparılması üçün Prezident İlham Əliyevin Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır [29].

Heydər Əliyevin mütərəqqi dövlət siyasətində insan hüquq və azadlıqlarının qorun-masına xüsusi önəm verməsi və bu sahədə aparılmış əsaslı hüquqi islahatlar hüquq elminin müasir tələblərə uyğun təkamülündə də mühüm əhəmiyyət kəsb etmişdir. Bu siyasət insan hüquqları elminin müasir inkişaf perspektivlərini belə müəyyən etmişdir:

1. Bu sahədə tədqiqatlar aparan tədqiqatçı və alimlər üçün sərbəst araşdırma aparmaq şəraiti yaradılmışdır. Bunun nəticəsində beynəlxalq normalar və xarici dövlətlərin təcrübəsi yüksək səviyyədə təhlil olunmuş, insan hüquq və azadlıqları ilə bağlı milli normalara dəyişikliklərlə bağlı təkliflər işlənib hazır-lanmışdır. 24 avqust 2002-ci il, 18 mart 2009-cu il və 26 sentyabr 2016-cı ildə ümumxalq səsverməsi ilə (referendum) Azərbaycan Respublikasının Konstitusiyasına müasir demokratik cəmiyyətin tələblərinə cavab verən əlavələr və dəyişikliklərin edilməsi bu istiqamətdə elmi inkişafı təsdiq etmişdir [30]. Ölkəmizdə insan hüquq və azadlıqlarının təminatına dair yaradılmış normalar insan hüquqları elmində yeni elm sahələrini meydana gətirmişdir. Məsələn, "Gender bərabərliyi", "Qadın və uşaq hüquqları" və s.

2. İnsan hüquqları ilə bağlı müxtəlif təsisatların yaradılması və onların elmi-tədqiqat sahəsində əməkdaşlığı insan hüquqları elminin inkişafının ikincini istiqamətini təşkil etmişdir. İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramında insan hüquqları üzrə elmi tədqiqat institutunun yaradılması, eləcə də insan hüquqları üzrə fəaliyyət göstərən beynəlxalq institut və mərkəzlərdə, digər təsisatlarda müvafiq tədqiqat, təhsil və təcrübə proqramlarının öyrənilməsi üçün mütəxəssislərin iştirakının təmin edilməsi müvafiq dövlət orqanlarına

həvalə olunmuşdur. Bu da insan hüquqları üzrə elmi biliklərin mübadiləsində mühüm əhəmiyyət kəsb edir.

3. Heydər Əliyevin qabaqcıl elm və təhsil siyasətinin nəticəsi olaraq insan hüquqları ilə bağlı tədris sistemində köklü dəyişikliklər edilmişdir. Heydər Əliyev tərəfindən İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramında əsası qoyulmuş, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı və Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında insan hüquqları sahəsində tədris, maarifləndirmə, elmi-analitik və əməkdaşlıq tədbirləri prioritet istiqamətlər sırasında mühüm yer almaqdadır.

Ulu öndər Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir. Bu siyasət 2003-cü ilin oktyabrından Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı – dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilir. Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində ölkədə insan hüquq və azadlıqlarının təmini prosesi daha da təkmilləşir, Azərbaycan bu sahədə daha böyük uğurlara imza atır və atmaqda davam edəcəkdir. Prezident İlham Əliyevin imzaladığı çoxsaylı əfv fərmanları, eləcə də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Milli Məclis tərəfindən elan edilən amnistiyalar da insan hüquqlarına göstərilən böyük diqqətin real təcəssümüdür.

Prezident İlham Əliyevin 2006-cı il dekabrın 28-də Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsinə dair imzaladığı sərəncam da mühüm əhəmiyyətə malikdir [31]. Bu sərəncamda Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Sərəncamda bir daha göstərilir ki, ötən illər ərzində ölkəmiz insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirmiş, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir.

İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində 27 dekabr 2011-ci il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən Azərbaycanda Milli Fəaliyyət Proqramı təsdiq edilmişdir [32]. Proqram, əsasən, BMT İnsan Hüquqları Şurasının (İHŞ) Universal Dövri İcmal (UDİ) üzrə Azərbaycanın birinci məruzəsi ilə bağlı verilmiş tövsiyələrdə əks olunan məsələləri özündə ehtiva edir. Fəaliyyət Proqramı normativ-hüquqi bazanın (həmçinin, qanunların hazırlanması zamanı insan hüquq və azadlıqlarının əsas amil kimi götürülməsi vasitəsilə), dövlət qurumlarının işinin təkmilləşdirilməsi, şəffaflığın artırılması, vətəndaş cəmiyyəti ilə sıx əməkdaşlığın davam etdirilməsi, insan hüquqları sahəsində təlim, tədqiqat və maarifləndirici tədbirlərin davam etdirilməsi, habelə insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla birgə əməkdaşlıq proqramlarının həyata keçirilməsini nəzərdə tutmuşdur. "Milli Fəaliyyət Proqramı"nın müddəalarına əsaslanmaqla insan hüquqları aylığı çərçivəsində, ölkəmizin bütün regionlarında dövlət qurumları, QHT və KİV-lər, beynəlxalq təşkilatlar, icmalar tərəfindən insan hüquqlarının effektiv müdafiəsinə yeni mərhələ açan, əhalinin müxtəlif qruplarını əhatə etməklə insan hüquqlarını təbliğ edən mövzularda müxtəlif maarifləndirmə tədbirləri və müzakirələr təşkil olunur.

Milli Fəaliyyət Proqramında əhalinin müxtəlif, o cümlədən həssas qruplarına aid olan şəxslərin - qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, qadınlar, uşaqlar, ahıllar, əlillər və başqalarının hüquqlarının təmin edilməsində səmərəliliyin artırılması məqsədilə fəaliyyət istiqamətləri müəyyən olunur.

Danılmaz həqiqətdir ki, dövlət orqanlarının səmərəli fəaliyyəti, qarşıda duran vəzifələrin və funksiyaların uğurla yerinə yetirilməsi, ilk növbədə yüksək ixtisaslı, müasir dünyagörüşünə malik, ədalətli, prinsipial və bacarıqlı kadrların sayəsində mümkündür. Dövlət məmurları insan hüquqlarının səmərəli və etibarlı təmin olunması kimi ümumdövlət maraqlarını rəhbər tutmağa borcludurlar.

Azərbaycanın yeni inkişaf mərhələsi insan hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl islahatların davam etdirilməsini şərtləndirir. Bu səbəbdən Azərbaycan Respublikasının normativ-hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, elmi-analitik işlərin stimullaşdırılması, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələr müəyyən edilmişdir. Bütün bunlar Azərbaycanda insan hüquqlarının etibarlı təminatının xüsusi diqqət mərkəzində saxlandığını göstərir.

Dövlət başçısı İlham Əliyevin 2007-ci il 18 iyun tarixli sərəncamı ilə hər il 18 iyun Azərbaycan Respublikasında İnsan hüquqları günü kimi qeyd olunur [33]. Bu tarixin seçilməsi təsadüfi deyil. Məhz 1998-ci ilin bu günündə ümummilli lider Heydər Əliyev tərəfindən insan hüquqlarının təmin olunmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edən Azərbaycan Respublikasında ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilmişdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiya və müqavilələr - //https://www.azerbaycanli.org/page/209
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016.
3. İnsan hüquqlarının müdafiəsi sahəsində Azərbaycan dövlətinin apardığı siyasət və bununla bağlı prokurorluq orqanları qarşısında duran vəzifələr. https://genprosecutor.gov.az/az/post/2162
4. Heydər Əliyev: Huquqi Dövlətin Banisi //https://constcourt.gov.az/ru/details/1591
5. Azərbaycanın Məhkəmə sistemi və insan hüquqları //https://anl.az/down/meqale/hafta_ichi/2011/mart/164432.htm
6. Azərbaycanda insan hüquq və azadlıqları yüksək səviyyədə təmin olunub //https://www.elibrary.az/docs/QAZET/qzt2016_3489.htm
7. Azərbaycan – BMT //https://republic.preslib.az/az_a7-2.html
8. İnsan haqları və BMT-nin nəzarətedici funksiyası //https://sesqazeti.az/news/mia/569650.html
9. Hüquqi və demokratik dövlətin qurucusu //https://old.xalqqazeti.com/az/news/social/2425
10. Azərbaycan - Birləşmiş Millətlər Təşkilatı münasibətləri //https://mfa.gov.az/az/category/beynelxalq-teskilatlar/azerbaycan-birlesmis-milletler-teskilati-munasibetleri
11. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi https://files.preslib.az/projects/conflict/gl5.pdf
12. Safeguarding the rights and well-being of people forced to flee for over 70 years // https://www.unhcr.org/aboutunhcr#:~:text=Formally%20known%20as%20the%20Office,who%20had%20lost%20their%20homes.
13. Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK/UNHCR) //https://idp.gov.az/az/activity/15/parent/25
14. Human Rights - Human Rights Council //https://www.un.org/en/global-issues/human-rights

15. İnsan hüquqları //https://un.mfa.gov.az/az/content/34/insan-huquqlari
16. Azərbaycan – ATƏT münasibətləri //https://mfa.gov.az/az/category/regional-teskilatlar/azerbaycan-atet-munasibetleri
17. Azərbaycan beynəlxalq aləmdə - Azərbaycan beynəlxalq təşkilatlarda - Azərbaycan - ATƏT //https://azerbaijan.az/related-information/192
18. ATƏT-Azərbaycan https://anl.az/el/emb/QARABAQ/beynelxalq-senedler/atet.pdf
19. Şərqdə ölüm hökmünü ləğv etmiş ilk ölkə – Azərbaycan - //https://old.xalqqazeti.com/az/news/politics/67599
20. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi PREZİDENT KİTABXANASI. Azərbaycan beynəlxalq aləmdə - Avropa Şurası və Azərbaycan, səh. 25. //https://files.preslib.az/projects/azerbaijan/gl9.pdf
21. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili - Ombudsman. Haqqımızda. - https://ombudsman.az/az/pages/1
22. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 22 fevral 1998-ci il, № 678 //https://e-qanun.az/framework/4981
23. Məhkəmə-hüquq islahatlarının keyfiyyətcə yeni mərhələsi - //https://www.anl.az/down/meqale/azerbaycan/2013/fevral/295757.htm
24. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu //https://e-qanun.az/framework/1881
25. Ümummilli Lider Heydər Əliyev və insan hüquqlarının təmin olunduğu demokratik, müstəqil Azərbaycan dövlətinin banisidir https://serqqapisi.gov.az/xeberler/umummilli-lider-heyder-eliyev-ve-insan-huquqlarinin-temin-olundugu-demokratik-musteqil-azerbaycan-dovletinin-banisidir-1
26. Mətbuata dövlət qayğısı hakimiyyətin qarşıya qoyduğu prioritet vəzifələrdəndir //https://www.anl.az/down/meqale/xalqqazeti/2012/may/251992.htm
27. Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Nizamnaməsinin təsdiq edilməsindən 5 il ötür //https://yeniazerbaycan.com/Sosial_e15471_az.html
28. Heydər Əliyev və dövlət qadın siyasəti müasir dövlət qadın siyasətinin banisi // http://scfwca.gov.az/post/1123/heyder-eliyev-ve-dovlet-qadin-siyaseti-muasir-dovlet-qadin-siyasetinin-banisi
29. Azərbaycan Respublikasının Qadın Problemləri Üzrə Milli Fəaliyyət Planı Haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı //https://e-qanun.az/framework/868
30. Ulu Öndər Heydər Əliyev və Azərbaycanda insan hüquqları elminin inkişafı //https://respublika-news.az/news/ulu-onder-heyder-eliyev-ve-azerbaycanda-insan-huquqlari-elminin-inkisafi
31. 18 iyun Azərbaycanda İnsan Hüquqları Günüdür // https://www.e-huquq.az/az/news/siyaset/ 31726.html
32. Azərbaycan Respublikasinin Konstitusiyasi // https://e-qanun.az/framework/897kmoçimj
33. Azərbaycanda insan hüquqları etibarlı şəkildə qorunur //https://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_avqust2009/88335.htm

***Açar sözlər:*** *Heydər Əliyev, ümummilli lider, insan hüquqları, islahat, fərman, müstəqillik, Azərbaycan Respublikası*

**Sabina Mustafayeva**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of International Relations and Foreign Policy, Ph.D. candidate*

## HEYDAR ALIYEV AND THE DEVELOPMENT OF HUMAN RIGHTS IN AZERBAIJAN

### ABSTRACT

The presented article examines the work done by Heydar Aliyev in connection with the development of human rights in Azerbaijan, which has been an important direction of world politics since the second half of the 20th century. The article notes that the relevant decrees, orders, and laws of the national leader, Heydar Aliyev, played a significant role in the development of human rights in our republic. Thanks to the sustainable activities carried out in this direction, the Republic of Azerbaijan has taken a worthy place among the world's states and has become an important subject of international relations.

***Keywords:*** *Heydar Aliyev, national leader, human rights, reform, decree, independence, the Republic of Azerbaijan*

**Сабина Мустафаева**

*Докторант кафедры "Международных отношений и внешней политики" Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ГЕЙДАР АЛИЕВ И РАЗВИТИЕ ПРАВ ЧЕЛОВЕКА В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

В Азербайджане во всех сферах, в том числе в совершенствовании механизма обеспечения и защиты прав и свобод человека незаменима роль Общенационального лидера Гейдара Алиева. В представленной статье рассматривается работа, проделанная Гейдаром Алиевым в связи с развитием прав человека в Азербайджане, что является важным направлением мировой политики со второй половины XX века. В статье отмечается, что соответствующие Указы, Распоряжения Общенационального Лидера Гейдара Алиева и подписанные им Законы сыграли большую роль в развитии прав человека в нашей республике. Именно благодаря им была заложена основа последовательной деятельности, направленной на то, чтобы Азербайджанская Республика заняла достойное место среди мировых государств и стала субъектом международных отношений.

***Ключевые слова:*** *Гейдар Алиев, обшенациональный лидер, права человека, реформа, декрет, независимость, Азербайджанская Республика*

DOI10.30546/2309-1347.84.2023.261

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R
I N T E R N A T I O N A L R E L A T I O N S

UOT 327

**FUAD ŞAMMADOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının dissertantı**

*e-mail: fuadshammedov@yahoo.com*

# AZƏRBAYCANDA ORDU QURUCULUĞU PROSESİNİN İNKİŞAF DİNAMİKASI

*"Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır!"*

*Heydər Əliyev*

**Giriş**

Ordu, bir dövlətin silahlı qüvvələrinin bütünü ya da hər hansı bir hərbi qüvvənin ən böyük birliyidir. Ordunun vəzifəsi, dövləti, ona qarşı gələcək daxili və xarici təhdidlərdən müdafiə etməkdir. Bu baxımdan, ordu quruculuğu bütün cəmiyyətlərin çox əhəmiyyət verdiyi məsələlər arasında hər zaman prioritet olmuşdur.

Ordu quruculuğu prosesinin, cəmiyyət quruculuğunun bütün sahələrində olduğu kimi özünəməxsus obyektiv qanunauyğunluqları vardır. Belə ki, bu qanunauyğunluqlara riayət edilməməsi ordunun formalaşdırılmasında ciddi çətinliklər yarada bilməkdədir.

Tarix boyunca bütün ordular üçün ümumi qanunauyğunluqlar mövcud olmuşdur. Bunlarla yanaşı, milli ənənələr, xalqın mənəvi potensialı, ölkənin siyasi, iqtisadi, demoqrafik imkanları, coğrafi vəziyyəti və b. irəli gələn xüsusiyyətləri orduların yaranması və formalaşması prosesinə təsirini göstərmişdir. Beləliklə, qeyd oluna bilər ki, ordu quruculuğu üçün ümumi cəhətlər çoxluq təşkil etsə də, hər bir ölkədə bu prosesin həmin ölkəyə xas olan xarakterik xüsusiyyətləri də vardır.

**Ordu quruculuğu anlayışı**

Ümumi qəbul olunmuş yanaşmaya görə ordu quruculuğu, dövlətin Silahlı qüvvələrinin yaradılması, hazırlanması və inkişafı üzrə qarşılıqlı əlaqəli tədbirlər sistemidir. Ordu quruculuğunda əsas fəaliyyət istiqamətləri kimi bunlar göstərilir: Silahlı qüvvələrin təşkilati strukturunun, yəni döyüş, xüsusi təyinatlı və xidməti qoşun növlərinin (qüvvələrinin) yaradılması və onlara uyğun heyətlərin formalaşdırılması; ordunun və donanmanın texniki təchizatı; silahlı qüvvələrin şəxsi heyətinin təşkili qaydasının və üsullarının müəyyən edilməsi; döyüş və əməliyyat hazırlığının təşkili və keçirilməsi; hərbi-elmi nəzəriyyələrin, nizamnamələrin və təlimat kitablarının işlənib hazırlanması; hərbi xidmətin və kadr hazırlığının təşkili; onların hərtərəfli təminatının təşkili və həyata keçirilməsi; dəniz və aviasiya qüvvələri üçün baza sisteminin yaradılması; hərbi təlim keçmiş ehtiyatların, eyni

zamanda səfərbərlik ehtiyatlarının hazırlanması və s. [12, s.11-13].

Bu tədbirlərin həyata keçirilməsi qoşunların (qüvvələrin) döyüş hazırlığının və döyüş qabiliyyətinin lazımi səviyyədə saxlanılması üçün mühüm əhəmiyyət kəsb edir. Ordu quruculuğu davamlı proses olsa da, hərbi islahatlar dövründə müxtəlif mərhələlərdən keçməktədir. Bu prosesin gedişatına beynəlxalq hərbi-siyasi vəziyyət, elm, texnika və sənaye istehsalının inkişaf səviyyəsi, əhalinin sayı və tərkibi, ölkənin coğrafi mövqeyi, rabitə əlaqələrinin vəziyyəti, silahlanma dərəcəsi və digər amillər təsir göstərir.

Beləliklə deyə bilərik ki, ordu quruculuğu prosesi, sülh və müharibə dövründə öz vəzifələrini yerinə yetirə bilən silahlı qüvvələrin yaradılmasına, hazırlanmasına və inkişafına yönəlmiş dövlətin ali orqanları tərəfindən həyata keçirilən bir-biri ilə əlaqəli fəaliyyətlər sistemidir.

### Ümummilli Lider Heydər Əliyevin milli ordu quruculuğu siyasəti

Bəşəriyyət yarandığı gündən çox böyük şəxsiyyətlərə, sərkərdələrə, onların əldə etdikləri şanlı qələbələrə şahidlik etmişdir. Bu şəxsiyyətlərin qurub yaratdıqları, miras qoyduqları dövlətçilik ənənələri, intibah xalqlarının gələcəklərinə işıq tutmuş, onların gələcəkdəki mövqelərini müəyyənləşdirmişdir. Belə şəxsiyyətlər tarixdə dahi, öndər, lider kimi öz layiqli yerlərini tuta bilmişlər.

Ulu Öndər Heydər Əliyev həm sovet dönəmində, həm də müstəqillik dövründə Azərbaycanın inkişafı, həmçinin dünya dövlətləri cərgəsində layiqli yerini tutması üçün misilsiz xidmətlər göstərmiş, eyni zamanda mənsub olduğu xalqın adını əbədi olaraq tarixə yazdırmışdır. O, hələ 1969-1982-ci illərdə ölkəmiz üçün çox böyük işlər görmüş, Azərbaycanı sovet respublikaları içərisində zirvəyə qaldıraraq qabaqcıl respublikalardan birinə çevirmişdir.

Ümummilli Liderin Azərbaycanın xoşbəxt, təhlükəsiz gələcəyinə təminat verən zəngin və çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən birini də ordu quruculuğu təşkil etmişdir. Məlumdur ki, Milli Ordunun təşkili məsələsi hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi mühüm tədbirlərdən biri olmuşdur. Lakin Əlahiddə Azərbaycan Korpusunun yaradılması ilə ordu quruculuğunun əsası qoyulsa da, Cümhuriyyət süqut etdikdən sonra ölkəmizdə ordu quruculuğu prosesi dayanmış, Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi geniş vüsət almışdır.

Milli ordu quruculuğu sahəsində Heydər Əliyev irsinin əvəzsiz dəyəri ondadır ki, bu dəyər başlanğıcını hələ sovet dövründən götürürdü. Müstəqil olmadığı zaman Azərbaycanın qəhrəmanlıq ənənələrinin davam etdirilməsi, zəngin hərb tarixinin canlandırılması, gənclərin qəhrəmanlıq ənənələri əsasında tərbiyə edilməsi, sərkərdələrin və görkəmli hərbi xadimlərinin şərəfli yolunun davam etdirilməsi Heydər Əliyevin hər zaman diqqət mərkəzində olmuşdu. Bunun nəticəsi idi ki, sovet dövründə Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi vaxtlar hərbi xidmətə münasibətdə yeni bir baxış formalaşdırıldı, bu istiqamətdə əməli-təşkilati işlərə vüsət verildi. Əgər Heydər Əliyevə qədər Azərbaycan gənclərinin hərbi xidmətə cəlb edilməsinə onların iki illik hərbi mükəlləfiyyəti, hansısa bir hərbi hissədə iki illik müddətin başa vurulması sınağı kimi baxılırdısa, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi illərdə bu baxışları dəyişməyə müvəffəq oldu və bunu bir ümumxalq vəzifəsi kimi aktuallaşdırdı. Yeni şəraitdə hərbi xidmət kişilik məktəbi, xalq üçün xüsusi əhəmiyyət kəsb edən mürəkkəb hərbi ixtisasların öyrənilməsi məktəbi kimi qəbul edildi, hərbi xidmətə hazırlıq işlərinə diqqət artırıldı, gənclərin xidmətə yola salınması xalqın və dövlətin qayğısı ilə əhatə olundu.

Artıq XX əsrin 70-ci illərinin əvvəllərindən Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda hərbi-təşkilati işlər bir neçə istiqamətdə aparılırdı və milli dəyərlər, xalqın maraqları bu işlərin əsas məzmununu təşkil edirdi. Azərbaycanlı gənclərin hərbi xidmətə hazırlanması və

onların tikinti, təmir kimi ikinci-üçüncü dərəcəli hərbi hissələrə deyil, xüsusi ixtisaslı hərbi hissələrə göndərilməsinə nail olunması, peşəkar hərbi kadrların hazırlanması, azərbaycanlı zabitlərin məsul vəzifələrə irəli çəkilməsi, xidmətləri və təşkilatçılığı ilə fərqlənən azərbaycanlı zabit və generalların SSRİ Silahlı Qüvvələrinin yüksək rütbəli komandir heyətləri arasında yer alması kimi istiqamətlər məhz Ulu Öndər tərəfindən müəyyənləşdirilərək o dövrdə qarşıya məqsəd kimi qoyulmuşdu. Ümumiyyətlə, Heydər Əliyevin milli zəmində hərbi-təşkilati işinin çox mühüm istiqamətini, sovet dövründə milli zabit kadrların hazırlanması təşkil edirdi. Bu sahədəki fəaliyyət Azərbaycanın hərb tarixində son dərəcə əhəmiyyətli və yaddaqalan bir səhifədir. Belə ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Heydər Əliyevin necə böyük uzaqgörən dövlət xadimi olduğu bir daha öz təsdiqini tapmışdır.

Sovet dövründə milli zəmində aparılan hərbi-təşkilati işin zirvəsi Azərbaycanda general Cəmşid Naxçıvanski adına hərbi-internat məktəbin açılması sayıla bilər. 1971-ci il iyun ayının 20-də bu məktəbin yaradılması o zamanlar böyük cəsarət tələb edirdi [20]. Belə ki, Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayan məktəbin açılması o vaxtkı SSRİ rəhbərliyini narahat edirdi. Həmin dövrdə bir-birinin ardınca Moskvadan Bakıya göndərilən komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını əsaslandırmağa çalışsalar da Heydər Əliyevin yüksək məharəti, qətiyyəti və uzaqgörən siyasəti bu cəhdlərin qarşısını almağı bacardı.

Qeyd etmək lazımdır ki, Cəmşid Naxçıvanski adına hərbi məktəbin fəaliyyətə başlaması Azərbaycanda hərb sənətinə marağın güclənməsinə böyük təkan vermişdir. Heydər Əliyev azərbaycanlı gənclərin Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi və Bakı Ali Hərbi Dənizçilik Məktəbinə, eləcə də SSRİ-nin digər hərbi təhsil ocaqlarına güzəştli şərtlərlə qəbul edilməsinə də nail olmuşdur. Təsadüfi deyil ki, müstəqillik illərində Cəmşid Naxçıvanski adına hərbi məktəb Azərbaycanın ordu quruculuğunda əsas bazalarından birinə çevrilmişdir. Beləliklə, Ümummilli Lider Heydər Əliyev Azərbaycanın müstəqilliyini bərpa etməsindən 20 il əvvəl milli hərbi kadr hazırlığı üçün zəruri bazanın ən yüksək səviyyədə təşkilini həyata keçirmişdir.

1991-ci ilin oktyabr ayının 9-da Azərbaycan Respublikasının Ali Sovetinin “Milli Ordunun yaradılması haqqında” qanun qəbul etməsinə baxmayaraq, müstəqilliyimizin bərpa olunduğu ilk illərdə hakimiyyətdə olan siyasi qüvvələrin dövlət idarəçiliyi sahəsindəki təcrübəsizliyi səbəbi ilə ölkədə ordu quruculuğu prosesi nəinki başlamamış, hətta iflic vəziyyətinə düşmüşdü. Hər zaman ən çətin məqamlarda düzgün və qətiyyətli qərarlar qəbul edən Azərbaycan xalqı bu dəfə də öz iradəsini ortaya qoyaraq təkidlə Heydər Əliyevi yenidən ölkə rəhbərliyinə gətirdi. Məhz Ulu Öndərin hakimiyyətə qayıdışı ilə dövlət və ordu quruculuğu istiqamətində yeni bir mərhələnin təməli qoyuldu. 1993-cü ilin noyabr ayının 2-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin radio və televiziya vasitəsilə xalqa müraciət etməsindən sonra bu istiqamətdə dönüş olmuş və silahlı qüvvələr quruculuğunda müsbət meyllər yaranmışdır [5, s.227-242]. Prezident Heydər Əliyev 01 noyabr 1993-cü il tarixində keçirilən Dövlət Müdafiə Şurasının ilk iclasına sədrlik edərək çağırış-səfərbərlik işinin yenidən qurulmasının vacibliyini vurğulamış, həmçinin çağırışçıların küçələrdən və müəssisələrdən zor gücünə yığılması praktikasını pisləyərək orduya çağırışın müəyyən edilmiş qaydada keçirilməsi zəruriliyini qeyd etmişdir [10,s.173]. Əvvəlki illərdə buraxılan bir sıra nöqsanların aradan qaldırılması, bu prosesin sürətləndirilməsi istiqamətində dövlətin diqqət və qayğısının artırılmasının müsbət nəticələri qoşun hissələrinin möhkəmlənməsinə səbəb olmuşdur. Silahlı qüvvələr quruculuğu sahəsində aparılan işlərin sistemləşdirilməsi, mərkəzləşdirilməsi, ötən illərin ordu quruculuğu təcrübəsindən lazımi nəticələr çıxarılması qısa müddətdən sonra öz səmərəsini verməyə başlamışdı. 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində Azərbaycan ordusunun hissələri erməni qoşunlarına qarşı uğurlu mübarizə aparmış və respublika silahlı qüvvələrinin əldə

etdiyi yeni döyüş keyfiyyətləri erməni millətçi dairələrini müharibənin dayandırılması barədə aparılan danışıqlara daha ciddi yanaşmağa məcbur etmişdir. Beləliklə də 1994-cü ilin may ayının 12-dən etibarən atəşin dayandırılması barədə razılığa gəlinmişdir [18].

Müstəqilliyə qovuşmuş hər bir ölkədə olduğu kimi Azərbaycanda da ordu quruculuğu və hərbi sənaye potensialını inkişaf etdirməkdən ötrü ilk növbədə, milli qanunvericilik bazası möhkəmləndirilmişdir. Belə ki, Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda ordu quruculuğunun hüquqi əsaslarını təmin etmək üçün xeyli sayda qanunvericilik aktları qəbul edilmişdir [9, s.13-25]. Eyni zamanda, ana qanunumuz sayılan və 1995-ci ildə qəbul edilmiş Konstitusiyanın 9-cu maddəsində də Silahlı Qüvvələrin yaradılmasının əsasları göstərilmişdir [11].

Silahlı qüvvələr quruculuğu prosesinin nizamlanması nəticəsində Azərbaycan ordusunda müsbət dəyişikliklərin artdığını dövlət başçısı Heydər Əliyev də qeyd edirdi: "... Bir ildən də az müddətdə görülən işlər Azərbaycan Silahlı Qüvvələrinin keyfiyyətcə tamamilə dəyişməsinə gətirib çıxartmışdır. Bu gün biz cəsarətlə qeyd edə bilərik ki, Azərbaycanın güclü silahlı qüvvələri var" [6, s.374].

Prezident Heydər Əliyevin 1993-1994-cü illər ərzində səfər etdiyi cəbhə bölgələrində keçirdiyi görüşlərdə, xüsusilə də 1994-cü ilin aprelin 12-də radio və televiziya ilə xalqa müraciətində və başqa çıxışlarında hərbi vətənpərvərlik tərbiyəsinin, ordunun mənəvi əhval-ruhiyyəsinin qaldırılmasının zəruriliyinə toxunmuşdu [5, s.514-522]. Bütün bunlar qoşun hissələrində mənəvi-ideoloji və hərbi-vətənpərvərlik tərbiyyəsinin yenidən qurulması üçün müvafiq orqanlar qarşısında məsuliyyətli vəzifələr qoyurdu. Belə ki, hərbi hissələrdə şəxsi heyətin təlim-tərbiyəsi ilə məşğul olan kadrların gücləndirilməsinə diqqət artırılmış, kadrlar çatışmadığı üçün pedaqoji təhsili və stajı olan zabitlər bu vəzifələrə irəli çəkilmiş, döyüş təcrübəsi olan gənclər müvafiq kurslara göndərilmiş, şəxsi heyətlə iş aparan zabitlərin ümumordu və zona müşavirələri keçirilərək bu sahədəki vəziyyət ciddi təhlil olunmuş, təlim-tərbiyyə prosesinin səmərəliliyini artırmaq üçün müxtəlif dövlət strukturları və ictimai qurumlarla əlaqələr gücləndirilmiş, nəhayət, ordu daha geniş şəkildə qayğı ilə əhatə olunmuşdu.

Silahlı qüvvələr quruculuğu prosesinə birbaşa nəzarət edən Prezident Heydər Əliyev tez-tez hərbi hissə və bölmələrdə olmuş, orada döyüş hazırlığı istiqamətində görülən işlərlə tanış olmuş, şəxsi heyətlərin keçirdikləri təlimləri izləmiş və onlarla keçirdiyi görüşlərdə döyüş hazırlığının daha da artırılmasına böyük əhəmiyyət verdiyini vurğulamışdır [10, s.203-210].

Beləliklə, silahlı qüvvələr quruculuğunun dövlət quruculuğunun mühüm tərkib hissəsi kimi praktiki fəaliyyət sahəsinə çevrilməsi, ölkənin imkanlarının bu sahəyə səfərbər edilməsi bütün qoşun növlərinə daxil olan strukturların xeyli təkmilləşməsinə, onlarda müsbət dəyişikliklərin yaranmasına səbəb oldu. Obyektiv çətinliklərin olmasına baxmayaraq, bu prosesin qanuni əsaslar üzərinə qoyulması hər şeydən əvvəl isə ciddi dövlət nəzarəti altına götürülməsi Azərbaycan ordusunun gələcəkdə də möhkəmlənməsi üçün daha da real imkanlar açdı.

1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində xarici ölkələrlə hərbi sahədə də əməkdaşlıq gücləndirildi. Bir sıra xarici ölkələrdən silah və texnikanın alınmasına diqqət artırıldı. Beynəlxalq təhlükəsizlik institutlarına, əsasən də NATO-ya inteqrasiya olunma istiqamətinə üstünlük verildi.

Bütün bu amilləri nəzərə alan Azərbaycan Prezidenti Heydər Əliyev NATO proqramında iştirak etmək haqqında prinsipial qərar çıxardı və 1994-cü ilin mayın 4-də Belçikaya səfəri zamanı "Sülh naminə tərəfdaşlıq" (SNT) proqramının çərçivə sənədini imzaladı [7, s.71-72]. Azərbaycan-NATO münasibətlərinin ilk addımı sayılan SNT proqramının gələcəkdə Şimali Atlantika bloku ilə əməkdaşlıq sahəsində açacağı imkanlar və bu əlaqələrin geniş parametrləri nəzərə alınarsa, atılmış addımın əhəmiyyətinə əsl qiyməti vermək olar.

NATO ilə münasibətlərdə digər mühüm addım 1996-cı il aprel ayının 23-də atılmışdır.

Beləki, Brüsselə səfəri zamanı Prezident Heydər Əliyev Alyansın Baş katibi ilə görüşmüş və Azərbaycan-NATO əməkdaşlığını təsdiqləyən və şərtləndirən "Prezentasiya sənədi"ni ona təqdim etmişdir. Bu addım, Azərbaycan-NATO qarşılıqlı münasibətlərinin daha da intensivləşdirilməsi üçün əlverişli baza rolunu oynamışdır. Məhz bu tarixdən sonra münasibətlərin hüquqi cəhətdən tənzimlənməsi və bir sıra praktiki addımların atılması NATO-nun Azərbaycan ilə əməkdaşlığı inkişaf etdirməyə marağını artırmışdı.

1997-ci il iyul ayının 8-10 arası tarixində Madriddə keçirilən Avropa-Atlantika Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının sammitindəki çıxışı zamanı dövlət başçısı Heydər Əliyev yeni müstəqil dövlətlərlə NATO arasında əməli dialoqa və əməkdaşlığa böyük əhəmiyyət verdiyini xüsusi vurğulayaraq, Azərbaycanın bölgədə silahlı münaqişənin aradan qaldırılmasında həmçinin NATO-nun və Avropa-Atlantika Əməkdaşlıq Şurasının fəal roluna ümid bəslədiyini diqqətə çatdırdı [8, s.136].

Prezident Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında" sərəncam bu qurum ilə əməkdaşlığın inkişafı sahəsində növbəti addım sayılmaqdadır. Həmin sərəncama əsasən yaradılmış Dövlət Komissiyası SNT proqramı çərçivəsində əməkdaşlığın vahid proqramının hazırlanması ilə əlaqədar müvafiq nazirlik və təşkilatların fəaliyyətinin koordinasiya edilməsi sahəsində ardıcıl fəaliyyətini davam etdirməkdədir [17].

Ümummilli Lider Heydər Əliyevin 22 may 1998-ci ildə imzaladığı sərəncam ilə 26 İyun tarixi Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və o gündən bu tarix rəsmi dövlət bayramı kimi hər il qeyd edilməktədir [23].

Dövlət başçısı Heydər Əliyevin hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında imzaladığı fərman ordu quruculuğuna töhvə verən mühüm addımlardan biri olmuşdur [3]. Akademiyanın təsis olunması hərb sahəsində milli kadr ehtiyatının formalaşması prosesinin keyfiyyət etibarı ilə yeni inkişaf mərhələsi sayıla bilər. İki ildən sonra, yəni 20 avqust 2001-ci il tarixində Ümummilli Liderin imzaladığı fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər müvafiq olaraq Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı [22].

Avroatlantika Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 2002-ci ilin noyabr ayında Praqada keçirilən Zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev Cənubi Qafqaz regionunda davam edən münaqişələrin aradan qaldırılmasında NATO-nu daha fəal olmağa çağırdı. O, həmin çıxışında Azərbaycanın NATO ilə əməkdaşlığını gələcək Avroatlantika təhlükəsizlik sisteminin əsası kimi qiymətləndirərək ölkəmizin Alyans ilə tərəfdaşlığa və intensiv ikitərəfli dialoqa səy göstərdiyini diqqətə çatdırmışdı [14].

Ümumiyyətlə, NATO ilə əməkdaşlığın inkişafında maraqlı olduğunu atdığı konkret addımlarla təsdiqləyən Azərbaycan Kosovo və Əfqanıstanda beynəlxalq sülhməramlı qüvvələr tərkibində də öz missiyasını uğurla yerinə yetirmiş, habelə beynəlxalq koalisiya qüvvələrinin tərkibində İraqda keçirilən sülhməramlı əməliyyatlarda yaxından iştirak etmişdir.

Nəticədə deyə bilərik ki, Ümummilli Lider Heydər Əliyevin dövlət idərəçiliyi təcrübəsi Azərbaycan ordusunun təməlindən yaradılmasında və qüvvətləndirilməsində başlıca rol oynamışdır.

## İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanda ordu quruculuğu prosesinin genişlənməsi

Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu ilə bağlı müəyyənləşdirdiyi vəzifələr, Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin ilk illərindən uğurla həyata keçirilməkdədir. Silahlı Qüvvələrin döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması məqsədilə

2005-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Müdafiə Sənayesi Nazirliyi Azərbaycan Ordusunun yüksək texnoloji keyfiyyətlərə cavab verən müasir silah və hərbi texnika ilə təmin olunması istiqamətində işləri fəal şəkildə davam etdirmişdir. Heç kimə sirr deyil ki, 44 günlük müharibəyə qədər Azərbaycanda hərbi-sənaye kompleksinə aid müəssisəsələr uğurla fəaliyyət göstərir və ordumuzu çox çeşiddə müdafiə təyinatlı keyfiyyətli məhsullarla təmin edirdi [21]. Buna paralel olaraq, Vətən müharibəsinə qədər keçən dövr ərzində dünyanın ən böyük silah istehsalçısı olan ölkələrin şirkətləri ilə müqavilələr bağlayaraq, Azərbaycan ordusunun inventarında olan silahlar modernləşdirilirdi və müasir dövrün tələblərinə uyğunlaşdırılırdı.

Bir digər mühüm amil, Hərbi Konstitusiya da adlandırılan və 2010-cu ildə qəbul edilən Hərbi doktrina Azərbaycanın ərazi bütövlüyünün qorunması və ordu quruculuğunun daim inkişaf etdirilməsində müvafiq baza rolunu oynamışdır. Eyni zamanda, Hərbi Doktrina Azərbaycanın hərbi sənaye kompleksinin yaradılmasına və inkişafına zəmin yaratmış, bunu dövlətin prioritetlərindən biri kimi qəbul etmişdir. Doktrina, həmçinin beynəlxalq aləmdə sülhün və təhlükəsizliyin yaradılması üçün Azərbaycanın birgə fəaliyyətini, habelə sülhməramlı əməliyyatlarda iştirakını mümkün saymaqdadır [2]. Azərbaycanın sülhməramlı əməliyyatlarda iştirakla bağlı artıq xeyli təcrübəsi vardır və bu təcrübədən milli ordu quruculuğunda maksimum şəkildə istifadə etməkdədir. Xüsusilə də 2010-cu ildə qəbul edilmiş "Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirakı haqqında" Azərbaycan Respublikasının Qanunu Silahlı qüvvələrin bu istiqamətdəki fəaliyyətinin hüquqi əsasını formalaşdırmaqdadır [4].

Hərbi ekspertlərin də qeyd etdiyi kimi, Azərbaycan Ordusu hələ 2016-cı ilin aprel ayında öz gücünü bariz şəkildə sübut etmişdir. Aprelin 2-dən 5-dək davam edən Azərbaycan ordusunun uğurlu əks-hücum əməliyyatları ölkəmizə hərbi-strateji nöqteyi-nəzərdən çox böyük üstünlüklər vermişdir. Qarabağın şimal və cənub hissələrində çox böyük strateji əhəmiyyətə malik yüksəklikləri azad edən Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etmiş, həmçinin minlərlə hektar ərazi Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçmişdi. Nəticədə, 4 günlük döyüşlərin beynəlxalq əks-sədası dərhal eşidilmiş və Ermənistanın Azərbaycan torpaqlarının işğal altında saxlaması bir daha bütün dünyaya xatırladılmışdı [16]. Bunun davamı olaraq, 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, Yerevan–Gorus–Laçın yolu Azərbaycan Ordusunun nəzarəti altına keçmişdi [13].

Müharibəyə qədər Azərbaycanın öz hərbi xərclərini ilbəil artırdığı hamıya məlum idi. 2019-cu ildə Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutu (SIPRI) öz hesabatında göstərirdi ki, 2009–2019-ci illərdə Azərbaycanın hərbi xərcləri 25,5 milyard dollardan, Ermənistanda isə 4 milyard dollardan bir qədər çoxdur. Yenə SIPRI-nın araşdırmalarına görə, 2011-2020-ci illərdə Azərbaycanın silah idxalının həcmi Ermənistandan 8,2 dəfə çox olmuşdur [24 və 25].

Məlumdur ki, hərbi potensial yalnız güclü silah-sursatdan və texnikadan ibarət deyil, eyni zamanda peşəkar hərbi kadrları da əhatə etməkdədir. Aydındır ki, hazırlıqlı və peşəkar kadrlar olmasa, hərbi silah və texnikalardan təyinatı üzrə zəruri məqsədlər üçün istifadə etmək mümkün olmayacaqdır. Bu baxımdan, ölkəmizin Silahlı Qüvvələrinin kadr potensialının möhkəmləndirilməsi Vətən müharibəsində qələbəni şərtləndirən ən mühüm amillərdən biri olmuşdur.

İkinci Qarabağ müharibəsindən sonra da Azərbaycanda sosial-iqtisadi sahələrdə görülən işlərə paralel olaraq, hərbi quruculuq məsələləri inkişaf etdirilməktədir. Türkiyə, Rusiya, Pakistan, İsrail kimi ölkələrdən müasir və ən yüksək standartlara cavab verən silahlar alınaraq, ordunun texniki bazası gücləndirilməktədir.

Prezident İlham Əliyevin 2021-ci ilin dekabr ayında Hadrutda yeni hərbi hissənin açılışında etdiyi çıxışı zamanı demişdir: "...Biz müharibədən sonra ordu quruculuğu prosesini dayandırmamışıq və orduya ayrılan xərcləri azaltmamışıq, əksinə, artırmışıq. Müharibədən sonra imzalanmış yeni kontraktlar icra edilir. Yeni kontraktlar əsasında artıq Azərbaycana ordumuzun təchizatı üçün ən müasir silahlar, texnikalar gətirilir. Hərbi texnikanın alınması, hərbi xərclərin, eyni zamanda, hərbçilərin maaşlarının artırılması onu göstərir ki, müharibə başa çatsa da, ordu quruculuğu prosesi dayanmayacaq" [19]. Hadrutda yeni hərbi hissənin açılışı onu göstərdi ki, strateji əhəmiyyət daşıyan bölgələrdə Silahlı Qüvvələrimizin daha da gücləndirilməsi, ordumuzun təchizatı üçün ən müasir silah-sursatın, hərbi texnikaların gətirilməsi vacib şərtdir. Bu hərbi hissənin açılması və burada yeni hərbi birləşmənin – komando briqadasının yaradılması bizim üçün yenilik olmaqla yanaşı, həm də hərbi gücümüzün artırılmasının göstəricisidir. Bu briqadalar lokal və irimiqyaslı hərbi əməliyyatların icra edilməsində mütəşəkkilliyi ilə fərqlənə bilən qoşun növüdür. Həmçinin qeyd olunmalıdır ki, yaradılan yeni komando hərbi hissələri dağ-meşə relyefində döyüşə və düşmənin istənilən təxribatlarına adekvat cavab verə bilən hazırlıqlı qoşun növlərindən ən optimalıdır. Komando qüvvələrinin tərkibində xidmət keçən hərbçilərimiz həm Türkiyədə, həm də ölkəmizdə intensiv hazırlıq və təlim kurslarında olur, bilik və bacarıqlarını daha da artırırlar. Orduda islahatların intensivliyi göstərir ki, Azərbaycanda yeni, müasir, hazırlıqlı ordu korpusları yaradılır və hərbi qüvvələrimiz getdikcə daha mobilləşdirilir.

İkinci Qarabağ müharibəsindəki uğurlu hərbi əməliyyatlardan sonra Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin kiçik modeli kimi yeni keyfiyyət mərhələsinə keçməsi, habelə qoşunların ən müasir silah və hərbi texnika, bütün təminat növləri ilə təchiz edilməsi barədə müvafiq göstərişlər vermişdir. Eyni zamanda, Azərbaycan Ordusunun təşkilati-ştat quruluşunda əsaslı dəyişikliklər aparılmış və Azərbaycan Ordusunun tərkibində Quru Qoşunları, əməliyyat (komando) birləşmələri yaradılmışdır. Həmçinin Xüsusi Təyinatlı Qüvvələr və Hərbi Dəniz Qüvvələrinin ştatlarının optimallaşdırılması həyata keçirilərək qüvvə və vasitələrinin sayı artırılmışdır. Vətən müharibəsində əldə edilmiş təcrübələrə əsasən qoşunların idarəedilməsi ilə bağlı hazırda Azərbaycan Ordusunun qoşun növləri komandanlıqlarında Döyüşü İdarəetmə Mərkəzləri və onların tabeliyində olan bölmələrdə Döyüşü İdarəetmə Qrupları yaradılmış, heyətlərin hazırlığı və onların komplektləşdirilməsi işləri təşkil edilmişdir.

Hərbi sahədə aparılan genişmiqyaslı struktur islahatlar fonunda hərbi təhsil sahəsində də bir sıra dəyişikliklər baş vermişdir. Müdafiə Nazirliyinin strukturuna daxil olan xüsusi təyinatlı təhsil müəssisələrində Vətən müharibəsinin təhlilləri aparılmaqda, nəticələrinin tətbiqi məqsədilə tədris proqramlarında yeniliklər edilməkdədir. Elm və təhsilin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunlaşdırılması çərçivəsində Müdafiə Nazirliyinin strukturuna daxil olan xüsusi təyinatlı təhsil müəssisələri şəbəkəsinin fəaliyyətinin təkmilləşdirilməsi, hərbi elm və təhsil sisteminin inkişafı, Azərbaycan Ordusunda ali təhsilin bütün səviyyələri və əlavə təhsil proqramları üzrə ixtisaslı kadrlarla təminatın həyata keçirilməsi, yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması, onlarda praktik fəaliyyətdə elmi yanaşma bacarıqlarının formalaşdırılması, elmi nəticələrin ölkənin müdafiə qüdrətinin yüksəldilməsində və ordu quruculuğunun təkmilləşdirilməsində səmərəli tətbiqi, habelə dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsinin təmin edilməsi məqsədilə hərbi təhsil sistemində Türkiyə hərbi təhsil sisteminin tətbiqi istiqamətində intensiv fəaliyyətlər yürüdülməkdədir.

Milli Müdafiə Universiteti tabeliyində xüsusi təyinatlı təhsil müəssisələri vasitəsilə ali təhsilin bütün səviyyələri üzrə mütəxəssis hazırlığını, ümumi təhsilin tam orta təhsil, orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsini təmin edən, fundamental, nəzəri-

metodoloji, pedaqoji-metodiki və tətbiqi elmi tədqiqatlar aparan Müdafiə Nazirliyinin strukturuna daxil olan xüsusi təyinatlı dövlət ali təhsil müəssisəsi kimi fəaliyyət göstərəcəkdir. Xüsusi təyinatlı təhsil müəssisələrinin strukturunda əsaslı dəyişikliklərin olunması Azərbaycan Ordusunda elm və təhsilin səviyyəsinin Türkiyənin və inkişaf etmiş digər ölkələrin hərbi elm və təhsil sisteminə uyğunlaşdırılmasına töhfə verəcəkdir.

Ümumiyyətlə, ordumuzun gücləndirilməsi, hərbçilərimizin yaşayış səviyyəsinin artırılması son illər ərzində Azərbaycan ərazisində bir çox yerlərdə yeni hərbi hissələr, hərbi şəhərciklərin salınması siyasəti bir neçə ildir ki, davamlı şəkildə aparılır. Ordu quruculuğu istiqamətində aparılan işlər arasında hərbi hissələrin yaradılması, hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması, onların məişət-mənzil problemlərinin həlli həmişə diqqət mərkəzindədir. Bütün bunlar göstərir ki, ordumuz Azərbaycan dövləti tərəfindən daimi diqqətlə əhatə olunmuşdur. Bu diqqət və qayğının nəticəsində hazırda Azərbaycanın Ordusu dünyada qalib ordu kimi tanınır və regionun ən qüdrətli ordusuna çevrilmişdir. Təsadüfi deyil ki, nüfuzlu “Global Fire Power” mərkəzinin hazırladığı hesabatda qeyd olunan sıralamaya görə Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada isə ilk əllilərdə yer almaqdadır [26].

**Nəticə**

Son dövrlərdə ordunun mənəvi əhval-ruhiyyəsinin sağlamlaşdırılması, milli kadr hazırlığının uğurla davam etdirilməsi, struktur islahatlarının onun qarşısında dayanan vəzifələrə uyğun aparılması, nizam-intizamın gücləndirilməsi, döyüş hazırlığının real döyüş vəziyyətinə yaxınlaşdırılması Azərbaycan Ordusunun daha da güclənməsinə imkan yaratmışdır. Bunların nəticəsində Azərbaycan Ordusu hazırda bütün əmrləri vaxtında yerinə yetirməyə və xalqının ümidlərini doğrultmağa qadir olan bir qüvvəyə çevrilmişdir. İstər İkinci Qarabağ müharibəsi dövründə, istərsə də lokal xarakterli antiterror tədbirləri zamanı hissə və bölmələrin göstərdiyi şücaət, igidlik və qətiyyət də bunun təsdiqidir.

Sonda əminliklə demək olar ki, müstəqil dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasətə sədaqət və yaradıcı münasibət indi Azərbaycan Ordusunun yalnız bölgədə deyil, dünyanın inkişaf etmiş orduları sırasında özünə layiqli yer tutmasına yol açmışdır.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016
2.“Azərbaycan Respublikasının Hərbi doktrinası” - https://e-qanun.az/framework/19722 (28.11.2023)
3.“Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı - https://e-qanun.az/framework/5132 (15.11.2023)
4.“Azərbaycan Respublikasının sülhməramlı əməliyyatlarda iştirakı haqqında” Azərbaycan Respublikasının Qanunu - https://e-qanun.az/framework/19857 (21.12.2023)
5. Əliyev H. Müstəqilliyimiz əbədidir. I kitab. Azərnəşr, Bakı, 1997
6.Əliyev H. Müstəqilliyimiz əbədidir. II kitab. Azərnəşr, Bakı, 1997
7.Əzimli A. Azərbaycan –NATO münasibətləri (1992-2000). “Adiloğlu” nəşriyyatı, Bakı, 2001
8.Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. “Hərbi nəşriyyat”, Bakı, 1998
9.Hərbi qanunvericilik (Tərtib edən Namiq Əliyev). Şərq-Qərb, Bakı, 1998

10.Qurbani A. Heydər Əliyev və Azərbaycan ordusu. “Əbilov, Zeynalov və oğulları”, Bakı, 2002
11.Алиев Н.Г. Основы военного права Азербайджана. Азернешр, Баку, 1997
12.Süleymanov M. Azərbaycan Respublikası Silahlı qüvvələrinin quruculuğunun prinsipləri // Hərbi bilik jurnalı, №3, Bakı, 1993, s.11-13
13.“Azərbaycan” qəzeti, 07.11.2021
14.“Azərbaycan” qəzeti, 23-24.11.2002
15."Respublika” qəzeti, 11.11. 2021
16.“Xalq qəzeti” qəzeti, 01.07.2021
17.Beynəlxalq təşkilatlar - http://www.azerbaijan.az/_WorldCommunity/_InterOrg/interOrg_04_a.html (05.12.2023)
18.Ermənistan-Azərbaycan münaqişəsi - https://files.preslib.az/projects/azdiplomacy/a2_4.pdf (30.11.2023)
19.Hadrut qəsəbəsində hərbi hissənin açılışında Prezident İlham Əliyevin nitqi - https://president.az/az/articles/view/55817 (08.12.2023)
20.Məhərrəmov V. // Əlli yaşlı hərbi lisey. https://mod.gov.az/az/pre/35583.html (14.12.2023)
21.Quliyev M. // Qalib Azərbaycan hərbi qüdrətini daim artıracaq - https://www.mdi.gov.az/az/xeberler-30/qalib-azerbaycan-herbi-qudretini-daim-artiracaq-930 (15.12.2023)
22.Şahbazov T. // Ulu Öndərin ömür yolu Vətənə və xalqa xidmət nümunəsidir - https://mod.gov.az/az/pre/25149.html (08.12.2023)
23.Tağıyeva G. // Azərbaycan güclü dövlətdir, Azərbaycan Ordusu güclü ordudur - https://mod.gov.az/az/pre/36727.html (08.12.2023)
24.Military expenditure (current USD) - https://www.sipri.org (11.12.2023)
25.Military expenditure (current USD) - Azerbaijan - https://data.worldbank.org/indicator/MS.MIL.XPND.CD?end=2022&locations=AZ&name_desc=false&start=1992&view=chart (11.12.2023)
26.2024 Military Strength Ranking - https://www.globalfirepower.com/countries-listing.php (15.12.2023)

***Açar sözlər:*** *Azərbaycan, Ümummilli Lider Heydər Əliyev, dövlət idarəçilik təcrübəsi, ordu quruculuğu, İkinci Qarabağ müharibəsi*

**Fuad Shammadov**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of International Relations and Foreign Policy, Ph.D. Candidate*

## DEVELOPMENT DYNAMICS OF THE ARMY BUILDING PROCESS IN AZERBAIJAN

### ABSTRACT

It was with the Great Leader's return to power that the foundation of a new stage was laid in the direction of state and army building in Azerbaijan. The positive results of the elimination of a number of shortcomings left in the first years of the restoration of independence and the increased attention and care of the state in the direction of accelerating this process led to the strengthening of the army units. The systematization and centralization of the work in the field of building the armed forces began to bear fruit after a short period of time.

The purpose of this article is to examine the important issues related to the establishment of a regular army in Azerbaijan, the reforms carried out in the military field, the development path of the Armed Forces, the supply of modern weapons, the improvement of service conditions, and the social security of servicemen. In this regard, as one of the main tasks, National Leader Heydar Aliyev's national army building policy is being studied. As a continuation of this, the expansion of the army building process carried out in Azerbaijan after the Second Karabakh War is being investigated.

***Keywords:*** *Azerbaijan, National Leader Heydar Aliyev, state management experience, army building, Second Karabakh War*

**Фуад Шаммадов**
*Диссертант кафедры "Международные отношения и внешняя политика"*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

## ДИНАМИКА РАЗВИТИЯ ПРОЦЕССА СТРОИТЕЛЬСТВА АРМИИ АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

Именно с возвращением Великого Вождя к власти была заложена основа нового этапа государственного и армейского строительства в Азербайджане. Положительные результаты устранения ряда недостатков, допущенных в первые годы восстановления независимости, успешные результаты усиления внимания и заботы государства и ускорению этого процесса привели к укреплению армейских частей. Систематизация и централизация работ в области строительства Вооруженных Сил уже через небольшой промежуток времени начали приносить свои плоды.

Целью данной статьи является рассмотрение важных вопросов, связанных с созданием регулярной армии в Азербайджане, реформами, проводимыми в военной сфере, путями развития Вооруженных Сил, снабжением современным вооружением, улучшением условий службы и социальным обеспечением военнослужащих. В этой связи в качестве одной из основных задач изучается политика строительства национальной армии Общенационального лидера Гейдара Алиева. В продолжение этого исследуется расширение процесса строительства армии, осуществленного в Азербайджане после Второй Карабахской войны.

***Ключевые слова:*** *Азербайджан, Общенациональный Лидер Гейдар Алиев, опыт государственного управления, армейское строительство, Вторая Карабахская война*

DOI 10.30546/2309-1347.84.2023.271

**G Ə N C T Ə D Q İ Q A T Ç I L A R**
**Y O U N G R E S E A R C H E R S**

**F Ə L S Ə F Ə**
**P H I L O S O P H Y**

UOT 321.01

**FAZİLƏ ƏLİYEVA**
**Gəncə Dövlət Universitetinin dissertantı**
*e-mail: fazilkaazerinka@mail.ru*

# MÜASİR FƏLSƏFƏDƏ "ONTOLOJİ DÖNÜŞ" VƏ "YENİ ONTOLOGİYA"NIN ƏSAS PRİNSİPLƏRİ

**Giriş**

Yeni dövrdən başlayaraq, xüsusilə təcrübi-eksperimental elmlərin yaranması ilə nəticələnən Elmi inqilabdan sonra filosoflar qarşısında bir sıra ciddi problemlər dayanır. Belə problemlərdən ən əsası onların yaratdığı təlimlərin artıq əldə olunmuş elmi biliklərlə təzad təşkil etməsi faktını aradan qaldırmaq, fəlsəfi biliklərin ifrat mücərrədliyini önləmək məqsədilə fəlsəfənin insan və cəmiyyətin tələbatlarına cavab verəcək "ciddi elmə" (E.Hüsserl) çevirmək olmuşdur. Bu məqsədlə Yeni dövr filosoflarının demək olar ki, böyük əksəriyyəti metafizikanı (burada "metafizika" deyildikdə Aristotelin onu "varlığın səbəbləri və başlanğıcları haqqında elm" [3, s.69] adlandırması və fəlsəfənin sinonimi kimi nəzərdə tutulur) ciddi tənqidə məruz qoyurlar. XIX əsrdən isə metafizikanın aradan qaldırılmasına cəhdlər göstərilir. Metafizikanın tənqidinə hələ XVI-XVII əsrlərdə də rast gəlinməsinə baxmayaraq, o dövr filosofları heç də metafizikanı aradan qaldırmaq istəmir, onu yalnız həlli heç də gerçəkləşməyən və təkrar-təkrar müzakirəyə çıxarılan problemlərlə məşğul olduğu üçün tənqid edirdilər.

Məhz XVIII əsrdə fəlsəfi biliklərin differensiasiyası baş verir ki, bu da İ.Kantın elmlə (riyazi təbiətşünaslıq) fəlsəfənin (metafizika) dəqiq surətdə fərqləndirməsinə səbəb olmuşdur. Belə fərqləndirməyə rəvac verən əsas amil isə mexanisizmin inkişafı və bu inkişafa baxmayaraq onun fəlsəfi problemlərin həllində yetərsizliyi olmuşdur. Mexanisist dünyagörüşünün əsas xüsusiyyətlərindən biri də təbiətin öyrənilməsində məqsəd səbəbinin (Aristotelin metafizikasında teleologizm prinsipi) kənarlaşdırılması hesab edilmişdir. Bu problemlə ciddi fikir verən və fizika ilə metafizikanı bir-birindən fərqləndirən F.Bekon yazırdı: "Fizika fəaliyyətdə olan səbəbləri və materiyanı öyrənən elmdir, metafizika isə forma və son səbəblər haqqında elmdir" [4, s.220]. İ.Kant isə belə hesab edir ki, metafizik maraq xalis zəkanın təbiətinə xas olan xüsusiyyətdir. Elmi biliyin əldə olunmasına cəhd edən xalis zəka isə zəruri olaraq mümkün təcrübənin sərhədlərini aşır. Beləliklə İ.Kant bu nəticəyə gəlir ki, metafizika, fövqəltəbii mahiyyətlər haqda fizikaya bənzər elm kimi mümkün ola bilməz. Çünki o, son nəticədə dialektikaya, yəni zəkanın ziddiyyətlərinə gətirir. Metafizika yalnız zəkanın özünün tənqidi kimi, onun ümumiyyətlə idrak qabiliyyətlərinin tənqidi kimi mümkün ola bilər. Aydın görünür ki, İ.Kant burada ontoloji problemləri ümumiyyətlə xatırlatmır və metafizika dedikdə yalnız epistemoloji problemləri nəzərdə tutur.

## Pozitivizm və metafizik sistemlərin tənqidi

Metafizik sistemlərin, o cümlədən əsas metafizik problem olan ontoloji problemlərin tənqidi xüsusilə pozitivist fəlsəfənin yaranmasından sonra daha da güclənir. Sonrakı dövr fəlsəfəsinin inkişafına güclü təkan vermiş pozitivizm təlimi heç də əvvəldən metafizik sistemləri dağıtmaq məqsədilə yaradılmır. Bu təlim XIX əsrin siyasi-iqtisadi və sosial-kulturoloji proseslərin nəticəsi kimi meydana çıxır. Onun meydana gəlməsini şərtləndirən amillər: 1) təbiət və riyazi elmlərin sürətli inkişafı, riyaziyyatla sıx əlaqədə inkişaf edən fizikanın Nyuton irsinə və yeni riyazi-fiziki tədqiqatlara əsaslanaraq bir sıra kəşflərin, o cümlədən, elektrik, maqnetizm, istilik və optik nəzəriyyələrin yaranması ilə öz üfüqlərini genişləndirməsi; 2) fəaliyyətin müxtəlif sferalarında – sənaye, tikinti, ticarət, dövlət idarəetməsi – sırf elmi, yaxud pozitiv biliklərə yiyələnmiş mütəxəssislərə böyük ehtiyacın yaranması; 3) sosial varlığın müxtəlif sferalarında, insan və cəmiyyət həyatında konkret, pozitiv elmlər prizmasından tədqiq edən fənlərin yaradılmasına çalışan alim və mütəfəkkirlərin meydana gəlməsi; 4) ictimai həyatda elmin nüfuzunun artması və bir sıra Avropa dövlətlərində dövlətin elm siyasəti təcrübəsinin yaranması. Məhz bu amillər pozitivizmin meydana gəlməsinə səbəb olmuş, uyğun strategiyanın gerçəkləşməsi isə, klassik metafizik sistemləri ciddi tənqidə məruz qoyulmasını tələb etmişdir.

Bu təlimin banisi Ö.Kont əsas tənqidini, bu təlim ardıcıllarının "metafizik fantomlar" adlandırdığı problemlərin üzərinə yönəldir. O belə hesab etmişdir ki,: "Bizim idrakı qabiliyyətimizin təbii məhdudluğu predmetlərin mahiyyətinə nüfuz etməyə, ilk səbəblər və son məqsədlərlə tanış olmağa imkan vermir. Məhz buradan şeylərin təbiətinin həm ilahiyyat, həm də metafiziki, yaxud ontoloji şərhi eyni dərəcədə neqativ münasibəti törədir" [9, s.46]. Beləliklə Ö.Kont yalnız konkret, pozitiv biliklərin zəruri və faydalılığını bildirərək mücərrəd-spekulyativ problemlərin kənarlaşdırılmasını vacib saymışdır. Onun bu ideyası öz əksini formulə etdiyi pozitivizmin qanunlarında əksini tapır. Belə qanunlardan biri də "təxəyyülün təcrübəyə tabe etdirilməsi qanunudur". Bu qanuna görə: "...xüsusi, yaxud ümumi faktın sadə şərhinə dəqiq surətdə çevrilə bilməyən hökm heç bir gerçək və anlaşıqlı mənaya çevrilə bilməz" [10, s.73]. Bu prinsip fəlsəfədən mücərrəd kateqoriya və anlayışların kənarlaşdırılmasını zəruri etmişdir. Prinsip etibarilə, Ö.Kont bir zamanlar erkən xristian fəlsəfəsinin görkəmli nümayəndəsi İskəndəriyyəli Klimentin "fəlsəfə dinin xidmətçisidir" tezisini parafraz edərək, onu "fəlsəfə elmin xidmətçisidir" kimi ifadə etmiş, fəlsəfənin əsas probleminin elmlər üçün metodologiyalar hazırlamalı olduğunu bəyan etmişdir.

Beləliklə, metafizikaya, onun böhranını səciyyələndirən ikili münasibət meydana gəlir. Bir tərəfdən fransız və şotland maarifçiləri, o dövrün elm adamlarının əsərlərinə əsaslanmaqla sağlam fikir nöqteyi-nəzərindən metafizikaya hücum edir, yalnız sağlam fikirlə uzlaşan və praktiki fayda gətirən biliklərə dəyər verirlər. Tənqidçi və utilitarist mövqe tutan fransız maarifçiləri isə ümumiyyətlə mücərrəd biliklərin faydalılığını şübhə altına salırlar. Digər tərəfdən, ayrı-ayrı elmlərin əmələ gəlməsi nəticəsində metafizikanın cırlaşması müşahidə olunur. Bu təmayül xüsusilə alman maarifçiliyində özünü aşkar biruzə verir. Belə cırlaşmaya ehkamçı sistemləşdirmə, fəlsəfi biliklərin çoxsaylı təsnifatı ilə birlikdə ümuməhatəli sistemlərin qurulmasına cəhdlər və s. nümunə kimi göstərilə bilər. Deyilənlər xüsusilə alman maarifçi-filosofu Xristian Volfa aid edilə bilər.

## "Ontoloji dönüş" və yeni ontologiyaların təsnifatı

Metafizikanın, xüsusilə ontoloji konsepsiyaların sərt tənqid olunmasına baxmayaraq ontologizmin böhranı uzunmüddətli olmur. Artıq XIX-XX əsrin qovuşağında "ontoloji dönüş" – ontoloji problemlərin fəlsəfi araşdırmaların episentrinə gətirilməsi müşahidə olunur. "Ontoloji dönüş" heç də təsadüfi olmayıb

ikili mahiyyət daşımışdır. İlk növbədə bu, fəlsəfənin epistemoloji interpretasiyasının mütləqləşdirilməsinin aradan qaldırılması ilə bağlı olmuşdur. Digər tərəfdən isə, "ontoloji dönüşün" məqsədi varlığın strukturu və onda insanın yerinin daha dərin fəlsəfi dərkinə cəhdlərlə şərtlənmişdir. Bununla belə, yeni, yaxud qeyri-klassik ontoloji konsepsiyalar fərqli motivlərlə qurulur. Yeni yaranan ontoloji konsepsiyaları belə təsnif etmək olar: 1) təbiət elmlərinin əldə olunmuş yeni nailiyyətlərinin təsiri altında təbiətin fəlsəfəsi tamamilə yeni forma alır; 2) bəzi ontoloji konsepsiyalarda əsas diqqət varlıq probleminin antropoloji ölçülərinə yönəldilir və bunun nəticəsində insanın ekzistensial kulturoloji varlığının müxtəlif ontoloji interpretasiyaları ön plana çıxarılır; 3) bəzi təlimlərdə ontologiya və ideal mahiyyətlərin traktovkası prinsipial yeni spekulyativ-metafiziki çalara malik olur. Bununla belə, bəzi təlimlərdə yuxarıda sadalanmış ontoloji analizlərin sintezi əksini tapmışdır.

Yuxarıda banisi Ö.Kont olan birinci, yaxud klassik pozitivizmin spekulyativ-metafiziki sistemlərə neqativ-dağıdıcı münasibətini qeyd etmişdik. Lakin, ilk qeyri-klassik ontoloji təlimlərdən biri də, məhz pozitivizm və elmin fəlsəfəsi məcrasında, fəlsəfə tarixçilərinin ikinci pozitivizm və yaxud empiriokritisizm adlandırdıqları təlim çərçivəsində, bu təlimin banilərindən biri hesab olunan Ernest Max tərəfindən yaradılır.

Əsas yaradıcı-intellektual fəaliyyəti fizika ilə bağlı olan E.Maxın ontoloji konsepsiyası heç də sırf fəlsəfi tədqiqat naminə, yeni fəlsəfi təlim yaratmaq məqsədilə meydana gəlməyib. Bu həmin dövrdə fizikada yaranmış böhranla bağlı olmuşdur. Belə ki,: "XIX əsrin sonlarında fizikada ciddi kəşflər olur. İlk növbədə bu radioaktivliyin və maddənin kvant-mexaniki quruluşunun kəşfi olmuşdur. Bunun nəticəsində belə bir təsəvvür yaranır ki, materiya yox olur. Belə məlum olur ki, fizik nə qədər materiyanın dərkinin sirlərinə dərindən nüfuz edirsə, mikro-dünyaya nə qədər dərindən nüfuz edirsə, ona bir o qədər aydın şəkildə aşkar olur ki, maddə olaraq materiya necə varsa, yəni o şey ki, bizim hiss orqanlarımıza təsir göstərir, o mövcud deyil. Ona görə də fizikada böhran yaranır, belə ki, fiziklərin məxsusi predmetləri –maddə yoxa çıxır. Fizika həmişə maddi təbiətin öyrənilməsi ilə məşğul olub, əgər təbiət özü yoxdursa, onda öyrənmənin predmeti də yoxdur" [13, s.258]. Bu böhranı aradan qaldırmağa çalışan E.Max özünəməxsus ontoloji konsepsiya yaratmışdır.

E.Maxın fikrincə, təcrübə vasitəsilə insana aşkar olan fiziki cisimlər yalnız qavrayışdan yarananlardır, yəni onlar son nəticədə "duyğular kompleksidir": "Cisimlər duyğuları yox, elementlər kompleksi (duyğular kompleksi) cismi əmələ gətirir. Əgər cisim fizikə nəsə daimi, gerçək kimi, "elementlər" isə onların davamsız, keçici inikası kimi görünürsə, o zaman onlar bir faktı diqqətdən qaçırırlar ki, bütün "cisimlər" elementlər kompleksi (duyğular kompleksi) üçün yalnız mücərrəd simvollardır" [14, s.68-69]. Əsl gerçək, ilkin və "neytral" varlıq "duyğular selidir". E.Max onları "dünyanın neytral" elementləri adlandırır. Onlar təcrübənin elementləri olduğu üçün nə ideal, hə də maddidirlər: onlar nəsə ilkin olan və bu səbəbdən "üçüncüdürlər".

Filosof belə hesab edir ki, qavrayış özündə heç bir subyektiv olanı saxlamır, onlar selin obyektiv və subyektiv olana parçalanmasından əvvəl mövcud olurlar. Materialistlər subyektiv qavrayışları obyektiv proseslərdən kənarlaşdırırlar, idealistlər isə əksinə, obyektləri subyektiv qavrayışlardan kənarlaşdırırlar. Burada hər iki hal mümkündür, çünki subyektiv olanla obyektiv olan arasında onların eyni mənbəyə malik olmaları səbəbindən əlaqə mövcuddur.

Beləliklə, empiriokritisistlər bu nəticəyə gəlirlər ki, fiziklər materiyanın adi anlamından imtina etməli, təcrübəyə əsaslanmaqla yalnız faktları tədqiq etməlidirlər. Fəlsəfə isə fizikaya onun təcrübi metodunun analizində kömək etməlidir. Elm də mücərrəd yox, təcrübi olmalıdır ki, onda böhran yaranmasın. Mikro-dünyanın təcrübi anlamı var, yalnız bu təcrübi anlam öyrənilməli, materiya kimi mücərrəd metafizik mahiyyətlər uydurulmamalıdır. Təcrübənin tədqiqi dünyanın maddi və mənəvi olana metafizik bölgüdən kənarlaşdırır. Yəni, metafizikanın ayırdığını təcrübə birləşdirir,

həm də təcrübə həmişə aşkar və səhihdir. Beləliklə, fizikada yaranmış böhran, yeni ontoloji konsepsiyanın köməyi ilə aradan qaldırılır.

**Nikolay Hartmanın varlıq konsepsiyasının mahiyyəti**

Bununla belə XX əsrdə, özünün də “yeni”, bəzən də “tənqidi” adlandırdığı ontologiya alman filosofu Nikolay Hartman tərəfindən yaradılıb. O, neokantçıların Marburq məktəbində təhsil almış, bununla yanaşı E.Hüsserl və M.Şelerdən təsirlənmişdir. Buna baxmayaraq N.Hartman öz müəllimləri ilə razılaşmamış, onlarla ciddi polemika aparmışdır. Belə ki,: “Fəlsəfi yaradıcılığının başlanğıcında Hartmanın da ardıcılı olduğu neokantçıların Marburq məktəbinin nümayəndələri Kantın təlimini subyektiv-idealist ruhda təfsir edərək belə düşünürdülər ki, fəlsəfə yalnız “məntiqləşdirilmiş” idrak nəzəriyyəsi ilə məhdudlanmalıdır. Bu məktəbin liderləri (Kohen, Natorp) Kantın “özündə şeylərin” dərkolunmazlığı təliminə əsaslanaraq hər bir ontologiyanı “atavizm” elan edirdilər: əgər “özündə” mövcud olan varlıq dərk olunmursa, deməli o ümumiyyətlə yoxdur” [7, s.10].

Hartman isə onların Kantın “özündə şeylər” təlimini düzgün təfsir etməmələrini bəyan edərək, bu təlimin əsl mahiyyətini aşkarlamağa çalışmışdır. Bu məqsədlə o, eyni zamanda Kantın özünün də bəzi müddəalarını tənqid etmişdir. Xüsusilə bu, neokantçıların ona əsaslanaraq ontoloji problemlərin fəlsəfədən kənarlaşdırılmasına yönəlir: “Burada tarixi avtoritetlərə istinad da kömək edə bilməz. Axı o şeyi ki, Kant zəkanın taleyi adlandırır, heç də bütün metafizik problemlər məcmusunu, xüsusilə onun fundamental ontoloji qatını əhatə etmir. Kant, sadəcə öz diqqətini spekulyativ fəlsəfənin üç əsas və hamıya bəlli olan sahəsinə – kosmos, ruh, ilahilik – yönəldir” [5, s.80]. Bütün bununla yanaşı, Hartman Kantı özünəməxsus şəkildə təsfir edir və qəti şəkildə bəyan edir ki, əslində Kant “özündə şeylərin” obyektiv mövcudluğunu etiraf etmişdir. Neokantçıların “fəlsəfə yalnız idrak nəzəriyyəsi ilə məhdudlanmalıdır” tezisini isə o, “özünüaldatma” adlandırır. Filosof yazır ki, fəlsəfə tarixinə qısa nəzər yetirməklə əmin olmaq olar ki, heç bir fəlsəfi sistem ontoloji təlimsiz mümkün olmayıb. Digər tərəfdən, hər bir nəzəri fikir forması labüd olaraq ontoloji suallarla bağlı olur.

Beləliklə, Hartman Marburq neokantçılarının nəzəri-idraki təmayüllü təlimlərini tənqid edərək XX əsr Avropasında ilk dəfə olaraq varlıq probleminin üstünlüyünü elan etmiş və ontologiyanı epistemologiyaya qarşı qoymuşdur. Hartman bu təmayülün zərurət olduğunu bildirir və fikirlərini belə əsaslandırırdı: “Yeni dövr təfəkkürü əsas fəlsəfi elmi idrak nəzəriyyəsində görürdü. Bu zaman belə fərz olunurdu ki, biz idrak haqqında onun predmetindən çox bilirik; lakin onlar diqqətdən qaçırırdılar ki, idrak özü böyük tapmacadır, çünki onun münasibətdə olduğu transsendentdir, yəni hərfən desək “şüurun hüdudlarından kənara çıxır”. Belə ki, idrakın predmeti idrakın özündən asılı olmadan mövcuddur” [6, s.320]. Onun bu ideyasını fəlsəfi idealizmdən, yaxud transsendentalizmdən fəlsəfi realizmə doğru dönüş, yaxud qısaca ifadə etsək “ontoloji dönüş” kimi səciyyələndirmək olar.

İlk növbədə ümumiyyətlə varlığın təyin edilməsinin çətinliyini bildirən Hartman yazırdı: “Varlığın özünə nə tərif vermək, nə də izah etmək olar. Lakin varlığın növlərini fərqləndirmək və onların moduslarını analiz etmək olar. Bununla da onları daxildən aydınlaşdırmaq olar. Bu isə gerçək və ideal varlığın modal analizi vasitəsilə gerçəkləşdirilir. Burada hər şey imkan, gerçəklik və zərurətin daxili münasibətləri ilə bağlıdır. Varlığın hər bir sferasında bu münasibətlər tamamilə fərqlidir; bundan əlavə, onlar həm məntiqi sferada, həm də idrakda fərqlidirlər. Onların tapılması bütöv, həm də yeni bir elmin – modal analizin predmetini təşkil edir. Modal analiz yeni ontologiyanın nüvəsini təşkil edir” [6, s.322]. Hər bir halda yeni ontologiya klassik ontologiyadan tam fərqli olmasını bəyanlayır  və fikrini belə izah edir. Filosofun fikrincə, ümumi və universal ontologiyadan, sırf mücərrəd başlanğıclar sisteminə əsasən qurulan ontologiyadan imtina

edilərək, elmi biliklərin nəzərə alındığı yeni, tənqidi ontoloji model qurulmalıdır. Artıq ontoloji sistemlərin törədici substansionallıq yox, müxtəlif səviyyəli obyekt və prosesləri vahid sistemdə birləşdirərəcək dialektka dayanmalıdır. Onun fikrincə dünya çoxqatlıdır və bütün qatlar bir-biri ilə qarşılıqlı əlaqədədir. Daha yuxarı qatlar aşağı qatları müəyyənləşdirir: "Gerçək dünyanın quruluşu qat-qat yığılma formasına malikdir. Hər bir qat varlığın bütöv bir düzülüşüdür (tərtibi). Əsas qatların sayı dörddür: fiziki-maddi, üzvi-canlı, ruhsal, tarixi-mənəvi. Bu qatların hər biri özünə məxsus olan qanun və prinsiplərə malikdir. Daha yüksək varlıq qatları bütünlüklə aşağı qatlar üzərində qurulur, lakin qismən onunla müəyyənləşir" [6, s.322]. Filosof belə nəticəyə gəlir ki, əvvəllər olduğu kimi vahid prinsip, yaxud vahid prinsiplər qrupuna əsaslanmaqla metafizika, o cümlədən ontoloji təlim yaratmaq olmaz. Dünyanın qurulmuş və onun vəhdətdə təsvir edən mənzərələri doğru deyil. Dünyanın yalnız təbii sistemi mövcuddur, o isə heç kim tərəfindən qurulmur. Belə bir sistemin isə "strukturunu fenomenlərlə tapmaq olar. O nə nöqtəvi, nə də mərkəzləşdirilmiş vəhdətə, nə ilk səbəbə, nə də ki, ən ali məqsədə gətirilə, müncər edilə bilməz" [6, s.322].

Son olaraq bir də varlığın nə olması sualına qayıdır: "Bəs bütövlükdə varlıq nədir?" Onun fikrincə, klassik fəlsəfi yolla, yəni mücərrəd-konstruktiv yolla bu suala cavab vermək, yaxud bu yolla varlığı qurmaq artıq mümkün deyil. Lakin gerçək və ideal varlıq arasında mümkün münasibətləri analiz etmək olar. Bu isə artıq yuxarıda deyildiyi kimi modal analiz vasitəsilə mümkündür: "Yerdə qalanlar isə kateqoriyalar haqqında təlimə aiddir. O birgə prinsipləri (fundamental kateqoriyaları) və varlığın ayrı-ayrı qatlarının xüsusi prinsiplərini əhatə edir. Sonunculardan heç də hamısı bir qatla məhdudlanmır, onlardan bəzisi varlığın daha yüksək qatına nüfuz edir, digərləri isə qatın sərhədlərində qırılır. Məsələn, məkan, substansiya (materiya da daxil olmaqla) və riyazi struktur üzvi qatda bitdiyi halda, zaman, prosessuallıq, kauzallıq və s. yuxarı və aşağıya doğru ruhsal varlığa yayılır: ruhsal həyat məkansız, qeyri-maddi, qeyri-riyazi olsa da, zamanlı və prosessual olub özünəməxsus səbəbiyyət və qarşılıqlı təsirə malikdir" [6, s.322]. Deməli, kateqoriyaların təhlili prosesində varlığın ayrı-ayrı qatlarının fundamental kateqoriyalarını (ümumi prinsiplərini) müəyyənləşdirmək zəruridir. Belə varlıq konsepsiyasında substansiya ilə törənən nə ideal, nə də maddi varlıq mövcud deyil. Yalnız vahid varlığın dil, hüquq, əxlaq və s. də daxil olduğu müstəvilərindən biri kimi çıxış edən mənəvi təbəqə mövcuddur. Hartmanın fikrincə bu prinsiplərlə qurulmuş ontologiyadan çıxış etməklə dünyanın mənəvi də daxil olmaqla bütün təzahürlərini izah etmək olar.

**Yeni ontologiyaların yaranmasına fenomenologiyanın rolu**

N.Hartmanın qeyri-klassik ontoloji təlimi klassik ontologiyanın istiqamətlərindən biri kimi çıxış edən təbiətin fəlsəfəsi və spekulyativ metafizika zəminində yaranmış yeganə təlim olmuşdur. XX əsrdə yaradılmış digər qeyri-klassik ontoloji konsepsiyalar daha çox antropoloji paradiqma çərçivəsində yaranıb. Belə təlimlərdə diqqət mərkəzinə müxtəlif rakurslarda nəzərdən keçirilən insan gətirilir. Belə ontoloji konsepsiyalar bilavasitə alman filosofu E.Hüsserlin fenomenologiyasının təsiri altında yaranıb. O belə hesab edirdi ki, hələ R.Dekart tərəfindən aşkarlanmış "bizim rəngarəng təcrübəmizdə qarşılaşdığımız hər şey şüurumuzun qurucu işinin nəticəsidir" fundamental faktı nəzərə alınmadan heç bir metafizika və obyektiv varlıq mümkün ola bilməz. Ümumiyyətlə varlıqda mümkün olan hər şey mövcudluğuna şübhə edə bilməyəcəyimiz insan şüurudur: "Şüur heç də ən aşkar gerçəklik yox, həm də bütün gerçəkliyin əsası kimi çıxış edən mütləq gerçəklikdir" [16, s.375-376]. Beləliklə, dünya bütünlüklə şüur tərəfindən qurulur və rasional fenomenoloji refleksiya və rekonstruksiya üçün əlyetərlidir. E.Hüsserlin fikrincə gerçəklik yalnız onun təklif etdiyi fenomenoloji reduksiya vasitəsilə dərk oluna bilər. Alman filosof bu haqda "Paris məruzələri"ndə yazırdı: "Dünyanı epocxe-də

(epoxe – Hüsserlin antik skeptisizmdən götürdüyü kateqoriya olub, hər hansı bir mühakimədən imtinanı bildirir – F.Ə.) itirmək lazımdır ki, onu universal özünüdüşünmədə yenidən əldə edəsən" [8, s.376]. Onun məhz bu tezisi sonrakı qeyri-klassik ontoloji təlimlər, əələlxüsus ekzistensializm çərçivəsində yaranmış ontologiyalar üçün ciddi zəmin və müəyyən mənada metodoloji prinsip kimi çıxış etmişdir.

Bu məcrada yaranmış qeyri-klassik ontologiyalardan biri də, artıq yuxarıda qeyd etdiyimiz kimi, çoxsaylı variantlarda meydana gələn ekzistensializm məcrasında yaradılmışdır. Ekzistensializmdə, hələ R.Dekart tərəfindən formulə edilmiş və E.Hüsserlin də tez-tez müraciət etdiyi mühüm cogito prinsipində əksini tapmış fundamental ontoloji məqam əsas götürülür: insan varlığı digər varlıq növləri ilə müqayisədə bir sıra mühüm üstünlüklərə malikdir.

**Ekzistensializmdə ontoloji konsepsiyalar**

Ekzistensializm XX əsrin birinci yarısında, sosial-siyasi və iqtisadi-mədəni həyatda ciddi kataklizm və böhranlar, qanlı müharibə və cəmiyyətlərin sosial strukturunu dağıdan inqilablar dövründə yaranıb. Bu təlim həyat və ölüm, varlıq və qeyri-varlığın sərhəddində dayanan insanın əhval-ruhiyyəsini əks etdirmişdir. Çoxsaylı ekzistensialist cərəyanların yaranmasına baxmayaraq, onların hamısı üçün ümumi olan inteqral mövzular mövcuddur ki, məhz bu mövzular ekzistensializm çərçivəsində yaranmış və bəzi hallarda bir-birinə zidd gedən cərəyanları konseptual baxımdan birləşdirir.

Belə mövzulardan biri və ən əsası ontoloji paradiqma olub ekzistensializmin nəzəri təməlinin mühüm halqasını təşkil etmiş və onun demək olar bütün klassiklərinin maraq dairəsində olmuşdur. F.İsmayılov ekzistensializmdə ontoloji problemlərin ön plana çıxarılmasını belə izah etmişdir: "Ekzistensialistlərin ontologiyaya dönüşü təsadüfi deyildir. Onun tərəfdarları belə hesab edirlər ki, insan hər tərəfdən varlıqla əhatə olunmuşdur, lakin o bu varlığa –özünə və şeylər aləminə yanaşmanın açarını itirmişdir. Buna görə də insan özünə və dünyaya "yad" münasibət bəsləməyə, bir növ yadlaşmağa məcbur olmuşdur, o artıq öz-özünə bərabər deyildir. Buna görə də, vəzifə insana özünü yenidən tapmaqda, özünün özünə və dünyaya həqiqi münasibətini bərpa etməkdə kömək göstərməkdən ibarətdir" [1, s.256]. Bununla belə, ekzistensializmi sırf XX əsr hadisəsi hesab etmək çətindir. Onun mahiyyətinin aşkarlanması və ontologiyaya ciddi marağının səbəbini aşkarlamaq üçün ekzistensializm üçün mənbə rolunu oynamış bəzi təlimlərə diqqət yetirmək zəruridir.

Belə təlimlərdən biri və müəyyən mənada ekzistensializmin erkən sələflərindən hesab olunan fransız filosof və alimi Blez Paskal tərəfindən yaradılıb. O insan varlığını "Kainatın kiçik hücrəsində, xəlvəti küncündə" ekzistensial itirilmə, sonsuzluq və qeyri-varlıq kimi uçurum kənarında tarazlıq tapmış kimi qavrayır. İnsan özü isə sonsuzluqla müqayisədə "hər şey və heç nə arasında ortadır". Onun özünün var olmasını "insani keyfiyyətlərdə" dərk etməsi ekzistensial ölüm duyğusu ilə şərtlənən dərin daxili əsəbi halla qırılmaz surətdə bağlıdır. Ontoloji ölüm bütün atributları və nəticələri ilə birlikdə götürülmüş uyğun reflektiv ölüm qorxusundan ayrılmazdır, lakin ölümlə mübarizə insanın özünəməxsus təyinatını müəyyənləşdirir. Əbədiyyətin mövcudluğunu qəbul edən B.Paskal sonda belə nəticəyə gəlir: "Lakin bununla belə, əbədiyyət mövcuddur, və ona darvaza açan və onu təhdid edən ölüm hökmən onu tezliklə dəhşətli labüdlüklə ya əbədi qeyri-varlıq, ya da əbədi iztirab qarşısında qoyacaqdır; ancaq onlar bilmirlər ki, onlar üçün əbədiyyətdə nə hazırlanıb" [15, s.195]. Beləliklə, B.Paskalın təlimində ölüm, əbədiyyət, qorxu qırılmaz surətdə bir-biri ilə bağlı olub əlahiddə ekzistensial qovşaq yaradır.

Bununla belə, ekzistensializmin gerçək banisi XIX əsr danimarka filosofu Sören Kyerkeqor hesab edilir. Onun ekzistensializminin ontoloji aspekti ekzistensiyanı insanın dünyada daxili varlığı kimi başa düşməsindədir. Zahiri əşyavi varlıq yalnız süni mövcudluğu ifadə edirsə, ekzistensiya isə həlledici ekzistensial seçimi nəzərdə tutur. Məhz ekzistensial

seçim vasitəsilə insan sosial mühitin zahiri amilləri ilə determinasiya olunmuş seyri-hissi varlıqdan "öz-özünün yeganə və təkrarolunmaz varlığına keçid edir." [12, s.301]. İnsanın öz-özünü, özünün unikal və təkrarolunmaz Mən-ini seçməsi əzəmət və məsuliyyətlə icra edilən proses olub gerçək faciəvi yaşantılarla bağlıdır. Seçim təxirəsalınmaz, ani prosesdir. "Şəxsiyyətin daxili hərəkəti fikir eksperimentinə zaman vermir. Həhayət elə bir an yetişir ki, o zaman heç bir seçimdən söhbət belə gedə bilməz... insanın əvəzinə artıq həyatın özü seçir, və o öz-özünü, öz Mən-ini itirmiş olur" [11, s.123]. Yox, əgər seçim baş tutmuşsa, əgər insan öz təyinatını dərk etmişsə, onda bu öz mənası və məzmununa görə həyatın əzəmətli mənzərəsidir: insan özü baş verənlərin mühümlüyünü, ciddiliyini və geridönməzliyini hiss edir.

Artıq qeyd etdiyimiz kimi XX əsrdə yaranmış müxtəlif ekzistensialist konsepsiyalar insan varlığını ön plana çəkməsinin, onun digər varlıq növlərindən bir sıra üstünlükləri ilə bağlıdır. Bu üstünlükləri belə təsnif etmək olar. Əvvəla, insan varlığı insanın özünə ən yaxın və gerçəkliklə müqayisədə ən aşkar varlıqdır, çünki o bilavasitə insan şüurunun həyatı ilə bağlıdır. Rus filosofu S.L.Frank bu haqda yazırdı: "... "Bizim şüurumuzun" simasında biz nəinki dərk olunan, həm də əsl gerçək mahiyyətə -varlığa malik oluruq, o bizə qarşı durmayıb, bizdə və bizimlədir" [18, s.158]. Sonralar oxşar fikirlərə rus filosofu V.İ.Nesmolov, J.-P.Sartr da təkrarlamışlar. İkincisi, ekzistensiyanın varlığı insanın özü tərəfindən dəyişdirilə və idarə oluna bilər. Yəni insanın ekzistensiyası onun bilavasitə nəzarəti və hakimiyyəti altındadır. Belə ki, insan öz fikrini istədiyi əşyaya yönəldə, keçmişdə baş vermiş hansısa hadisəni xatırlaya, yaxud gələcəkdə baş verməsi gözlənilən istənilən situasiyanı təsəvvür edə bilər. Üçüncüsü, varlığın bütün digər növləri insana onun ekzistensiyası vasitəsilə verilir. İnsanın ekzistensiyası həm təbii və sosial, həm digər ekzistensiyalar, həm də transsendensiyalara (məsələn, Allah) qoşulmaq, onlar haqqında məlumatlı olmaq üçün mühüm şərtdir. İnsan həmişə dünyaya öz subyektivliyinin nəqşəsini vurur və heç vaxt əslində necə varsa zahiri varlıqla görüşmür.

Burada ekzistensialim çərçivəsində qeyri-klassik ontoloji təlimlər yaratmış M.Haydegger və J.-P.Sartırın konsepsiyalarını nəzərdən keçirəcəyik.

## Martin Haydeggerin fundamental ontologiyası

Ekzistensializmin görkəmli nümayəndələrindən hesab olunan Martin Haydegger orijinal ontoloji konsepsiya qurmuşdur. Onun ontoloji təlimi fundamental ontologiya, bəzən də poetik ontologiya adlandırılır. Ontoloji problemlərə çoxsaylı əsərlər həsr etsə də, o öz konsepsiyasını "Varlıq və zaman" əsərində şərh etmişdir. Özünün təbirincə desək bu əsər "varlıq haqqında sualın mənasını" [19, s.16] araşdırır.

Haydegger belə hesab edir ki, Platondan başlayaraq fəlsəfə varlığının mənasını axtarmış, bu zaman varlığı yox, mahiyyətləri, yəni nəyin maddi, yaxud ideal olduğunu tədqiq etmişdir. Bununla da, fəlsəfə varlığı unutmuş və hətta bu "unutqanlığın" özünü də unutmuşdur. O, məhz bu səbəbdən belə fərz edir ki, varlığın özünə doğru qayıtmaq və yeni, fundamental ontologiya qurulmalıdır. Bu məqsədi gerçəkləşdirmək üçün birinci, "insan ekzistensiyasının ekzistensial analitikası" gerçəkləşdirilməsi zəruridir. "Varlıq və zaman" əsərində Haydegger əsasən bu məsələyə diqqət yetirir. İkincisi, bunun üçün varlığı "unutmamış" Platondan əvvəlki dövr filosoflarının, sokrataqədərkilərin təlimlərinə müraciət edilməlidir. Burada söhbət xüsusilə Anaksimandr, Parmenid, Heraklitin yaratdıqları təlimlərində gedir. Təsadüfi deyildir ki, Haydegger adı çəkilən filosofların yaradıcılığının şərhinə ayrıca əsərlər həsr etmişdir. Deyilənlərlə yanaşı, eyni zamanda "varlığın çağırışını" eşitmiş böyük şairlərin əsərlərinə də müraciət olunmalıdır (o, bu ideyasını gerçəkləşdirmək üçün bir neçə əsər yazmışdır ki, bu da onun ontoloji təliminin poetik ontologiya adlandırılmasına səbəb olmuşdur).

Alman mütəfəkkirin yaratdığı yeni ontologiyada varlıq subyekt və obyektə bölünməyən

konkret insan varlığı kimi təfsir olunur. Onun fikrincə, əvvəlki ontoloji təlimlərdə obyekt və subyekt klassik fəlsəfənin anlayış və kateqoriyaları ilə qarşı-qarşıya qoyulmuş və bununla da "İnsan-Dünya" bütövlüyü diqqətdən yayınmışdır. "Varlıq və zaman" əsərində o, spesifik fikri vasitələr – ekzistensiallar yaratmışdır ki, onların da əsas vəzifəsi insan varlığının "İnsan-Dünya" bütövlüyü daxilində müxtəlif aspektlərini aşkarlamaq və təsvir etməkdir.

Ekzistensial insan mövcudluğunun aprior formaları, ekzistensiyanın moduslarıdır. Maddi dünyanı əks etdirən kateqoriyalardan fərqli olaraq ekzistensiallarda fərdin varlığının hissi, rasional və iradəvi konstituantları sintez olunur. "Biz iştirakın varolma cizgilərini ekzistensiallar adlandırırıq. Biz onları, kateqoriyalar adlandırdığımız mahiyyətin varolma təyinlərindən dəqiq ayırmalıyıq" [19, s.61]. Yəni, ekzistensiallar mahiyyətin kateqoriyalarla ifadə olunmuş varolma səciyyəsi yox, ekzistensiyanın varolma cizgiləridir.

Haydeggerin fundamental ontologiyası bütövlükdə varlıq deyil, insan varlığı haqqında elmdir. Onu düşündürən heç də "ümumiyyətlə varlıq" yox, "varolan varlıqdır". Bu zaman o, insan mövcudluğunu, onun situativliyi şəraitində fenomenoloji metoddan istifadə etməklə dərkinə cəhd edir. E.Hüsserl tərəfindən hazırlanmış bu metodun səciyyəvi xüsusiyyəti odur ki, burada mahiyyət bilavasitə "tutulur", çünki təzahürlərdən fərqli olaraq fenomenlər, onun hüdudlarından kənarda olan "mahiyyətləri" yox, yalnız öz-özündə olanı göstərir. Bu haqda Haydegger yazırdı: "Biz ontologiyanın bu metodunu fenomenologiya adlandırırıq" [20, s.436].

"Varlıq və zaman" əsərində insan, varlıq haqqında sorğulaya biləcək mahiyyət kimi təsvir edilir. Filosof artıq insan haqqında şüur, subyekt, "Mən", təbiət haqqında isə obyekt, təbiət, materiya mühakimə yürütməkdən imtina edir. O, insanın ümumiyyətlə varlığının deyil, fərdin konkret varlığını, burada-varlığı tədqiq edir.

Varlıq probleminin təhlilində Haydeggerin çıxış nöqtəsi Dasein-lə ifadə olunun insan varlığıdır. "Dasein, yaxud insan varlığı" deyə filosof xüsusi vurğulayır. Deməli onun təlimində Dasein şüura malik olan konkret varlığı, insanın situasiyada mövcudluğudur. Onun səciyyəvi xüsusiyyəti varlığını dərk etməsi və onunla həmyaşar olmasıdır. Beləliklə Dasein var, o dünyada var, lakin dünyanın özü də "obyektiv gerçəklik" olmayıb, "ekzistensial fərziyyədir". Filosofun əsas əsərində təhlil etdiyi Dasein-in bütün strukturlarını ekzistensiallar adlandırır və onlar fərdlərin mövcudluğunun aprior, konstitutiv xarakteristikası kimi çıxış edir. Onun ontoloji təlimində ifadə etdiyi ekzistensiallara dünya-varlıq, özgələri-ilə varlıq, açıqlıq, anlama, nitq, qayğı, atılmışlıq, qorxu, ölüm-üçün-varlıq, vicdan, həqiqət və s. nümunə göstərilə bilər.

Haydegger kifayət qədər mürəkkəb, çətin anlaşılan ontoloji təlim yaratsa da, bu təlimin qayəsi kifayət qədər aşkardır. O, insana "...varlıq və dünya bəxş etmir, o, insana varlıq və dünya yaratmağı öyrədir. Onun vasitəsilə insan özünün və dünyanın təşəkkületmə mexanizminə sahib olur, onları yaradır, özü və dünya ilə əlaqə və münasibətlərin metod və metodologiyasına yiyələnir. İnsanın hərəkət və fəaliyyəti üçün fəlsəfə oriyentir və inam mənbəyi rolunu oynayır" [2, s.443]. Məhz bu baxımdan onun təlimi humanizm prinsiplərinin carçısına çevrilmiş, sonrakı dövr fəlsəfəsinə ciddi təsir göstərmişdir.

**Jan-Pol Sartr: şüurun ontologiyası**

Ekzistensialist fəlsəfədə şüur spesifik varlıq növü kimi qəbul olunmuş, varlıq və onun dərkinin eyniləşdirilməsinə cəhdlər göstərilmişdir. Onların fikrincə, burada söhbət klassik fəlsəfi təlimlər çərçivəsində tədqiqi mümkünsüz olan fenomendən – "şüurun ontologiyasından" gedir. "Şüurun ontologiyası" dedikdə ekzistensialistlər spesifik insani mənaya malik olan varlığın təsvirini nəzərdə tutur və həmin mənanı aşkarlamağa çalışırlar. E.Hüsserl və M.Haydeggerin təlimlərindən təsirlənmiş fransız ekzistensializminin görkəmli nümayəndəsi Jan-Pol Sartr özünəməxsus şüurun ontologiyası konsepsiyasını yaratmışdır.

Sartr demək olar ki, bütün yaradıcılığında, xüsusilə fundamental "Varlıq və heçlik" əsə-

rində subyektin substansionallığı haqqında klassik konsepsiyaları sərt tənqid edir. Onun fikrincə, belə yanaşma insan varlığının spesifikliyinə əhəmiyyətli dərəcədə kölgə salır. Filosof ifrat subyektivizm mövqeyindən çıxış edir və insanı, onun şüurunu yeganə əsl gerçəklik kimi təfsir edir: "insan dünyasından, insani subyektivlikdən başqa heç bir dünya yoxdur" [17, s.343]. Digər tərəfdən o, insanın aktivliyini vurğulayır: gerçəklik, insan onu necə müəyyən edirsə, elə də odur.

Sartr "Varlıq və heçlik" əsərində, əsas etibarilə, təbiət və insan, fərd və cəmiyyət, ağalıq və quldarlıq, zərurət və azadlıq, cavabdehlik, seçim kimi problemləri, onlar arasındakı dialiktek, ziddiyyətli əlaqəni tədqiq etmişdir. Bu problemlər, onun müasiri olduğu digər filosofların da diqqət mərkəzində olsa da, Sartr onlarla razılaşmır, gizli, yaxud aşkar şəkildə onları tənqid edir. Bununla yanaşı, o müasirlərindən, onun təliminə yararlı olacaq müəyyən ideyalar da əxz etmişdir. O, xüsusilə materializmə yönəlik tənqidlərində fenomenoloji məktəb nümayəndələrinə istinad etmişdir. Filosofun fikrincə hər bir materializm insanı daşla, bitki ilə, soxulcanla eyniləşdirərək onu materiyanın çöküntüsü edir. Materiya isə insan fəaliyyətini təhrif edən, onu eybəcərləşdirən, "inkar", "bizim həyatımıza daim təhlükə" kimi neqativ xüsusiyyətlərə malikdir. Bu baxımdan o, materializmi sərt tənqid edir: "biz ekzistensialistlər isə "insan səltənətindən ibarət" sərvətlər dünyası yaratmağa çalışırıq. Ona görə də filosofu maraqlandıran gerçəkliyin obyektiv həqiqəti deyil, "özü-üçün-varlığın" həqiqətidir, o elə bir varlığın həqiqətidir ki, bu varlıq –insanın və onun şüurunun sərbəst yaradıcılığının nəticəsidir" [2, s.545].

Sartrın yaratdığı şüurun ontologiyasının əsas xüsusiyyəti onda "özündə varlıq" və "heçlik" kateqoriyalarına ayrılmış rolla bağlıdır. "Özündə varlıq" elə "nə"dir, o müstəqilliyin, insandan asılı olmayan dünyanın bütövlüyünün və şəffaflığının simvoludur. Sartr "özündə varlığı" belə izah edir: "Özündə varlıq xalis obyektivlik, maddilik, irrasionallıqdır; o prinsipcə insana qarşı durur, onun azadlığını boğmağa can atır. Onun strukturunu əmələ gətirən elementlər – predmetlər, əşyalar, bir sıra hadisələr – külək, soyuq, duman, fəlakətlər və s. elə bil ki, hər tərəfdən insanın üzərinə "atılmağa" hazır vəziyyətdə durur" [2, s.545-546]. Onun ontologiyasında insan varlığı isə "özü-üçün-varlıq" kateqoriyası ilə təfsir olunur.

Haydeggerin ontoloji təlimindən Sartrın əxz etdiyi və yüksək dəyər verdiyi Heçlik kateqoriyasından geniş istifadə etmişdir. Lakin, əgər Haydeggerdə Heçlik Varlığa qarşı qoyulan nəsə tutqun və dərkolunmazı işarələyirsə, Sartrda heçlik Varlıqla sıx əlaqədədir. Deməli, həm Varlıq, həm də Heçlik var, lakin Heçlik insanda, mövcudluq kimi başa düşülən "ekzistensiyada", yaxud özü-üçün-varlıqdadır. Əgər Haydeggerdə dünyanın destruksiyası Heçliyin hansısa şəxssiz qüvvəsi və müəyyən tərəfidirsə, Sartrda destruktiv, inkaredici Heçlik insan və onun varlığı ilə sıx bağlıdır. İnsan varlığı təkcə sayəsində neqativliyin özünü dünyada aşkarladığı varlıq deyil, həm də bu varlıq öz-özünə münasibətdə neqativ yanaşmanı tətbiq edə bilir. Beləliklə, neqativlik insan mövcudluğunun bir cizgisi olub, insan ona görə məsuliyyət daşıyır. İnsan şərə, neqativliyə qarşı daim mübarizə aparmalıdır. Çünki, insan azadlığı insan varlığının özü ilə müəyyənləşir. İnsanın məhkum olduğu azadlıq seçimdir və bu insanda həmişə var. Bütün mahiyyətlərin əsasında da azadlıq durur.

**Nəticə**

Yeni dövrdən başlayaraq, xüsusilə elmi inqilablar dövründən sonra, filosoflar öz mücərrəd-fəlsəfi təlimlərini yeni elmi məlumatlara, biliklərə uyğunlaşdırmaq, bir sözlə, fəlsəfəni "ciddi elmə" çevirməyə cəhd göstərmişlər. Bu məqsədlə onlar mücərrəd-nəzəri fəlsəfi sistemləri, xüsusilə metafizikanı ciddi tənqid edir, onun verdiyi biliklərin insanların gündəlik-praktiki fəaliyyəti üçün əhəmiyyət daşımadığını bəyan edirlər. Sonralar bu təmayüllər yeni fəlsəfi cərəyanların – pozitivist cərəyanların yaranmasına səbəb olur, yalnız elmi-təcrübi biliklərin əhəmiyyətli olduğu bəyanlanır. Lakin çox keçmir ki, yeni ontoloji konsepsiyalar meydana gəlir. İlk belə kon-

sepsiya ikinci pozitivizm, yaxud empiriokritisizm çərçivəsində yaranır. Sonralar klassik ontologiyaların substansional ontologiyası əvəzinə yeni təlimlər yaranır. Belə təlimlərdən biri N.Hartman tərəfindən yaradılıb. Bu ontologiya müasir elmlərin nəticələrini nəzərə almağa çalışır və varlığı dörd qatda təsvir edir. Digər yeni ontologiyalar isə E.Hüsserlin fenomenologiyasına əsaslanmaqla yaradılmış, şüuru əsas gerçəklik kimi qəbul etmişdir. Belə ontologiyalar əsasən ekzistensializm cərəyanı məcrasında yaranmış və bəzən də "şüurun" ontologiyası adlandırılmışdır. Belə konsepsiyaların ən mühümləri M.Haydegger və J.-P.Sartr tərəfindən yaradılıb və insanı yeganə və gerçək varlıq kimi qəbul edir.

**Ədəbiyyat:**

1. İsmayılov F. Müasir Qərb fəlsəfəsi. Bakı: Azərnəşr, 1991, 310 s.
2. İsmayılov F. XX əsr Qərb fəlsfəsi tarixi. II c. Bakı: "Təhsil", 2000, 664 c.
3. Аристотель. Сочинение в четырех томах. Т.1. М.: «Мысль», 1976, 550 с.
4. Бэкон Ф. Сочинения. В 2-х томах. Т.1. М.: «Мысль», 1971, 590 с.
5. Гартман Н. К основоположению онтологии. СПб.: «Наука», 2003, 639 с.
6. Гартман Н. Старая и новая онтология. / в кн. Историко-философский ежегодник 88. М.: «Наука», 1988, 383 с. сс.320-324
7. Горнштейн Т.Н. Философия Николая Гартмана. Л.: Издательство «Наука», 1969, 279 с.
8. Гуссерль Э. Парижские доклады. /в.кн. Гуссерль Э. Избранные работы. М.: Издательский дом «Территория будущего», 2005, 464 с. сс.341-376
9. Ковалевский М. Предисловие. /в.кн. Конт О. Дух позитивной философии. Ростов н/Д.: «Феникс», 2003, 256 с. сс. 42-49
10. Конт О. Дух позитивной философии. Ростов н/Д.: «Феникс», 2003, 256 с.
11. Кьеркегор С. Наслаждение и долг. Киев: AirLand, 1994, 504 с.
12. Кьеркегор С. Страх и трепет. М.: Культурная революция, 2010, 488 с.
13. Лега В.П. История западной философии. Часть вторая. Новое время. Современная западная философия. М.: Изд-во ПСТГУ, 2009, 456 с.
14. Мах Э. Анализ ощущений и отношение физического к психическому. М.: Издательский дом «Территория будущего», 2005, 304 с.
15. Паскаль Б. Мысли. М.: Изд-во имени Сабашниковых, 1995, 480 с.
16. Реале Д., Антисери Д. Западная философия от истоков до наших дней. Том 4. От романтизма до наших дней. СПб.: ТОО ТК «Петрополис», 1997, 880 с.
17. Сартр Ж.-П. Экзистенциализм –это гуманизм./в кн. Сумерки богов. М.: Политиздат, 1990, 398 с. сс.319-344
18. Франк С.Л. Предмет знания. Душа человека. СПб.: «Наука», 1995, 655 с.
19. Хайдеггер М. Бытие и время. Харьков: «Фолио», 2003, 503 с.
20. Хайдеггер М. Основные проблемы феноменологии. СПб.: Высшая религиозно-философская школа, 2001, 445 с.

***Açar sözlər:*** *varlıq, pozitivizm, ekzistensializm, "ontoloji dönüş", "yeni ontologiya"*

**Fazila Aliyeva**

*PhD Student of Ganja State University*

# "ONTOLOGICAL TURN" IN MODERN PHILOSOPHY AND THE BASIC PRINCIPLES OF "NEW ONTOLOGY"

## ABSTRACT

The article deals with the causes of the crisis of metaphysical systems in the philosophy of the 19th century. After the creation of the philosophy of positivism by O. Comte, this criticism was significantly intensified. However, despite the criticism of the doctrine of abstract entities, new ontological concepts were created during this period; the first such ontological doctrine was created by E. Mach during empire criticism, which is considered the second stage of positivism. The intensification of such trends led to implementing the "ontological turn" in the first years of the 20th century. The "ontological turn" was not accidental; it had a dual nature. It is shown to be associated, in the first place, with the elimination of the absolutization of the epistemological interpretation of philosophy. On the other hand, the "ontological turn" goal is determined by attempts at a deeper philosophical understanding (comprehension) of the structure of existence and a man's place in it. Based on newly created ontological concepts, the studies of N. Hartmann are analyzed, and their basic principles are summarized (generalized). It is shown that the "new ontology" does not break a bond with classical philosophical doctrine, but, on the contrary, it is based on a new interpretation of it, especially the doctrine of I. Kant. Under the influence of E. Husserl's phenomenology, some philosophers created several ontological doctrines within the framework of existentialism. One of these concepts is the "fundamental ontology" of the German philosopher M. Heidegger, and the other is the "ontology of consciousness" of the French philosopher J.-P. Sartre. The article studied the essence of both concepts, and comparative analyses of their general principles were carried out.

***Key words:*** *being, pozitivizm, existentialism, "ontological turning", "new ontology"*

**Фазиля Алиева**

*Диссертант Гянджинского Государственного Университета*

# «ОНТОЛОГИЧЕСКИЙ ПОВОРОТ» В СОВРЕМЕННОЙ ФИЛОСОФИИ И ОСНОВНЫЕ ПРИНЦИПЫ «НОВОЙ ОНТОЛОГИИ»

## РЕЗЮМЕ

В статье рассматриваются причины кризиса метафизических систем в философии XIX века. Особенно после создания О. Контом философии позитивизма эта критика усиливается. Однако, несмотря на критику учений об абстрактных сущностях, в этот период были созданы новые онтологические концепции. Первое такое онтологическое учение было создано Э.Махом в ходе эмпириокритицизма, который считается второй стадией позитивизма. Усиление подобных тенденций привело к реализации «онтологического поворота» в первые годы XX века. «Онтологический поворот» не был случайным, он имел двойственную природу. Подчеркивается, что это было связано, прежде всего, с устранением абсолютизации гносеологической интерпретации философии. С другой стороны, цель «онтологического поворота» обусловлена попытками более глубокого философского осмысления устройства бытия и места человека в нем. На основе вновь созданных онтологических концепций подробно анализируется учение Н.Гартмана и обобщаются его основные принципы. Автор показывает, что «новая онтология» не разрывает связи с классическим философским учением, а, наоборот, основывается на новой его интерпретации, особенно учения И.Канта. Некоторые философы под влиянием феноменологии Э.Гуссерля создали ряд онтологических учений в рамках экзистенциализма. Одной из таких концепций является «фундаментальная онтология» немецкого философа М.Хайдеггера, другой – «онтология сознания» французского философа Ж.-П.Сартра. В статье исследована сущность обеих концепций, а также проведены сравнительные анализы ее общих принципов.

***Ключевые слова:*** *бытие, позитивизм, екзистенциализм, «онтологический поворот», «новая онтология»*

DOI 10.30546/2309-1347.84.2023.283

GƏNC TƏDQİQATÇILAR
YOUNG RESEARCHERS

SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR
POLITICAL INSTITUTIONS AND SYSTEMS

UOT 321; 323

**EMİN HƏSƏNLİ**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının dissertantı**
*e-mail: e.hesenli1977@gmail.com*

# AZƏRBAYCANIN GÜCLÜ VƏ ƏDALƏTLİ İDARƏETMƏ SİYASƏTİ VƏ ONUN NƏTİCƏLƏRİ

Azərbaycan Respublikası ərazilərinin Ermənistan tərəfindən uzun zaman işğal altında saxlanılması regionda müharibənin baş verə biləcəyini hər an istisna etmirdi. Bu uzun illər ərzində ölkəmiz həm də müharibədən zərər çəkmiş vətəndaşlarımıza hərtərəfli qayğı göstərmək siyasəti yürütmüşdür. Düşmənin təcavüzü nəticəsində zərər çəkmiş hərbi qulluqçuların, şəhid ailələrinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində güzəştlər, müxtəlif sosial layihələrin reallaşdırılmasını sürətləndirmişdir. Aparılan uğurlu institusional siyasət nəticəsində bayaq qeyd etdiyimiz kimi şəhid, hərbi qulluqçu ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində, ikincisi, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların mənzil, həmçinin gündəlik tələbatlarının ödənilməsi istiqamətində dövlət öz fəaliyyətini uzun illərdir ki, davam etdirir və bununla da həmin istiqamətdə olduqca uğurlu sosial layihələr reallaşmışdır. Üçüncü bir tərəfdən isə Azərbaycan bu sosial layihələrlə bərabər ordu quruculuğunu da müvəffəqiyyətlə gücləndirmişdir ki, məhz bu gün həmin siyasət zərər çəkən vətəndaşların öz ata-baba yurdlarına qayıtması istiqamətindəki işlərin praktiki reallaşmasını ön plana çıxarmışdır. Qeyd etdiyimiz bu istiqamətləri Azərbaycan dövləti uğurla davam etdirmiş, ölkə başçısı Cənab İlham Əliyev həyata keçirdiyi xarici siyasət platformalarında, bütün tədbirlərin preambulasını məhz Dağlıq Qarabağın azad edilməsi, işğalçıların ərazilərimizdən qovulması, məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması, Xocalı soyqırımının dünyada tanıdılması prinsipi üzərində qurmuşdur. Xalqımız dövlətçilik və milli birliyin qorunmasının, milli qürurun yeni tarixi mərhələsinə qədəm qoyur. Bu gün bu tarixi işlərin davamını təhlükəsiz, sosial-iqtisadi və mədəni-ekoloji baxımdan əhəmiyyətli inkişaf edəcək Qarabağa Böyük Qayıdış strategiyası təşkil edir. Azərbaycan hələ indiki qədər əzəmətli və gücü olmamışdır. Azərbaycanı bir dövlət kimi daim möhkəmlənməsini şərtləndirən faktorlardan biri də hərbi müdafiə strategiyasının olmasıdır. Müdafiə sisteminin yaradılmasında ordu quruculuğu başlıca yer tutur. Azərbaycanın

hərbi strategiyanın hazırlanmasının əsasları Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, müzəffər Ali Baş komandan İlham Əliyev tərəfindən özünün yüksək zirvəsinə yüksəlmişdir.

Azərbaycan beynəlxalq hüquqi normalar və milli mənafe əsasında öz xarici siyasət strategiyasını müəyyən edib. Belə ki, ölkə konstitusiyasında qeyd olunduğu kimi, Azərbaycanın xarici siyasəti sülh siyasətidir. Azərbaycan silahlı qüvvələri heç bir dövlətə qarşı çevrilməmişdir. Onun məqsədi sülh məramıdır. Azərbaycan Respublikasının hərbi strategiyasının əsas prinsipləri bunlardan ibarətdir: müstəqilliyini və suverenliyin qorunması ölkənin ərazi bütövlüyünün qorunması, beynəlxalq və regional təşkilatlarda təmsil olunmaqla ölkənin təhlükəsizliyi təmin edilməsi, daxili və xarici siyasətin vəhdətinin qorunub saxlanılması, xarici siyasətdə humanizm prinsiplərinin həyata keçirilməsi. Ötən dövrlər ərzində müharibə şəraitində belə İnsan kapitalının inkişaf etdirilməsi Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu başlıca prioritet istiqamətlərdəndir. Ölkə başçımız hələ, 2003-cü ildə ilk öz seçki platformasında Azərbaycan regionlarının inkişaf proqramlarının həyata keçirilməsi ideyasını irəli sürərək hökumətin fəaliyyətini bu istiqamətdə səfərbər etmiş oldu. Bunun ardınca mərhələli şəkildə Azərbaycan Regionların sosial-iqtisadi inkişaf proqramlarının icra olunması ölkədə həyat səviyyəsinin yüksəldilməsinə, insan kapitalının formalaşıb möhkəmlənməsinə böyük zəmin yaratdı. Dövlət proqramlarının icra olunduğu 2004–2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artdı. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. Bu siyasətin fəlsəfəsini sözügedən proseslərin mərkəzində insan amilinin dayanması prinsipləri təşkil edirdi. Regionlar üzrə Azərbaycan vətəndaşlarının sosial-mədəni inkişaf səviyyəsi, dəyişən dünya reallıqları zəminində asan idarəetmə və xidmət vərdişlərindən istifadəsi, insan potensialı göstəricilərini yüksəltməyə xidmət məqsədi daşıyaraq insan kapitalının formalaşmasını sürətləndirmiş oldu. Ölkə başçısının inteqrasiya, dialoq mədəniyyəti, tolerantlıq, multikulturalizm kimi müasir dünyanın aktual paradiqmalarını praktiki gündəmə gətirməsi isə ölkəmizin insan kapitalı sisteminin mədəni-ideoloji zəmində qurulmasına və təminatına hesablanmış oldu. 2019-cu il ərzində cənab İlham Əliyevin həyata keçirdiyi islahatlar kursu adekvat olaraq idarəetmədə insan kapitalının yeni əsaslarla qurulmasını şərtləndirdi. Həmçinin, bu islahatlar insan potensialının insan kapitalına çevrilməsi zamanı mövcud problemlərin də həllini təmin etməyə əsas verdi. Bu xüsusda qarşıdan gələn bələdiyyə və parlament seçkiləri ölkənin modernləşmə və sosial dəyişiklik indikatorlarını müəyyən etməyə istiqamətlənmişdir. Azərbaycanın regionlarının inkişafı ölkədə elektron hökumətin qurulması və möhkəmlənməsi baxımından da aktualdır. Elektron hökumətin müasir dünya reallıqları zəminində qurulmasının aktuallığını dövlət başçımız öz çıxışlarında dəfələrlə vurğulamışdır: “Biz ölkəmizi müasirləşdiririk. Bizim təşəbbüslərimiz, xüsusilə təhsillə bağlı, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı təşəbbüslərimiz gələcəyə yönəlib. Biz 10, 20, 50 il qabağa baxmalıyıq ki, Azərbaycan 50 ildən sonra necə yaşayacaq, insanların intellektual səviyyəsi necə olacaq”.

Bu uzun illər ərzində ölkəmiz həm də müharibədən zərər çəkmiş vətəndaşlarımıza hərtərəfli qayğı göstərmək siyasəti yürütmüşdür. Düşmənin təcavüzü nəticəsində zərər çəkmiş hərbi qulluqçuların, şəhid ailələrinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində güzəştlər, müxtəlif sosial layihələrin reallaşdırılmasını sürətləndirmişdir. Aparılan uğurlu institusional siyasət nəticəsində bayaq qeyd etdiyimiz kimi şəhid, hərbi qulluqçu ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində, ikincisi, məcburi köçkünlərin həyat

şəraitinin yaxşılaşdırılması, onların mənzil, həmçinin gündəlik tələbatlarının ödənilməsi istiqamətində dövlət öz fəaliyyətini uzun illərdir ki, davam etdirir və bununla da həmin istiqamətdə olduqca uğurlu sosial layihələr reallaşmışdır. Digər bir tərəfdən isə Azərbaycan bu sosial layihələrlə bərabər ordu quruculuğunu da müvəffəqiyyətlə gücləndirmişdir ki, məhz bu gün həmin siyasət zərər çəkən vətəndaşların öz ata-baba yurdlarına qayıtması istiqamətindəki işlərin praktiki reallaşmasını ön plana çıxarmışdır. Qeyd etdiyimiz bu istiqamətləri Azərbaycan dövləti uğurla davam etdirmiş, ölkə başçısı Cənab İlham Əliyev həyata keçirdiyi xarici siyasət platformalarında, bütün tədbirlərin preambulasını məhz Qarabağın azad edilməsi, işğalçıların ərazilərimizdən qovulması, məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması prinsipi üzərində qurmuşdur. Hətta neft erasının davam etdiyi dövrdə belə, neftin dünya siyasətində ən ümdə prioritetə çevrildiyi bir dövrdə belə ölkə başçımız neft gəlirlərini, enerji məsələlərini Qarabağ məsələsindən sonra ikinci prioritet məsələ elan etmişdir, bununla da bütün problemlərin fövqündə məhz Qarabağ probleminin dayandığını vurğulamışdır. Ölkə başçımız dövlət quruculuğunun ən mürəkkəb dövrlərində belə düşmənin ideoloji niyyətlərinin dəf edilməsi istiqamətində həm siyasi institutlaşma, həm də qanunvericilik bazasının təkmilləşdirilməsinə nail olmuşdur. Bu gün bu siyasət yeni mərhələyə qədəm qoyub. Məhz dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir. Ötən dövrdə minlərlə Qarabağ müharibəsi əlili və şəhid ailələri mənzillə təmin edilib. Ölkə başçımız müharibə əlilləri və şəhid ailələrinin övladlarının təhsil haqlarının dövlət hesabına ödənilməsi ilə bağlı müvafiq sərəncam da verib. Hərbi xunta nəzarətində olan Xankəndi bu gün azaddır. Orada hərbi paradın keçirilməsi şərəf və qürur tariximizdir.

Müasir Azərbaycan inkişafının yeni tarixi mərhələsindədir. Bu sıradan Türkiyə Azərbaycan münasibətləri nəinki bir millət iki dövlətin, eləcə də regionun təhlükəsizliyi üçün vacib əhəmiyyət kəsb edir. Daha geniş mənada bura beynəlxalq təhlükəsizlik amilləri də daxildir. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən milli maraqları qoruyaraq modernləşən ölkənin yeni tarixinin Zəfər salnaməsi hər zaman təhlil olunacaqdır. Bu mövzunun həm də fənlərarası təhlili də daim elmi diqqət mərkəzində saxlanılmalıdır. Dövlət quruculuğu başlanan tarixi dönəmdə Ulu Öndər Heydər Əliyevin ideoloji, praqmatik müdrik siyasəti bütün çətinlikləri dəf etdi.

Ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə fiziki sağlamlıqlarını itirərək əlil olmuş vətəndaşların və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması hər zaman ölkə rəhbərinin diqqətindədir. Ölkəmizdə hər zaman gənclərlə bağlı maarifləndirmə vətənpərvərlik tədbirləri işləri aparılır.

Ümummilli lider Heydər Əliyevin söylədiyi kimi, "Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına sərf etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır". Gənclərimizin milli ruhda, milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə edilməsinin vacibliyini qeyd edən Ümummilli lider Heydər Əliyev onlara tariximizi, keçmişimizi, dilimizi, mənəvi dəyərlərimizi yaxşı bilməyi məsləhət edirdi. Çünki milli dəyərlərimizi, adət-ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər də ola bilməz. Vətənini, ölkəsini, torpağını, dilini, dinini, milli ənənələrini sevməyən, onları özü üçün mənəvi əsas hesab etməyən gənc həyatda özünə yer tapa bilməyəcəkdir və şübhəsiz ki, ictimai-siyasi prosesdə, müstəqil Azərbaycanın inkişafında lazımi səviyyədə iştirak edə bilməyəcəkdir.

XX əsrin sonunda müstəqillik əldə etdikdən sonra Azərbaycan müasir, demokratik, hüquqi, sosial dövlət quruculuğu, sabit bazar iqtisadiyyatına, sivil dəyərlərə əsaslanan cə-

miyyətin formalaşması, müasir dünyada layiqli mövqe qazanması istiqamətində bir sıra əhəmiyyətli uğurlar qazanmışdır. Tarix nöqteyi-nəzərindən qısa bir dövr ərzində qazanılmış Zəfər, bu uğurlar tarixi şəxsiyyət bacarığına, zəngin həyat təcrübəsinə malik cənab İlham Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Bu gün praqmatik siyasəti uğurla davam etdirən cənab İlham Əliyev titanik tarixi siyasəti ilə Qarabağa Böyük Qayıdışın sosial-mədəni, iqtisadi inkişaf istiqamətlərinin strategiyasını müəyyən etdi. Çox yaxın müddətdə Qarabağ nəinki regionun eləcə də dünyanın ən gözəl, təhlükəsiz guşəsinə çevriləcək.

Erməni qəddarlığı haqqında həqiqətlərin dünyaya çatdırılması, dəhşətli faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərar və qətnamələrində də əksini tapıb. Dünyanın 21-dən çox ölkəsi parlament səviyyəsində, eləcə də ABŞ-ın 25-dən artıq ştatı, İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb.

Hər il xalqımız Xocalı soyqırımını böyük kədər, qəm-qüssə ilə anır, şəhidlərimizin ruhuna dualar oxuyur. Bu il soyqırımının ildönümü ilk dəfədir ki, fərqli şəkildə anılır. Çünki 32 il əvvəl ermənilər tərəfindən işğal edilmiş torpaqlarımız azadlığa qovuşub. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu Ermənistanın işğalçılıq siyasətinə son qoydu. Düşməni işğal etdiyi ərazilərimizdən qovdu. 200 ildən artıq müddətdə xalqımıza qarşı düşmənçilik siyasəti yeridən qəddar Ermənistan ordusu darmadağın edildi. Xocalı soyqırımı qurbanlarının, həmçinin digər şəhidlərimizin qisası alındı. Ulu öndər Heydər Əliyev Xocalı faciəsini soydaşlarımıza qarşı soyqırımı adlandırmışdır: "Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid oldular. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır – vəhşiliyin görünməmiş bir təzahürüdür". SSRİ-nin süqutu, dünyada gedən soyuq müharibə düyünlərinin, soyuq müharibə ideya qarşıdurmasının partlayış həddində baş vermiş Xocalı faciəsi azadlıq şüarlarını müstəqilliyimizin əbədi paradiqmasına çevirdi. Elmi ədəbiyyatda çox zaman soyuq müharibənin bitməsi kimi xarakterizə olunan bu dövrü (1989-1991) həm də, soyuq müharibə qarşıdurması dinamikasında kulminasiya həddi kimi də qiymətləndirə bilərik. Məhz bu kulminasiya həddində baş verən yeni partlayış dalğası ilə bir çox xalqlara qarşı təhdidlər dövrü başlandı. Xocalı hadisəsi də məhz belə bir dövrdə xalqımıza qarşı törədilmiş faciəli hadisə oldu. Müqayisəli metodlarla biz bir neçə məsələnin bu prosesdə şahidi oluruq; dünyada qlobal meyllər yeni dalğa ilə başlanır, keçmiş SSRİ dağılır, müstəqil respublikaların yaranması prosesi artır, xalqlar sovet insanı təfəkkürünü daşımaqdan imtina edərək milli özünüdərk prosesləri mərhələsinə qədəm qoyurlar. Xalqların milli özünüdərk, milli özünüidarə prosesinə daxil olması, həm sovet rəhbərliyinin müəyyən dairələri, eyni zamanda digər xarici qüvvələr tərəfindən qəbul edilməz olur. İqtisadi-coğrafi, geosiyasi amillərin həssas nöqtəsi olan Azərbaycana dünya maraqları həm çökməkdə olan sovet ittifaqı, həm də digər istiqamətlərdən daxil olmağa başlayır. Azərbaycana qarşı həm də gizli və açıq yollarla ərazi iddiaları planları qurulur. Mürəkkəb, həm də tarixi təzadlarla dolu bir dövr başlanır. Bu dövrdə Azərbaycan xalqı öz müstəqilliyini, keçmiş sovet respublikaları sistemindən ayrılmaq istəyini ortaya qoymaq yolunda, həm də Azərbaycanın tarixi torpaqları olan Qarabağın ermənilər tərəfindən təhdidlərinə cavab olaraq bir araya gəldi. 44 günlük Vətən Müharibəsində bu birliyin ən yeni tarixi səhifəsi yazılmış oldu: Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımız Xocalıdan başlanan müstəqillik amalımızın

yeni salnaməsini yazdı. Müqayisələr göstərir ki, insanların müstəqillik, azadlıq, vətənpərvərlik uğrunda bir araya gələrək verdikləri qurbanlar, bu zaman yaşadıqları faciələr gələcək nəsillər üçün iradə, ideoloji prioritet prinsiplərini də müəyyənləşdirmiş olur. Bu gün həmin hadisəni anan hər bir Azərbaycan vətəndaşı – uşaqdan yaşlıya hər birinin qəlbində bir amal yaşayır: Azərbaycan-azərbaycançılıq, vətən-vətəndaşlıq, dövlət-dövlətçilik, patriotizm. Deməli, bu kimi prioritet amalları özündə yaşadan faciə qurbanları həmişə iftixar yerimiz, həmin hadisə isə anım günümüz, hüzn günümüz olmaqla bərabər məqsədlərimizin, dövlətçiliyimizin, gələcək uğurları, gələcək möhkəmliyinin ideoloji təməl prinsiplərində ehtiyat və milli birlik əzmidir.. Eyni zamanda dünyanın bir daha belə faciə ilə üzləşməsinin qarşısını almaq üçün cəmiyyətlərin həmrəyliyi artmalıdır. Müasir Azərbaycan tolerant, multikultural ölkədir. Müasir azərbaycanlı multikultural düşüncənin, tolerant təfəkkürün daşıyıcısıdır. Bu fəlsəfənin mahiyyətində dayanan tolerantlıq bu gün Azərbaycanın siyasi kursunun prioritet paradiqmalarındandır. Bu prinsipin məğzində dayanan multikulturallıq bu gün Azərbaycanın dövlət siyasətinin ana xəttində mühüm məsələlərdəndir.

Xocalı soyqırımı dünənin, bu günün işi deyildi. Ermənistanın uzun müddət "böyük Ermənistan" dövləti yaratmaq ideyasını reallaşdırmaq uğrunda apardığı qanlı mübarizənin dəhşətli nəticələrindən biridir. İki yüz ildən çox davam edən erməni düşmənçilik siyasəti nəticəsində ərazilərimiz zaman-zaman işğala məruz qalıb, soydaşlarımız vəhşicəsində qətlə yetirilib. Bu düşmənçilik hələ çar Rusiyası zamanı ermənilərin əzəli Azərbaycan torpağı Qarabağa köçürüldükləri vaxtdan başlayaraq bu günə qədər davam edir. Ermənilər məskunlaşdıqları ilk gündən Azərbaycan toponimlərini dəyişərək özününküləşdirməyə cəhd etmiş, münbit əraziləri ələ keçirməyə çalışmış, əksəriyyət təşkil etdikləri yaşayış məntəqələrində azərbaycanlıları sıxışdırmış, onlara qarşı qəddarlıq nümayiş etdirmişlər.

Bu gün Xocalı Soyqırımı Qurbanlarının Ruhu Şaddır. 30 ilə yaxın bir dövrdə işğal altında qalan ərazilərimizdir. Ali Baş Komandanımızın hərbi, dinamik fəaliyyəti və ordumuzun qüvvəsi ilə işğaldan azad edildi. Ötən illər ərzində işğal edilmiş hər bir rayonumuzun xatirəsini yad edərək, düşmənə məğlubiyyətə, qələbəyə böyük inamı arzu və niyyət etməkdir. Bu ülvi arzular içərisində Xocalı faciəsi qurbanlarının dünyada anılması istəyi soyqırımın dünyada tanınması fəaliyyəti ilə bərabər düşmənin doğma ərazilərimizdən çıxarılması məsələsi də mümkün etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə XX əsrin ən dəhşətli və qanlı faciələrindən biri olan Xocalı soyqırımının 30-ci ili böyük izdihamla qeyd olunmuşdur. Soyqırımı qurbanlarının xatirəsi paytaxtımızda 60 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşü ilə yad edilmişdir. Bu yürüş dünyanı lərzəyə saldı. Dünya birliyi bu ədalətsizlikılə– Xocalı faciəsi ilə daha yaxından tanış oldu.

44 günlük Vətən müharibəsinin gedişatında işğalçı Ermənistan ordusu öz vəhşiliyini bir daha sübut etdi və beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq, dinc əhaliyə qarşı yenidən qəddarlıq, amansızlıq nümayiş etdirdi. Gəncəni, Bərdəni, Naftalanı. Tərtəri, Mingəçeviri, digər şəhər və kəndlərimizi kütləvi məhvetmə imkanlarına malik ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alaraq, bir daha sübut etdi ki, mülki əhaliyə qarşı qanlı cinayətlər törətmək Ermənistan tərəfinin daim həyata keçirdiyi dövlət siyasətidir. Bütün bu vəhşiliklərə baxmayaraq, rəşadətli Azərbaycan Ordusu Ermənistana layiq olduğu yeri göstərdi və düşmən üzərində parlaq qələbə qazanaraq doğma torpaqlarımızı işğaldan azad etdi. Xocalıların, eləcə də, bütün şəhidlərimizin qisası alındı. Azərbaycan xalqı heç vaxt Xocalı faciəsini unutmayacaq. Bu soyqırımına hüquqi-siyasi qiymət verilməli və bu dəhşətli faciəni törədənlər ən tez zamanda ədalət məhkəməsinə çəkilməlidirlər. Azərbaycan dövlətinin uğuruna zəmin yaradan başlıca amillər həm də bundadır ki, ölkə başçısı müasir

dünyanın aktual paradiqmalarının milli zəmində tətbiqinə nail ola bilmişdir. Bu təsnifata bazar iqtisadiyyatı, demokratiya, inteqrasiya, kommunikasiya, tolerantlıq kimi mühüm anlayışlar daxildir. Ölkədə keçirilən seçkilərin (prezident, parlament, bələdiyyə) demokratikliyinin və şəffaflığının artması, bazar iqtisadiyyatında dayanıqlığın təmin olunması (insan inkişafı indeksində Azərbaycanın ön sıralara çıxması), neftdən sonra informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və inkişafının ikinci prioritet istiqamət elan edilməsi (elektron hökumətin bazisinin yaradılması), tolerantlıq paradiqmasını "xalqımızın düşüncə tərzinə" çevirmək tezisi bu fundamental dəyişikliklərin əsasında dayanır(9). Bu baxımdan formalaşan yeni bazis modeli müasir üstqurum təsisatlarının da yeni əsaslarla formalaşdırılmasını – yeni çevik islahatları və idarəetmə aparatında ixtisarları zəruri etmişdir.

**Ədəbiyyat:**

1."Azərbaycan Respublikasının 2006-cı il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 16 noyabr 2005-ci il, N 311. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005. 11, s. 147
2.Azərbaycanın Avropa Şurasına üzv olması və ilkin qarşılıqlı münasibətlər. // Tarix və onun problemləri nəzəri, elmi, metodik jurnalı, əlavə №3, (1997-02), ISSN 1047, Bakı, 2006. s. 23-26
3.Qarabağ gündəliyi, Bakı 2011 4 saylı bülleten103 səh
4.Bərpa və Repatriasiya ("Böyük Qayıdış") Proqramı. Məcburi köçkünlərin repatriasiyası. http://www.refugees-idps-committee.gov.az/az/pages/21.html
5. https://xalqqazeti.com/az/news/9591
6. https://xalqqazeti.com/az/news/36861

***Açar sözlər:*** *inkişaf, qələbə, soyqırım, hərbi quruculuq, milli maraqlar, institutsionallaşma*

**Emin Hasanli**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan,*
*Department of International Relations and Foreign Policy, Ph.D. student*

# AZERBAIJAN'S STRONG AND FAIR MANAGEMENT POLICY AND ITS RESULTS

## ABSTRACT

This article conducts a comparative analysis of the successes achieved by the independent state of Azerbaijan. It examines the political and social development of the country, focusing on key aspects such as institutional reforms, investment in human capital, and the priorities and prospects of national development. Additionally, it discusses the paradigms shaping modern Azerbaijani society. Special attention is given to issues of national unity and solidarity.

***Keywords:*** *development, victory, military development, national interests, institutionalization*

**Эмин Гасанлы**
*Диссертант кафедры «Международные отношения и внешняя политика"Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## СИЛЬНАЯ И СПРАВЕДЛИВАЯ ПОЛИТИКА УПРАВЛЕНИЯ АЗЕРБАЙДЖАНА И ЕЕ РЕЗУЛЬТАТЫ

### РЕЗЮМЕ

В статье дается сравнительный анализ успехов независимого Азербайджанского государства. Изучается военное, политическое и социальное развитие страны. Освещается институциональные реформы, человеческий капитал, приоритеты и перспективы национального развития. Рассматриваются парадигмы развития современного азербайджанского общества. Уделяется внимание вопросам национального единства и солидарности.

***Ключевые слова:*** *развитие, победа, военное строительство, национальные интересы, институционализация*

DOI 10.30546/2309-1347.84.2023.291

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

S İ Y A S İ İ N S T İ T U T L A R V Ə S İ S T E M L Ə R
P O L I T I C S

UOT 321; 323

**NİGAR ADİLOVA**

**Azərbaycan Turizm və Menecment Universitetinin müəllimi**

*e-mail: adilova.nigar@gmail.com*

# İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI VƏ SİYASİ MƏDƏNİYYƏTİN YENİLƏNMƏSİ: NƏZƏRİ YANAŞMALARIN TƏHLİLİ

## Giriş

İnformasiya-kommunikasiya texnologiyalarının insanların həyatına nüfuz etməsi onların həm rahatlığı təmin etməsi, həm də sürətli inkişafı ilə əlaqədardır. "Mur qanunu"na əsasən hər iki ildə iki dəfə artan İKT-lərin inkişafı müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının əhəmiyyəti və təsirinin artmasını izah etməyə kifayət qədər imkan yaradır. Mobil telefonlardan rahat və ucuz istifadə, onların internetlə bağlılığı texnoloji konvergensiyaya gətirib çıxarır. Bu da informasiya, media və texnologiyaların bir-biri ilə sıx əlaqəsindən xəbər verir.

Cəmiyyətlərin inkişafı, yeni siyasi düzənin yaranmasında sənaye və informasiya inqilablarının həmişə mühüm rolu olmuşdur. Çap texnologiyaları, sənayenin inkişafı, bir-birini əvəzləyən bütün texnoloji yeniliklər yeni mühit, ardınca da yeni düşüncə və həyat tərzinin formalaşmasını təmin etmiş və müəyyən siyasi təsisatların öz məqsədlərinə çatmaq vasitəsi olmuşdur. Elm və texnologiyaların təkamülü yeni inqilabi fikirlərin ortaya çıxmasına və siyasi addımların atılmasına əsas yaratmışdır. Bu gün dördüncü sənaye inqilabı dövründə İKT-nin cəmiyyətin bütün sahələrinə sürətli və gözlənilməz təsiri müşahidə olunmaqdadır. Bəs bu təsir siyasi mədəniyyətdə özünü necə göstərir?

İnformasiya-kommunikasiya texnologiyalarının siyasi mədəniyyətə təsirinin öyrənilməsi medianın, informasiya və texnologiyanın cəmiyyətə, sosial mühitə, eləcə də siyasətə təsiri ilə əlaqədar nəzəriyyələrin araşdırılmasını tələb edir. İKT-nin siyasi mədəniyyətə bilavasitə təsirinə dair nəzəriyyələr olmasa da, medianın, texnologiya və informasiyanın cəmiyyətin ayrı-ayrı sahələrinə təsiri ilə bağlı nəzəriyyələrin öyrənilməsi bu baxımdan çox əhəmiyyətlidir. Məqalədə nəzəri aparat məhz bu üç istiqamət üzrə izah edilmişdir: medianın təsiri, informasiya cəmiyyəti və texnologiya-cəmiyyət

## Medianın təsiri haqqında nəzəri yanaşmalar

Medianın siyasi sosiallaşmada və siyasi mədəniyyətin formalaşmasında mövqeyini başa düşmək üçün keçən əsrin əvvəllərində

yaranmış kütləvi informasiya vasitələrinin təsiri haqqında yanaşmalara nəzər salaq. Həmin yanaşmalarda medianın cəmiyyətə təsiri fərdi duyğu və qərarlara təsirlə əlaqələndirilmiş, KİV-in müxtəlif səviyyələrdə təsir potensialı araşdırılmışdı. "Dərialtı iynə" (Q.Lassauel), "media gündəmi" (M.Kombs və D.Şou), "ictimai fikir liderləri" (P.Lazarsfeld), "susma spiralı" (N.Noyman), "kultivasiya" (C.Gerbner) və "innovasiyaların diffuziyasi" (Q.Tard) nəzəriyyələri bu baxımdan maraqlıdır. Eləcə də, kütləyə təsir üçün məzmundan daha çox inanclara təsir edən media vasitəsinin önəmini M.Makluhan, insanların yeni mühitdən asılı olaraq öz dəyərlərini dəyişməyə meylli olduqlarını B.Rokeş, M.Rokeş və C.Qruber, virtual mühitin real mühitlə birləşərək yeni mühit formalaşdırdığını U.Lippman müəyyən etmişlər. "İstifadə və məmnunluq" nəzəriyyəsi ilə isə C.Blümler və D.Makkuel siyasətdə iştirakın fərdin inanc və şəxsi tələblərinə əsaslandığını bildirmişlər. [1, s.58-60]. 1970-ci illərdə Corc Qerbner Mid tərəfindən irəli sürülən "kultivasiya" yanaşması xüsusilə diqqəti cəlb edir. Həmin nəzəriyyəyə görə, KİV, ilk növbədə televiziya, simvolik dünya yaradır, izləyicilər isə reallıq əvəzinə onu qəbul etməyə meylli olurlar [2, s.71]. Nəzəriyyədə qeyd edilir ki, uzun müddət televiziyanın izlənilməsi müəyyən müddətdən sonra insanların mədəniyyətinin, baxış və davranışlarının dəyişməsinə gətirib çıxarır [1, s. 112].

Bununla əlaqədar, Avstraliyada aparılan tədqiqatlar nəticəsində Amerika istehsalı olan verilişlərə daha çox üstünlük verdiklərindən televiziyaya çox baxan tələbələrin Avstraliyanı uğursuz və təhlükəli hesab etdikləri müəyyən olunmuşdur [9]. Vətəndaşın siyasi sistemə, eləcə də hakimiyyətdəkilərin siyasi performansına inamının azalmasına, buna müvafiq siyasi davranışların – siyasi maraq və seçkilərdə iştirakın zəifləməsinə, etiraz ruhlu siyasi fəaliyyətinə səbəb olan bu nəticəni V.Şramm fərqli aspektdən qiymətləndirməyə çalışır. Onun fikrincə kultivasiya effekti teleizləyicinin baxışlarını dəyişməkdən daha çox onu möhkəmləndirməyə xidmət edir. Məsələn, müntəzəm və uzun müddət Amerika verilişlərinin izləyicisi olan koreyalı qızlarda ailə və gender rolları ilə bağlı liberal əhval-ruhiyyə yaranmış, televiziya qarşısında eyni vaxtı keçirən koreyalı kişilərdə isə, əksinə, ABŞ-a qarşı düşmən münasibəti və öz mədəniyyətini qoruyub saxlamaq meyli formalaşmışdır [1, s.127]. Bu cür dəyişiklik həm sistemdə mövcud olan mənəvi dəyərlərin xüsusiyyəti, yeni qlobal çağırışlara qarşı dayanıqlığı, eləcə də vətəndaşın milli kimliyə, dəyərlərə bağlılıq səviyyəsindən asılı olaraq fərqli şəkildə özünü göstərir. Müasir cəmiyyətlərdə qlobal çağırışlar fonunda milli dəyərləri zəif olanlar, və ya kimliyi ilə bağlı yetkin mövqeyi olmayan fərdlər kultivasiya effektinin ən güclü təsirinə məruz qalanlara çevrilirlər. Sosioloji yanaşmalara əsasən cəmiyyətdəki ümumi ictimai rəy və həyat tərzi də buna qüvvətləndirici və qalıcı təsir göstərir.

Müasir dövrdə kultivasiya funksiyasını rəqəmsal televiziya və "Youtube" kanalları daha peşəkarcasına yerinə yetirə bilir. Bu gün həm KİV, həm də sosial mediada kultivasiya təsiri daha çox dövlətlərin "yumşaq güc" siyasəti ilə əlaqəlidir.

Medianın təsirini daha çox müasir tendensiyalar fonunda izah etməyə çalışan "İstifadə və məmnunluq" nəzəriyyəsinə görə isə, auditoriyanı təşkil edən insanların təqdim edilən informasiyaya özünəməxsus reaksiyaları var. İnsanların bilik və düşüncələrindəki fərqlər onların informasiyadan fərqli şəkildə bəhrələnməsinə səbəb olur. [1, s. 147]. Keçən əsrin 60-ci illərində C.Blümler və D.Makkuelanın əsərlərində öz əksini tapan bu nəzəriyyədə medianın rolu teleizləyicilərin siyasi maraqları və önəm verdikləri mövzular əsasında tədqiq olunmuşdur. Buradakı əsas fikir siyasətdə iştirakın əsas motivinin fərdin mənəvi və maddi tələblərinə köklənməsi və onun inancının əsasını təşkil etməsidir. Deməli, media siyasi fəaliyyətdə əsasən bir vasitədir, yardımçı rol oynayır, uyğun və uğurlu təsir üsulu seçməklə auditoriyanın inanc və baxışlarına təsir edir və onları dəyişməyə müvəffəq olur.

**Mediatizasiya nəzəriyyələri**

Medianın fərdə və ictimai fikrə təsirini öyrənən nəzəriyyələrlə yanaşı, onun cəmiyyətə və həyat tərzinə təsirini araşdıran nəzəriyyələr də mövcuddur. Müasir dövrdə qloballaşan media bu nəzəriyyələri daha da aktuallaşdırmışdır. Cəmiyyətdəki əksər dəyişikliklərin medianın təsiri ilə baş verdiyini qəbul edən bu nəzəriyyələrin əsas istiqamətlərindən biri institusional yanaşmadır. Burada media ayrıca bir təsisat kimi qiymətləndirilir və ayrı-ayrı institutların onun vasitəsilə cəmiyyətə nüfuz etməsi üçün müxtəlif üsullar tətbiq etdiyi vurğulanır. Media vasitələrinin ayrı-ayrı növlərinin fərqli sosial və siyasi təsirlərinə dair ilkin araşdırma İnnis və Makluhan tərəfindən aparılmışdır. Onların fikrincə, hər bir media vasitəsinin ötürdüyü mesajların mənimsənilməsini təmin edən və informasiyanı qəbul edənlərin düşüncəsini dəyişdirən özünəməxsus media məntiqi vardır [17, s.92]. Bu proseslərin siyasi kommunikasiyaya təsirlərini ilk dəfə İsveç alimi K. Asp öyrənmişdir. O da media məntiqinə uyğunlaşmanın hər bir (siyasi) media xəbərinin açarına çevrildiyini qeyd etmişdir [10, s.8].

Müasir dövrün tədqiqatçılarından A.Hepp və N.Kouldri media məntiqinə daha çox tənqidi yanaşmışlar. Buna baxmayaraq, Nik Kouldri siyasi mediatizasiyasının "media məntiqi"nin işlədiyi ən bariz sektor" kimi səciyyələndirmişdir [7, s.144]. Çağdaş medialaşma nəzəriyyələrinin müəlliflərinə görə bu gün siyasi kommunikasiya mediatizasiya proseslərinin əsas hissəsinə çevrilmişdir. Artıq media ayrıca bir siyasi aktor kimi qiymətləndirilir və onun nümayəndələri siyasətdə xüsusi rola malikdirlər [11].

Hazırda medianın cəmiyyətin bütün sahələrinə, xüsusilə siyasət seqmentinə daxil olması və bu məkanda fəaliyyət təsirininin əvvəlki dövrlərlə müqayisədə güclənməsi Makluhanın ifadə etdiyi "isti" media növlərinin çoxalması ilə əlaqədardır. ("Sərin" media vasitələri (kitab, qəzet və s.) məzmunu anlamaq üçün daha çox oxucu və ya izləyicinin düşünməsini tələb edir, "isti" media vasitələri (filmlər, video çarxlar, emosional məzmunlu bloq yazıları və s.) məzmunu dərk etmək üçün daha çox vizuallıq və emosionallıqdan istifadə edir, insanların onları çox düşünmədən hislərlə qəbul edirlər). Bu gün müxtəlif media növləri informativ məzmunlu "sərin" mediadan çox emosional məzmunlu "isti" media kimi fəaliyyət göstərir. Həm siyasi kommunikasiya, həm də əyləncə xarakterli mediada cəlbedicilik, fərqlilik, emosionallıq əsas xüsusiyyətlərə çevrilərək insanların şüurlu qərar qəbul etməsini zəiflədir.

Mediatizasiya proseslərini öyrənən daha bir tədqiqatçı Şultz bu prosesin siyasi baxımdan digər təsirini "media ictimaiyyəti" və "media cəmiyyəti" ifadələrini istifadə etməklə izah etməyə çalışmışdır. Onun fikrincə, yeni media mühiti insanların ünsiyyət və qavrayış imkanlarını genişləndirməklə yanaşı, həm də onların başa düşəcəyi və çətinliklə nəzarət edə biləcəyi məhdudiyyətləri ortaya çıxarır. Bu məhdudiyyətlər medianı idarəedənlər tərəfindən qoyulur və manipulyasiya xarakteri daşıyır. Medianın bu cür informasiya ötürmə və saxlama imkanları insanların ondan asılılığını yaradır və azadlıqlarını məhdudlaşdırır. Kütləvi informasiya vasitələrindən belə asılılıq və heteronomiya (mənəvi asılılıq) mediatizasiyanın vacib aspektlərindən biridir [17, s. 91]. Avstraliya siyasi tədqiqatçısı Con Kin də ən yeni informasiya vasitəsi olan rəqəmsal medianın və süni intellekt texnologiyalarının mediada istifadəsinin nəticələrinə dair fikirləri ilə oxşar problemlərə diqqət çəkir. O, bütün bu innovativ vasitələrin siyasi və ictimai həyatda mühüm müsbət dəyişikliklər etdiyini bildirsə də, onların mənfi aspektlərinin diqqətdən yayınmamalı olduğunu qeyd edir. Müəllif media ilə dövlət nəzarəti, kölgə piyarı və başqa pozucu amillərin medianın məhvinə (media decadence) səbəb olduğunu izah etməyə çalışır [4]. Şroeder isə medianı ayrıca bir altsistem kimi qiymətləndirir, mediatizasiyanın təsirlərinin qlobal səviyyədə ümumi dəyişikliyə səbəb olmadığını,

əksinə, yerli sosial sifarişlər və ya hakimiyyətdə olanlardan asılı olaraq qaldığını bildirir [16, s. 149]. Beləliklə, mediatizasiyanın qlobal və yerli səviyyədə nəticələri fərqli şəkildə ortaya çıxır.

Qeyd edilən fikirləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, medianın siyasi düşüncə və duyğulara təsiri əvvəlki dövrlərdə çox güclü olsa da, müasir dövrdə onun kütləviliyi azalmışdır. Buna baxmayaraq, istənilən qısamüddətli və ya uzunmüddətli siyasi hədəfləri gerçəkləşdirmək üçün fərdlərin öz zövq və tələbatlarına təsir edə bilən müxtəlif kommunikasiya vasitələrinin köməyi ilə nail olmaq mümkündür. Media ictimai fikri istiqamətləndirmək, ictimai yanaşmaları dəyişmək və ictimai dəyərləri yeniləmək üçün kifayət qədər güclü imkan və potensiala malikdir.

**"İnformasiya cəmiyyəti" konsepsiyaları**

Media-təsir nəzəriyyələrindən başqa XX əsrin 60-ci illərində "informasiya cəmiyyəti" ilə bağlı konsepsiyalar da yaranmışdır. Əvvəlki nəzəriyyələrdən fərqli olaraq bu nəzəriyyələrdə informasiya bolluğunun cəmiyyətlərə gətirdiyi dəyişikliklər izah olunmuşdur. İlk "informasiya cəmiyyəti" paradiqması D.Bell tərəfindən yaradılmışdır. Müəllif sənaye cəmiyyətini əvəz edən postsənaye cəmiyyətində əsas rolu kapital və əməyə deyil, informasiya və biliyə vermişdir. Onun təsvir etdiyi informasiya cəmiyyətində əsas idarəçilik demokratik olmaqla, savadlı və peşəkar insanlardan asılı olmalıdır.

İnformasiya-kommunikasiya texnologiyalarının cəmiyyət həyatında oynayacağı rolu Amerika yazıçısı və futuristi Elvin Toffler "üçüncü dalğa və yeni sivilizasiyanın yaranması" kimi qiymətləndirmişdir. Müəllifin fikrincə, mikroelektron inqilab insan intellektinin gücünü artırmış və texnoloji yeniliklər cəmiyyətin sosial strukturuna təsir etmişdir. E.Tofflerə görə, ikinci sənaye dalğasında standartlaşma, ixtisaslaşma, sinxronlaşma, konsentrasiya, maksimallaşma və mərkəzləşmə əsas dəyər və tələbləri əks etdirirdisə, artıq informasiya-texnologiya dalğasında bol informasiya axını insanlara, cəmiyyətlərə avtonomluq, müstəqillik gətirmiş, özünüreallaşdırma, özünüifadə, fərqliliklərin yaranması və ona tolerant baxışın formalaşmasını tələb edən yeni dəyərlər əvvəlkiləri əvəz etmişdir. E.Toffler həm də siyasi institutların köhnəldiyini və səmərəsizliyini və yenilənməyə tələbatın yarandığını qeyd edirdi [5, s.141, 215]. XX əsrin 80-ci illərinə aid bu fikirlərdən sonra dünyanın əksər dövlətlərində siyasi sistemlərin dəyişməsi buna əyani sübut oldu. Qlobal dəyişikliklər öz növbəsində siyasi mədəniyyətlərə də təsirsiz qalmadı.

İnformasiya cəmiyyətini araşdıran tədqiqatçıların daha bir nümayəndəsi Manyuel Kastelsdir. Onun tərəfindən irəli sürülən "Şəbəkələr cəmiyyəti" nəzəriyyəsinə əsasən sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid nəticəsində yaranan yeni mühitdə "Güc informasiya və kommunikasiya şəbəkələrini "proqramlaşdıran" və onlara nəzarət edən, digər şəbəkələrlə əlaqələndirənlərin əllərindədir" [6, s. 454]. Kastels belə qlobal dəyişikliyin siyasi sferada və gündəlik həyatda yeniliklərə səbəb olduğunu vurğulamışdır. R.Şroder Kastelsin bu fikrinə tənqidi yanaşaraq milli "media sistemlərinin" hələ də daxili tənzimləyici rola malik olduğunu qeyd etmişdir [16, s.149]. Lakin bu gün nəhəng qlobal informasiya mühitinin formalaşması qaçılmaz hala gəlmişdir. Bunun nəticəsi olaraq, dövlətlərin lokal tənzimləmə imkanları tədricən məhdudlaşır və Kastelsin irəli sürdüyü fikirlər əsasən özünü doğrultmaqdadır.

Müasir dövr tədqiqatçılarından N.Srniçekin "Kapitalizm platforma" kitabı da bu baxımdan maraqlıdır. Texnologiya əsrini bilik iqtisadiyyatı – koqnitivlik, qeyri-maddilik, informasiya ilə əlaqələndirən Srniçek bu yeni mühitin insanlarını bilikdən asılı halda olduqlarını və bunun onların həyatlarına gözləmədikləri şəkildə təsir etdiyini bildirir. Müəllif

"koqnitariat" terminini işlədir ki, burada münasibətlər biliyə malik olanların digərlərini sıxışdırması baxımından izah edilir. Terranovadan sitat gətirən iqtisadi tədqiqatçı qeyd edir ki, eyni zamanda, texnologiyanın inkişafı ilə ümumilikdə büten yüksək gəlirli ölkələrin sənayesizləşməsi əməyin məhsulunun qeyri-maddi xarakter alması deməkdir. Yəni, əldə edilən əsas məhsul mədəni məzmun, bilik, təcrübə və xidmətlər olur. Buraya media məzmunu (YouTube məzmunu, bloqlar kimi), həmçinin veb-saytın yaradılması, onlayn forumlarda iştirak və proqram təminatının inkişafı kimi daha geniş miqyaslı məhsullar daxildir. Srniçek kitabında "Big Data"nın istifadəsini izah etməyə çalışaraq, informasiyanı xammala bənzədir. Onun alqoritmik sistemlər vasitəsilə seçilməsi, təsnifləndirilməsi və nəticələrin ortaya qoyulması prosesinin sənayedə məhsulun emal prosesi ilə müqayisə edir. Müəllif bildirir ki, yeni dövr biznes münasibətləri elektron platformalarla əlaqəlidir və bu platformalar gözə görünməsə də öz istifadəçilərini idarə edən əsas güc sahibləridir [3].

Bu gün qlobal arenada sosial-siyasi və mədəni mühiti mediasız təsəvvür etmək qeyri-mümkündür. Siyasi mədəniyyətin formalaşmasında mühüm rol oynayan media informasiyanı müxtəlif məqsədlərlə və vasitələrlə təkcə cəmiyyətə çatdırmaqla kifayətlənməmiş, həm də bütün cəmiyyətləri əhatə edən əsas fenomenə çevrilmişdir. Bəhs etdiyimiz yanaşmalar onu göstərir ki, informasiya, eləcə də kommunikasiya vasitələri cəmiyyətlərə və onların sosial, siyasi, mədəni strukturuna ayrılıqda və birgə kifayət qədər güclü təsirə malikdir. Belə ki, əgər media vasitəsi siyasi hisləri və motivləri möhkəmləndirməyə və ya dəyişməyə xidmət edən üsuldursa, informasiya da siyasi biliyin formalaşmasında mühüm göstəricidir. Bununla yanaşı, müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının texnoloji imkanları da diqqətə layiqdir və müxtəlif texnologiyaların siyasi mədəniyyətin digər bir komponenti olan siyasi davranışlara təsiri mühüm əhəmiyyət kəsb edir.

## Texnologiyaların cəmiyyətə təsiri haqqında nəzəriyyələr

Medianın inkişafı və informasiya mühitinin dəyişməsi texnoloji inkişafın nəticəsidir. Medianı həm də bir texnologiya kimi qiymətləndirsək, müasir informasiya cəmiyyətləri informasiya, kommunikasiya və texnologiyaların vəhdəti əsasında formalaşmışdır. Bu baxımdan ayrılıqda texnologiyaların da cəmiyyətə, sosial-siyasi proseslərə təsirinə dair yanaşmaların nəzərdən keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Həmin nəzəriyyələrdə texnologiyaların cəmiyyətlərə təsiri müxtəlif dövrlərdə fərqli prizmalardan izah edilmişdir.

Ilk dəfə E.Kapp "Texnologiya fəlsəfəsinin elementləri: mədəniyyətin təkamül tarixi haqqında" əsərində texnologiyanın cəmiyyət və mədəniyyətə təsirlərindən bəhs etmişdir [12]. Levis Mamford və Ortega uQasset, Martin Haydegger və Cəkuell Ellul texnologiyanın humanitar fəlsəfəsini araşdırmışlar. Haydegger və Ellula görə, texnologiya cəmiyyətin və sosial münasibətlərin əsasını təşkil edir və insanlar yalnız ona uyğunlaşmaq məcburiyyətində qalırlar.

Sərt determinizmi təmsil edən bu müəlliflərdən fərqli olaraq, yumşaq determinizmin əsas nümayəndələrindən biri olan Villiam Oqburn texnologiyanın heç də hər şeyi həll etmədiyini bildirmiş və "mədəni geriləmə" (cultural lag) ifadəsini işlətmişdir. O hesab edir ki, texnoloji inkişaf maddi mədəniyyəti inkişaf etdirdiyi halda, qeyri-maddi mədəniyyət uzun müddət dəyişməz qaldığı üçün mədəni geriləmə müşahidə olunur. Maddi mədəniyyət sürətli dəyişsə də, qeyri-maddi mədəniyyət gec dəyişir. Çünki insanlar dəyişikliyi rahat qəbul etmirlər. Buna görə də yeniliyə uyğunlaşmaq üçün müəyyən zaman tələb olunur [20]. Oqburn texnologiyanın cəmiyyətə təsirini "bilyard topu"na bənzətmişdir. Burada texnologiya xarici qüvvə kimi qiymətləndirilmiş və ona toxunmaqla cəmiyyətdə olan hər bir aktorun digərinə təsir etdiyi qeyd edilmişdir.

Oxşar yanaşma A.Tofflerin 70-ci illərdə yazdığı "Gələcək Şok" əsərində də öz əksini tapmışdır. Müəllifin fikrincə, maddi mədəniyyət sürətlə dəyişdiyi üçün ona uyğunlaşmaq çox çətindir. Bunun mənfi nəticələrindən qorunmaq üçün isə strategiyalar müəyyən olunmalıdır [5].

XX əsrin 80-ci illərində – elm və texnologiyanın birgə öyrənilməsinədək "Texnologiyanın cəmiyyəti müəyyən edən avtonom bir qüvvə" kimi qiymətləndirilməsi uzun müddət professional dairələrdə geniş yayılmışdır. Həmin dövrdən etibarən N.Vinner və həmfikirləri texnoloji deterministlərdən fərqli olaraq texnologiyanı insan dəyərlərinin, ağlının məhsulu kimi qiymətləndirmişlər. Onlara görə, texnologiya ilk əvvəl insanın maraq və dəyərlərinə əsasən formalaşmış məhsuldur və onun istəyi ilə dəyişə bilər [18].

Eyni fikri dəstəkləyən K.Fişer, R.Uilliyams və V.Bijkeri determinist yanaşmanı tənqid etmiş, texnologiya ilə cəmiyyət arasındakı əlaqəyə sosial-konstruktivist mövqedən yanaşmışlar. Onlar texnologiyanı səbəb deyil, nəticə kimi araşdırmışlar. [21]. R.Ulliyams qeyd edir ki, texnologiyanın yaranması niyyətlə bağlı olmuşdur və texnologiya müəyyən məqsədlər və beyində mövcud olan təcrübələr nəzərə alınmaqla yaradılmış və inkişaf etdirilmişdir [19, s.7].

Göründüyü kimi, bir-birinə zidd mövqelərə malik olan sosial-konstruktivist və texnoloji determinizm nəzəriyyələri cəmiyyətlərin bugünkü vəziyyətini sosial və texnoloji amillərlə əlaqələndirmişlər. Beləliklə, texnologiya mədəniyyətin mədəni təcəssümü və təzahürü olmaqla yanaşı, həm də mədəniyyətlərin inkişaf tərzini formalaşdırmaqdadır [12, c.6, s.3832]. Əsasən 1950-ci illərdən etibarən texnologiyanın cəmiyyətlərə təsiri ilə qlobal səviyyədə yeni həyat tərzi, eləcə də qlobal müasirləşmənin yeni mərhələsi – postmodernizmin əsası qoyulmuşdur. Bu gün isə daha da irəli gedən texnologiyaların artıq yeni bir mədəni cərəyanın formalaşdırdığını irəli sürən Alan Kirbi rəqəmsal modernizmdən bəhs açır. "Digimodernizm: Yeni texnologiyalar postmodernizmi necə məhv edir və mədəniyyətimizi yenidən konfiqurasiya edir" kitabında rəqəmsallaşmanın yeni mədəni paradiqmanı ortaya çıxardığını bildirir. Bu yeni paradiqma postmodernizmin aradan qalxdığını, onun yerini təsadüfilik, qaçaqlıq və anonimlik, sosial və çoxsaylı müəlliflik̇lə əlaqəli olan rəqəmsal modernizmin tutduğunu qeyd edir [14].

Bununla yanaşı, R. Şroder isə qlobal dəyişimlə yanaşı yerli xüsusiyyətlərində qaldığını vurğulayır. O, texnologiyaların cəmiyyətlərə təsiri ilə siyasi mədəniyyət kontekstində daha fərqli yanaşma sərgiləyərək qeyd edir ki, texnologiyanın qlobal təsirləri mikro səviyyədə həyat tərzlərində bəzi ümumi dəyişikliklərə səbəb olsa da (insanların informasiyaya və bir-birinə marağının artması, bir sıra ölkələrdə sağçı populistlərin önə çıxması və s.), cəmiyyətlərin yerli xüsusiyyətləri hələ də qalmaqdadır.

Bu fərqli yanaşmaları, paradiqmaları ümumiləşdirərək, İbo van de yanaşması ilə yekunlaşdırmaq olar. Müxtəlif texnologiya və cəmiyyət nəzəriyyələrinin təhlil edən müəllif texnologiya və cəmiyyətin birgə inkişafını əsas kimi qəbul edir, bununla yanaşı texnologiyanın özünə məxsus xarakterinin olduğu və gözlənilməz, planlaşdırılmayan nəticələr ortaya çıxardığı vurğulayır. [15, s. 505]. Yəni, mediada olduğu kimi, texnologiyanın yaradılması və istifadəsi də daha çox məqsəddən asılıdır və insanların, cəmiyyətlərin və mədəniyyətlərin müxtəlifliyi əsasında bu təsirlər gözlənilməz və fərqli nəticələr doğurur.

Texnologiyaların davranış mədəniyyətinə təsirini praktik təcrübələr əsasında B.J.Fogg da araşdırmaqdadır. Gələcək texnoloji qeyri-müəyyənliklərin qarşısını vaxtında almaq və ya müəyyən məqsədlərə xidmət edən nəticələr əldə etmək üçün düşüncə və davranışlara təsiri dərindən tədqiqinə əsaslanan və texnologiyanın mədəniyyətə təsirini bu baxımdan öyrənən elm "kaptologiya" adlanır. Bu zaman müasir texnologiyaların əsas nümayəndəsi olan kompüterlər inandırıcı texnologiyalar kimi tədqiq

edilir, inandırma (təsir, motivasiya, davranış dəyişikliyi və s.) və hesablama texnologiyası arasında üst-üstə düşən cəhətləri araşdırılır. B.J. Fogg texnologiyaların əsasən üç yolla insan davranışlarına təsirini qeyd edir. Bu, texnologiyaların alət, media, sosial aktor kimi funksiyaları ilə əlaqədardır [8].

**Nəticə**

Təhlil olunan nəzəri aparatda İKT-nin cəmiyyətləri kəskin dəyişmək, orta səviyyədə yeniləmək və bu prosesdə iştirakçı olmaq potensialı müəyyən edilir. Nəzəri biliklər İKT-nin siyasi mədəniyyətin bilvasitə yenilənməsi, siyasi münasibətlərin, siyasi biliyin, siyasi davranışların, düşüncə tərzlərinin dəyişməsində də mühüm mövqeyə malik olduğunu deməyə əsas verir. Siyasi mədəniyyətin əsas strukturunu təşkil edən komponentlərin bilik, duyğular və davranışlar olduğunu nəzərə alaraq, bu təsir prosesini daha rahat anlamaq mümkündür. "İnformasiya cəmiyyəti" konsepsiyaları daha çox informasiya və güc məsələlərini araşdıraraq yeni informasiya mühitinin özü ilə bərabər yeni həyat tərzi, yeni idarəçilik, institutlar və münasibətlər formalaşdırdığı qənaətinə gəlmişlər. Bu konsepsiyalarda əsas problem yaranan dəyişiklikləri yeni biliklərlə əlaqələndirmək olmuşdur.

Media təsiri, mediasiya və mediatizasiya nəzəriyyələri isə daha çox medianın insanlara, cəmiyyətə təsir mexanizmlərini, üsullarını başa düşməyə çalışır. Mediatizasiya nəzəriyyələri "media məntiq", "kultivasiya" və "istifadə və məmnunluq" nəzəriyyələri, əsasən emosiyalara və duyğulara təsir, MakLuhan və digərlərinin media təsir nəzəriyyələri isə düşüncə və inama təsir etmək vasitələri haqqında fikirlər irəli sürmüşlər. Kommunikasiyanın növünün və təsir üsulunun daha çox duyğulara manipulyativ təsirini vurğulamışlar.

Texnoloji deterministlər və ya texnologiya və cəmiyyət arasında münasibətləri sosial konstruktivist yanaşma baxımından izah etməyə çalışanlar, həmçinin texnologiya və cəmiyyətlərin birgə mövcudluğunu vurğulayan texnoloji yanaşmalar isə ilk baxışdan davranışlarla bağlı heç bir fikir ortaya qoymasa da, konsepsiyaların mülahizələrinin texnologiyanın gözlənilməz nəticələrinin olduğunu vurğulaması və ya insanların onları məqsədyönlü şəkildə müəyyən niyyətlə yaratdıqlarını qeyd etməsi onların müəyyən davranışlar formalaşdırmaq imkanının olduğunu izah edə bilir. Həm də texnologiya bir alətdir. Alət isə müəyyən davranış yaratmaq və fəaliyyət formalaşdırmaq üçün istifadə olunur.

Beləliklə, İKT-nin siyasi mədəniyyətin formalaşmasında rolu ilə bağlı aşağıdakı müddəaları irəli sürmək olar:

1. Yeni informasiya mühiti və media siyasi mədəniyyətin əsas komponentlərindən olan siyasi biliyin yenilənməsi və formalaşmasına zəmin yaradır.
2. Media vasitələri, kommunikasiya üsulları və strategiyalar ünsiyyət prosesini yaradır, duyğulara, düşüncələrə və hisslərə təsir etməklə onları istiqamətləndirir. Mədəni-psixoloji, eləcə də sosial sahəni əhatə edən bu vəziyyət siyasi əhval-ruhiyyəni də müəyyən edir.
3. Texnologiyalar və medianın texnoloji quruluşu davranışları dəyişməyə daha çox imkan verir. Məqsədə uyğun elə texnoloji alət tətbiq olunur ki, insanların özləri hiss etmədən davranışları dəyişir.

İKT-nin siyasi mədəniyyətin formalaşmasında rolunun nəzəri cəhətdən araşdırılması nəticəsində müəyyən olunmuşdur ki, informasiya siyasi biliyin formalaşdırılmasına, kommunikasiya vasitələri və üsulları duyğulara, texnologiyalar isə davranışlara təsir baxımdan mühüm əhəmiyyətə malikdir. Bu nəzəri biliklər müasir dövrdə İKT-nin siyasi mədəniyyətin yenilənməsində əhəmiyyətli istifadəsi üçün səmərəli ola bilər.

**Ədəbiyyat:**


1. Брайант Дж., Томпсон С. Основы Воздействия СМИ/ пер. с английского В.В. Кулебы и Я.А. Лебедева. - Москва, Санкт-Петербург, Киев: Издательский дом «Вильяме», - 2004. – 425 с.
2. Грачев М.Н. Политическая Коммуникация: Теоретические концепции, модели, векторы развития./ М.Н. Грачев. – Москва: Прометей, - 2004. – 328 с.
3. Кин Дж. Демократия и декаданс медиа / пер. с англ. Д. Кралечкиной. – Москва: Издательский дом Высшей школы экономики, - 2015. – 308 с.
4. Срничек Н. Капитализм платформ / пер. с англ. и науч. ред. М. Добряковой. - Москва: Издательский дом Высшей школы экономики, - 2019. –128 с.
5. Тоффлер Э. Шок будущего / Науч. Ред. П.С.Гуревич. – Москва: Изд-во АСТ, - 2004. - 307 с.
6. Ampuja M, Koivisto J. From ‘Post-Industrial’ to ‘Network Society’ and Beyond: The Political Conjunctures and Current Crisis of Information Society Theory: [Electronic resource] /tripleC, - 12 (2). – July 30, 2014. – p. 447-463. URL: https://www.triple-c.at/index.php/tripleC/article/view/568
7. Couldry N. Media, Society, World: Social Theory and Digital Media Practice/ Cambridge, UK: Polity, - 2012. – 242 p.
8. Fogg B. J. Persuasive Technology: Using Computers to Change What We Think and Do. Interactive Technologies / B. J. Fogg. - Stanford: Morgan Kaufman, - 2002. –283 p.
9. Gerbner G, Gross L, Morgan M, Signorielli N. Growing up with television: The cultivation perspective/ In M. Morgan (ed.) Against the mainstream: The selected works of George Gerbner. - Hillsdale, NJ: Lawrence Erlbaum Associates, - 1994. - p. 193–213.
10. Hepp A. Mediatization as a panorama of media and communication research / In: Androutsopoulos J. (ed.): Mediatization and sociolinguistic change, - Berlin: de Gruyter, - 2014. - p. 49-66.
11. Hjarvard S. The mediatization of culture and society / S. Hjarvard. – Oxon, New York: Routledge, - 2013. – 173 p.
12. Information Communication Technologies: Concepts, Methodologies, Tools, and Applications: [ in 6 vol.] /compiled by Craig Van Slyke. - Hershey, New York: Information Science reference, - Volume IV. – 2008. - p. 1925-2565.
13. Kapp E. Elements of a Philosophy of technology: On the evolutionary history of culture/ trans. by L.K. Wolfe, - Minneapolis and London: University of Minnesota Press, - 1877/2018. – 313 p.
14. Kirby A. Digimodernism: How New Technologies Dismantle the Postmodern and Reconfigure Our Culture / Kirby A. – New York, London: Continuum, - 2009. – 282 p.
15. Poel I.V. Three philosophical perspectives on the relation between technology and society, and how they affect the current debate about artificial intelligence.// Human Affairs, - vol. 30, no. 4, - 2020. - pp. 499-511. URL: https://doi.org/10.1515/humaff-2020-0042
16. Schroeder R. Social Theory after the Internet Media Technology and Globalization / R. Schroeder – London: UCL Press, - 2018. – 196 p. www.ucl.ac.uk/ ucl- press
17. Schulz. W. Reconstructing Mediatization as an Analytical Concept // European Journal of Communication, - 2004, 19 (1). - pp. 87-101. URL: http://ejc.sagepub.com/content/19/1/87
18. Winner L. Do Artifacts Have Politics?// Daedalus, vol. 109, no. 1/ The MIT Press, - 1980, pp. 121–36. URL: http://www.jstor.org/stable/20024652
19. Williams R. Television: Technology and Cultural Form/ London: Routledge Classics, - 2003. – 192 p.
20. https://en.wikipedia.org/wiki/Technological_determinism
21. https://reagle.org/joseph/2004/seminar/fischer-williams.html

***Açar sözlər:*** *siyasi mədəniyyət, informasiya-kommunikasiya texnologiyaları, media, texnologiya, informasiya cəmiyyəti*

**Nigar Adilova**

*Azerbaijan University of Tourism and Management, Lecturer*

## INFORMATION AND COMMUNICATION TECHNOLOGIES AND RENEWAL OF POLITICAL CULTURE: ANALYSIS OF THEORETICAL APPROACHES

### ABSTRACT

Political culture and information and communication technologies have become the most relevant research areas of the modern era. If we approach it systematically, the re-formation of the political culture is the change of the subsystem under the influence of the external environment and actors. External influences, such as information, communication, and technologies, also have a means of influence. In the modern world, content, communication, and tools are called information and communication technologies. They are relevant tools that influence public opinion, political environment, and behavior overtly and covertly and are especially widely used in modern media. Since society's political culture is related to the change in political knowledge, political emotions, and political behavior of individuals, it is interesting to study the impact of ICT on political culture in this context. The impact of ICT on the socio-political and social-cultural spheres has been studied since the beginning of the last century. In this direction, there are various theoretical approaches to the influence of the media, theories about mediatization, information society, and the influence of technologies on society. Each of these theories helps to understand the direction of the influence of ICT on political culture. The research aims to define the theoretical apparatus about the socio-political and socio-cultural effects of ICT and to put forward new provisions related to its influence on political culture. The research is based on an analysis of different theoretical approaches.

***Keywords:*** *political culture, information and communication technologies, media, technology, information society*

**Нигяр Адилова**

*Преподаватель Азербайджанского Университета Туризма и Менеджмента*

# ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫЕ ТЕХНОЛОГИИ И ОБНОВЛЕНИЕ ПОЛИТИЧЕСКОЙ КУЛЬТУРЫ: АНАЛИЗ ТЕОРЕТИЧЕСКИХ ПОДХОДОВ

## РЕЗЮМЕ

Политическая культура и информационно-коммуникационные технологии стали наиболее актуальными направлениями исследований в современной политологии. Если подходить системно, то переформирование политической культуры и есть изменение подсистемы под влиянием внешней среды и акторов. Внешние воздействия также обладают средствами воздействия таких, как информация, связь, технологии. В наше время информационно-коммуникационные технологии, будучи актуальными, является инструментом, воздействующим на общественное мнение, политическую среду и поведение явным и скрытым образом, и особенно широко используется в современных СМИ. Поскольку политическая культура общества связана с изменением политических знаний, политических эмоций и политического поведения индивидов, интересно изучить влияние ИКТ на политическую культуру в этом контексте. Влияние ИКТ на общественно-политическую и социокультурную сферу изучается с начала прошлого века. В этом направлении существуют различные теоретические подходы о влиянии СМИ, теории о медиатизации, информационном обществе и влиянии технологий на общество. Каждая из этих теорий помогает понять направления влияния ИКТ на политическую культуру. Целью проведенного исследования является определение теоретического аппарата о социально-политических, социокультурных эффектах ИКТ и выдвижение новых положений, связанных с их влиянием на политическую культуру. Исследование основано на анализе различных теоретических подходов.

***Ключевые слова:*** *политическая культура, информационно-коммуникационные технологии, средства массовой информации, информационное общество*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

## *Dövlət İdarəçilik Akademiyası ilə Türkiyə Respublikası Prezident Administrasiyası yanında İnsan Resursları Ofisi arasında anlaşma memorandumu imzalanmışdır*

0 oktyabr 2023-cü il tarixində Ankara şəhərində Türkiyə Respublikası Prezident Administrasiyası yanında İnsan Resursları Ofisi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlığa dair protokol imzalanmışdır. İlk dəfə 2021-ci ildə Ankarada Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın doqquzuncu iclasında imzalanmış protokol çərçivəsində iki ölkənin dövlət qulluqçularının hazırlanması və inkişafı sahəsində əməkdaşlığına dair qərar qəbul olunub. Protokola əlavə edilmiş Fəaliyyət Planında, həmçinin təhsil və insan resurslarının inkişafı ilə bağlı birgə fəaliyyətin qarşılıqlı münasibətlərə təkan verəcəyi vurğulanıb. Bu çərçivədə Türkiyə Prezidenti Administrasiyası İnsan Resursları Ofisinin rəhbərliyinin dövlət qulluqçularının təlim və inkişafı üçün vasitələrin tanıdılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə birgə fəaliyyəti nəzərdə tutulub. Türkiyə Prezidenti Administrasiyası yanında İnsan Resursları Ofisinin rəhbəri, dosent doktor Salim Atay və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov tərəfindən imzalanan anlaşma memorandumunda Türkiyə Respublikası Prezident Administrasiyası yanında İnsan Resursları Ofisi tərəfindən dövlət qulluqçularının bilik və bacarıqlarının artırılması məqsədi ilə hazırlanmış və özündə 35000-dən çox təlim videolarını birləşdirən "Uzaktan Eğitim Kapısı" adlı rəqəmsal platformadan ortaq istifadə, dövlət qulluğu sahəsində qarşılıqlı təlimlərin keçirilməsi və təcrübə mübadiləsi aparılması nəzərdə tutulur. Türkiyədə istifadəyə verildiyi gündən bu xidmətdən 1596





dövlət qurumu yararlanmış və təlim videolarının izlənmə sayı 220 milyonu ötmüşdür. İlk olaraq Azərbaycanda fəaliyyət göstərən, dövlət qulluqçularının istifadəsinə verilən və sinxron olaraq Azərbaycan dilinə tərcümə olunan rəqəmsal təlim platformasından gələcəkdə Türk Dövlətləri Təşkilatına üzv olan dövlətlərin də öz kadr potensialının təkmilləşidiril-



məsi üçün istifadə edilməsi planlaşdırılır. Ankara şəhərində keçirilən görüşdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov Azərbaycanın son illərdə iqtisadi, siyasi, humanitar, hərbi inkişafı ilə bağlı geniş məlumat verib. Rektor qeyd olunan uğurların əsasında ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin yaradıcılıqla inkişaf etdirdiyi innovativ dövlət idarəçiliyi strategiyasını xüsusi vurğulayıb. Diqqətə çatdırıb ki, Türkiyə Respublikası, müstəqilliyinin bərpasından indiyədək hər zaman Azərbaycanın yanında olub və ölkənin uğurlu inkişafına dəstəyini göstərib. U.Ələkbərov Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran dünya lideri olduğunu deyib. Qeyd edib ki, Azərbaycanın inklüziv inkişafı indeksinin iqtisadi baxımdan dünyanın inkişaf etmiş ölkələrdəkindən yüksək olması ölkənin iqtisadi potensialının hərtərəfli inkişafı və əhalinin rifahının yüksəldilməsi üçün daha səmərəli istifadəsinin beynəlxalq təsdiqidir. Rektor vurğulayıb ki, inklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da xidmətləri böyükdür. U.Ələkbərov qazanılan uğurların 44 günlük Vətən müharibəsindəki parlaq Qələbədə böyük payının olduğunu da vurğulayıb. Bildirilib ki, ölkənin hazırkı davamlı inkişafı dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində reallaşdırılan ardıcıl islahatların nəticəsidir. Türkiyə Prezidenti Administrasiyası yanında İnsan Resursları Ofisinin rəhbəri Salim Atay qonaqları salamlayıb və dövlət qulluğu sahəsində kadrlarının hazırlanması istiqamətində Türkiyənin təcrübəsi barədə ətraflı bilgi verib. Eyni zamanda, S.Atay kadr potensialının təkmilləşdirilməsi sahəsində innovasiyaların Azərbaycanda tətbiqi imkanları ilə bağlı fikirlərini bölüşüb. O, qeyd edib ki, dövlət qulluqçularının hazırlanması prosesində iki ölkənin əməkdaşlığının gələcəkdə böyük səmərə verəcəyinə əmindir. Toplantıda gələcək birgə fəaliyyətə dair məsələlərlə bağlı fikir mübadiləsi aparılıb və perspektiv əməkdaşlıq istiqamətləri müəyyənləşdirilib. Görüşdə Dövlət İdarəçilik Akademiyasının Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri dosent Elvin Əzizbəyov iştirak edib.

## *Tələbələr Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbində növbəti mühazirəni dinləyiblər*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) birinci kurs tələbələri növbəti mühazirələrini Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbində dinləyiblər. Heydər Əliyev Mərkəzinin dəstəyi ilə yaradılan Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi ilə tanışlıqdan sonra DİA-nın rektoru, akademik Urxan Ələkbərovun "Dövlət idarəçiliyində Heydər Əliyev fenomeni və müasir Azərbaycanın davamlı inklüziv inkişafı" mövzusunda mühazirəsi dinlənilib. Mühazirəsində Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi haqqında ətraflı məlumat verən rektor bildirib ki, məktəb ümummilli lider, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin siyasi irsinin, azərbaycançılıq məfkurəsinin təbliği məqsədilə yaradılıb. Ulu Öndərin misilsiz tarixi xidmətlərindən danışan U.Ələkbərov diqqətə çatdırıb ki, Prezident İlham Əliyev Ümummilli Liderin siyasi xəttini əzmlə davam etdirir. Dahi şəxsiyyət Heydər Əliyevin zəngin siyasi irsinin öyrənilməsində, ölkəmizin dünyaya tanıdılmasında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun gördüyü işlər də təqdirəlayiqdir. Akademik qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin Sərəncamı

ilə DİA-nın yaradılmasının məqsədi dövlət idarəetmə sahəsi üçün gənc mütəxəssislərin hazırlanması işinin müasir tələblərə uyğun qurulması, onların peşəkarlıq səviyyəsinin artırılması, dövlətimizin möhkəmləndirilməsi və elmi əsaslarla idarə olunmasıdır. Dövlət qulluğu üçün gənc kadrların hazırlanması məsələləri üzrə əsas elmi-metodiki və tədris mərkəzi olan DİA-nın qarşısında çox məsul vəzifə durmaqdadır. Rektor ölkə iqtisadiyyatının sürətli inkişafı istiqamətində aparılan uğurlu siyasətin əsas hədəflərini, eləcə də davamlı inkişafa təsir edən amilləri beynəlxalq təşkilatların hesabatları ilə müqayisəli şəkildə tələbələrin diqqətinə çatdırıb. Azərbaycanın regionda və dünyada söz sahibinə çevrildiyini deyən rektor vurğulayıb ki, ölkəmizin inkişaf göstəriciləri bir çox beynəlxalq təşkilatların, o cümlədən BMT-nin və digər nüfuzlu qurumların rəsmi sənədlərində, müstəqil ekspertlər tərəfindən hazırlanmış hesabatlarda təsdiqini tapıb. Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

***Dövlət İdarəçilik Akademiyasının nümayəndə heyəti Ankara Sosial Elmlər Universitetində (ASBÜ) olmuşlar***

“Heydər Əliyev İli” çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) tədbirlər planına uyğun olaraq Türkiyəyə rəsmi səfər çərçivəsində Ankara Sosial Elmlər Universitetində ingilisdilli auditoriya üçün “Davamlı inkişaf məqsədlərinə çatmaq və inklüziv cəmiyyətin formalaşması üçün yeni idarəçilik texnologiyaları – Azərbaycan təcrübəsində” mövzusunda seminar təşkil edilib. Seminarda Ankara Sosial Elmlər Universitetinin ASBÜKENT (şəhər, ətraf mühit və yerli






idarəetmə sahələrində təhsil, araşdırma və nəşr fəaliyyətləri həyata keçirir) mərkəzinin direktoru professor Aslı Akay və ASBÜ Sosial Elmlər İnstitutunun direktoru professor Bilal Çakıcı açılış nitqi ilə çıxış ediblər. Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov Ankara Sosial Elmlər Universitetinin professor-müəllim və tələbə heyəti üçün ingilis dilində "Davamlı inkişaf məqsədlərinə çatmaq və inklüziv cəmiyyətin formalaşması üçün yeni idarəçilik texnologiyaları – Azərbaycan təcrübəsində" (New Public Administration Technology for Achieving Sustainable Development Goals and Creating Inclusive Society (Azerbaijan's Experience) mövzusunda geniş interaktiv təqdimatla çıxış edib. Məruzədə akademik U.Ələkbərov Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. O, Prezident İlham Əliyev tərəfindən işlənərək tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanı davamlı inklüziv inkişaf naminə resurslardan səmərəli istifadə üzrə regional və qlobal liderə çevrilməsinə gətirib çıxardığını xüsusi vurğulayıb. Eyni zamanda, Azərbaycanda tətbiq edilən innovativ idarəçilik texnologiyaları kompleksinin yüksək səmərəliliyinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin uğurla yerinə yetirilməsində və Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan ərazilərin azad edilməsində təsdiqini tapdığını bildirib. Akademik Azərbaycanın ərazi bütövlüyünün tam bərpasını dövlətimizin başçısının innovativ inkişaf

strategiyasının təntənəli yekunu kimi dəyərləndirib. Rektor Azərbaycanın bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran dünya lideri olduğunu diqqətə çatdırıb. Vurğulanıb ki, inklüziv inkişaf sahəsində Azərbaycanın Respublikasının yüksək göstəricilər əldə etməsində və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri var. Respublikanın hazırkı davamlı inkişafı dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində reallaşdırılan ardıcıl islahatlar və dəyişikliklərin nəticəsidir. Rektor seminar zamanı müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu qeyd edərək, inklüziv cəmiyyətin qurulması prosesinin ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasında olduğunu söyləyib. O, beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq, ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu yeni mərhələdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarəedilməsi sahəsindəki uğurlarını dinləyicilərin diqqətinə çatdırıb. Akademik U.Ələkbərov məruzəsini işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri, müstəqillik dövründə qazanılan siyasi, iqtisadi, hərbi uğurlar, inklüziv inkişafın idarə olunması sahəsində ölkənin əldə etdiyi nailiyyətlər barədə geniş elmi təhlilə əsaslanan məlumatlarla yekunlaşdırıb. Sonra dinləyicilərin sualları cavablandırılıb. Seminarda, həmçinin DİA-nın prorektoru Əbülfəz Talıbov, Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri dosent Elvin Əzizbəyov iştirak ediblər.

### *Dövlət İdarəçilik Akademiyasında elmi konfrans*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında elmi konfrans keçirilib. Tədbirdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov ölkənin son iyirmi ildə bütün sahələrdə böyük uğurlar əldə etdiyini söyləyib. O, ölkənin uğurlu inkişafı sayəsində dövlətçilik ənənələrimizin möhkəmləndiyini, iqtisadi və siyasi gücümüzün artdığını bildirib. Qeyd edilib ki, müstəqil Azərbaycan Respublikası bu gün hər bir soydaşımız üçün əsl qürur mənbəyinə çevrilib. Akademik U.Ələkbərov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, şanlı Ordumuzun gücü ilə Vətən müharibəsi zamanı qazandığımız böyük Qələbədən, ərazi bütövlüyümüzün təmin olunmasından, Xankəndidə və digər işğaldan azad olunmuş şəhər və ərazilərimizdə Azərbaycanın Dövlət Bayrağının qaldırılmasının əhəmiyyətindən söz açıb. Rektor bildirib ki, Qələbəmizin başlıca amili Prezident, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü xalq və güclü ordu strategiyası olub. Diqqətə çatdırılıb ki, son 20 ildə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında bir çox sahələrdə olduğu kimi, elm sahəsində də yüksək uğurlara imza atılıb. Belə ki, 2003-2023-cü illərdə elmin inkişafı dövlət siyasətinin strateji əhəmiyyətli prioritetlərindən birinə çevrilib, dövlət və vətəndaş cəmiyyəti quruculuğunda elmin yeri və rolu müəyyənləşdirilib, elmi fəaliyyətin stimullaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Akademik U.Ələkbərov xatırladıb ki, 2018-ci ildə ölkələrin inkişafını dəyərləndirmək üçün inklüziv inkişaf indeksi təklif edildi. Bu göstərici ölkənin indiki və gələcək nəsillərin hərtərəfli və əhatəli inkişafına nə dərəcədə hazır olduğunu nümayiş etdirir. Prezident İlham Əliyevin ölkədə, ilk növbədə, işğaldan azad edilmiş ərazilərdə davamlı inkişaf edən inklüziv cəmiyyətin formalaşmasını milli prioritet kimi müəyyənləşdirməsi uzaqgörənliyin və pers-




pektivlərin düzgün hədəflənməsinin bariz təzahürüdür. Son 20 ildə Azərbaycan Respublikası inklüziv inkişafın səmərəli idarəedilməsi sahəsində dünya liderinə çevrilib. Dünya Bankı və Davos Dünya İqtisadi Forumunun dərc etdiyi rəsmi hesabatlara əsasən Azərbaycan Respublikasının İnklüziv İnkişaf İndeksi 4,69 bərabərdir və bu göstərici ilə ölkəmiz dünyada 25-ci yerdədir. Nəzərə alınmalıdır ki, iqtisadi imkanlarına görə ölkəmiz dünyada 83-cü yerdədir. Bu o deməkdir ki, ölkəmizdə unikal dövlət idarəçilik texnologiyaları tətbiq edilir. Adətən iqtisadi imkanlarla inklüziv inkişaf sahəsində dünya ölkələrinin reytinqi ya üst-üstə düşür və ya çox yaxın olur. Nisbətən məhdud imkanlarla yüksək nəticənin qazanılması yalnız uğurlu idarəetmənin nəticəsi ola bilər. Azərbaycan Respublikasında Prezident İlham Əliyevin son 20 ildə reallaşdırdığı uğurlu siyasət bu nailiyyətlərin qazanılmasını təmin edib. Konfransda Dövlət İdarəçilik Akademiyasının Dövlət qulluğu və kadr siyasəti kafedrasının müdiri, siyasi elmlər doktoru, Milli Məclisin deputatı, professor Hikmət Babaoğlu, Tarix kafedrasının müdiri dosent Firdovsiyyə Əhmədova, Hüquq kafedrasının müdiri professor İsaxan Vəliyev və digərləri çıxış edərək dövlət müstəqilliyimizin bərpası uğrunda gedən mübarizələrdən, əldə olunan uğurlardan bəhs ediblər. Çıxış edənlər Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsini xalqımızın tarixində böyük hadisə kimi qiymətləndirib, ölkənin əldə etdiyi nailiyyətlər barədə fikirlərini bölüşüblər. Bildirilib ki, müstəqilliyi qoruyub saxlamağın onu qazanmaqdan qat-qat çətin olduğunu tarix dəfələrlə sübut edib. Azərbaycan xalqı bu il əlamətdar günləri öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Vurğulanıb ki, əldə edilən bütün uğurların, bu tarixi hadisənin yaradıcısı, memarı Prezident İlham Əliyevdir. Xankəndidə Azərbaycanın Dövlət Bayrağının ucaldılması ilə xalqımızın və dövlətimizin inkişafında yeni mərhələ başlanır.

## *Dövlət İdarəçilik Akademiyasında Milli Müdafiə Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Milli Müdafiə Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib. Tədbir Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələri haqqında gənclərin məlumatlandırılması olub. Görüşdə DİA-nın professor-müəllim heyəti, tələbələri iştirak ediblər. Tədbir öncə Şəhidlərin xatirəsi yad edilib və Dövlət Himni səslənib. DİA-nın rektoru akademik Urxan Ələkbərov çıxış edərək Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. O, Zəfərin cəmi 44 günə qazanılmasını və Azərbaycanın ərazi bütövlüyünün tam bərpasını dövlətimizin başçısının innovativ inkişaf strategiyasının təntənəli yekunu kimi dəyərləndirib. Akademik U.Ələkbərov çıxışını işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri, müstəqillik dövründə qazanılan siyasi, iqtisadi, hərbi uğurlar, inklüziv inkişafın idarə olunması sahəsində ölkənin əldə etdiyi nailiyyətlər barədə elmi təhlilə əsaslanan məlumatlarla yekunlaşdırıb. Daha sonra Hərbi Elmi Tədqiqat İnstitutunun rektoru, general mayor Arif Həsənov, Vətən müharibəsi qəhrəmanı, polkovnik Nizami Mövlanov, 1-ci dərəcəli kapitan, professor Nurulla Əliyev, Siyasi idarəetmə və politologiya kafedrasının müəllimi, politoloq Zaur Məmmədov, dosent Yusif Ağayev və digərləri çıxış ediblər. Görüşün sonunda dinləyicilərin sualları cavablandırılıb.

## *Dövlət İdarəçilik Akademiyasına qəbul olunan Prezident təqaüdçüləri say nisbəti səmərəliliyinə görə reytinqdə ön sıralardadır*

Prezident İlham Əliyev “2023–2024-cü tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında” Sərəncam imzalayıb. Prezident təqaüdünə layiq görülənlər arasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) da tələbələri var. Prezident təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticə göstərmiş 102 nəfər tələbə Prezident təqaüdünə layiq görülüb. Builki müsabiqənin nəticələrinə əsasən 438 nəfər Dövlət İdarəçilik Akademiyasına qəbul olub. Dövlət İdarəçilik Akademiyasında təhsil alacaq Prezident təqaüdçülərinin say nisbəti səmərəliliyinə nəzər salsaq görərik ki, onlar ölkə üzrə ümumi qəbul olan tələbələrin say nisbəti ilə müqayisədə 0,8 %, Prezident təqaüdünə layiq görülən 102 nəfərin say nisbəti ilə müqayisədə isə 5,9 %-i təşkil edir. Bu statistika əsasən DİA-ya qəbul olunan Prezident təqaüdçülərinin say nisbəti səmərəlilik göstəricisini 6 dəfə üstələyir. Prezident təqaüdünə layiq görülən 102 nəfər tələbənin 6 nəfəri DİA-nın hüquqşünaslıq ixtisasında təhsil alacaqlar.

***DİA-nın nümayəndə heyəti Özbəkistanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin insan resurslarının inkişafına dair görüşdə iştirak edib***

Özbəkistan Respublikasının Səmərqənd şəhərində "Türk Dövlətləri Təşkilatına üzv ölkələrində insan resurslarının İnkişafı" adlı II görüş keçirilib. Özbəkistan Respublikasının Prezidenti yanında Dövlət Qulluğunun İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən görüşdə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstandan insan resurslarının inkişafına məsul qurumların rəhbərləri iştirak ediblər. İlk dəfə 2021-ci ildə Ankarada Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın doqquzuncu iclasında imzalanmış protokol çərçivəsində iki ölkənin dövlət qulluqçularının hazırlanması və inkişafı sahəsində əməkdaşlığına dair qərar qəbul olunub. Protokola əlavə edilmiş Fəaliyyət Planında, həmçinin təhsil və insan resurslarının inkişafı ilə bağlı birgə fəaliyyətin qarşılıqlı münasibətlərə təkan verəcəyi vurğulanıb. Bu çərçivədə Türkiyə Prezidenti Administrasiyası İnsan Resursları Ofisinin rəhbərliyinin dövlət qulluqçularının təlim və inkişafı üçün vasitələrin tanıdılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) ilə birgə fəaliyyəti nəzərdə tutulub. Budəfəki görüşün əsas məqsədi ölkə təcrübələrinin paylaşılması, ikitərəfli görüşlərin keçirilməsi və əməkdaşlığın möhkəmlənməsidir. Görüş çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Müasir dövlət idarəçiliyi çərçivəsində idarəedici kadrların səriştəsinin artırılması ilə bağlı problemlər" adlı paneldə "Dövlət idarəetmə texnologiyalarının səmərəliliyinin artırılması üçün insan potensialının





yaradılması" mövzusunda məruzə ilə çıxış edib. Akademik U.Ələkbərov Azərbaycanın son illərdə iqtisadi, siyasi, humanitar, hərbi inkişafı ilə bağlı geniş məlumat verib. O, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin yaradıcılıqla inkişaf etdirdiyi innovativ dövlət idarəçiliyi strategiyasını xüsusi vurğulayıb. Qeyd edilib ki, Azərbaycanın inklüziv inkişafı indeksinin iqtisadi baxımdan dünyanın inkişaf etmiş ölkələrdəkindən yüksək olması respublikanın iqtisadi potensialının hərtərəfli inkişafı və əhalinin rifahının yüksəldilməsi üçün daha səmərəli istifadəsinin beynəlxalq təsdiqidir. İnklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətləri böyükdür. U.Ələkbərov əldə olunan uğurların 44 günlük Vətən müharibəsi zamanı qazandığımız parlaq Qələbədə böyük payının olduğunu vurğulayıb. Təqdimat zamanı DİA tərəfindən həyata keçirilən beynəlxalq layihələr, sahə üzrə təcrübə, həmçinin gələcəkdə icrası planlaşdırılan işlər barədə ətraflı məlumat verilib. Tədbirdə Türk Dövlətləri Təşkilatına üzv olan dövlətlərin nümayəndələrinin çıxışları dinlənilib, bu ölkələrin təcrübələrinin paylaşılması, gələcəkdə ikitərəfli görüşlərin keçirilməsi və Türkiyənin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatında İnsan Resurslarının İnkişafı İnstitutunun yaradılması ilə bağlı təklif irəli sürülüb. Tədbirdə Dövlət İdarəçilik Akademiyasının Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri dosent Elvin Əzizbəyov da iştirak edib.

***"48-ci İCPC – Universitet Tələbələrinin Beynəlxalq Proqramlaşdırma" müsabiqəsi***

22 oktyabr 2023-cü il tarixində "48-ci İCPC – Universitet Tələbələrinin Beynəlxalq Proqramlaşdırma" müsabiqəsinin 1/8 final mərhələsi (klassifikasiya) keçirilmişdir. Müsabiqədə Azərbaycanın 23 ali təhsil müəssisəsindən 167 komanda (hər komanda üç tələbə və komanda rəhbərindən ibarətdir) iştirak edib. Komandalara 5 saat ərzində 13 alqoritmik məsələni C, C++, Java və ya Python proqramlaşdırma dillərində həll etmək tapşırığı verilib. Qiymətləndirmə avtomatik qiymətləndirmə sistemi ilə aparılıb. Müsabiqə nəticələrinə görə 58 komanda 5 noyabr 2023-cü il tarixində Bakı Mühəndislik Universitetində keçiriləcək "48-ci ICPC – Universitet Tələbələrinin Beynəlxalq Proqramlaşdırma" müsabiqəsinin Azərbaycan üzrə 1/4 final mərhələsinə vəsiqə qazanıb. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını akademiyasının "Elektron İdarəetmə" şöbəsinin müdiri Vüqar Hüseynlinin rəhbərliyi ilə "İnzibati İdarəetmə" fakültəsinin tələbələrindən ibarət 6 komanda təmsil edirdi(APA1, APA2, APA3, APA4, APA5, APA6). Akademiyanın komandaları məsələlərin həllində fəal iştirak etmişlər. APA1 (Əmir Ələkbərli, Səkinə Əlizadə, İlkin Ələkbərli) və APA6 (Cəbrayıl Babayev, Fərid Ələsgərli, Kənan Əliquliyev) komandaları seçildiklərinə görə 1/4 final mərhələsində iştirak hüququ əldə etmişlər.

***Dövlət İdarəçilik Akademiyası və İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti arasında əməkdaşlığa dair memorandum imzalanıb***

Oktyabr ayının 31-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti arasında əməkdaşlığa dair memorandum imzalanıb. Memorandumu Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov və İqtisadiyyat Nazirliyi





yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli imzalayıblar. Memorandum kadr potensialının gücləndirilməsi məqsədilə yüksəkixtisaslı kadrların hazırlanması, dövlət qulluğu sistemində çalışan gənc kadrların ixtisasının artırılması üzrə ixtisasartırma kurslarının təşkili, idarəetmə və iqtisadiyyat sahələri üzrə təhsil alan gənc kadrların könüllülük proqramlarında iştirakı, onların praktik təcrübə əldə etmələrini dəstəkləmək istiqamətində əməkdaşlıq və digər məsələləri əhatə edir. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti və Dövlət İdarəçilik Akademiyası tələbələrin təcrübə proqramlarına cəlb edilməsi, istehsalat və elmi-tədqiqat təcrübələrində, o cümlədən seminar və təlimlərdə iştirakının təmin edilməsi istiqamətində əməkdaşlıq edəcəklər. Eyni zamanda memorandum Dövlət Xidməti və Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlıq və tərəfdaşlıq münasibətlərini təmin etməklə elmi-praktiki məlumatların mübadiləsi və inkişafının, həmçinin dövlət idarəçiliyi, davamlı iqtisadi inkişaf, insan potensialı, antiinhisar, haqsız rəqabət, istehlakçıların hüquqlarının müdafiəsi və qarşılıqlı maraq kəsb edən digər sahələrdə əməkdaşlıq edilməsinə yönəlmişdir. İmzalanma mərasimində çıxış edən rektor Urxan Ələkbərov ümummilli lider Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyasının nailiyyətləri və Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin ölkədə həyata keçirdiyi davamlı inkişafın uğurlu nəticələri, inklüziv cəmiyyətin formalaşması sahəsində görülən işlərin müsbət nəticələrini vurğulayıb. Rektor ölkəmizdə nadir idarəçilik texnologiyalarının tətbiqi, çevik dövlət idarəetmə sisteminin formalaşdırılması, elmə əsaslanan innovativ inkişaf strategiyasının reallaşdırılması, dövlət quruculuğu və dövlət qulluğunun inkişafına diqqət çəkib. U.Ələkbərov vurğulayıb ki, ölkəmizin qısa müddətdə iqtisadi, sosial, siyasi, humanitar və digər sahələrdə qazandığı yüksək nailiyyətlər, XXI əsrin çağırışlarının həllinə yönəlmiş dünya əhəmiyyətli təşəbbüsləri, ildən-ilə artan beynəlxalq nüfuzu Azərbaycanı bir çox istiqamətlərdə regional və qlobal liderə çevirib. Son 44 günlük müharibə və ölkənin zəfəri bunu bir daha nümayiş etdirib. Sonra İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət

Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli çıxış edərək bildirib ki, ölkəmizdə idarəçilik sahəsində peşəkar kadrların yetişdirilməsinə xüsusi diqqət ayıran qabaqcıl aparıcı tədris, metodik, elm və analitik informasiya mərkəzi olan Dövlət İdarəçilik Akademiyası ilə birgə əməkdaşlıq önəmli addımlardan biridir. Anlaşma Memorandumu çərçivəsində təhsilalanları Dövlət Xidmətinin fəaliyyəti barədə məlumatlandırmaq məqsədilə Akademiyada "Karyera günləri"nin keçirilməsi nəzərdə tutulur. Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli bildirib ki, ölkədə gənclər siyasəti istiqamətində bir sıra proqramlar və layihələr həyata keçirilir. Dövlət Xidmətində aparılan gəncləşdirmə siyasətinə toxunan Xidmət rəisi savadlı və potensiallı gənc kadrların işlə təmin olunması və rəhbər vəzifələrdə çalışmaları üçün şəraitin yaradıldığını qeyd edib. Vurğulanıb ki, gənclərin dövlət qurumlarında fəaliyyəti dövlət idarəetməsində innovativ düşüncələrin, müasir yanaşmaların tətbiqinə şərait yaradıb. Anlaşma Memorandumu haqında danışan xidmət rəisi burada əsas məqsəd idarəetmə ixtisası üzrə təhsil alan tələbələrin Agentliyin struktur bölmələrində təcrübə keçmələri, birgə elmi-praktiki araşdırmaların aparılması və sair məsələlər nəzərdə tutur. Tədbirin sonunda Dövlət İdarəçilik Akademiyası ilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti arasında anlaşma memorandumu imzalanıb.

### *DİA-nın rektoru Naxçıvan Muxtar Respublikasının dövlət qulluqçuları üçün təlim keçib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru akademik Urxan Ələkbərov Naxçıvan Muxtar Respublikasının dövlət qulluqçuları üçün təlim keçib. Təlim Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il 5 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamının müvafiq bəndinin icrasını təmin etmək məqsədi daşıyır. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın dövlət qulluğunda bilik, bacarıq və səriştənin inkişaf etdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi bəndinin əsas icraçısı Dövlət İdarəçilik Akademiyasıdır. Təlimdə DİA-nın rektoru akademik Urxan Ələkbərov "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin innovativ idarəçilik texnologiyalarının siyasi, iqtisadi və hərbi uğurları" adlı məruzə ilə çıxış edib. O, Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. U.Ələkbərov Prezident İlham Əliyev tərəfindən işlənərək tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanı davamlı inklüziv inkişaf naminə resurslardan səmərəli istifadə üzrə regional və qlobal liderə çevrilməsinə gətirib çıxardığını xüsusi vurğulayıb. Rektor beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq, ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu yeni mərhələdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarəedilməsi sahəsindəki uğurlarını dinləyicilərin diqqətinə çatdırıb. Akademik U.Ələkbərov işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən quruculuq tədbirlərindən, müstəqillik dövründə qazanılan siyasi, iqtisadi, hərbi uğurlardan, inklüziv inkişafın idarə olunması sahəsində ölkənin əldə etdiyi nailiyyətlərdən bəhs edib.

## *DİA-da 8 Noyabr – Zəfər Gününə həsr olunmuş elmi-praktik konfrans*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) 8 Noyabr – Zəfər Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Şəhidlərin əziz xatirəsi yad edilib. Tədbirdə çıxış edən Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, qəhrəman Ordumuzun gücü, qüdrəti ilə Vətən müharibəsi zamanı Böyük Zəfər qazan-





dığımızı, torpaqlarımızın işğaldan azad olunduğunu bildirib. Vurğulanıb ki, bu Qələbə xalqımızın vətənpərvərliyini, qəhrəmanlığını dünyaya göstərdi. Biz Zəfərimizlə sonsuz qürur duyuruq. Rektor bu il sentyabrın 19-da antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusunun təslim olduğunu, suverenliyimizin tam təmin edildiyini söyləyib. U.Ələkbərov Azərbaycanın iqtisadi, siyasi, hərbi inkişafından danışıb. O, nailiyyətlərin Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin yaradıcılıqla inkişaf etdirdiyi innovativ dövlət idarəçiliyi strategiyasını xüsusi vurğulayıb. Rektor əldə olunan uğurların Vətən müharibəsi zamanı qazandığımız parlaq Qələbədə böyük rolu olduğunu deyib. Milli Məclisin deputatı Məzahir Əfəndiyev, Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının professoru, tarix elmləri doktoru Havva Məmmədova, Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının müdiri hüquq elmləri doktoru, professor Namiq Əliyev, Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Böyük Zəfərin tarixi əhəmiyyətindən bəhs edib, Qələbəmizlə xalqımızın şərəfli tarix yazdığını bildiriblər. Vurğulanıb ki, torpaqlarımızın azad olunması yolunda canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi daim ürəklərdə yaşayacaq. Sonra 8 Noyabr – Zəfər Gününə həsr edilmiş videoçarx nümayiş olunub. Dövlət İdarəçilik Akademiyasının Qarabağ İrsini Araşdırma Mərkəzi Şuşa Dövlət Rəsm Qalereyası ilə birgə “Şuşanın tarixi-mədəni irsi”nə aid rəsm əsərlərinin və “Şuşa Şəhəri Günü”nə həsr edilmiş kitabların sərgisini təşkil edib. Sərgidə nümayiş olunan “Şuşanın məhəllələri və tarixi yerləri”ni əks etdirən rəsm əsərləri Şuşa Dövlət Rəsm Qalereyasının direktoru, şuşalı rəssam Rövşən Bayramova məxsusdur.

### *Naxçıvan Muxtar Respublikasının rəhbər vəzifəli şəxsləri üçün təlim keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) tərəfindən Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının rəhbər vəzifəli olan dövlət qulluqçuları üçün səyyar təlim keçirilib. Təlim Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncamının müvafiq bəndinin icrasını təmin etmək məqsədi daşıyır. Qeyd edilən Dövlət Proqramının dövlət qulluğunda bilik, bacarıq və səriştənin inkişaf etdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi bəndinin əsas icraçısı Dövlət İdarəçilik Akademiyasıdır. Təlimdə DİA-nın rektoru akademik Urxan Ələkbərov “Prezident İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları” mövzusunda interaktiv təqdimatla çıxış edib. Təqdimatda Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkilib. Rektor Urxan Ələkbərov Prezident İlham Əliyev tərəfindən işlənərək tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanın davamlı inklüziv inkişaf naminə resurslardan səmərəli istifadə sahəsində regional və qlobal liderə çevrilməsinə gətirib çıxardığını xüsusi vurğulayıb. Eyni zamanda, Azərbaycanda tətbiq edilən innovativ idarəçilik texnologiyaları kompleksinin yüksək səmərəliliyinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin uğurla yerinə yetirilməsində və Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanmış ərazilərin azad




edilməsində təsdiqini tapdığını bildirib. O, bu Zəfərin cəmi 44 günə qazanılmasını və Azərbaycanın ərazi bütövlüyünün tam bərpasını dövlətimizin başçısının innovativ inkişaf strategiyasının təntənəli yekunu kimi dəyərləndirib. Rektor Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran dünya lideri olduğunu bildirib. Diqqətə çatdırıb ki, məhdud maliyyə imkanları şəraitində Azərbaycanın inklüziv inkişafı indeksinin daha inkişaf etmiş ölkələrdəkindən yüksək olması ölkənin iqtisadi potensialının hərtərəfli inkişafı və əhalinin rifahının yüksəldilməsi üçün daha səmərəli istifadəsinin beynəlxalq təsdiqidir. İnklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri var. U.Ələkbərov qazanılan uğurların 44 günlük Vətən müharibəsindəki parlaq Qələbədə böyük payının olduğunu xüsusi vurğulayıb. Bildirilib ki, ölkənin hazırkı davamlı inkişafı dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində reallaşdırılan ardıcıl islahatlar və dəyişikliklərin nəticəsidir. Akademik qeyd edib ki, 8 noyabr 2020-ci il Azərbaycan tarixinə ən şanlı gün kimi yazıldı. DİA-nın rektoru müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu söyləyərək, inklüziv cəmiyyətin qurulması prosesinin ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasında olduğunu deyib. U.Ələkbərov beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq, ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu yeni mərhələdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarəedilməsi sahəsindəki uğurlarını dinləyicilərin diqqətinə çatdırıb. Akademik U.Ələkbərov işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən quruculuq tədbirlərindən, müstəqillik dövründə qazanılan siyasi, iqtisadi, hərbi uğurlardan, inklüziv inkişafın idarə olunması sahəsində ölkənin əldə etdiyi nailiyyətlərdən bəhs edib. Sonra dinləyicilərin sualları cavablandırılıb.

### *DİA Tələbə Elmi Cəmiyyəti Zəfər Günü münasibətilə konfrans keçirmişdir*

DİA Tələbə Elmi Cəmiyyəti 4 noyabr 2023-cü il tarixində magistrant və tələbələrin geniş iştirakı ilə 8 noyabr – Zəfər Gününə həsr olunmuş "Böyük Zəfərə aparan güclü Azərbaycan dövləti quruculuğu və yeni reallıqlar" mövzusunda elmi konfrans keçirmişdir.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin unudulmaz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır.

Zəfər Gününə həsr olunan film nümayiş etdirilmiş, şeirlər oxunmuşdur.

Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov konfransı açaraq, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında qəhrəman Azərbaycan Ordusunun cəmi 44 gündə işğala son qoyaraq təcavüzkar Ermənistan üzərində əldə etdiyi Böyük Qələbədən, bu möhtəşəm Zəfərin tarixi əhəmiyyətindən geniş söhbət açmışdır. Rektor təməlində Ulu Öndərimiz Heydər Əliyevin gələcəyə hesablanmış güclü dövlət strategiyası durduğu və onun layiqli siyasi varisi Prezident İlham Əliyevin böyük uğurla reallaşdırdığı nəhəng işlərdən ətraflı danışmış, Ermənistanın faşist əməllərinə görə beynəlxalq hüquq çərçivəsində ağır cəza alacağına əminlik bildirmiş, postmüharibə reallıqları və Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi Qarabağın dirçəlişi strategiyasından və Böyük Qayıdışdan geniş bəhs etmiş, Tələbə Elmi Cəmiyyətinin Zəfər Gününə həsr olunmuş konfransının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq, onun işinə uğurlar arzulamışdır.

Sonra DİA Tələbə Elmi Cəmiyyətinin sədri, siyasi elmlər doktoru, prof. əv. Sevil Məmmədova geniş məruzə etmiş, məruzə ətrafında magistrant və tələbələrdən Dilarə Elyazova, Etibar Babayev, Aytac Ağazadə, Cahangir Həsənov, Aysel Abbasova, Nigar İbrahimova, Tural Rəhimzadə, Ayşə Əliyeva, Sahib Əliyev, Elşad Məmmədov, Lalə Qədirova, İlyas Həsənli, Cavidan Səfərov, Murad Məmmədov və b. maraqlı çıxışlar etmiş, geniş fikir mübadiləsi aparmışlar.

### *DİA komandası "48-ci İCPC – Universitet Tələbələrinin Beynəlxalq Proqramlaşdırma" müsabiqəsinin final mərhələsində iştirak etmişlər*

5 noyabr 2023-cü il tarixində "48-ci İCPC – Universitet Tələbələrinin Beynəlxalq Proqramlaşdırma" müsabiqəsinin 1/4 final mərhələsi keçirilmişdir. Müsabiqədə Azərbaycanın 23 ali təhsil müəssisəsindən 58 komanda (hər komanda üç tələbə və komanda rəhbərindən ibarətdir) iştirak edib. Komandalara 5 saat ərzində 13 alqoritmik məsələni C, C++, Java və ya Python proqramlaşdırma dillərində həll etmək tapşırığı verilib. Qiymətləndirmə avtomatik qiymətləndirmə sistemi ilə aparılıb. 1/4 final mərhələsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını akademiyanın "Elektron İdarəetmə" şöbəsinin müdiri Vüqar Hüseynlinin rəhbərliyi ilə "İnzibati İdarəetmə" fakültəsinin tələbələrindən ibarət 2 komanda təmsil edirdi (APA1, APA6). APA1 (Əmir Ələkbərli, Səkinə Əlizadə, İlkin Ələkbərli) komandası müsabiqədə II yer tutaraq Gürcüstanın respublikasının Kutaisi şəhərində keçiriləcək 1/2 final mərhələsində iştirak hüququ əldə etmişdir.

### *Dövlət İdarəçilik Akademiyasının tələbələri 9-cu Bakı Beynəlxalq Kitab Sərgisində iştirak ediblər*

14 noyabr 2023-cü il tarixində Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının I və IV qrup tələbələri və Hüquq kafedrasının müəllimi h.ü.f.d. Cəfərova Reyhan 9-cu Bakı Beynəlxalq Kitab Sərgisində olublar. 9-cu Bakı Beynəlxalq Kitab Sərgisi Azərbaycan Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Sərgidə 11 ölkədən 30-dan çox xarici təşkilat, 109 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisə iştirak edir. Sərgidə Azərbaycanın xalq yazıçıları və şairləri, tanınmış gənc yazarlar və məşhur xarici yazıçılar və aktyorlar iştirak edirlər. Tələbələrin bu sərgidə iştirakının məqsədi Azərbaycan dövlətinin kitab nəşri, kitabın təbliği və yayılması, dərsliklərin, lüğətlərin, tərcümə və elmi ədəbiyyatın işıq üzü görməsinə yönəlmiş qərar və göstərişlərinin mühüm rolunu göstərmək, ölkəmizdə kitab sənayesi sektorunun, ədəbi proseslərin və mütaliə mədəniyyətinin inkişafını dəstəkləməkdir. Həmçinin tələbələr "Vətən savaşı tarixi" kitabının təqdimatında iştirak edib, müəlliflərə sual verib, foto çəkdiriblər.

### *Dövlət İdarəçilik Akademiyasında "Erasmus+mübadilə proqramı" çərçivəsində mühazirə dinlənilmişdir*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında beynəlxalq əlaqələrin səmərəliliyinin artırılması, qarşılıqlı təcrübənin bölüşülməsi məqsədi ilə müxtəlif tədbirlər həyata keçirilir. 13-17 noyabr tarixlərində Dövlət İdarəçilik Akademiyasında Türkiyənin Anadolu Universitetinin dosenti Emrah Ayhanın Dövlət idarəçiliyi ilə əlaqədar müxtəlif mövzularda mühazirəsi dinlənilib.

Erasmus (Erasmus+Mobility Agreement Staff Mobility for Teaching) proqramı çərçivəsində tələbələr üçün nəzərdə tutulan mühazirənin məqsədi dövlət idarəçiliyi sahəsində yeni təcrübələri bölüşmək, dijital idarəetmə üsulları barədə gəncləri məlumatlandırmaq, onları yeni bilik və bacarıqlarla tanış etmək olub. Mühazirənin sonunda Dövlət İdarəçilik Akademiyasının Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri dosent Elvin Əzizbəyov "Erasmus+Mobility Agreement Staff Mobility for Teaching" proqramı çərçivəsində mühazirənin uğurla keçdiyini qeyd etmiş, sonda dosent Emrah Ayhana sertifikat təqdim etmişdir.

### *"Prezident İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycanın siyasi, iqtisadi, hərbi uğurları" mövzusunda təlim*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "ASAN xidmət" mərkəzlərinin əməkdaşları üçün "Prezident İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları" mövzusunda təlim keçirilib.

Təlimdə DİA-nın rektoru akademik Urxan Ələkbərov mövzu üzrə məruzə edib. O, dahi şəxsiyyət Heydər Əliyevin tarixi xidmətlərindən danışıb, 1993-cü ildə Ulu Öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlətçiliyinin böyük təhlükələrdən xilas olduğunu, ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında əsaslı dönüşün yarandığını qeyd edib. Rektor ölkəmizdə qazanılan uğurların dahi rəhbər Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu deyib.

U.Ələkbərov Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. O, Prezident İlham Əliyev tərəfindən hazırlanaraq tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanı davamlı inklüziv inkişafı naminə resurslardan səmərəli istifadə sahəsində regional və qlobal liderə çevirdiyini xüsusi vurğulayıb. U.Ələkbərov bildirib ki, inklüziv inkişaf sahəsində ölkəmizin yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri var. Rektor müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu qeyd edərək, inklüziv cəmiyyətin qurulması prosesinin ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasında olduğunu söyləyib. O, beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu yeni strateji dövrdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi sahəsindəki uğurlarını dinləyicilərin diqqətinə çatdırıb. U.Ələkbərov işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq tədbirlərindən bəhs edib. Xatırladaq ki, Prezident İlham Əliyevin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”lə bağlı 2021-ci il 2 fevral tarixli Sərəncamına əsasən, Dövlət İdarəçilik Akademiyası Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əməkdaşlıq memorandumu çərçivəsində fəaliyyətini davam etdirir. Bununla əlaqədar Dövlət İdarəçilik Akademiyasında təsdiq edilən tədbirlər planına uyğun olaraq dövlət qulluqçuları üçün xüsusi təlimlər keçirilir.

## *Dövlət İdarəçilik Akademiyası ECAR Erasmus+layihəsinə tərəfdaş seçilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası səsvermə yolu ilə Avropa Komissiyası tərəfindən maliyyələşdirilən ECAR (Establishment of Rectors Conference in Azerbaijan / Azərbaycanda Rektorlar Konfransının Yaradılması) layihəsinə assosiativ tərəfdaş seçilib.

Bakı Biznes Universitetinin koordinatorluğu və Avropa Komissiyasının maliyyə dəstəyi ilə həyata keçirilən “Azərbaycanda Rektorlar Konfransının yaradılması” (ECAR) adlı Erasmus+ layihəsi aparıcı Avropa universitetləri ilə əməkdaşlıq çərçivəsində onların təcrübələrini öyrənmək, bu təcrübəni Azərbaycan ali təhsil sferasında tətbiq etməklə Avropa Ali Təhsil Məkanının (EHEA) və Boloniya Prosesinin prinsip və tələblərinə uyğun olaraq keyfiyyətin yüksəldilməsinə, rəqabət qabiliyyətinin artırılmasına və qlobal inteqrasiyasına nail olmaq məqsədi daşıyır.

Layihənin əsas komponentlərindən biri universitetlərarası əməkdaşlıq və ali təhsil sahəsində milli şəbəkələşməni gücləndirmək olduğundan Dövlət İdarəçilik Akademiyası da bu layihəyə assosiativ tərəfdaşlıq üçün müraciət etmiş və 21 noyabr 2023-cü il tarixində layihə tərəfdaşlarının səsverməsi əsasında Avropa Komissiyası tərəfindən Akademiyanın ECAR layihəsinə assosiativ tərəfdaşlığı təsdiq olunmuşdur.

## *DİA Ankara Sosial Elmlər Universiteti ilə əməkdaşlığa dair memorandum imzalayıb*

Ankara Sosial Elmlər Universitetinin rektoru professor Musa Kazım Arıcan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) olub.



Görüşdə çıxış edən DİA-nın rektoru akademik Urxan Ələkbərov Azərbaycanda qazanılan uğurların təməlində əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin inkişaf etdirdiyi innovativ dövlət idarəçiliyi strategiyasının olduğunu xüsusi vurğulayıb. Akademik bildirib ki, Azərbaycanın hazırkı davamlı inkişafı dövlət idarəçiliyi sahəsində reallaşdırılan ardıcıl uğurlu islahatların nəticəsidir. Professor Musa Kazım Arıcan DİA ilə əməkdaşlığın əhəmiyyətindən danışıb. Rektor rəhbərlik etdiyi universitet haqqında geniş məlumat verərək qeyd edib ki, Ankara Sosial Elmlər Universiteti qısa zamanda dünyanın böyük ali təhsil müəssisələri arasında müasir, dinamik və yenilikçi bir ali məktəb olaraq yerini alıb.

Sonra Dövlət İdarəçilik Akademiyası ilə Ankara Sosial Elmlər Universiteti arasında əməkdaşlığa dair memorandum imzalanıb. Qeyd edək ki, “Heydər Əliyev İli” çərçivəsində Dövlət İdarəçilik Akademiyasının tədbirlər planına uyğun olaraq bu ilin oktyabrında Türkiyəyə səfəri zamanı akademik Urxan Ələkbərov Ankara Sosial Elmlər Universitetinin professor-müəllim və tələbə heyəti üçün təlim keçib. Rektor təlimdə “Davamlı inkişaf məqsədlərinə çatmaq və inklüziv cəmiyyətin formalaşması üçün yeni idarəçilik texnolo-



giyaları – Azərbaycan təcrübəsində” mövzusunda interaktiv təqdimatla çıxış edib. Eyni zamanda, Dövlət İdarəçilik Akademiyası ilə Ankara Sosial Elmlər Universiteti arasında əməkdaşlıq sahələri təhlil edilib, dövlət qulluqçularının təlim və inkişafı üçün vasitələrin mübadiləsinə yönələn fəaliyyət və distant təhsilin gələcəkdə genişlənməsinin aktuallığı barədə fikir mübadiləsi aparılıb.

***Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin tələbəsi internet olimpiadasının qalibi olmuşdur***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin tələbəsi internet olimpiadasının qalibi olmuşdur. MDB Parlamentlərarası Assambleyasının iştirakçısı olan dövlətlərdə Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşlarının seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun (MDB PA DİMBİ) təşkilatçılığı ilə “Dünya ölkələrinin seçki sistemləri” IV Beynəlxalq tələbə internet-olimpiadası keçirilmişdir. Akademiyanın Siyasi idarəetmə fakültəsinin Politologiya ixtisasının II kurs tələbəsi Qasımzadə Hüseyn Fuad oğlu 1-ci yer tutaraq internet-olimpiadanın qalibi olmuşdur. Qeyd edək ki, Akademiyanın 25 tələbəsi internet olimpiadada iştirak etmişdir. Həmin tələbələrdən 5-i ilk 10-luğa daxil olaraq diplom və hədiyyələrlə təltif edilmişdir. Müvafiq olaraq, Politologiya ixtisasının III kurs tələbəsi Əlişeva Cəmilə İlham qızı 3-cü yer, İctimai siyasət ixtisaslaşmasının I kurs tələbəsi Məmmədzadə Vüsal Hikmət oğlu 4-cü yer, Politologiya ixtisasının II kurs tələbəsi Ədilova Zəhra Qədir qızı 5-ci yer və Politologiya ixtisasının II kurs tələbəsi Tağıyev İlkab Sərdar oğlu 8-ci yer tutmuşdur.

## *Dövlət İdarəçilik Akademiyasının müəllimləri üçün təlim keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Dillər kafedrası"nın müəllimləri üçün təlim keçirilib. Təlim Kanadanin Kalqari şəhərində yerləşən Kolumbiya Kollecinin baş müəllimləri Simon Best və Fəridə Ağammədova tərəfindən təqdim edilib. Təlimin məqsədi ingilis dilinin tədrisi üzrə materiallarının hazırlanması istiqamətində süni intellektin imkanlarından istifadəyə həsr olunub. Təlim iştirakçıları süni intellektin ingilis dilinin tədrisində müsbət və mənfi tərəflərini müzakirə edib, nəticələrin effektivliyi üçün metodologiyanı öyrəniblər. Eyni zamanda təlimdə iştirakçılar əsas mülahizələri nəzərə alaraq, xarici dil təhsilini təkmilləşdirmək üçün süni intellektdən istifadə etməklə bağlı praktiki anlayışların önəmi haqqında geniş məlumat əldə ediblər. Təlimin sonunda Kolumbiya Kollecinin müəllimləri tərəfindən iştirakçıların sualları cavablandırılıb.

## *Ulu Öndər Heydər Əliyevin yubiley tədbirləri çərçivəsində Dövlət İdarəçilik Akademiyasının tələbələri Milli Məclisdə olublar*

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlər çərçivəsində Dövlət İdarəçilik Akademiyasının bir qrup tələbəsi dekabrın 20-də Milli Məclisdə olub.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbələri əvvəlcə müstəqil Azərbaycanın memarı Ulu Öndər Heydər Əliyevin adını daşıyan xatirə zalını ziyarət ediblər. Onlar burada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlarla tanış olublar.

Parlamentin plenar iclas zalı ilə tanışlıq zamanı Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov tələbələrə plenar iclas zalında yaradılmış iş şəraiti, Milli Məclisin fəaliyyəti, qanunvericilik prosesinin həyata keçirilməsi prosedurları haqqında məlumat verib.

Ziyafət Əsgərov tələbələrə Heydər Əliyevin Azərbaycan parlamentinə rəhbərlik etdiyi dövr haqqında danışıb. Diqqətə çatdırıb ki, həmin dövrdə Azərbaycanın müasir parlamentarizm ənənələrinin formalaşması, dövlətçiliyin, ordu quruculuğunun möhkəmləndirilməsi, xarici siyasət konsepsiyasının hazırlanması kimi istiqamətlərdə mühüm addımlar atılıb.

Sonra tələbələr Milli Məclisin foyesində yaradılmış və Vətən müharibəsində qazanılmış qələbəyə həsr olunmuş Zəfər Guşəsi ilə tanış olublar. Parlamentlə tanışlıq zamanı ziyarətçilərə bildirilib ki, VI çağırış Milli Məclis formalaşdıqdan sonra spiker Sahibə Qafarova Parlamentin İnzibati binasında mövcud olan görüş otaqlarının və iclas salonlarının adlandırılması haqqında sərəncam imzalayıb. Qonaqlara iclas salonları barədə məlumat verilib.

Ekskursiyanın yekununda Dövlət İdarəçilik Akademiyasının sosial məsələlər, təşkilati işlər və təlim-tərbiyə üzrə müşaviri Zaur Məmmədov Milli Məclislə tanışlıq üçün yaradılan imkana və şəraitə görə parlamentin spikeri Sahibə Qafarovaya təşəkkür edib.

Sonda tələbələr Milli Məclisin İnzibati binasının foyesində Ulu Öndər Heydər Əliyevin abidəsi qarşısında xatirə şəkli çəkdiriblər.

***Dövlət İdarəçilik Akademiyasının tələbələri intellektual yarışda iştirak ediblər***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası tələbələri intellektual müsabiqədə ikinci yer tutaraq növbəti mərhələyə keçiblər Dekabrın 9-da Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının (ARVK) təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə və Prezident İlham Əliyevin doğum gününə həsr edilən tələbələr arasında "Dəmir yumruq" hüquq sahəsində intellektual müsabiqənin ilk mərhələsi keçirilib. Üç mərhələdən ibarət müsabiqədə Elm və Təhsil Nazirliyinin hüquqşünas ixtisasının SABAH qrupları, Bakı Dövlət Universiteti (BDU), DİA – Prezident yanında Dövlət İdarəçilik Akademiyası, Milli Aviasiya Akademiyası, ADA University, Polis Akademiyası, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası, Dövlət Gömrük Komitəsinin Akademiyası və Naxçıvan Dövlət Universiteti – NDU-nun Hüquq fakültələrinin tələbələrinin komandası yarışıb. Müsabiqədə DİA-nı Siyasi idarəetmə fakültəsinin Hüquqşünaslıq ixtisasının III kurs tələbələri Ağarzayeva Tamara Mehran qızı, Hüseynli Anar Azər oğlu, İbrahimli Leyla Zaur qızı, Nadirova Ləman Azad qızı və Paşayeva Fidan Mütalib qızı təmsil edib. Dövlət İdarəçilik Akademiyasının komandası 41 bal ilə 9 komanda arasında ikinci yerdə qərarlaşaraq növbəti mərhələyə keçib. Müsabiqənin ikinci mərhələsi dekabrın 16-da, final yarışı isə dekabrın 23-də təşkil ediləcək.

***DİA əməkdaşı Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti tərəfindən təşkil olunan təlimdə iştirak edib***

Dövlət İdarəçilik Akademiyasının Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Elvin Əzizbəyov 11-16 dekabr 2023-cü il tarixlərində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) tərəfindən Şərq Tərəfdaşlığı Ölkələrində Elektron İdarəetmə və Rəqəmsallaşma layihəsi çərçivəsində təşkil olunan Açıq verilənlər (Open data) mövzusunda beynəlxalq təlimdə (Study visit) iştirak edib. Estoniyanın Respublikasının Tallin və Finlandiya Respublikasının Helsinki şəhərlərində Azərbaycan və Şərq Tərəfdaşlığı



Proqramına üzv dövlətlərin müvafiq qurumlarının nümayəndələrinin iştirakı ilə keçirilən təlimdə rəqəmsal cəmiyyətin təşviq olunması, kibertəhlükəsizlik və kibergigiyena məsələləri, açıq verilənlərin toplanması, emalı, akkumlyasiyası və qorunması, açıq verilənlərin dövlət idarəçiliyində və özəl sektorda istifadəsi məsələləri ilə bağlı təcrübə mübadiləsi aparılıb.

Təlim zamanı Estoniyanın və Finlandiyanın müxtəlif əlaqəli nazirlikləri, universitetləri, Data mərkəzləri, müvafiq dövlət xidmətləri, e-hökumət agentlikləri, milli kibertəhlükəsizlik mərkəzlərində görüşlər təşkil olunub və bu ölkələrin elektron hökumət təcrübələri öyrənilib.

### *Ümummilli Lider Heydər Əliyevin anım günü*



Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar DİA-nın kollektivi Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib, önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla anıb.

## *Dövlət İdarəçilik Akademiyasında "Türk Cəza Qanunu" kitabının təqdimatı olub*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Azərbaycan dilinə tərcümə edilmiş "Türk Cəza Qanunu" kitabının təqdimat mərasimi keçirilib. Tədbirdə DİA-nın rektoru akademik Urxan Ələkbərov Azərbaycan Prezidenti İlham Əliyevin elmin, təhsilin inkişafına daim xüsusi önəm verdiyini vurğulayıb. U.Ələkbərov təqdim olunan kitabla bağlı fikirlərini bildirib, onun dəyərli bir nəşr olduğunu deyib. İstanbul Universiteti Hüquq fakültəsinin professoru Fethi Gedikli "Türk Cəza Qanunu"nun Azərbaycan dilinə çevrilməsi hüquq cəmiyyəti arasında qarşılıqlı əlaqənin yaranmasının əsası kimi" mövzusunda məruzə edib. DİA-nın Hüquq kafedrasının müdiri professor İsaxan Vəliyev "Türk Cəza Qanunu"nun Azərbaycan dilinə çevrilməsinin əhəmiyyətindən, türk cəza qanunlarından danışıb. Qeyd olunub ki, hüququn müxtəlif sahələri üzrə təhlillər aparılan zaman "Türk Cəza Qanunu" kitabından istifadə edilə bilər. Nəşr hüquq ixtisası üzrə təhsil alan tələbələr, müəllimlər, hüquqşünaslar, müxtəlif ölkələrin qanunvericiliyinin müqayisəli təhlilini aparan tədqiqatçılar daxil olmaqla geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Yunus Əmrə İnstitutunun rektoru Selçuk Karakılıç, Hüquq və İnsan Haqları İnstitutunun İdarə Heyətinin sədri Məhəmməd Quluzadə, Vəkillər Kollegiyası Akademiyasının rəhbəri professor Əmir Əliyev, Elm-Tədris Mərkəzinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri Mübariz Əhmədov, Türkiyənin Azərbaycandakı səfirinin müşaviri Muhittin Macit, DİA-nın Hüquq kafedrasının müəllimi Seyfulla Aslanov, dosent Samirə Babayeva və digər çıxış edənlər də Azərbaycan və Türkiyə arasında elm və təhsil əlaqələrindən bəhs edib, təqdim edilən kitabın əhəmiyyətini vurğulayıblar.



### *“Heydər Əliyev Azərbaycanda gənclər siyasətinin banisidir” mövzusunda elmi-praktik konfrans keçirilib*

“Heydər Əliyev İli” çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Azərbaycan Gənclər Fondunun birgə təşkilatçılığı ilə Ümummilli






Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev Azərbaycanda gənclər siyasətinin banisidir” mövzusunda elmi-praktik konfrans keçirilib.

Konfransda çıxış edən Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov müstəqil dövlətimizin qurucusu Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərini xatırladıb. Rektor nitqində Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. O, Prezident İlham Əliyev tərəfindən işlənərək tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanı davamlı inklüziv inkişaf naminə resurslardan səmərəli istifadə üzrə regional və qlobal liderə çevrilməsinə gətirib çıxardığını xüsusi vurğulayıb. Eyni zamanda, Azərbaycanda tətbiq edilən innovativ idarəçilik texnologiyaları kompleksinin yüksək səmərəliliyinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin uğurla yerinə yetirilməsində və Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan ərazilərin azad edilməsində təsdiqini tapdığını bildirib.

Akademik Azərbaycanın ərazi bütövlüyünün tam bərpasını dövlətimizin başçısının innovativ inkişaf strategiyasının təntənəli yekunu kimi dəyərləndirib. O, beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq, ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu yeni mərhələdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarə-edilməsi sahəsindəki uğurlarını dinləyicilərin diqqətinə çatdırıb. U.Ələkbərov məruzəsini işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri, müstəqillik dövründə qazanılan siyasi, iqtisadi, hərbi uğurlar, inklüziv inkişafın idarə olunması sahəsində ölkənin əldə etdiyi nailiyyətlər barədə geniş elmi təhlilə əsaslanan məlumatlar verib, qazanılan uğurların davam etdirilməsində gənclərin fəaliyyətini önəmsəyib və onların intellektual imkanlarını yüksək qiymətləndirib.

Elmi praktik konfransın açılışında gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Milli Məclisin deputatı, Siyasi araşdırmalar institutunun direktoru, professor, Elman Nəsirov, Milli Məclisin deputatı, Dövlət qulluğu və kadr siyasəti kafedrasının dosenti Aydın Mirzəzadə, Hüquq kafedrasının müdiri, professor İsaxan Vəliyev və digərləri çıxış ediblər.

Çıxışlarda ölkəmizdə dövlət gənclər siyasətinin əsasını qoyan Ümummilli Lider Heydər Əliyevin Azərbaycan gənclərinə hər zaman xüsusi qayğı ilə yanaşdığını onlara böyük etimad göstərdiyini vurğulayıblar. Natiqlər qeyd ediblər ki, bu gün gənclərimizin ölkənin siyasi, sosial-iqtisadi sahələrində mühüm vəzifələrə təyin olunması, onlara böyük ümidlər bəslənilməsi Ulu Öndər tərəfindən təməli qoyulan gənclər siyasətinin davamıdır.

Daha sonra elmi-praktik konfrans bölmə iclaslarında öz işini davam etdirib.

## *Dövlət İdarəçilik Akademiyasının rektoru İkinci İstanbul İnsan Resursları Forumunda iştirak edib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov və Tədris-metodiki və analitika şöbənin müdiri professor Ziyafət Həbibova Türkiyə Respublikası Prezidentinin Administrasiyasının İnsan Resursları İdarəsi tərəfindən keçirilən II İstanbul İnsan Resursları Forumunda iştirak ediblər. Forum çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərin nümayəndələrinin iştirakı ilə keçirilən seminarlarda birgə təlim və inkişaf fəaliyyəti istiqamətlərində fikir mübadiləsi aparılıb. Hər bir üzv qurum Türk Dövlətləri Təşkilatının 2024-cü il planları və insan resursları sahəsində əməkdaşlığa dair yol xəritəsi ilə bağlı öz fikir və təkliflərini bildirib. Növbəti gün "Cəmiyyət 5.0" (İnsan Mərkəzli Cəmiyyət) mövzusunda keçirilən Forum Türkiyənin vitse-prezidenti Cevdet Yılmazın açılış nitqi ilə başlayıb. Tədbirdə dövlət qurumları, özəl sektor təşkilatları, yerli hökumətlər və akademik ictimaiyyətdən insan resursları üzrə mütəxəssislərlə yanaşı, beynəlxalq təşkilatların nümayəndələri də iştirak ediblər. Məlumat üçün qeyd edək ki, 10 oktyabr 2023-cü il tarixində Türkiyə Respublikası Prezident Administrasiyası yanında İnsan Resursları Ofisi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlığa dair protokol imzalanıb. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın doqquzuncu iclasında imzalanmış protokol çərçivəsində iki ölkənin dövlət qulluqçularının hazırlanması və inkişafı sahəsində əməkdaşlığına dair qərar qəbul olunub. Protokola əlavə edilmiş Fəaliyyət Planında, həmçinin təhsil və insan resurslarının inkişafı ilə bağlı birgə fəaliyyətin qarşılıqlı münasibətlərə təkan verəcəyi vurğulanıb. Qeyd edilib ki, bu tədbirin əsas məqsədi insan resursları sahəsində müxtəlif ölkələrin təcrübələrini öyrənmək, insan resurslarının idarə olunması ilə bağlı gələcək perspektivləri müəyyən etmək, bu sahədə strategiyalar hazırlamaq üçün müxtəlif qurum və təşkilatların nümayəndələrini bir araya gətirmək və bu sahədə maarifləndirməni gücləndirməkdir.



### *Dövlət İdarəçilik Akademiyasında bayram tədbiri keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl münasibəti ilə bayram tədbiri keçirilib. DİA-nın rektoru, akademik Urxan Ələkbərov kollektivi təbrik edib, xoş arzularını bildirib. O, Ümummilli lider, dünya şöhrətli siyasi və dövlət xadimi Heydər Əliyevin dəyərlərimizin qorunub saxlanmasında misilsiz tarixi xidmətlərini qeyd edib, onun ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini vurğulayıb.

## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**...........7

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**..............................15

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**........................................33

Gürcüstan Respublikasına işgüzar səfər ..........................................................................33

Qırğızıstan Respublikasına işgüzar səfər...........................................................................35

Xankəndi şəhərinə, Tərtər, Şuşa, Xocalı, Xocavənd, Ağdam və Füzuli rayonlarına səfər..37

Sumqayıt şəhərinə səfər......................................................................................................48

Qazaxıstan Respublikasına səfər ........................................................................................50

Xankəndi şəhərinə, Kəlbəcər, Şuşa və Füzuli rayonlarına səfər.........................................53

Özbəkistan Respublikasına işgüzar səfər ...........................................................................59

İsmayıllı rayonuna səfər ......................................................................................................63

Birləşmiş Ərəb Əmirliklərinə səfər .....................................................................................64

Serbiya Respublikasına səfər................................................................................................65

Xankəndi şəhərinə, Xocavənd, Şuşa və Xocalı rayonlarına səfər ......................................69

Ağdam rayonuna səfər..........................................................................................................73

Rusiya Federasiyasına işgüzar səfər .....................................................................................76

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri** ......................................................................................................77

74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində İlham Əliyevin nitqi ..........................................................................................77

İlham Əliyevin 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində nitqi ......................................................................79

Azərbaycan və İraq prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər ......................81

BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın Zirvə görüşündə İlham Əliyevin nitqi ............................................. 83

İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib........................................ 85

COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar İlham Əliyevin nitqi ...........89

**TARİX**

**Hadi Rəcəbli.** Azərbaycanda repatriasiya prosesinin effektiv reallaşmasının əsasları ...............91
DOI 10.30546/2309-1347.84.2023.91

**Agalar Abbasbeyli, Ismayil Aliyev.** The Role of the National Leader
of the Azerbaijani People Heydar Aliyev in the Formation of the Azerbaijani Diaspora ..........101
DOI 10.30546/2309-1347.84.2023.101

**Nailə Hüseynova.** Bakı neft sənayesinin problemləri "Azərbaycan" qəzeti səhifələrində
(1918-1920-ci illər) ......................................................................................................111
DOI 10.30546/2309-1347.84.2023.111

**KULTUROLOGİYA**

**Фуад Мамедов.** Культурологическое образование и устойчивое развитие человека,
общества и государства ..............................................................................................121
DOI 10.30546/2309-1347.84.2023.121

**SİYASİ NƏZƏRİYYƏ**

**Sevda Əliyeva (Əhədova).** Azərbaycan Respublikasında sosial-humanitar sahələrin
inkişafının gender aspektləri ........................................................................................133
DOI 10.30546/2309-1347.84.2023.133

**Yusif Ağayev.** Azərbaycan Respublikasında mədəniyyətlərarası dialoq və
tolerantlıq mühitinin formalaşmasını şərtləndirən amillər: nəzəri-konseptual yanaşma ...........145
DOI 10.30546/2309-1347.84.2023.145

**HÜQUQ**

**Samirə Babayeva.** Cinayət qanununun təkmilləşdirilməsinin aktual məsələləri .....................153
DOI 10.30546/2309-1347.84.2023.153

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**

**Fuad Hümbətov.** Ekoloji və siyasi təhlükəsizlik risklərinin korrelyasiyası və
onların qarşısının alınmasında beynəlxalq əməkdaşlığın rolu ...............................................161
DOI 10.30546/2309-1347.84.2023.161

**Ülfət Mehdiyev.** 2030-cu ilə qədər milli sosial-iqtisadi prioritetlər kontekstində təhsil
sahəsində dövlət siyasətinin istiqamətləri .......................................................................187
DOI 10.30546/2309-1347.84.2023.187

**SİYASİ MƏDƏNİYYƏT**

**Тамилла Гусейнова.** Роль общенационального лидера Гейдара Алиева
в формировании поликультурного общества в Азербайджанской Республике .................197
DOI 10.30546/2309-1347.84.2023.197

**ELEKTRON DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR**

**Elvin Əzizbəyov, Elvin Məmmədov.** Azərbaycan Respublikasında yerüstü nəqliyyat infrastrukturunun inkişaf perspektivləri ....................205
DOI 10.30546/2309-1347.84.2023.205

**Atiq Əliyev, Kəmalə Əzizova.** Sərhədçi şəbəkəsinin məlumat dəstəyindən müstəqil sərhəd naryadı trayektoriyasına əsaslanan naviqasiya ....................215
DOI 10.30546/2309-1347.84.2023.215

**G Ə N C T Ə D Q İ Q A T Ç I L A R**

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ**

**Günel Əfəndiyeva.** Post Brexit dövründə Transatlantik münasibətlər ....................227
DOI 10.30546/2309-1347.84.2023.227

**Aynur Kərimova.** Azərbaycanın İsraillə strateji əlaqələrinin qurulmasında Heydər Əliyevin rolu ....................239
DOI 10.30546/2309-1347.84.2023.239

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Səbinə Mustafayeva.** Heydər Əliyev və Azərbaycanda insan hüquqlarının inkişafı ....................249
DOI 10.30546/2309-1347.84.2023.249

**Fuad Şammadov.** Azərbaycanda ordu quruculuğu prosesinin inkişaf dinamikası ....................261
DOI 10.30546/2309-1347.84.2023.261

**FƏLSƏFƏ**

**Fazilə Əliyeva.** Müasir fəlsəfədə "ontoloji dönüş" və "yeni ontologiya"nın əsas prinsipləri ..271
DOI 10.30546/2309-1347.84.2023.271

**SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR**

**Emin Həsənli.** Azərbaycanın güclü və ədalətli idarəetmə siyasəti və onun nəticələri....................283
DOI 10.30546/2309-1347.84.2023.283

**Nigar Adilova.** İnformasiya-kommunikasiya texnologiyaları və siyasi mədəniyyətin yenilənməsi: nəzəri yanaşmaların təhlili....................291
DOI 10.30546/2309-1347.84.2023.291

**Dövlət İdarəçilik Akademiyasında** ....................301

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal «Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author’s (s’) academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

**Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»**

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом – 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2023, №4(84)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və baş müəllim *F.Şammadov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *filologiya üzrə fəlsəfə foktoru,*
*dosent Ülkər Şəfiyeva* tərəfindən redaktə edilmişdir.

Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*

*Elmi jurnalın Rəqəmsal Obyekt İdentifikatorları (DOI)*
*"Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi " İB-yi tərəfindən təmin edilir.*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**«Aspoliqraf LTD» MMC-nin**
mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Sifariş 65. Tiraj 500.

# Journal of Public Administration:
## Theory and Practice

***Scientific and theoretical journal***

**2023, №4(84)**

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, Associate professor*
and *F.Shammadov,* senior lecturer, all from Academy of Public Administration.

The summaries of the articles were edited by *Ulker Shafiyeva, Ph.D., Associate professor*

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*

*The Digital Object Identifiers (DOIs) of the scientific journal are provided*
*by the " Center for Global Cooperation and Analytical Research"*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed from ready made diapositives at the printing house of the
**«Aspoliqraf LTD»**
Order 65. Number of copies printed 500.